# ALLAHIN VARLIĞININ 12 DƏLİLİ

CANER TASLAMAN

Bu kitab Elşad MİRİnin rəhbərlik etdiyi
"www.din.az" saytının "Uydurulan dindən
Endirilən dinə" layihəsi çərçivəsində ilk nəşridir

| | |
|---|---|
| *Tərcümə edən:* | Elşad MİRİ / elshad@miri.az |
| *Redaktor:* | Cəlil CAVANŞİR |
| *Korrektor:* | Sərdar AMİN |
| *Bədii və texniki tərtibat:* | Şəlalə ARİFQIZI |
| *Dizayner:* | Emil CAMALOV |
| *Üz Qabığı:* | Düşün nəşriyyatı |

Kitabın səsli versiyasını **www.din.az** və **www.islamnedir.az**
saytlarından dinləyə və yükləyə bilərsiniz...

*Kitabı səsləndirən:* Azərbaycanın xalq artisti diktor **Eldost Bayram**
*Ayələri səsləndirən:* Azərbaycanın əməkdar artisti **Sabir Məmmədov**

Kitab Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin 00.00.2016 tarixli
DK-000/0 qərarı ilə nəşrinə razılıq verilmişdir.

**www.din.az**
**www.islamnedir.az**

# İÇİNDƏKİLƏR

ÖN SÖZ ........................................................................................................ 5
GİRİŞ ........................................................................................................ 7

**BİRİNCİ HİSSƏ**
**KAİNAT DƏLİLLƏRİ**

1. KƏLAMIN KOSMOLOJİ DƏLİLİ ............................................................ 21
2. QANUNLARIN MÖVCUDLUĞU DƏLİLİ ................................................. 35
3. KAİNATDAKI KƏŞFEDİLƏBİLƏRLİLİK DƏLİLİ ....................................... 45
4. KAİNATIN POTENSİALI DƏLİLİ ........................................................... 59
5. QANUNLARIN VƏ SABİTLƏRİN
HƏSSAS NİZAMI DƏLİLİ ......................................................................... 71
6. FİZİKİ FAKTLARIN HƏSSAS NİZAMI DƏLİLİ ........................................ 83
7. CANLILARIN ŞƏKİLLƏNDİRİLMƏSİ DƏLİLİ ......................................... 93

**İKİNCİ HİSSƏ**
**FİTRƏT DƏLİLLƏRİ**

8. TƏBİİ İSTƏKLƏR DƏLİLİ ................................................................... 117
9. FİTRİ ƏXLAQ DƏLİLİ ........................................................................ 133
10. AĞIL DƏLİLİ .................................................................................. 149
11. İRADƏ DƏLİLİ ................................................................................ 163
12. ŞÜUR VƏ MƏNLİK DƏLİLİ ................................................................ 183

SON SÖZ .............................................................................................. 209
BİBLİOQRAFİYA .................................................................................... 215

# ÖN SÖZ

Ateist və ya teist ekzistensialistlərdən, Yumdan, Kantdan, marksizm fəlsəfəsindən, pozitivizmdən, postmodern yanaşmalardan, ağlın rolunu kiçildən dini cərəyanlardan yola çıxaraq Allahın varlığı üçün təqdim edilən dəlillərin artıq tarixin tozlu rəflərində yer alması və dəbdən düşməsi kimi sadəlövh, hətta daha pisi, savadsızcasına yanaşmalar olduğu, lakin əsaslı bir təmələ dayanmadığı qənaətindəyəm. Burada təqdim edilən 12 dəlillə də nə üçün belə düşündüyümü arqumentlər vasitəsilə sizə çatdırıram. Buradakı dəlillərin bir çoxunun daha geniş versiyalarını başqa araşdırmalarımda tapa bilərsiniz.

Allahın mövcud olub-olmadığı məsələsində gələcəyimiz qənaət özümüzə, yaxınlarımıza, dünyamıza və bütün varlığa baxışımızı alt-üst edəcək əhəmiyyətə malikdir. Mövcudluqla bağlı “Haradan gəlirəm? Nə üçün buradayam? Mən kiməm? Öldükdən sonra mənə və yaxınlarıma nə olacaq?” kimi çox mühüm sualların cavabı bu məsələ ilə əlaqəlidir. Allahın varlığı, bütün varlığın və insanın şüurlu şəkildə yaradıldığı, mövcud olmağımızın müəyyən məna və məqsədinin olması Allah istədiyi təqdirdə, ölümdən sonra da həyatın olacağı mənasına gəlir. Belə ki, bu kitabda hər insan baxımından bu qədər kritik olan mövcudluq məsələlərinin əsasında Allahın varlığının dayan-

masına toxunulması, kitab oxunarkən heç zaman unudulmayacaq cəhətdir.

Bu kitabı sizin kimi dəyərli oxuculara təqdim etməzdən əvvəl oxuyub fikir bildirən Enis Dokoya, Alper Bilgiliyə, Fatih Fidana, Fulya Özcanlıya, Selen Fəttahoğluna, İstanbul Nəşriyyatından Turhan Taşkırana və Cem Akyıldıza minnətdarlığımı bildirirəm.

Bu kitabı oxuyan siz dəyərli oxucularıma da diqqətinizə görə təşəkkür edirəm. Şərh, tənqid, fikir və tövsiyələrinizi **www.canertaslaman.com** saytı vasitəsilə bildirməyinizi xahiş edirəm.

Bundan başqa, bu internet saytı vasitəsilə digər araşdırmalarıma da baxa biləcəyinizi xatırlatmaq istəyirəm.

# GİRİŞ

Allahın varlığının dəlillərinin olub-olmadığı, olduğu təqdirdə bunların hansılar olduğu dinlər tarixi və fəlsəfə tarixi qədər qədim mübahisədir. Kitabda həm dinlər, həm fəlsəfə, həm də mövcudluq baxımından çox mühüm olan bu mövzuya toxunulur, bu zaman müasir elmin bu mövzuda hansı rolunun olduğunun qeyd edilməsinə xüsusi əhəmiyyət verilir. Bu kitab İslam inancı daxilində və ya İslam inancı xaricində olub Allah inancına malik olan və bu inancın rasional dəlillərinin olub-olmadığı ilə maraqlananlara olduğu qədər ateistlər və aqnostiklərə də yönəlik hazırlanmışdır.

Bəzi insanlar İslam düşüncəsi daxilində belə bir dəlilgətirmə təşəbbüsü və ağıllı davranmaqla maraqlandıqlarına görə bununla bağlı bəzi cəhətlərə diqqəti cəlb etmək istəyirəm. İslam düşüncəsində bir çox kəlam araşdırmasının bu mövzu ilə başlaması sözügedən düşüncədə bu mövzuya verilən xüsusi əhəmiyyətin göstəricilərindən biridir. Quran yaradılanlar haqqında düşünərək bizi bunların yaradanı haqqında nəticələr əldə etməyə istiqamətləndirir. Quran yüzlərlə ayəsilə bizi kainata, yer üzündəki faktlara, canlılara və daxili dünyamıza istiqamətləndirir, bunlardan ağıllı şəkildə nəticələr çıxarmağa dəvət edir:

**“Əlbəttə, göylərin və yerin yaradılışında, gecə ilə gündüzün bir-birinin ardınca gəlişində işin əslini bilənlər üçün dəlillər vardır”.[1]**

**“De: “Yer üzünü gəzib dolaşın və yaradılışın necə başladığını görün. Bundan sonra Allah axirət həyatındakı yaradılışı da həyata keçirəcəkdir. Şübhəsiz ki, Allah hər şeyə gücü çatandır”.[2]**

İnsan sırf ağıldan ibarət varlıq deyildir. İnsanın inanma və inkar prosesində ağılla yanaşı, psixoloji amillər kimi başqa amillər də mühüm rol oynayır. Hər şeyi ağıllı dəlillər irəli sürməkdən ibarət hesab etmək qədər ağlın inanma və inkar prosesindəki mühüm təsirini görməmək də böyük səhvdir. Ağıl insan fitrətinin mühüm hissəsidir. Ağlın dindəki əhəmiyyətini başa düşməmək həm yaradılışa zidd hərəkət etmək, həm də ağıllı davranmağa istiqamətləndirən bir çox Quran ayəsinə əhəmiyyət verməmək mənasına gəlir. Quran bir çox ayəsilə ağlı tanrılaşdırmır, lakin ağıllı davranışın dinə xidmət olması ibrətini verir. Allahın varlığı haqqında ağla (və bu səbəbdən ağılla hərəkət edərək elm və fəlsəfə kimi sahələrdə aparılan dəyərləndirmələrə) əsaslanan dəlillərin əhəmiyyətini dərk etmək üçün ağlın dindəki yerini yaxşı bilmək lazımdır.

İslamın “aparıcı sütunları”[3] adlandıracağımız ən əsas inancların ağla əsaslandırılmasının mümkün olub-olmaması ilə həm İslam inancına malik olanlar, həm də olmayanlar maraqlanırlar. Bununla bağlı suallara cavab verilərkən aparıcı sütunların ağıllı əsaslandırmasının iki cür olacağını düşü-

1 “Ali-İmran” surəsi, 3/190

2 “Ənkəbut” surəsi, 29/20.

3 “Aparıcı sütunlar” ifadəsilə İslam dini daxilindəki bütün cərəyanların ortaq qəbul etdiyi ən əsas inanclar - Allahın varlığı, Muhəmmədin peyğəmbərliyi, Quranın Allah tərəfindən vəhy olunduğu, axirət həyatının həqiqi olması kimi inanclar nəzərdə tutulur.

nürəm: Birinci yol "aşağıdan yuxarı" adlandırılacaq yoldur. Bu yolu mənimsəyən şəxs başlanğıcda Quran ayələrini əsas götürür, Quranın bir insan və ya insan zümrəsi tərəfindən yazılmasının mümkün olmadığını göstərir və onun (bu səbəbdən Quranda ifadə edilən İslamın aparıcı sütunlarının) Allahdan gəldiyini, beləliklə, Quranda ifadə edilən bütün əsas inancların doğru olduğunu üzə çıxarır. Quranın ona bənzərinin olmayacağı tərzində iddiaları, bu üsulun Qurana uyğunluğu üçün müəyyən əsas kimi irəli sürülür.[4]

İkinci yol isə "yuxardan aşağıya" adlandırıla biləcəyimiz yoldur. Bu yolu mənimsəyən insan başlanğıcda Allahın varlığını göstərir, digər bütün məsələlərin dəyərləndirilməsilə bağlı çox böyük addım atılır. Bu addımla materialist-ateizm, pozitivizm, aqnostisizm, marksizm və buddizm kimi bir çox yanaşma süzgəcdən keçir ki, bunu bacarmaq həqiqətən ciddi irəliləyiş deməkdir. Belə ciddi addım atıldıqda, dinlərlə bağlı bir çox cəhətin qiymətləndirilməsində də böyük üstünlüklər əldə edilir. Yaradılmış varlıqlardan nəticələr çıxarılmasını tövsiyə edən, yuxarda qeyd edilmiş buna bənzər bir çox ayə isə Allahın varlığının isbatına üstünlük verən bu üsulun Qurana uyğun olduğuna əsas kimi təqdim edilir. Şübhəsiz ki, bu iki üsulu bir-birinin tamamlayıcısı hesab edən yanaşmaları mənimsəmək mümkündür (mənim də mənimsədiyim davranış bu olmaqla yanaşı, ikinci yola üstünlük verirəm). İkinci yolda Allahın varlığına dəlil gətirildikdən sonra dinlərə qarşı hansı münasibətin olacağı və dinlərarası seçimin necə müəyyən ediləcəyində birinci yolda olduğu kimi, yenə də Quran mətni dəyərləndirilməlidir. İkinci yolu fərqli edən amil məntiqli əsaslarla üstünlüyün Allahın varlığına gətirilən dəlilə verilməsidir. Allahın varlığı Quranın qeyd etdiyi

4 Baxın: "Bəqərə" surəsi, 2/23-24, "Nisa" surəsi, 4/82, "Hud" surəsi, 11/13-14, "İsra" surəsi, 17/88, "Ənkəbut" surəsi 29/50-51.

varlıq anlayışının (ontologiyanın) mərkəzi olduğuna görə bu cəhətin götürülməsi Quranın məzmunundan ayrı məsələ deyildir. Lakin məntiqli əsaslandırmada necə başlamanın əlverişli olması baxımından belə bir fərqi mühüm hesab edirəm.

Allahın varlığına dəlil gətirilməsi İslamın aparıcı sütunlarından yalnız birinin ağıllı əsasının olması kimi qəbul edilməməlidir. Bu aparıcı sütun, eyni zamanda, İslamın bütün aparıcı sütunlarının da əsasıdır. İslamın ağla gələn ən vacib aparıcı sütunlarını xatırlayaq: Muhəmmədin peyğəmbərliyi, Quranın Allahın buyuruğu olduğu, öldükdən sonra axirət həyatının mövcudluğu, müəyyən əxlaqi prinsiplərə tabe olmaq məcburiyyəti…

Allahın varlığını başa düşmək peyğəmbərliyin (nübüvvətin) mümkün olduğunu başa düşmək mənasına da gəlir. Çünki hər şeyi yaradan istəsə asanlıqla insanların "Haradan gəlirəm?", "Hara gedirəm?", "Yaradılmanın məqsədi nədir?" suallarına da cavab verə bilər. Bu suallara cavab verilməsi peyğəmbərliyin, yəni, Allahın mövcudluq anlayışını yayan və Allahdan başqa ilahiləşdirilənlərin inkarını tələb edən Muhəmmədin peyğəmbərliyinin və onunla bəşəriyyətə çatan Quranın Allahdan olmasının mümkünlüyünü bildirir. Allahın varlığını başa düşmək axirət həyatının mümkün olduğunun aydın olması deməkdir. Çünki bu kainatı yoxdan yaradan qüdrət üçün oxşarını yaratmaq çox asandır. Allahın varlığını başa düşmək müəyyən əxlaqi prinsiplərə tabe olmanın məcburiliyini də göstərir. Çünki insanı yaradan Allah öz mövqeyindən irəli gələn hökmü ilə müəyyən prinsipləri buyurubsa, şübhəsiz ki, bunlara tabe olmaq da məcburidir.

Bir şeyin mümkün olduğunun göstərilməsi əlbəttə ki, o şeyin gerçəkliyinin göstərilməsi mənasına gəlmir. Bəhs edilən hallarda mümkün olandan həqiqi olana keçilməsində

Quranın məzmununu qiymətləndirmə mərhələsinə keçilməli, yaxud Qurandan ayrı bunlara inanmaq üçün də səbəblər göstərilməlidir. Allahın varlığıyla bağlı dəlilgətirmədən sonra Quranın məzmunu ilə bağlı qiymətləndirmələrə başlanarkən, Quranın ən əsas buyuruqlarından olan Allahın varlığı və bütün fərqliliyilə kainatın və dünyanın, bütün canlı aləmin və insanın Onun tərəfindən yaradılması (Quranın təqdim etdiyi ontologiya və kosmologiyanın ən əsas cəhətləri) aydın olduğuna görə Quranın mühüm bir hissəsilə təqdim edilən buyuruq dəyərləndirilir. Bundan başqa, İslamın bəhs edilən digər "əsas sütunlarının" həqiqi olması ilə bağlı cəhətlərin qiymətləndirilməsinə, həmin cəhətlərin mümkün olması məqamından başlamanın nə qədər böyük üstünlük olması da diqqətimizdən yayınmamalıdır. Məsələn, Allahın varlığı göstərildiyi zaman peyğəmbərliyin mümkün olduğu dərhal aydın olacaqdır. Muhəmmədin peyğəmbərliyinin mümkünlüyü aydın olduqdan sonra bu cəhətin qiymətləndirilməsi isə belə bir anlayış yaranmadan qiymətləndirilməsinə nəzərən daha əlverişli vəziyyətdir.

Allahın varlığının ağla əsaslanan təməlinin olduğunu göstərmək üçün təqdim olunacaq dəlilləri Qurandan ilham alaraq, iki qrupda cəmləşdirdim. Birinci qrupda olanlar xarici dünyada müşahidə etdiklərimizdən, ikinci qrupda olanlar isə öz daxili dünyamızda özünü təhliletmə (introspeksiya) ilə şahidlik etdiklərimizdən, yəni, mənliklərimizdəki (nəfslərimizdəki, fitrətimizdəki) dəlillərdən ibarətdir. Birinci qrupda olanları "kainatın dəlilləri", ikinci qrupda olanları isə Qurandan ilham alaraq "fitrət dəlilləri"[5] adlandırıram. Xarici dünya ("kainatın dəlilləri" ilə mövcud olan) və mənlik ("fitrət dəlilləri" ilə mövcud olan) kimi fərq qoymağımda

5 Belə adlandırmağıma səbəb olan Quran ayəsi: "Rum" surəsi, 30/30.

ilham mənbəyim olan ayələr bunlardır:

**(Quranın) haqq olduğu onlara aydın olana qədər Biz dəlillərimizi onlara həm kainatda, həm də onların özlərində mütləq göstərəcəyik. Məgər Rəbbinin hər şeyə şahid olması kifayət deyil?**[6]

**Qəti inananlar üçün yer üzündə dəlillər vardır. Sizin özünüzdə də (dəlillər vardır). Məgər görmürsünüz?**[7]

"Kainatın dəlilləri" bölməsində yeddi dəlil təqdim olunacaqdır:

**Birinci,** kəlam tarixində ən çox istifadə edilmiş dəlil olan kainatın əzəli olmadığını göstərməyi əsas götürən "hudus dəlili"nin müasir elmin məlumatları ilə birləşdirilmiş vəziyyətidir. Bu dəlil müasir din fəlsəfəsi ədəbiyyatında məşhur olan "kəlamın kosmoloji dəlili" adı ilə təqdim olunacaq.

**İkinci,** kainatı başa düşməyimizə və elmin yaranmasına imkan verən şərtlərdən biri olan qanunların varlığını əsas götürərək irəli sürülən "qanunların varlığı dəlili"dir.

**Üçüncü,** elmi mümkün edən şərtlərdən biri olan riyaziyyatın kainata uyğunluğunu və kainatın kəşfetməyə imkan tanıyan xüsusiyyətlər ehtiva etməsini əsas götürərək formullandırılan "kainatdakı kəşfolunabilərlilik dəlili"dir.

**Dördüncü,** kainatdakı zəngin potensialın ən yaxşı izahatının Allahın kainatı yaratması olması nəticəsinə gətirən "kainatın potensialı dəlili"dir.

**Beşinci,** müasir elmin bildirdiklərilə üzə çıxan, canlı aləmi mümkün edən kainatla bağlı qanunların və sabit olanların həssas nizamına əsaslanan "qanunların və sabit olanların həssas nizamı dəlili"dir.

**Altıncı,** müasir elmin bildirdiklərilə üzə çıxan, canlı aləmin yaranmasını mümkün edən kainatdakı fiziki faktların

6 "Fussilət" surəsi, 41/53.
7 "Zariyat" surəsi, 51/20-21.

həssas nizamına əsaslanan "fiziki faktların həssas nizamı dəlili"dir.

**Yeddinci,** canlılar aləmindəki müxtəlif fakt əsaslı, bu mövzuda müasir elmin təqdim etdiyi zəngin məzmunu da qiymətləndirən "canlıların şəkilləndirilməsi (planlanması, dizaynı) dəlili"dir (bu dəlillə birlikdə təkamül nəzəriyyəsinin inanc baxımından Allahın varlığı üçün maneə olub-olmamasına da toxunulacaq).

"Fitrət dəlilləri" bölməsində isə beş ədəd dəlil təqdim edilərək dəlillər on ikiyə çatdırılacaq. Bunlarla hər insanda fitri baxımdan mövcud olan mühüm xüsusiyyətləri əsas götürərək teizm[8] lehinə və materialist-ateizm[9] əleyhinə nəticələr əldə edilir.

**Səkkizinci,** hər insanda mövcud olan təbii arzuların araş-

8 Bu kitab boyu "teizm" ifadəsi "monoteizm"ə uyğun mənada istifadə edilir. Bu məfhumla özü xaricindəki bütün varlıqların yaradanı olan, şüurlu, iradəli, bilgisi və qüdrəti çox yüksək bir Allaha inanma ifadə edilir. "Ateizm" isə bu məfhumdan "a" inkar əlavəsi götürülərək yaranan məfhum olub, teizmin və hər cür tanrının rədd olunmasını ifadə etmək üçün istifadə edilir.

9 "Ateizm" Allahın olmadığını iddia edən fəlsəfi fikirdir. "Naturalizm (təbiilik)", təbiət xaricində, yəni, maddə və enerji ilə kosmos və zaman xaricində heç nəyin mövcud olmadığını iddia edən fəlsəfi fikirdir. Bunun müəyyən nəticəsi olaraq naturalistlər fiziki varlığın olmaması səbəbilə Allahın da mövcud olmadığını iddia edirlər. Bütün naturalistlər ateistdirlər. Lakin bütün ateistlər naturalist olmaq məcburiyyətində deyillər. Çünki bir insan Allaha inanmayıb başqa fövqəltəbii varlıqlara inana bilər. Bunun əksinə, demək olar ki, bütün məşhur ateistlər naturalistdirlər. "Materializm" təbiətin yeganə əsasının maddə olduğu, zehni proseslər, həmçinin, şüur da daxil olmaqla kainatdakı bütün proseslərin maddi əsaslı olduğunu iddia edən fəlsəfi fikirdir. Bu mənada materializm naturalizmlə çox əlaqəlidir. Lakin demək olar ki, bütün materialistlər ateist olsa da, materializm ateizmi zəruri etmir. Allahın maddi varlıq olduğunu iddia edən materialist olsa da, dövrümüzdə materialist olduğunu iddia edənlərin hamısı ateistdir və təkallahlı dinlər baxımından maddi tanrı inancı qəbul edilmir. Bu məfhumların özündəki fərqlərə baxmayaraq, çox geniş kütlə ateizm, materializm və naturalizm məfhumlarını bir-birinin əvəzinə istifadə edir, dövrümüzün olduğu kimi, tarixin məşhur ateistlərinin də demək olar ki, hamısı bu üç xüsusiyyətlə tərif edilir. Bu səbəbdən, kitab boyu "materialist-ateizm" deyildiyi hər yerdə bu ifadəni "naturalizm" kimi də başa düşə bilərsiniz.

dırılmasını əsas götürərək bunların Allah tərəfindən yaradılması izahatının ən yaxşı izahat olduğunu qeyd edən "təbii istəklər dəlili"dir.

**Doqquzuncu,** müasir psixologiya və rasional elmlər kimi sahələrdə aparılan araşdırmaların da göstərdiyi əxlaqiliyin fitri xüsusiyyətimiz olmasını başlanğıc nöqtəsi edən, buradan bu xüsusiyyətimizin Allah tərəfindən bizə verilməsinin ən yaxşı izahat olduğunu deyən "fitri əxlaqilik dəlili"dir.

**Onuncu,** bütün sağlam insanlardakı ortaq mühakimə xüsusiyyətinin ən yaxşı izahatını teizmin verdiyini ifadə edən "ağıl dəlili"dir.

**On birinci,** insanın ən mühüm xüsusiyyətlərindən iradə sahibi olmasının ən yaxşı izahatının bu xüsusiyyətin Allah tərəfindən verilməsi olduğunu qeyd edən "iradə dəlili"dir.

**Onikinci,** insanların şüur və mənlik sahibi olmasını ən yaxşı şəkildə teizmin açıqladığını deyən "şüur və mənlik dəlili"dir.

Burada gətirilən dəlillərdə istifadə edilən mühakimə tərzinə qısaca toxunmaq istəyirəm. Gündəlik həyatda, fəlsəfədə və elmlərdə istifadə etdiyimiz çox mühüm mühakimə tərzi, alternativləri qiymətləndirmək və alternativlər arasında ən uyğun olanını seçməkdir. Bu tərz fəlsəfədə "ən yaxşı izahat kimi çıxarış" (inference to the best explanation) adı ilə xatırlanan yanaşmaya bənzəyir.[10] Varlığına şahidlik etdiyimiz kainatın, canlıların və fitrətimizin necə mövcud olması sualını soruşduğumuz zaman düşüncə tarixində qarşımıza əsas iki alternativ izahat çıxır. Bunlardan

10 Ən yaxşı izahat kimi çıxarış" (inference to the best explanation ) və ya "ən yaxşı müddəaya çevirmə" (abduction) kimi gündəlik həyatda və elmdə istifadə etdiyimız bir çox mühakimə aparmağa, alternativlər içində ən uyğununu tapmağa əsaslanır. Bu mövzu ilə bağlı aşağıdakı kitaba baxa bilərsiniz: Piter Lipton, Inference to The Best Explanation, Routledge, London, 2001.

birincisinə əsasən, bütün varlıqlar mövcudluqlarına görə Allaha borcludurlar. Qalaktikalardan dünyaya, bitkilərdən heyvanlara və insana, insanın təbii arzularından şüuruna qədər hər şey Allahın yaratmasının nəticəsidir.

İkincisinə əsasən, bütün bu qeyd etdiklərimiz "təsadüf və zərurət"lə izah edilməlidir. Bu fikri mənimsəyənlər materialist və ateistlərdir. Buna əsasən, kainat və kainatın qanunları məcburi (labüd) olaraq əzəldən bəri mövcuddur. Qalaktikalardan dünyamıza, bitkilərdən heyvanlara və insana, insanın təbii arzularından şüuruna qədər hər şey labüd kainat qanunları çərçivəsində reallaşan təsadüflərin nəticələridir.[11] Həm tarixin məşhur ateistləri, həm də dövrümüzdə ön planda olan yeni ateistlər materialist-ateistlərdir.[12] Aqnostiklərin demək olar ki, hamısı bu iki alternativ fikirdən hansının doğru olmasının bilinməyəcəyini söyləmişlər. Bu fikirlərdən birinin doğruluğunu müəyyən etmək aqnostikliyi lüzumsuz edər.

Bu kitabda bu əsas iki alternativ fikir götürülən hər başlıq mövzusu baxımından müqayisə edildikdən sonra

11 Teizm və materialist-ateist yanaşma üçün edilən bu ümumi tərifin xaricində qalanlar ola bilər. Lakin bu təriflərin ümumi teist və materialist-ateist yanaşmanı qısaca izah etməsi asanlıqla söylənə bilər. Materialist-ateist yanaşmanı müdafiə edənlərin varlığı "təsadüf-şans" və "zərurət" baxımından təsviri üçün Monodun klassikləşmiş aşağıdakı kitabına baxa bilərsiniz: Jak Monod, Chance and Necessity, Tərc: Austrin Vaynhauz, Vintage Books, New York, 1972.

12 Məsələn, yaşadığımız dövrdə çox təsiri olan ateist mütəfəkkirlər Riçard Daukins, Daniel Dennett, Sam Harris, Kristofer Hiçens kimi şəxslər materialist-ateistlərdir. Materializm və ateizmi mənimsəmədən Allahın varlığını inkar edən fikirlər də olmuşdur. Məsələn, Günəşə ilahi xüsusiyyətlər aid edən Sintoizm teizm və materialist-ateizm xaricində qalan inancdır. Lakin ənənə olaraq bu dinə inananlar olsa da, Günəşin adi, başlanğıclı və sonlu ulduz olduğu üzə çıxdıqdan sonra bu fikri məntiqi zəmində iddia edən filosof tapmaq mümkün deyil. Bir sözlə, düşüncə tarixində teizm və materialist-ateizm xaricində başqa fikirlər olsa da, bunların heç birinin bu fikirlərə ciddi alternativ olmadığı asanlıqla söylənə bilir.

“ən yaxşı izahatı” vermək qarşıya məqsəd kimi qoyulur. Fərqli sahələrdən gələn bütün dəlilləri qiymətləndirərək nəticə əldə etmək, aktual mövzulardakı bir çox qərarda olduğu qədər elmlər üçün də ideal üsullardan biridir. Fərqli sahələrdən olan dəlillərin eyni nəticəyə aparması ideal dəlilgətirmə üsuludur. Bu üsula isə “birləşməli induksiya” (consilience of induction) deyilir.[13] Məsələn, bir əlyazmasının hər hansı A şəxsinə aid olması yazının olduğu kağızda həmin A şəxsinin barmaq izinin olması, istifadə edilən yazı tərzinin A-nın digər yazıları ilə eyni olması, yazının bu şəxsin evində olması, məzmununu bu şəxsin yazdığının ehtimal edilməsi kimi bir çox fərqli dəlillə isbat edilsə, bu şəxsi yazını yazarkən görməsək də həmin yazının bəhs edilən şəxs tərəfindən yazılması ilə bağlı fikrimiz yaranır. Allahın varlığıyla bağlı bu kitabda əldə edilən nəticə, təbiət qanunlarının mövcudluğu, kainatın potensialı, həssas nizamlar, canlıların planı (dizaynı), fitri əxlaqiliyimiz, iradə və şüur kimi fərqli sahələrdən gələn bir çox dəlilə əsaslandığına görə burada da buna bənzər şəkildə “birləşməli induksiya” üsulunun istifadə olunduğu qeyd edilir. Bu kitabda irəli sürülən dəlillərin hər birinə ayrı-ayrı toxunduqdan sonra həmin dəlillərin əmələ gətirdiyi ümumi vəziyyətin gücünü qiymətləndirmək daha doğru olacaq.

Ağıl əsaslı dəlillər bir tərəfdən Qurana inanıb inancını əsaslandırmaq istəyənlərə istədiklərini verərkən, bir tərəfdən də Quranın üstünlüyünü qəbul etməyənlərlə bəşəriyyətin ortaq zəmini olan ağıl vasitəsilə əlaqə yaratmağa

---

13 Robert E.Butts, “William Whewell”, **The Cambridge Dictionary of Philosophy**, Ed: Robert Audi, Cambridge University Press Cambridge, 1999, s. 850-851.

imkan verir. Bundan başqa, bu dəlillər Quranın kainat, canlılar və mənliyimizlə bağlı düşünmə və nəticələr çıxarmağa dəvət edən ayələrinin konkret tətbiqidir. Düşüncə tarixində Allahı tanıdan iki kitabın olduğu deyilmişdir. Bunlardan birincisi, Allahın vəhyini əhatə edən kitab(lar), digəri isə kainat kitabıdır. Bunlara əvvəldən sitat gətirilən ayələrdən ilham alaraq üçüncü kitab kimi “fitrəti” (insanın təbiətini) əlavə etmək yerinə düşəcəkdir. Bu üç kitabı əsas götürərək əldə edilən nəticələrin bir-birini təsdiqləməsi hər kitabdan çıxarılan nəticəni daha da gücləndirəcəkdir. Bu araşdırmada kainat və fitrət kitablarından çıxan nəticələr qiymətləndirilərkən vəhy kitabından çıxan nəticələr digər araşdırmaların mövzusudur.

BİRİNCİ HİSSƏ

# KAİNAT DƏLİLLƏRİ

# 1. KƏLAMIN KOSMOLOJİ DƏLİLİ

"Nə üçün heç bir şey əvəzinə nələrsə var?" sualı qarşımızda duran kainatın və maddənin varlığının müəyyən izahatı olmasının zəruri olduğunu dilə gətirmək üçün məşhur filosof və riyaziyyatçı Leybnits tərəfindən verilmişdir. Kosmoloji (kainatın quruluşu haqqında ümumi nəzəriyyə) dəlilə əsasən, bu kainatın bir izahata ehtiyacı vardır. Kainatın öz izahatı öz daxilində deyildir. Kainatın izahatı yalnız öz varlığı heç nəyə bağlı olmayan, şüurlu, qüdrəti böyük və labüd bir varlıqla verilə bilər ki, bu varlığa Allah deyilir. Əslində, kosmoloji dəlil müəyyən formada formullandırılan dəlil deyildir. Burada daha çox kosmoloji dəlillər ailəsinin mövcudluğundan bəhs etmək daha uyğun olacaqdır.[14]

İslam düşüncəsində, xüsusən kəlam sahəsində ən çox ön plana çıxan dəlil müəyyən kosmoloji dəlil növü olan "hudus dəlili"dir. Burada istifadə edilən mənasıyla "hudus" məfhumu "bir şeyin yox ikən var olması, sonradan var olması, başlanğıcı olması" deməkdir. Hicri tarixilə II əsrdə Mutəzilə kəlam alimləri tərəfindən istifadə olunduğuna rast gəldiyimiz bu dəlilə Kindi, Maturidi, İbn Hazm və Qəzzali kimi İslam düşüncə tarixi baxımından mühüm

---

14 Mehmet S.Aydın, "Din Fəlsəfəsi", İzmir İlahiyyat Fakültəsi Vəqfi Nəşriyyatı, İzmir, 1999, s. 41-56.

mütəfəkkirlər də əsərlərində yer vermişlər. Məsələn, Qəzzalinin ən mühüm əsərlərindən biri kimi qəbul edilən "Filosofların əsassızlığı" (Təhafutul-Fəlasifə) əsərinin böyük hissəsi bu mövzu ilə bağlıdır.[15] Bu dəlillə Allahın varlığı əvəzinə (və ya Allah dərgahında) kainatın əzəli olduğunu iddia edənlərə qarşı olduqca mücərrəd və yüksək səviyyədə fəlsəfi mühakimə aparmaqla (o dövrün elmi kəşfləri kainatın əsası haqqında bilikləri əhatə etmirdi) cavab verilməyə çalışılmışdır. Ötən əsrdə isə bu dəlil Qərb dünyasında aparılan araşdırmalarla yenidən canlandırıldı, müasir elmin məlumatları ilə İslam kəlamındakı yanaşmalar birləşdirildi və bu dəlil İslam kəlam alimlərinə aid edilərək "kəlamın kosmoloji dəlili" (the kalam cosmological argument) adı ilə din fəlsəfəsi sahəsinin gündəmində qeyd edildi.[16] Bu dəlili aşağıdakı şəkildə təqdim edirəm:

1. Materialist-ateist fəlsəfə doğrudursa, kainatın əzəli olmalıdır, teizm doğrudursa, kainatın başlanğıcı olmalıdır.

2. Kainatın başlanğıcı vardır və bunun dəlilləri aşağıdakılardır:

   2.1. Kainatın keçmişinin "tamamlanmış sonsuz" olduğu iddiası ziddiyyətlərə səbəb olacağına görə mümkün deyildir. Bu isə kainatın başlanğıcı olduğunu göstərir.

   2.2. Entropiya qanunu kainatın başlanğıcı olduğunu göstərir.

---

15 Qəzzali, "**Filosofların əsassızlığı",** Tərc: Mahmud Kaya və Hüseyn Sarıoğlu, Klasik, İstanbul, 2005.

16 Bu dəlilin müasir elmin məlumatları ilə birləşdirilib tədqim edilməsinin nümunələri üçün baxın: Uilliam Leyn Kreyq, The **Kalam Cosmological Argument,** Wipf and Stock Publishers, Ejen, 2000; Mark Novaski, The **Kalam Cosmological Argument for God**, Prometheus Books, Amherst NY., 2007; Caner Taslaman, **""Big Bang" və Tanrı"**, İstanbul Nəşriyyatı, İstanbul, 2014.

2.3. "Big Bang" ("Böyük partlayış") nəzəriyyəsi kainatın başlanğıcı olduğunu göstərir.

3. Nəticədə teizm materialist-ateizmdən üstün hesab edilməlidir.

Buradakı ilk müddəanı materialist-ateistlərin və teistlərin əksəriyyətinin qəbul edəcəklərini asanlıqla demək olar.

Düşüncə tarixini araşdırdığımız zaman əzəli kainat fikrinin materialist-ateistlərin əsas fikri olduğunu və onların bu cəhəti Allahı əzəli qəbul edən teizmlə əsas fərqli məqamları kimi qəbul etdiklərini başa düşürük. Məsələn, Marks və Engels kimi məşhur materialist-ateistlər Allahın, yoxsa maddənin (kainatın) əvvəl olduğu fikrinin idealizmlə (teizmlə) materializm (ateizm) arasındakı ən əsas fərq olduğunu bildirmişlər.[17]

Allahın varlığını rədd edənlər üçün kainatın tamamilə heçlikdən ortaya çıxdığını irəli sürmək kimi başqa alternativ var kimi görünə bilər, ancaq bu, sağlam düşüncəyə ən zidd iddialardan birini dilə gətirmək olar. Heç nədən ortaya nə isə çıxırsa, bəzən kompüterlərin, avtomobillərin, fillərin də ortaya çıxdığını görməyə təəccüblənməmək lazım gələrdi. Əgər kainat tamamilə heçdən ortaya çıxırsa, bir şeyin hər hansı zamanda ortaya çıxmasını normal qəbul etmək lazımdır. Belə ki, tarix boyu materialist-ateistlərin əsas mövqeyi yoxdan yaranan kainatı deyil, əzəli kainatdan bəhs etmək olmuşdur. Bundan başqa, irəli sürülən bu arqumentdə diqqət cəlb edilməyən bir yanaşma da Allahla birlikdə kainatın da əzəli olduğunu ifadə edən teistlərin (Aristotelin davamçıları olan bəzi mütəfəkkirlər kimi) fikridir. Bu, azlığın mənimsədiyi mövqedir. Lakin burada irəli sürülən

17 Karl Marks və Fridrix Engels, **"Fəlsəfə araşdırmaları"**, Tərc: Sevim Belli, Sol Nəşriyyatı, İstanbul 1997, s. 22

arqument baxımından belə bir yanaşmanın varlığı çətinlik yaratmır. Burada irəli sürülən dəlil doğru qəbul edildikdə, bu yanaşmaya da cavab verilir.

Burada kritik təklif ikincisidir. Materialist-ateistlərin etiraz edəcəkləri təklif də budur. Nəticə isə bu iki təklif doğru olduqda avtomatik, yəni, məntiqi zərurət kimi ortaya çıxır.

Aydın olacağı kimi, bu dəlil baxımından mühüm olan ikinci təklifdə qeyd edilən "kainatın müəyyən başlanğıcı olması" cəhətinin doğruluğunun göstərilməsidir. Bu göstərildikdə, teizmi materialist-ateizmdən üstün tutmaq üçün "ən yaxşı izahat" formatında dəlil əldə edirik. Aşağıdakı arqumentdə bildirildiyi kimi, kainatın başlanğıcı olduğu üç ayrı şəkildə göstəriləcəkdir. Bunlardan birincisi saf fəlsəfi mühakimələrə əsaslanır, digər ikisi isə müasir elmin məlumatlarını hərəkət nöqtəsinə çevirir (hər üç maddə mümkün qədər qısaca qeyd edilərək çatdırılacaqdır).

**2.1-in qiymətləndirilməsi:** Kainatın keçmişinin "sonsuz" olduğu iddia edildikdə, "sonsuz" məfhumu üzərində diqqətli şəkildə düşünməliyik. Kainatla bağlı sonsuz qiymət yoxdur. Sonsuz bizim dayanmadan daim irəliləyəcəyimizi bildirir. Kainatda "tamamlanmış sonsuzlar"ın varlığını qəbul etdiyimiz zaman ziddiyyətlərin içinə düşürük. Əsasən səhv anlaşılmalara səbəb olan təbii say sırasına diqqət edək: 0, 1, 2, 3, 4... Bu say sırasının bir-bir sayıldığı zaman sonsuza getdiyini deyərkən, əslində, bu say sırasının müəyyən məqsədə getdiyini demirik. Bu say sırasının bir-bir artırılmaqla daim irəlilədiyini deyirik. Bu səbəbdən həmin say sırasını bu şəkildə sayaraq sonsuzu tamamlaya bilmir, daim irəliləyirik. Əgər bir yerdə bu say sırası dayansa, bu, sonsuz məfhumunun tərifinə ziddir. Çünki sonu vardır.

Bu tərifdən sonra kainatın vaxtının keçmışdə və gələcəkdə eyni şəkildə sonsuz olduğunu iddia edənlərin, bu fərqli iki iddiasını bir-birindən ayırmalıyıq. Kainatın sonsuza doğru getdiyini deyənlər kainatdakı zamanın daim irəlilədiyini deyirlər ki, burada hər hansı problem görünmür. Gələcəyə doğru bu şəkildə irəliləməyə "potensial sonsuz" deyənlər olmuşdur. Bu tərif açıqladığımız nəticə baxımından heç nəyi dəyişdirmir. Lakin mən bu tərifdən istifadə etməyi də uyğun hesab etmirəm. Çünki "potensial" ifadəsi reallaşma gücünə sahib olmağa sövq edir. Halbuki sonsuza gedən proses sonsuzun tərifinə əsasən heç zaman dayanmır, sonsuza heç zaman çatmır. Belə ki, sonsuz adlı müəyyən nöqtə də yoxdur. Sonsuz çatacağımız hıdəf də deyildir. O yalnız dayanmadan irəliləməyi ifadə edir. Davamlı irəliləmənin harasında dayansaq, bu "tamamlanmış sonsuz" deyildir. Halbuki kainatın keçmişinin sonsuz olduğunu deyənlər sonsuzun tamamlandığını, kainatın keçmiş zamanının "tamamlanmış sonsuz" olduğunu deyirlər. Bunun əvvəlkindən nə qədər fərqli bir iddia olduğunu yaxşı başa düşmək lazımdır. Aydın olduğu kimi, burada "sonsuza" daimilik xaricində irəliləməylə tamamlanan, bitən, tükənən hallar aid edilərək yanaşılır ki, bu, sonsuzun təbiətinə ziddir.

Belə bir iddianın nəticəsində ortaya çıxan ziddiyyətlər bir çox şəkildə qeyd edilir. Bəzi nümunələrdən bunu düşünək: Yaşadığımız dövrdən on il əvvəl də, yüz il əvvəl də, milyard il əvvəl də buna nisbətən sonsuzdur. Lakin o zaman on, yüz və ya milyard il əlavə etməklə illərin sayının heç artmayacağı kimi anlaşılmaz nəticə ilə üz-üzə qalırıq. (Çünki sonsuz sayla toplandıqda yenə də sonsuz olur, sonsuz toplamayla artmır). Buradan aydın olur ki, gələcək za-

manın sonsuz olmasıyla keçmişin sonsuz olması çox fərqlidir. Bu mühüm fərq bir çox şəxsin gözündən qaçmışdır. Keçmişi sonsuz qəbul etməyin səfehliklərə səbəb olması qaçılmazdır. Bu paradoksların yeganə həlli kainatın keçmiş zamanının sonsuz olmadığını, kainatın müəyyən başlanğıcı olduğunu qəbul etməkdir.[18]

Sonsuz zaman keçəndən sonra yaşadığımız dövrdə olduğumuzu demək sonsuz +1-in olacağını, sonsuzu keçməyin mümkün olduğunu deməkdir ki, bu da sonsuzun tərifilə ziddiyyətlidir. Sonsuz məfhumunun kainatda hər hansı həqiqətlə qarşılığının olmadığının dərk oluna bilməməsi bu mövzu ilə bağlı ziddiyyətli iddiaların səsləndirilməsinin səbəbidir. Kainatın keçmişinin sonsuz olmamasının kainatın başlanğıcı olması mənasına gəldiyi qısaca belə qeyd edilir:

1. Kainat ya əzəlidir, ya da başlanğıcı vardır.

2. Sonsuz daim irəliləməyi və irəliləməklə tamamlanmayanı ifadə edir.

3. Kainatdakı keçmiş zaman sonsuzdursa, bizim bu nöqtədə mövcud ola bilməyimiz üçün sonsuz tamamlanmalıdır.

4. Sonsuz əlavə ilə tamamlanmadığına görə (2-ci maddəyə görə) və bizim mövcud olmağımız inkar edilməyəcəyinə görə, kainatdakı keçmiş zaman sonsuz ola bilməz.

5. Nəticədə kainatın müəyyən başlanğıcı vardır (1 və 4-cü müdddəalara əsasən).[19]

Bu arqumentin mühüm tərəflərindən biri kainatın başlanğıcı olaraq zamanın başlanğıcı olmasının zəruriliyini

18 Bu mövzu ilə bağlı baxın: Uilliam Leyn Kreyq, "Kəlam kosmoloji dəlili", "**Allah, fəlsəfə və elm**", Red: Caner Taslaman və Enis Doko, İstanbul Nəşriyyatı, İstanbul, 2015, s. 145-174.

19 Caner Taslaman, **"Big Bang və Tanrı"**, s. 79-80.

də göstərməsidir. Buradan çıxan mühüm nəticəyə Kindi və Qəzzali diqqəti cəlb etmişlər. Buna əsasən, Allah kainatla yanaşı, həm də zamanın yaradanıdır.[20] Allah kainatın fövqündə olduğu kimi, zamanın da fövqündədir. Bu cəhət isə kəlam və din fəlsəfəsi kimi sahələrdəki mühüm problemlərə aydınlıq gətirəcək qədər mühümdür. Məsələn, çox müzakirə edilən qədər (tale, alınyazısı) kimi mövzuların aydın olmasına imkan yaradır. Bundan başqa, "Allah nə üçün kainatı əvvəl deyil, sonra yaratdı?" və ya "Nə üçün Allah insanı yaratmaqdan ötrü milyardlarla il gözlədi?" sualları bu məsələnin aydın olması ilə aradan qalxır. Çünki zamanın yaradanı üçün zamana tabe olmaq və gözləmək mümkün olmadığına görə zamana tabe olmağı və gözləməyi mümkün hesab edən bu suallar mənasız olur.

Bu arqument teizmin düşüncə tarixindəki alternativi materialist-ateizmin ən əsas (maddənin əzəliliyi və hər şeyin əsası olması) müddəasının səhv olduğunu göstərən dəlil olması ilə yanaşı, Allahın məkanla zamanın fövqündə durduğu və bunların yaradanı olduğu kimi çox mühüm xüsusiyyətlərini də əsaslandırır.

**2.2-nin qiymətləndirilməsi:** Tarixin ən məşhur materialist-ateist mütəfəkkirləri kainatın əzəliliyini fəlsəfələrinin əsası hesab etmişlər.[21] Əgər teizmlə materialist-ateizm arasındakı mübahisəni yalnız bir problem etməyimiz tələb edilsə, Hamletin məşhur fikrinə bənzər cümlə ilə "Kainatın əzəli olması və ya olmaması… Budur məsələ!" deyərdik. Kainatın əzəli olmaması onun müəyyən başlanğıcının

20 Kindi, "İlk fəlsəfə haqqında", "**İslam filosoflarından fəlsəfə mətnləri**", red: Mahmud Kaya, Klassik, İstanbul, 2005, s. 17-26.

21 Corcs Politzer, "**Fəlsəfənin başlanğıc prinsipləri",** Tərc: Enver Aytekin, "Sosyal" Nəşriyyatı, İstanbul, 1997, s. 24.

olması mənasına gəldiyinə görə Hamletə məxsus cümləmizi belə də qeyd edə bilərik: "Kainatın başlanğıcı olması və ya olmaması… Budur əsas məsələ!"

Kainatın başlanğıcının olması iddiası teizmi yalnız materialist-ateist fəlsəfənin iddiaçılarından deyil, Hinduizm, Buddizm, Taoizm kimi dinlərdən və qədim yunan fəlsəfəsindən də ayıran mühüm iddiadır. Allahın qüvvəsini məhdudlaşdıran və ya Allahın yaratma iradəsindən ayrı kainat fikri teizmin əsla qəbul etməyəcəyi fikirdir. Bunun əksinə, Allahın varlığını inkar edənlər üçün isə kainatın əzəliliyini qəbul etmək yeganə ciddi alternativ kimi görünür. Bunlarla yanaşı, aqnostik yanaşmalara mühüm nümunə olan Kant kainatın zamanda başlanğıcı olduğu və olmadığına dair müddəa ilə antimüddəanın hər ikisinin təsdiq edilə bilməyəcəyi və təkzib oluna bilməyəcəyini, bu səbəbdən rasional kosmoloji ehtimalın mümkün olmadığını bildirmişdir.[22]

Aydın olduğu kimi, teizmin öz xaricindəki bütün fikir sistemlərilə və aqnostik yanaşmalarla ən mühüm ziddiyyəti olan kainatın yaradılması (başlanğıcı olduğu) fikri XIX əsrdən əvvəl fəlsəfi arqumentlərlə müzakirə edilmişdir. Lakin ilk dəfə entropiya qanununun kəşfi ilə fizika qanunlarına əsaslanaraq bu müzakirə edilən mövzu haqqında nə isə demək mümkün olmuşdur. Bununla yanaşı, bu elə bir qanundur ki, bu məsələdə teist-ateist olmaqla demək olar ki, bütün elm adamları birgə rəydədirlər. Bu kainatın ən əsas qanunlarından biri kimi qəbul edilir.

22 Kant özü teist olmasına baxmayaraq, rasional kosmologiya və teologiya qurulmayacağını düşünmüş və bu mövqeyini müdafiə etmək üçün rasional yanaşmanın aqnostikliyə apardığını göstərməyə çalışmışdır: İmmanuel Kant, The Critique of Pure Reason, Tərc: J. M. D. Meyklekon, Uilliam Menton, Çikaqo, 1971, s. 135.

Entropiya qanunu termodinamikanın ikinci qanunu kimi də tanınır. Bu, xüsusən Rudolf Klausiusun XIX əsrin ikinci yarısındakı araşdırmaları ilə üzə çıxarılmışdır.[23] Bu qanunla enerjinin daim çox istifadə edilən formadan az istifadə edilən quruluşa doğru dəyişdiyi deyilir. Bu qanuna əsasən, kainatda nizamsızlıq daim artır, bu biristiqamətli, dönməz prosesdir. Bu proses hərəkətin dayanacağı termodinamik nizam vəziyyətinə doğru irəliləyr. Məşhur ingilis fizik alimi Artur Eddinqton, entropiya qanununun bütün təbiət qanunları içində ən mühüm mövqeyə sahib olduğunu bildirir. Eddinqton kainat haqqında olan nəzəriyyənin Maksvelin formulları ilə, hətta daha əvvəldən keçirilən bəzi sınaqlarla uyğun olmasa da, doğru olma şansının olacağını, lakin entropiya qanununa zidd olduğu təqdirdə doğru olmasının mümkün olmadığını bildirir.[24]

Biristiqamətli proseslər sonu bildirir. İnsanın yaşlanma prosesi və kainatdakı entropiyanın artması da belədir. İlk olaraq entropiya qanunu ilə kainatdakı nizamsızlığın daim artdığı və sonsuza qədər davam etdirilə bilməyəcək bu prosesin kainatın sonunun gəlməsini zəruri etdiyi aydın oldu. Əslində, bu nəticə kainatın müəyyən başlanğıcı olmasının zəruriliyi mənasına da gəlir. Bu, belə göstərilir:

1. Kainatdakı entropiya geri qaytarılmayacaq şəkildə daim artır.

2. Buna görə kainatda bir gün termodinamik nizam yaranacaq və temperaturun itməsi baş verəcəkdir. Bir sözlə, kainat əbədi deyildir, onun sonu vardır.

3. Keçmiş zaman sonsuz olsaydı, hazırda kainat-

23 Maykl Gillen, “**Dünyanı dəyişdirən beş tənlik**”, Tərc: Gürsel Tanrıöver, TÜBİTAK Məşhur elm kitabları, Ankara, 2001, s. 171-222.

24 Artur Eddinqton, **The Nature of The Physical World**, Macmillan, Nyu York, 1929, s. 74.

da termodinamik nizama gəlinmiş və hərəkət dayanmış olmalıydı.

4. Lakin hazırda hərəkətin davam etdiyinə şahidlik edirik.

5. Nəticədə kainat sonsuzdan bəri mövcud ola bilməz. Kainatın bir başlangıcı var.

Elm adamları daha çox entropiya qanununun kainatın sonunu zəruri etməsi cəhətinə üstünlük vermiş, lakin kainatın müəyyən başlanğıcı olduğunu zəruri etməsi məsələsində kifayət qədər dayanmamışlar. Halbuki fəlsəfə, teologiya və kosmologiya sahəsindəki mübahisələr baxımından kainatın başlanğıcının olub-olmadığı daha mühüm olmuşdur. Paul Devis entropiya qanunundan çıxan bu nəticənin əvvəlcə diqqəti cəlb etməməsi haqqında bunları deyir: "Sonu olan zamanda tükənəcək bir şeyin əzəldən bəri mövcud olmayacağı aydındır. Yəni, kainat sonu olan zamandan əvvəl mövcud olmalıdır. Bu mənalı nəticənin XIX əsrin elm adamları tərəfindən lazımınca dərk edilməməsi maraqlıdır".[25]

**2.3.-ün qiymətləndirilməsi:** Kainatın müəyyən başlanğıcı olmasının zəruriliyi fikrinə digər güclü elmi dəstək 1920-ci illərdən ortaya atılan və inkişaf etdirilən "Big Bang" nəzəriyyəsi ilə gəldi.[26] Bu nəzəriyyə ilə gözlədiyimiz kainatın başlanğıc zamanının hesablanılması və bu başlanğıcdan sonrakı proseslərin təfsilatlı şəkildə öyrənilməsi də mümkün oldu. Riyazi hesablamalar bu başlanğıcın 13,8 milyard il əvvəl olduğunu göstərir. Bu nəzəriyyəyə

25 Paul Devis, **The Last Three Minutes**, Basic Books, Nyu York, 1994, s. 13.

26 "Big Bang" nəzəriyyəsinin ortaya atılma prosesi, dəlilləri və alternativ nümunələrə cavab verilməsi üçün baxın: Caner Taslaman, **""Big Bang və Tanrı",** 3.,4.,5. bölmələr.

əsasən, kainat çox isti və sıx kicik nöqtə kimi başlamış, daha sonra daim genişlənmə prosesində bu istilik və sıxlıq azalarkən qalaktikalar, ulduzlar və planetlər əmələ gəlmiş, bu proses hələ də davam edir.

Materialist-ateist kainat fikrini mənimsəyənlər tarix boyu kainatın əzəli və əbədi olduğunu, heç bir başlanğıcı olmadığını, bu səbəbdən öz xaricində heç bir səbəbə ehtiyacı olmadığını iddia etmişlər. "Big Bang" nəzəriyyəsinin dəlilləri uzun illərdən sonra gücləndikdə və bu nəzəriyyəyə qarşı heç bir ciddi alternativ qalmadıqda, materialist-ateist fikri mənimsəyənlər öz yanaşmalarıyla bu nəzəriyyəni uyğunlaşdırmağa çalışsalar da, tarix boyu materialist-ateist yanaşmanı mənimsəyənlərin kainat fikirlərini araşdırsaq, bu nəzəriyyənin necə materialist-ateist ümidlərə tamamilə zidd şəkildə başlanğıcı olan kainat fikrini dəstəklədiyini başa düşürük.

Materialist-ateist anlayışı mənimsəyənlər Allahın yerinə kainatı qoymağa çalışırlar. Bunu edərkən şüursuz maddə yığını olsa da, əzəli və əbədi, milyardlarla səma cismini özündə cəmləşdirən, əzəli şəkildə mövcud olan, möhtəşəm, sərbəst kainatı müdafiə edərək öz "tanrılarını" ucaltmışlar. Halbuki "Big Bang" nəzəriyyəsi ilə kainatın keçmişinin kicik kürəcik formasında, başlanğıcda mükəmməllikdən, ehtişamdan kasıb nöqtə olduğu aydın olur. Şübhəsiz ki, bu nöqtə yoxluqdan varlığa keçidin necə olduğunun tam izahatını vermir. Yoxluq elmin mövzusu olmadığına görə bunun elmi göstəricisi olmur. Lakin bu nöqtənin elmi olaraq tərifsiz olması onun yoxluq kimi qiymətləndirilməsinin mümkün olduğunu göstərir. Kainatın başlanğıcında nöqtə dediyimiz vəziyyətdə bütün fiziki qanunlar çökmüş haldadır. Yəni, artıq başlanğıc nöqtə ilə

bağlı suallar fiziki deyil, metafizikdir. Başlanğıc nöqtənin yoxluq kimi qiymətləndirilməsi heç də zəruri deyil. Hər şeydən əvvəl nöqtənin olduğu mərhələdə məkan (fəza) və zaman yoxdur. Məkan və zaman xaricində isə maddə mövcud ola bilməz.

İkinci, fiziki formullarda nöqtə mərhələsində sonsuz qiymətlər ortaya çıxır və heç bir maddi dəyər sonsuza bərabər olmayacağına görə bu vəziyyət də başlanğıc nöqtəni yoxluq kimi qiymətləndirən yanaşmaları dəstəkləyir.

Teizm kainatda görülən möhtəşəmliyi kainatın öz bacarığına, imkanına deyil, yaradanına aid edərək izah etdiyi və kainatı başlanğıcı olan, asılı, hərəkət bəxş edilmiş varlıq kimi tərif etdiyi üçün tarix boyu teizm tərəfindən ortaya qoyulmuş kainat düçüncəsinə "Big Bang" nəzəriyyəsinə uyğun kainat mənzərəsi göstərir. Əgər kainatın başlanğıcındakı nöqtəni bir varlıq kimi qəbul etsək, o zaman "Big Bang" nəzəriyyəsi sayəsində kainatın başlanğıcı çox kiçik nöqtəyə gətirilmiş, materialist-ateizmin ilahiləşdirilmiş varlığı dəyərsizləşdirilmiş və yoxluğa yaxınlaşdırılmış olur. Bu izahata şübhə edənlər əvvəl milyardlarla ulduzlu kainatı, sonra isə çox kiçik nöqtəni düşünürlər. Əgər kainatın əvvəlində başlanğıc nöqtəsi adlandırılan vəziyyətin ontoloji statusunu yoxluğa bərabər qəbul etsək, o zaman "Big Bang" nəzəriyyəsi yoxluqdan varlığa keçidi də ifadə edən nəzəriyyə olur. Başlanğıcı istər kiçik nöqtə, istər yoxluq kimi qəbul etməyimizdən asılı olmayaraq XX əsrdə ortaya atılan "Big Bang" nəzəriyyəsinin göstərdiyi kainat mənzərəsinin materialist-ateist ehtimallara nisbətən teist ehtimallarla daha çox uyğun olduğu görünür. Kainatın təxminən bugünkü vəziyyətinə bənzər əzəli olduğunu güman edən materialist-ateist ehtimalların əksinə, dövrümüzdə

kainatın əvvəlinin ontoloji statusunun çox kiçik nöqtəyə, yoxsa, yoxluğa uyğun gəlməsi mübahisəsi aparılır.

Bir sözlə, həm Kindi və Qəzzali kimi filosofların irəli sürdükləri kimi, riyaziyyat fəlsəfəsilə bağlı mücərrəd dəlillərin, həm XIX əsrdə ortaya atılan fizikanın ən əsas qanunlarından entropiya qanununın, həm də XX əsrdə ortaya atılan, kainatın əsası ilə bağlı kosmologiyanın ən mühüm nəzəriyyəsi olan "Big Bang" nəzəriyyəsinin ayrı-ayrılıqda kainatın başlanğıcı olması cəhətini birgə rəylə göstərmələri kəlamın kosmoloji dəlilinin güclü və müasir elmlə dəstəklənən dəlil kimi müdafiə edilməsinə imkan verir. Kainatın başlanğıcının teist ehtimallarla uyğun, materialist-ateist ehtimallarla isə uyğun olmaması ilə bağlı vəziyyət bizi teizmin materialist-ateizmdən üstün hesab edilməsinin zəruriliyini ifadə edən nəticəyə gətirir.

# 2. QANUNLARIN MÖVCUDLUĞU DƏLİLİ

Elmi səylərlə təbiət qanunlarını tapmaq və buna əsasən kainatı tanımaq, gələcəyi planlaşdırmaq, insanların rahatlığını və etibarını təmin etmək əsas hədəfdir. Lakin bu səylər nə üçün təbiət qanunlarının mövcud olduğunun izahatını əhatə etmir. Bir çox elm adamı "Nə üçün qarışıqlıq deyil, təbiət qanunları var?" və ya "Nə üçün kainatın fərqli bölgələri eyni təbiət qanunlarına tabedir?" kimi nəhəng sualların mövcud olacağını düşünmədən araşdırmalarını həyata keçirmiş və keçirirlər. Tapılmağa dəyən qanunların mövcud olması, bir çox elm adamı üçün mühakimə edilmədən qəbul edilən müddəadır. Elm adamları bu müddəa ilə fəaliyyətlərinə başlayırlar.

Burada teizmin paradiqmasının nə üçün xaosun deyil, təbiət qanunlarının mövcud olduğu kimi elmi, hətta gündəlik həyatı mümkün edən çox əsas fenomeni izah etməkdə materialist-ateizmə nisbətən daha uğurlu olduğu iddia ediləcəkdir. Nümunə kimi atomla bağlı elmi nəzəriyyəyə nəzər yetirək. Bunlar bizə atomun proton və neytron kimi hissəciklərdən, bu hissəciklərin isə kuark adlı hissəciklərdən əmələ gəldiyi haqda məlumat verir. Elmi nəzəriyyə atomların quruluşunu və kimyəvi cədvəldəki fərqli atomların hansı proseslərlə əmələ gəldiyini izah edir. Lakin bunların heç biri "Nə üçün xaos deyil, təbiət qanunları?" sualına cavab deyil. Elmi nəzəriyyə bir-birilərini itələyən protonları

güclü nüvə qüvvəsinin bir yerdə saxladığını bildirir. Lakin bu izahat nə üçün kainatın hər tərəfindəki maddənin belə bir qüvvənin işləməsini müəyyən edən qanunlara uyğun olmasının və nə üçün bu qanunların mövcud olmasının izahatı deyildir. Qanunların nə olmasının tərif edilməsilə onların necə və nə üçün mövcud olduğunun açıqlanmadığı bir çoxlarına aydın olmayan mühüm cəhətdir. Elmin kainatı təsvir etdiyinə, lakin izah etmədiyinə xüsusi olaraq diqqət edilməlidir. Kainatda qanunların necə mövcud olduğunun izahatını tapmaq istədiyimiz zaman sınaq və müşahidəyə əsaslanan elmin sərhədlərindən çıxıb fəlsəfi qiymətləndirmələrin sahəsinə daxil olmalıyıq. Lakin bütün kainatı əhatə edən varlıq anlayışlarına (ontologiyalara) aid edərək təbiət qanunlarının necə mövcud olduğu cəhətində müəyyən izahat əldə edə bilərik. Belə bir qiymətləndirmə aparıldığı zaman kainatdakı qanunların necə mövcud olduqlarını izah etmədə iki rəqib fikir olan teizmin və materialist-ateizmin izahat gücünü müqayisə etməliyik. Belə bir müqayisə nəticəsində teizmin materialist-ateizmdən üstün tutulmasının zəruri olduğunu ifadə edən arqument ortaya çıxdığını düşünürəm. Bu dəlil aşağıdakı şəkildə göstərilir:

1. Təbiətin qanunları vardır.
2. Bu qanunların mövcudolma səbəbinin izahatını ya teizm, ya da materialist-ateizm verir.
3. Teizm bu qanunların mövcud olma səbəbini materialist-ateizmdən daha yaxşı izah edir:
    3.1. Çünki rasional, şüurlu, iradəli (Alim, Qadir) qanun qoyan, rasionallığa uyğun qanunların mövcudolma səbəbini daha yaxşı izah edir.
    3.2. Çünki tək (Vahid) bir qanunqoyucu fərqli sahələrdə eyni qanunların qəbul edildiyini daha yaxşı izah edir.

3.3. Çünki teist dinlərin paradiqmasının mühüm amili olan imtahana çəkilmə faktı yalnız qanunların mövcud olduğu kainatda mümkün olduğuna görə bu paradiqma qanunların mövcud olmasını daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən daha inandırıcı və daha doğrudur.

Bu arqumentin birinci maddəsini elmi məlumatlar xəbər verdiyi kimi, gündəlik təcrübələrimiz də göstərir. Yerin cazibə qüvvəsilə bağlı elmin bildirdikləri ilə yanaşı, gündəlik həyatda suyu özündən isti olan mühitə qoyduğumuz zaman isindiyini görməyimiz də təbiətdəki qaydaların mövcudluğunu göstərir. Belə ki, elmi səylərin əsas məqsədlərindən biri də dəyişən faktların arxasındakı qanunları tapmaqdır. Təbiət qanunlarının mövcud olması faktı həm zərurilik ifadə edən qanunları, həm də Şrödinger tənliyi kimi ehtimala əsaslanan qanunları əhatə edir. Ehtimala əsaslanan qanunlar isə təsadüfilik mənasına gəlmir. İrəli sürülən arqumentin birinci maddəsi materialist-ateistlər tərəfindən də qəbul ediləcək, heç bir etirazla qarşılaşmayacaq təklifdir.

Düşüncə tarixinə, eləcə də dövrümüzdəki elm və fəlsəfə dünyasına baxdığımız zaman qarşımızda dayanan kainatı və qanunlarını izah edərkən iki əsas fikir kimi materialist-ateizmin və teizmin varlığını isbat edirik. Materialist-ateizmi mənimsəyənlər qanunların varlığını izah etmədə ən çox kainatın qanunlarının maddi kainatla birlikdə əzəli olduğunu, maddəyə xas xüsusiyyətlər olan bu qanunların əzəldən mövcud olduğunu deməkdən başqa hər hansı izahata ehtiyac olmadığını bildirirlər. Teist izahata əsasən isə kainat kimi kainatın qanunları da Allah tərəfindən yaradılmış, yəni, bu qanunlar Allahın iradə və məqsədlərinin nəticəsidir. Bu baxımdan materialist-ateizmə qarşı ən ciddi etirazların

teist dairələrdən, teist dairələrə etirazların isə materialist-ateist dairələrdən gəlməsi də bu cəhəti izah etmədə iki əsas rəqib yanaşmanın bunlar olduğunu göstərir. Təqdim edilən arqumentin ikinci maddəsinə də ciddi etirazın edilməyəcəyi bildirilir.

Bu dəlildə materialist-ateistlərin etirazlarının yönələcəyi maddə üçüncü maddədir. Materialist-ateist yanaşma baxımından ilk iki maddəni qəbul etməkdə hər hansı çətinlik olmamaqla yanaşı, üçüncü maddədə ifadə edilən cəhəti qəbul etmək mümkün deyildir. Burada təqdim edilən dəlilin kritik maddəsi budur və dəlildə ifadə edilən üç cəhətə (3.1., 3.2. və 3.3.-də bildirilən) əsaslanaraq bu maddədəki iddia irəli sürüləcəkdir. Üçüncü maddənin doğruluğu göstərildikdə, arqumentin nəticəsi olan "nəticədə, teizm materialist-ateizmdən daha inandırıcı və daha doğrudur" məntiqi zərurət kimi qəbul ediləcək.

**3.1.in qiymətləndirilməsi:** "Nə üçün xaos yox, təbiət qanunları mövcuddur?" sualı hər şeydən əvvəl diqqət yetirəcəyimiz sualdır.[27] Möhtəşəm kainatda heç bir təbiət qanununun mövcud olmadığı vəziyyət ola bilərdi. Məntiqi baxımdan kainatda təbiət qanunlarının mövcud olması zəruri (labüd) vəziyyət deyil (məntiqi zərurətlə təbiət qanunlarının zəruriliyi arasındakı fərqə diqqət yetirilməlidir). Heç bir təbiət qanunu olmayan kainatın mövcudluğunda məntiq baxımından hər hansı ziddiyyətli vəziyyət yoxdur. Bir çox elm adamı kainatda hansı qanunların mövcud olduğu yönünə diqqət yönəldərkən nə üçün qanunların

27 Buradakı "xaos" ifadəsilə XX əsrin ikinci yarısından etibarən gündəmə gələn "xaos nəzəriyyəsi" qarışdırılmamalıdır. Buradakı "xaos" sözü ilə heç bir təbiət qanununun qəbul edilmədiyi vəziyyət nəzərdə tutulur. "Xaos nəzəriyyəsi" ilə isə mövcud təbiət qanunları çərçivəsində baş verən və nizami olmayan proseslər araşdırılır.

mövcud olması sualını heç zaman gündəmə gətirməmişlər. Bunun əksinə, Eynşteyn kimi nümunələr də vardır. O, kainatın aydın olmasındakı diqqətləri qeyri-adi vəziyyətə cəlb etmiş, ən çətin mövzunun kainatın aydın olması mövzusu olduğunu demişdir. Eynşteyn üçün kainatın aydın olması və zehnin onu başa düşməsi Allahın özünü aydınetmə forması idi.[28] (Eynşteyn bunu ifadə edərkən həmin məsələni buradakı kimi müəyyən arqument formatında qiymətləndirməmişdir).

Əgər kainat nizamsız, xaotik bir yer olsaydı, insanın heç nəyi dərk etməsi mümkün olmazdı. Həmçinin, kainatda əmələ gələnlər nizamlı, lakin zehnin dərk edəcəyindən daha qarışıq olsaydı, kainatın aydın olması qeyri-mümkün olardı. Təbiət qanunlarının varlığı və aydın olmayacaq qədər qarışıq olmaması sayəsində kainatı dərk edirik. Həmin qanunların bu şəkildəki varlığı zehnin kainatı başa düşməsinin əsas "xarici" şərtlərindəndir.[29] Bir gün yediyimiz alma ani olaraq qaya parçasına çevrilsəydi, yüksəkdən atılan əşyalar yerə düşdüyü kimi yerdə olan əşyalar qeyri-müəyyən şəkildə uçsaydı, hər səhər yuxudan fərqli məkanda oyansaydıq, otaqda olan su bir anda qaynamağa, əşyalarımız bir anda yox olmağa başlasaydı, bir sözlə, heç bir təbiət qanununun olmadığı kainatda yaşasaydıq, zehnin nə dil kimi ifadəetmə imkanı verən vasitəçidən istifadə etməsi, nə də hər hansı rasional mühakimə mümkün olardı. Əşyanı bir formada olarkən adlandırdığımız zaman həmin əşya fərqli formaya düşsə, bu adın, etdiyimiz hərəkətin nəticəsi hər dəfə müxtə-

28 Yan Barbur, **When Science Meets Religion,** Harper Kollins Publishers, Nyu York, 2000, s. 52-53.

29 Kainatda olan belə xüsusiyyətlər zehnin kainatı başa düşməsinin "xarici" şərtləri olduğu halda, zehnin daxili quruluşunda sahib olduğu və növbəti səhifələrdə "fitrət dəlilləri" başlığı ilə qeyd ediləcək xüsusiyyətləri (xüsusən 10, 11 və 12-ci dəlillərə baxın) zehnin kainatı başa düşməsinin "daxili" şərtləridir.

lif olsa, həmin hərəkəti dillə ifadə etməyin, bunlara bağlı olaraq nə induksiya, nə də deduksiya kimi məntiq qaydalarından istifadə etmək, nəticədə dildən istifadə etmək, rasional mühakimə aparmaq və bunların nəticəsində kainatı başa düşmək qeyri-mümkün olardı.

Aydın olduğu kimi, bizim kainatı başa düşməyimizə və elmi inkişaf etdirməyimizə kainatın təbiət qanunlarına uyğun olması, yəni, kainatın rasionallığa uyğun quruluşda olması imkan verir. Teizmə əsasən, kainatın yaradanı rasional, şüurlu və iradəli qüvvə olan Allah olduğuna görə teizm, kainatın rasionallığa uyğun bu quruluşunu çox rahat şəkildə izah edir. Materialist-ateistlərin qəbul etdiyi kimi maddənin öz quruluşu rasionallıqla əlaqəsiz olduğuna görə həm öz quruluşu bu şəkildə olan hər hansı varlığın rasionallığa uyğun quruluşa sonradan çevrilməsini, həm də əzəldən bu xüsusiyyətə malik olmasını gözləmək üçün heç bir məntiqli səbəb yoxdur. Teist yanaşma, elmin təbiət qanunlarını əsas götürərək nə qədər nizamlı olduğunu göstərmədəki uğurundan güc alaraq bu nizamın daha dərin səbəbinin olduğu nəticəsinə çatdırır. Nəticədə kainatı rasionallığa uyğun quruluşda edən təbiət qanunlarının varlığını teizm çox rahat şəkildə izah etdiyi halda, materialist-ateizm isə bu mövzuda qaneedici izahat vermir.

**3.2-nin qiymətləndirilməsi:** Açıqlanacaq digər cəhət təbiət qanunlarının dünyanın və kainatın hər nöqtəsində bir olması, fərqli nöqtələrin hamısında eyni qanunların qəbul edilməsidir. Təbiət qanunlarının fərqli yerlərdə, həmçinin, keçmiş və gələcək zamanda qəbul edilməsilə bağlı inanc elmin əsasını təşkil edən amillərdən biridir. Təbiət qanunlarında olduğu ehtimal edilən bu xüsusiyyət sayəsində elmin ən mühüm məqsədlərindən biri olan “gələcəyi

görmə" reallaşır.

Oksforddan filosof Riçard Svinbornun diqqət çəkdiyi kimi, bir arxeoloji sahədə tapılan bütün metal pullar eyni işarələrə malik olsa, yaxud bir otaqdakı bütün sənədlər eyni əl yazısı ilə yazılsa, bu vəziyyəti anlamaq üçün ortaq mənbəni göstərəcək izahatı axtararıq.[30] Kainatın və dünyanın hər yerində eyni qaydada qəbul edilən, dünən qəbul edildiyi kimi, bu gün də qəbul edilən, yəni, geniş sahədə və uzun zaman ərzində görünən bu nizamın da müəyyən ortaq izahatı olmalıdır. Təsəvvür edin ki, kvadrilyon (min trilyon -24 sıfırlı rəqəm) vurulsun kvadrilyon, vurulsun kvadrilyondan dəfələrlə çox kuark kimi əsas hissəciklər var və bunların hamısı eyni qanunlara tabe olurlar. Bunu təsadüflə izah etmək qeyri-mümkündür. Materialist-ateistlərin bunun "labüd" şəkildə belə olduğunu deməkdən başqa seçimləri yoxdur. Lakin bunun "labüd" olduğunu ifadə etməklə əslində hər hansı izahat verilmir. "Zərurət" yalnız müəyyən ad qoymaqla üstünü örtməkdən ibarətdir. Materialist-ateist bunu labüd edənin nə olduğu, necə fərqli və uzaq nöqtələrdə eyni nəticəni verən bir zərutətin ortaya çıxardığı qaneedici cavabı paradiqma içərisində tapmır.

Teizmin ən mühüm amillərindən biri bir tanrı inancının mərkəzi rolu olan anlayışı (Vəhdaniyyət) ifadə etməsidir. Bu anlayış fərqli sahələrdə eyni qanunların qəbul edilməsinin səbəbini aydın edəcək ontologiyanı təqdim edir. Bütün fərqli və bir-birindən uzaq nöqtələrin yaradanı bir tanrı olan Allah olduğuna görə bu vəziyyətdə gözlənilməyən və təəccüb yaradan amil yoxdur. Lakin materialist-ateizmin bu vəziyyətin nə üçün belə olması ilə bağlı ağıllı izahat irəli sürməsi mümkün deyildir. Bu kitabda teizmə ciddi alterna-

30 Richard Swinburne, **"Tanrı varmı?",** Tərc: Muhsin Akbaş, Arasta nəşriyyatı, Bursa, 2001, s. 44.

tiv kimi qiymətləndirmədiyimiz çoxtanrılı inanc sistemləri də kainatı və dünyanı fərqli qüvvələr arasında bölüşdürdüklərinə görə kainatın hər yerində eyni qanunların qəbul edilməsi faktına hər hansı izahat verə bilməzlər. Hətta belə inancların təbii ehtimalları, fərqli qüvvələrin rəhbərliyi altında olan kainatın və dünyanın fərqli tərəflərində fərqli qanunların qəbul edilməsi və ya qüvvələr arasındakı çəkişmə səbəbilə xaosun çıxması olmalıdır.[31] Nəticədə teizm xaricindəki heç bir fikir fərqli sahələrdə və zamanlarda eyni təbiət qanunlarının qəbul edilməsi vəziyyətini uğurlu tərzdə izah etmir.

**3.3-ün qiymətləndirilməsi:** Teist dinlərin ortaya atdıqları sistemin (paradiqmanın) ən mühüm amillərindən biri insanın iradəsilə yaxşı və pis arasında seçim edəcəyi mühitdə özünü tapması, həmçinin, Allahın hər insanı çətinliklə sınağa çəkəcəyilə bağlı vəziyyəti, bu dünyanın imtahan dünyası olması şəklində izah etmələridir.

Bundan başqa, bu dinlərin ən əsas iddialarından biri insanların etdikləri əməllərə görə məsuliyyət daşımalarıdır. Aşağıdakı Quran ayəsi bu vəziyyətin təsvir edildiyi ayələrə nümunədir:

**“Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır”.**[32]

“Bu dünyanın imtahan yeri olması” izahatı ilə mövcudluqla bağlı bir çox sual cavabını tapdığı kimi, “əməllərə görə Allah dərgahında məsuliyyət daşıdığımız” tərzində inananların əməllərinə istiqamət verəcəkləri çox əsas baxış da aşılanır. Əxlaq və mövcudluqla bağlı fəlsəfi məsələlərdə

31 “Ənbiya” surəsinin 21/22-ci ayəsində bu cəhətə diqqət yönəldilir.
32 “Mulk” surəsi, 67/2

çox mühüm olan bu mövzunun təbiət qanunlarının mövcudluğu kimi başda fizika olmaqla təbiət elmlərilə necə əlaqəli olduğu bir çox insana çətin mövzu kimi görünür. Lakin təbiət qanunlarının olduğu mühitdə fəaliyyətlərimizin nəticələrini başa düşürük. Fəaliyyətlərimizin nəticələrini başa düşdüyümüz təqdirdə həmin fəaliyyətə görə məsuliyyət daşıyırıq. Belə bir nümunə təsəvvür edin: Yüksək uçurumun kənarında dayanan günahsız bir insanı kimsə itələsə, itələyən şəxsin hərəkətinin səhv olması haqqında çox asan qərar veririk. İnsan olaraq bu davranışı qınadığımız kimi məhkəmədə hakim olma imkanımız olsa, bu hərəkəti edən şəxsin cəzalandırılması ilə bağlı asanlıqla hökm verə bilərik. Lakin bir anlıq təbiət qanunlarının mövcud olmadığı dünya təsəvvür edin. Bu dünyada irəli itələnən insanlar bəzən geriyə gəlir və ya yuxarıya doğru uçur, uçurumdan aşağı düşən insanlar bəzən yerə dəydikdə orqanları daha dinc olur, yaxud aşağı düşməkdən böyük zövq alıb heç zərər görmürlər. Belə bir mühitdə itəyələn şəxsin irəli itələdiyi şəxsə nə olacağını ehtimal etməsi mümkün olmadığına görə bu hərəkətinə görə məsuliyyət daşıyacağını düşünmək olmaz. Məsuliyyət daşımaq yalnız təbiət qanunları olduğu təqdirdə mümkündür. (Daha əvvəl də qeyd edildiyi kimi, təbiət qanunlarının mövcudluğunun zəruri olması bu qanunların tamamilə zəruri qanunlar olması mənasına da gəlmir. Təbiət qanunları ehtimallara da əsaslana bilər. Lakin bu ehtimala əsaslanan quruluş hərəkətlərin nəticələrinin ehtimal olunmayacağı qarışıq quruluş yaratmamalıdır).

Əslində, təbiət qanunlarının deyil, xaosun olduğu mühitdə insanın nə yaşaması, nə də hər hansı dili öyrənməsi mümkün olardı. Dili öyrənmək mümkün olmadıqda, imtahana çəkilmək üçün kifayət qədər ağıl səviyyəsinə çatmaq da mümkün olmazdı. Hərəkətlərin nəticələri dəyişdikdə

hərəkətləri, adlandırılan əşyaları dəyişdikdə isə əşya adlarını müəyyən etmək mümkün olmur. Teist dinlərin mətnlərində Adəmin xüsusiyyətlərindən əsasən danışa bilməsinin vurğulandığını da xatırlayaq. Danışa bilmə xüsusiyyətilə "məsuliyyətli insan" dünyadakı yerini tutmuşdur (hər hansı dildə danışa bilmək üçün təbiət qanunlarının olduğu mühitdə yaşamaq çox mühüm şərtlərdən biridir).[33]

Qısacası, "imtahan dünyasında olduğumuza və bu səbəbdən əməllərimizə görə məsuliyyət daşıdığımız"la bağlı teist dinlərin əsas iddiası yalnız təbiət qanunlarının olduğu şəraitdə reallaşacağına görə təbiət qanunlarının mövcud olması teistlər baxımından gözlənilən vəziyyət olduğu halda, materialist-ateistlər üçün belə bir faktı gözlənilən edən amil mövcud deyildir. Bu (3.3. maddəsilə vurğulanan) cəhət kainatın rasionallığa uyğun quruluşunun təbiət qanunlarının arxasında rasional, iradəli və şüurlu Allahın varlığıyla uğurlu şəkildə izah edildiyi (3.1. maddəsilə vurğulanan) və kainatın fərqli sahələrilə müəyyən dövrlərdə eyni təbiət qanunlarının qəbul edilməsinin teizmin bir Allah inancıyla uğurlu şəkildə izah edildiyi (3.2. maddəsilə vurğulanan) cəhətlərilə birləşdirildikdə, təbiət qanunlarının varlığının teizmi materialist-ateizmdən üstün tutmağımızın zəruri olduğunu ifadə edən dəlildəki nəticə əldə edilir.

33 "Bəqərə" surəsi, 2/31.

## 3. KAİNATDAKI KƏŞFEDİLƏBİLƏRLİLİK DƏLİLİ

Ürəyimizin döyüntüsünə müdaxilə edə bilməsək də, zehnimiz ulduzlara çatır. Sonsuza qoyulan nöqtə qədər aciz, lakin nöqtə qədər olsaq da, sonsuz haqqında danışacaq qədər bilikliyik. Kainatın möhtəşəm böyüklüyündə hətta Günəş sistemimiz də bir nöqtə qədər, dünyamız bu sistemin içində, biz isə dünyamızın içində nöqtə kimiyik. Bu qədər böyük acizliklə insan zehninin həcminə, düşüncəsi haqqında düşünməsinə, özünün hüceyrələrinin içinə, hətta atomun içinə çatana qədər mikroya nüfuz etməsinə, fəzadakı quyruqlu ulduzların üzərinə kosmik aparat endirməsinə, bütün kainatın başlanğıcı haqqında "Big Bang" kimi nəzəriyyələr ortaya atmasına təəccüblənməmək mümkün deyil. Bu təəccübümüz bütün bunları mümkün edən amillərə toxunaraq artır.

Bir çox elm adamı əvvəlki başlıqda qeyd etdiyimiz təbiət qanunlarının varlığı faktında olduğu kimi, kainatda kəşf edilən amillərin mövcud olması ilə bağlı faktın özü haqqında da düşünmədən kainatda kəşfə başlayırlar. Bu vəziyyətdə olan elm adamları səs telləri haqqında düşünmədən mahnı oxuyan müğənnilərə və ya ayaqları haqqında düşünmədən qaçan atletlərə bənzəyirlər. Bunlar çox vaxt mahnılarına elə diqqət edirlər ki, mahnı oxumaq və qaçmağın nəyin nəticəsi olduğunu düşünmək ağıllarına

da gəlmir. Nadir səs telləri xəstələndikdə və ya ayaqları şikəst olduqda, bunlar haqqında düşünsələr də, bu daha çox xəstəliyi arxada qoymağa çalışmaq məqsədi daşıyır. Səs tellərinin səsi necə əmələ gətirdiyi, həmçinin, ayaq fiziologiyasının incəliklərini bilmək, yaxud bu xüsusiyyətlərə necə malik olmaları bu təcəssümün məqsədi deyildir. Bunun kimi elm adamları kainatdakı xüsusiyyətləri kəşf etməyə çalışdıqları zaman bir çoxu bu kəşf olunan quruluşun necə əmələ gəlməsi məsələsində düşünmədən işlərinə başlayırlar. Fizika alimi "Higgs" (Hiqs) hissəciyinin ("Tanrı hissəciyi" də adlanır) varlığı haqqında məlumat əldə etməyi və ya bioloq hüceyrə daxilindəki orqanoidlərin fəaliyyətini izah etməyi qarşılarına məqsəd qoyub. Lakin "Bu hissəciyi tapmağımızı mümkün edən riyaziyyatın kainata uyğunluğu necə mümkün olmuşdur?" və ya "Necə olur ki, mikroskopu hazırlamağımız və optika qanunları sayəsində hüceyrə orqanoidlərini kəşf etməyimiz mümkün olan kainatda yaşayırıq?" suallarını verənlər hətta teist elm adamları arasında da çox azdır.

Təbiət qanunlarının varlığı ilə yanaşı, kainatdakı kəşf olunma xüsusiyyəti mümkün olmasaydı, elmlə məşğul ola bilməzdik. Əvvəlki başlıqda təbiət qanunlarının varlığının necə mümkün olması ilə bağlı sualı əsas götürdük. Burada isə kainatda kəşfetməni mümkün edən hansı amillərin olması ilə bağlı sual əsas çıxış nöqtəmiz olacaqdır. (Təbiət qanunlarının mövcud olması da kainatdakı kəşf olunmanın mümkünlüyünün əsas şərtlərindən biridir. Mövzu əvvəldən araşdırıldığına görə burada bunun xaricindəki şərtlərə toxunulacaqdır.) Elmlə məşğul olarkən kainatda kəşf olunmanın mümkün olması ümidilə elmi səylər göstərilir. Lakin elmi səylərin nəticələri kainatda nəyi kəşf etdiyi-

mizi göstərsə də bu, kainatda belə kəşfləri mümkün edən hansı quruluşun olması sualının cavabı deyildir. Bu mövzuya toxunduğumuz zaman sınaq və müşahidələrə əsaslanan elmin sərhədlərindən kənara çıxıb əsaslar üzərində müəyyən qiymətləndirmə fəaliyyəti olan fəlsəfə sahəsinə daxil olmalıyıq. Burada teizmin elmi mümkün edən kainatdakı kəşfediləbilmə imkanını izah etməklə bağlı materialist-ateizmə üstünlük verilməsinə aid bir dəlil verəcəyəm:

1. İnsanlar çox aciz olmalarına baxmayaraq, kainatda olduqca mühüm kəşflər edirlər.

2. Kainatdakı kəşfediləbilərliliklə bağlı bu faktın izahatını ya teizm, ya da materialist-ateizm verir.

3. Teizm kainatdakı kəşfediləbilərlilik xüsusiyyətini materialist-ateizmdən daha yaxşı izah edir:

   3.1. Çünki kainatdakı kəşfləri mümkün edən mühüm amil olan riyaziyyatın kainata uyğunluğunu daha yaxşı izah edir.

   3.2. Çünki kainatdakı kəşfləri mümkün edən qanunların mövcud olmasını daha yaxşı izah edir.

   3.3. Çünki kainatdakı kəşfləri mümkün edən alətlərin hazırlandığı kainatda yaşamağımızı daha yaxşı izah edir.

   3.4. Çünki kainatdakı kəşflər üçün bu qədər mühüm işarələrin və dəlillərin varlığını daha yaxşı izah edir.

4. Nəticədə, materialist-ateizm deyil, teizm seçilməlidir.

Bu arqumentin birinci maddəsilə bağlı teistlərlə materialist-ateistlər çox rahat şəkildə razılaşacaqlar. Kainatın böyüklüyü qarşısında insanın mövqeyini və bioloji qurulu-

şunu araşdıranlar insanın acizliyini dərhal dərk edəcəklər. Bunun əksinə, kainatda milyardlarla işıq ili məsafədə baş verənləri araşdıra bilmək və dünyadakı milyonlarla canlını sinifləndirmək kimi elmi uğurlar da bu aciz insanın əldə etdikləridir.

Bu qədər acizliklə yanaşı, milyardlarla işıq ili məsafəni və ətrafındakı milyonlarla canlını təcəssüm etdirib araşdırmaq nəzəriyyələrlə bu sahələrə nüfuz etmək, teleskopla makronu, mikroskopla mikronu müşahidə mövzusu etmək kimi yüksək əhəmiyyətdəki faktlar (bu faktlar kainatda kəşflərin aparılması, yəni elmin inkişafı deməkdir) müəyyən izahata möhtacdır. (Bundan başqa, kainatdakı kəşf olunma xüsusiyyətinin bu vəziyyətə imkan verməsi xaricində insanın bu dərketmə fəaliyyətini necə həyata keçirməsi də çox mühümdür. Bu vacib cəhətə isə "fitrət dəlilləri" başlığı altında, xüsusən ağıl, iradə və şüurla bağlı bölmələrdə toxunulacaqdır.) Lakin bütün kainatın belə bir quruluşa necə malik olduğunu izah edən bütün kainat haqqındakı əhatəli fikirlər bu vəziyyəti aydınlaşdırır. Bu möhtəşəm faktı izah edərkən əvvəlki mühüm faktlar haqqında olduğu kimi, rəqib iki fikir qarşımıza çıxır: teizm və materialist-ateizm.

Bu dəlildə də materialist-ateistlərin etirazlarının yönələcəyi maddə üçüncü maddədir. Bir materialist-ateist baxımından üçüncü maddədə sayılan cəhətləri qəbul etmək mümkün deyildir. Çünki bunlar qəbul edildiyi zaman arqumentin nəticəsi və məntiqin zərurəti kimi qəbul edilməlidir. Burada təqdim edilən dəlilin mübahisəli maddəsi üçüncü maddədir və aşağıda bu mübahisəli maddəni təşkil edən dörd cəhət (3.1., 3.2., 3.3. və 3.4.-də qeyd edilən) araşdırılacaqdır. Bu isə bizi arqumentin dördüncü maddə-

si olan "teizmin materialist-ateizmdən üstün tutulmasının zəruriliyi" nəticəsinə aparır.

**3.1-in qiymətləndirilməsi:** Riyaziyyat qanunlarının kainatla düz gəlməsi sayəsində kainatın ilk dövrləri haqqında danışa bilməyimiz, kompüterlərdən istifadə etməyimiz, mobil telefonlarımızın işləməsi, fəzaya peyklər göndərməyimiz kimi bir çox mühüm elmi kəşf və texnoloji kəşflər reallaşmışdır. Kainatdakı kəşf olunma faktında riyaziyyatın kainata uyğun olmasının çox mühüm yeri vardır. (Əslində, bu mövzuya ayrıca dəlil kimi toxunmaq da olar.) Bu fakt kainatı başa düşmədə daim riyaziyyatdan istifadə edən, lakin həmin faktın necə reallaşdığını lazımınca düşünməmiş bir çox fizika aliminin gözündən qaçsa da, bəzi məşhur filosoflar, riyaziyyatçı və fizika alimi bu faktın özünün müəyyən izahata ehtiyacı olduğunu başa düşmüşlər. Məşhur riyaziyyatçı və fizika alimi Ejen Viqnerin "Möcüzəvi şəkildə riyaziyyatın dilinin fizika qanunlarını doğru ifadə etməyə uyğun olması, bizim başa düşə bilmədiyimiz və layiq olacağımız nə isə etmədiyimiz hədiyyədir" deyərək bu fakt qarşısındakı təəccübbünü bildirmişdir.[34]

XX əsrin ən sofistik ateisti kimi göstərilmiş Entoni Flyu təbiətin riyaziyyata uyğun quruluşda olmasını, ateizmdən uzaqlaşıb Allahın varlığına inanmağa başlamasının səbəbləri arasında qeyd etmişdir.[35]

XVII əsr elmi inqilabının ən mühüm adları Dekart,

---

34 Ejen Viqner, "The Unreasonable Effectiveness of Mathematics in The Natural Sciences", **Communications in Pure and Applied Mathematics,** Vol: 13, No: 1, fevral 1960

35 Antony Flew **"There Is A God: How The Worlds Most Notorious Atheist Changed His Mind",** Harper Kollins, Nyu York, 2007, s. 96-112.

Kepler, Qaliley, Leybnits və Nyuton kimi adlar riyaziyyatı Allahın kainatı yazdığı dil hesab edərək bu mövzudakı yanaşmalarını nümayiş etdirmişlər.

Riyaziyyat haqqında əsasən iki fərqli yanaşma qeyd edilir. Bunlardan birincisi kəşf baxımından yanaşmadır. Buna əsasən, kainat mövcud olmazdan əvvəl də riyaziyyatın gerçəklikləri keçərliydi və mümkün olan hər hansı kainatda da riyaziyyat keçərlidir. Yəni, “3+7=10” və “11,13, 17 sadə ədədlərdir” gerçəklikləri bu kainatın fövqündə olan həqiqətlərdir.

Digər yanaşma icadedici yanaşmadır. Buna əsasən, riyaziyyat insan zehninin müəyyən məhsuludur. Biz aksiomlardan riyaziyyatı əldə edirik. Bu səbəbdən, kainatdan üstün şəkildə riyaziyyatın mövcud olmasından bəhs etmək mənasızdır. Riyaziyyat filosofları və riyaziyyatçılar arasında özümü ciddi mübahisələrə səbəb olmuş bu mövzularla bağlı kəşfçi yanaşmaya yaxın hiss etsəm də, heç birini müdafiə etməyəcəyəm. Bir sözlə, hər iki fikir burada təqdim edilən arqument baxımından qiymətləndiriləcəkdir.

Əgər kəşf məqsədilə yanaşma doğrudursa, bu, riyaziyyatın kainatdan ayrı şəkildə qəbul edilməsi deməkdir. Burada mücərrəd obyektlər olan riyazi obyektlərin kainata uyğun olması sualı qarşımıza necə çıxır? Riyazi həqiqətlərin mövcudluğu ilə kainatın riyazi quruluşa uyğunluğu (kainatdakı kəşf üçün çox mühüm olan) bir-birindən ayrı faktlardır. Riyazi obyektlər təsvirlərinə əsasən mücərrəddir. Mücərrəd quruluşların isə ən mühüm xüsusiyyətlərindən biri müəyyən səbəb təşkil edən əlaqəyə girməmələridir. Məsələn, “3+7=10” mücərrəd riyazi əməldir. Nə 3, nə 7 rəqəmi, nə toplama əməli, nə də 10 ədədi nəyinsə səbəbi olmaqla kainatdakı bir şeyi təyin edər. Ədədlər özləri cibi-

nizə nə 3, nə 7 manat, nə də bunların cəmi olan 10 manat qoyar. Mücərrəd riyaziyyat kainatdakı quruluşları müəyyən etmirsə, o zaman kainatdan ayrı olan riyaziyyatın kainata necə uyğun olması (elmi kəşflərin aparılması üçün çox mühüm olan bu fakt) kimi çox mühüm sual cavabını gözləyir. Materialist-ateist yanaşmanın buna verəcəyi hər hansı cavab yoxdur. Bu vəziyyəti təsadüf kimi izah etmək isə heç də qaneedici deyildir.

Digər tərəfdən, teizm, Allahın kainatı riyazi quruluşa uyğun yaratdığını və belə kəşf edilməsinə imkan verdiyini deyərək riyaziyyatın kainata uyğunluğunu izah edir.

Əgər kəşf yanaşması doğrudursa, bu yanaşma riyaziyyatın insan zehninin müəyyən ixtirası olduğunu desə də, şübhəsiz ki, kainatın insan zehninin icadı olduğunu deyə bilmir. Riyaziyyat yalnız insan zehninin icadıdırsa, o zaman bunun kainata uyğun olması, insan zehninin digər icadı olan şahmatın kainata uyğun olması qədər mənasız deyil?[36] Bəs o zaman elmi mümkün, kainatdakı xüsusiyyətləri kəşf ediləcək mahiyyətə malik edən bu uyğunluq necə əmələ gəlmişdir? "Hiqqs" hissəciyinin əvvəl nəzəri şəkildə ortaya qoyulmasını düşünün. Belə nəzəri uğuru mümkün edən riyaziyyatın gücüdür. Bu nəzəriyyə əsasında aparılan və milyardlarla dollar sərf edilən araşdırmalarla 48 ildən sonra "Hiqqs" hissəciyinin məhz nəzəriyyədəki kimi olduğu təsdiqlənmişdir.[37] Kəşfə əsaslanan yanaşmanı mənimsəyən materialist-ateistlər belə, elmi kəşfləri mümkün edən riyaziyyatın kainata uyğunluğu faktını xoşbəxt təsadüflə izah etsələr, bu yanaşmanı qaneedici hesab

36 Caner Taslaman və Enis Doko, "**Kuran ve Bilimsel Zihnin İnşası"**, İstanbul nəşriyyatı, İstanbul, 2015, s. 79.

37 Caner Taslaman, "Tanrı Hissəciyi: Fəlsəfi qiymətləndirmə", **Felsefe Dünyası**, No: 56, 2012, s. 78-93.

edirsiniz? Belə bir uyğunluğu və kainatı başa düşmədə bu qədər məharətli ehtimallar verməyin riyaziyyatla kainatın aydın olmasına imkan verməsini xoşbəxt təsadüflə izah etmək və ya bu vəziyyəti izahı lüzumsuz fakt kimi qiymətləndirmək heç də qaneedici deyildir. Kəşf yanaşmasını mənimsəyən teistlər isə kainatın riyaziyyatla qarşılaşmasını Allahın qarşılaşdırmasının müəyyən nəticəsi hesab edərək bu mühüm faktı izah etməkdə heç bir çətinlik çəkmirlər. Nəticədə kainatda kəşf olunma xüsusiyyətinin olmasında çox mühüm fakt olan riyaziyyatın kainata uyğunluğu, riyaziyyata qarşı kəşf və ya icadçı yanaşmanın mənimsənməsindən asılı olmayaraq, teizm tərəfindən materialist-ateizmdən daha uğurlu izah edilir.

**3.2-nin qiymətləndirilməsi:** Kainatdakı kəşfediləbilərlilik xüsusiyyətini mümkün edən elə təbiət qanunları vardır ki, bu qanunlar bu şəkildə olmasaydı, kainatdakı xüsusiyyətləri kəşf etmək heç zaman mümkün olmazdı. Görməni mümkün edən optikanın qanunları da buna nümunədir.

Bununla yanaşı, kainatda elə qanunlar vardır ki, bunlar olmasa, kainatdakı kəşflərin bir hissəsi belə mümkün olmazdı. “Dopler” təsirini isə buna nümunə göstərmək olar.

İnsan gözü bir neçə kvadratsantimetr olsa da, gözlə nəhəng kainatı görürük. Günəşimizdən daha böyük ulduzları çox kiçik gözümüz əhatə edir və görür. Şübhəsiz ki, burada heç bir sehrli hal yoxdur. Fizikanın izah etdiyi optika qanunlarının mövcud olması sayəsində çox böyük obyektlər çox kiçik göz tərəfindən görülür. Maraqlıdır ki, fizika optikanın qanunlarını izah etsə də, optika qanunla-

rının mövcud olması kainatda nə üçün yaşadığımızı izah etmir. Optika qanunları olmasa, heç bir elmi kəşf mümkün olmaz, hətta bu qanunlar olmasa, görmə reallaşmadığına görə insanların varlığını davam etdirməsindən bəhs edilməzdi. Çox nəhəng kainatda çox kiçik nöqtə olan insanın bütün kainat haqqında düşünməsinə imkan verən amillərdən biri kainatı görməsi, bu görməyə imkan verən amillərdən biri isə optika qanunlarının mövcud olmasıdır. Çox kiçik nöqtənin bütün fəzaya yönəlməsinə imkan verən bu qanunların olmadığı kainat məntiqi baxımdan mümkündür. Təbiət qanunlarının bu şəkildə mövcud olması məntiqi cəhətdən labüd deyildir. Belə ki, işığın olmadığı kainatda optika qanunları haqqında danışmaq mümkün deyildir. Bununla yanaşı, hamımız işığın varlığının məntiqi cəhətdən zəruri olmadığını bilirik.

"Dopler" təsiri sayəsində dalğa xüsusiyyətinə malik olan varlığın uzaqlaşdığını, yoxsa yaxınlaşdığını başa düşürük. Bir səsin mənbəyinin uzaqlaşıb-uzaqlaşmadığını bu təsirlə başa düşdüyümüz kimi, yol polislərinin cihazları bu təsirə əsaslanaraq nəqliyyat vasitələrinin sürətini ölçür. Kosmologiyanın çox mühüm ixtiralarından biri olan kainatın genişlənməsilə bağlı müşahidəyə əsaslanan məlumat bu təsir sayəsində milyardlarla işıq ili məsafədə olan qalaktikaların bir-birindən uzaqlaşdığı isbat edilərək əldə olunmuşdur. Buna bənzər qanunlardan istifadə edərək elmi biliklər artır, lakin elmin kainatla bağlı belə kəşfləri üçün hər şeydən əvvəl belə qanunlar mövcud olmalıdır. Elmi araşdırmaları təqib edənlər kainatın kəşf edilməsinə imkan verən buna bənzər bir çox qanunun mövcud olmasına şahidlik edəcəklər.

Teizmin paradiqmasına əsasən, Allah öz qüdrət və

sənətinin aydın olmasına xidmət edəcək səbəblərlə kainatdakı xüsusiyyətlərin kəşfini mümkün etmişdir. Bu paradiqma daxilində optika qanunlarının və "Dopler" təsirinin bu məqsədə xidmət etməsində təəccüblənəcək heç nə yoxdur. Lakin materialist-ateist paradiqma daxilində kainatın bu quruluşda olması heç bir məqsədin nəticəsi kimi qiymətləndirilə bilməz. Kainatın qanunları və prosesləri məqsədyönlülükdən uzaqdır. O zaman bu qədər fərqli qanunun kainatdakı xüsusiyyətlərin kəşf edilməsi prosesinə belə xidmət etməsinin, teizmin ifadə etdiyi kimi məqsədə uyğun müəyyən nizamlama, yoxsa materialist-ateistlərin ifadə etdiyi kimi xoşbəxt təsadüf olduğu versiyaları ilə üz-üzəyik. Bu sualın cavabını aşağıdakı suala olan cavabla da verə bilərik: bəhs edilən qanunların kainatdakı kəşflərə belə xidmət etmələrinə teist, yoxsa materialist-ateist təəccüblənməlidir? Kimin paradiqması daxilində mövcud vəziyyət daha az təəccüblənəcək vəziyyətdirsə, bu, daha doğru izahat olar. Burada teist baxımından heç bir təəccüblü vəziyyət yoxdur. Materialist-ateist baxımından isə bu qədər aciz vəziyyətdə insanın ucsuz-bucaqsız kainatla bağlı mühüm kəşflər etməsi üçün bu qədər imkanın olması çox təəccüblü vəziyyətdir. Kainatdakı kəşfin bir çox belə qanunun varlığı ilə bağlı olması, həmçinin bu qanunların mövcud olub kainatdakı kəşflərdə bu qədər mühüm olması ilə bağlı möhtəşəm faktı başa düşməyimizə teist paradiqma ağıllı izahat verdiyi halda, materialist-ateist paradiqma heç bir izahat verə bilmir.

**3.3-ün qiymətləndirilməsi:** Riyaziyyatın kainata uyğun olması və təbiət qanunlarının kainatdakı kəşflər üçün bir çox imkanlar yaratması ilə yanaşı, kainatdakı kəşflərə

imkan verən digər mühüm amil elmi fəaliyyətlərdə istifadə edilən cihazlardır. Məsələn, teleskopla mikroskopa nəzər yetirək: teleskopla çox uzaq məsafələrlə bağlı məlumat əldə etmək mümkün oldu. Əvvəl Günəş sistemimiz, sonra isə kainatın daha uzaq nöqtələri elmi kəşflərin obyekti oldu. Mikroskopla isə mikrodünyaya nüfuz edildi. Müasir biologiyanın bugünki vəziyyətə gəlməsinə imkan verən ən mühüm kəşfin mikroskop olduğu bildirilir.[38]

Kainatdakı kəşflərə imkan verən ən mühüm səbəblərdən biri belə cihazların istehsal edilməsidir. Bütün bu cihazlar, belə cihazların istehsalına imkan verən kainatda yaşamağımız sayəsində mümkündür. İnsan nə qədər qabiliyyətli olsa, riyaziyyat kainata nə qədər uyğun olsa, təbiət qanunları kəşflərə nə qədər kömək etsə də, bu kainatın xammalları heç cür şüşənin istehsalına imkan verməsəydi, belə bir kainatda teleskop və mikroskop istehsalından söhbət edə bilməzdik.

Bundan başqa, kainatın xammalları imkan verməsə, nə kompüterlər, nə peyklər, nə də yüklənmiş hissəciklərin sürətləndiriciləri istehsal edilərdi. Burada belə bir sual verməliyik: Necə olur ki, kainatın bizə təqdim etdiyi xammallar, kainatdakı kəşflərdə çox mühüm rollara malik olacaq vasitələr hazırlamağımıza imkan verən kainatda yaşayırıq? Teizmin təqdim etdiyi anlayış baxımından kainatdakı kəşflərə imkan verəcək cihazların hazırlanmasının mümkün olmasında da təəccüblü vəziyyət yoxdur. Materialist-ateizm baxımından bu vəziyyət də xoş təsadüfdür. Burada da teizmin, elmi kəşflərin aparılmasının şərtlərinin

38 Mikroskopun səbəb olduğu elmi inqilab üçün baxın: Ketrin Uilson, **The Invisible World Early Modern Philosophy and The Invention of The Micros-Cope,** Princeton University Press, Princeton, 1995.

mümkün olduğu kainatda yaşamağımıza materialist-ateizmdən daha yaxşı izahat verilməsinin şahidi oluruq.

**3.4-ün qiymətləndirilməsi:** Kainatın kəşf olunmasına imkan verən digər mühüm amil mühüm kəşflərin edilməsinə imkan verəcək bir çox mühüm işarənin və dəlilin kainatın müəyyən yerlərində kəşf olunmağı gözləmələridir. Buna nümunə kimi kosmik fon radiasiyasını və canlıların orqanizmində mövcud olan karbon atomunun izotopu radiokarbonu verirəm.

Kosmik fon radiasiyası XX əsrdə tapılmış və bu radiasiya bütün kainata yayılmışdır. Bu, "Big Bang" nəzəriyyəsini təsdiq etmiş, kainatın ilk dövrləri haqqında mühüm kəşflərə imkan vermişdir. Kainatda bir nöqtə olan insanın bütün kainatın əvvəli haqqında danışmasında və ilk dövrləri haqqında kəşflər etməsində belə bir işarəyə malik olması mühüm rol oynamışdır. Radiokarbon canlıların orqanizmində olan karbon atomunun bir izotopudur. Bu izotopun fiziki xüsusiyyətləri sayəsində arxeoloji qazıntılarda olan heyvan və bitki qalıqları, ağac hissəcikləri və dərilərin tarixi haqqında məlumat əldə etmək mümkün olur. Bu proses canlı növlərinin neçə il əvvəl dünyamızda yaşadıqlarını və arxeoloji qazıntılar nəticəsində tapılan mədəniyyətlərin neçə il əvvəl mövcud olduqlarını başa düşməyimizdə mühüm rol oynamışdır. Kainatdakı kəşflərlə bağlı prosesdə buna bənzər bir çox işarələr dəyərləndirilmişdir. Elm bu işarələri əsas götürərək öz məqsədinə yönəlir. Lakin "nə üçün kainatdakı kəşflərə imkan verən belə işarələr vardır?" sualı bu işarələrdən istifadə edilməsindən ayrı olaraq cavablandırılmanı gözləyir. Sualı belə də verə bilərik: çox aciz canlı növü olmağımıza baxma-

yaraq, çox mühüm kəşflər etməyimizə imkan verən işarə və dəlillərin kainatda mövcud olmasının izahı nədir? Bu vəziyyəti şüurlu nizamlamanın nəticəsi hesab edən teizm burada da materialist-ateizmdən daha uğurlu izahat təqdim edir.

Quranın kainat haqqında düşünməyə sövq edən yüzlərlə ayəsi teizm baxımından kainatdakı kəşf xüsusiyyətinin nə üçün gözlənilən, hətta arzuedilən xüsusiyyət olmasının ən gözəl nümunələridir. Kainatdakı kəşf cəhəti kainatı tanımağa, bu isə Allahın qüdrət və sənətini daha yaxşı başa düşməyə imkan verir. Bu ayələrin insanlara müraciət etdiyi dövrdə kainatda kəşflər edilməsinə əhəmiyyət verən elmi mədəniyyətin geniş yayılmadığı da xatırlanmalıdır. Quranın kainat haqqında düşünüb nəticələr çıxarmağa təşviq edən ayələrinə nümunə:

**“Məgər onlar başları üstündəki göyə baxıb onu necə yaratdığımızı və necə bəzədiyimizi görmürlərmi? Orada heç bir yarıq da yoxdur. Biz yeri döşədik, orada möhkəm dağlar yerləşdirdik və gözoxşayan bitkilərin hər növündən yetişdirdik”**[39]

Bir sözlə, kainatdakı kəşf xüsusiyyəti riyaziyyatın kainata uyğunluğu (3.1.), bəzi təbiət qanunlarının kəşflərə imkan verməsi (3.2.), kəşflərə imkan verən cihazların hazırlandığı kainatda yaşamağımız (3.3.) və bu kəşfləri mümkün edən bir çox işarə ilə dəlilin mövcud olması (3.4.) kimi faktların birləşməsilə mümkün olur. Kainatdakı belə kəşf xüsusiyyətinin mövcud olması materialist-ateizm baxımından heç gözlənilməyən vəziyyət olduğu halda, bu vəziyyətin şüurlu şəkildə əmələ gətirildiyini ifadə edən teizm baxımından bunda gözlənilməyəcək hal yoxdur. Nə-

39 “Qaf” surəsi, 50/6-7.

ticədə kainatdakı kəşf xüsusiyyətinin (elmin inkişafının) necə mümkün olduğunu göstərmək kimi mühüm mövzuda daha yaxşı izahat təqdim etdiyi üçün teizm materialist-ateizmdən üstün tutulmalıdır. Artan biliyimiz bizim gücümüzü göstərsə də, bu, eyni zamanda, bizə acizliyimizi hayqırır. Burada təqdim edilən arqument bu vəziyyətin nə üçün paradoksal olmadığını izah edir. Çünki Allahın sərhədsiz gücü və möhtəşəm yaratdıqları qarşısında acizik. Lakin yaradanımız kainatdakı xüsusiyyətləri belə kəşf olunacaq formada yaratdığına görə ucsuz-bucaqsız kainatdakı nöqtəcik qədər olan varlığımıza və acizliyimizə baxmayaraq, kainatda mühüm kəşflər edə bilirik.

## 4. KAİNATIN POTENSİALI DƏLİLİ

Nə qədər məharətli olsanız da, hər hansı bir şeyin yalnız potensialı qədər yaradacaqsınız. Bir şeyin potensialı o şeyin olması mümkün olan bütün vəziyyətlərini ifadə edir. Məsələn, bir qutudan çıxan "Leqo" oyununu təsəvvür edin. Burada olan hissəciklərdən oyuncaq avtomobil, ev və ya zürafə düzəldə bilərsiniz. Lakin dünyanın bütün ağıllı insanları toplaşsa, bu hissəciklərdən həqiqi avtomobil, ev və ya zürafə hazırlaya bilməzlər. Çünki qutudan çıxan "leqo" hissəciklərində həqiqi avtomobil, ev və zürafə potensialı yoxdur. Bu hissəciklərin nə qədər birləşdirmə forması olsa da bunların heç biri həqiqi avtomobil, ev və ya zürafəyə qarşılıq deyildir. Bununla yanaşı, yaşadığımız kainatın potensialında olmayan bir şeyin bu kainatda ortaya çıxması da mümkün deyildir.

Duyğu orqanlarımızla qavradıqlarımız yaşadığımız kainatın potensialı haqqında məlumat əldə etməyimizə imkan verir: ulduzlar, planetlər, su, yüzminlərlə bitki növü, balıq növləri, quşlar, həşəratlar, avtomobillər, kompüterlər, fərqli musiqi növləri kainatın potensialında mövcud olmasaydı, indi bunları görməz, eşitməz, dadmaz və hiss etməzdik. Fizikanın ortaya qoyduğu mənzərəyə görə, kainat kuarklar kimi hissəciklərdən ibarətdir və bunların bir-

ləşməsilə kimyəvi elementlərin dövri cədvəlində elementlərin sayı 120-dən azdır (bunların bir hissəsi təbii şəkildə mövcud deyil, laboratoriya şəraitində hazırlanır). Bu xammalla bütün qeyd edilənlər -ulduzlardan musiqi növlərinə qədər hər şey çeşidliliyi ilə kainatda mövcud olanları əmələ gətirir. Sanki "Leqo" oyununda olanlar bunlardır. Bu hissəciklərin birləşmə, ayrılma, yenidən birləşmə və şəkildəyişdirmə kimi proseslərilə kainatda gözlədiyimiz hər şey əmələ gəlir. Əgər kainatdakı xammal bütün bu sayılanları ortaya çıxaracaq potensialda olmasaydı, qeyd olunanların heç-biri mövcud olmazdı. Bir çoxları bunları diqqətə almasa da, kainatın belə bir potensiala necə sahib olması cavablanması ən mühüm suallardan biridir.

Bu halda cavabı çox mühüm olan aşağıdakı sualla qarşılaşırıq: yaşadığımız kainatın bu qədər çoxnövlülüyə malik olmasının, gözəlliyi, ağlı, cihazı, musiqini potensialında cəmləşdirməsinin izahı nədir? Kainatın bu potensialı ilə bağlı aparılacaq dəyərləndirmələrin, bizi Allahın varlığıyla bağlı çox mühüm dəlilə çatdıracağını fikirləşirəm. Bu dəlilin mühüm xüsusiyyəti, elmi hər hansı icaddan ayrı olmasıdır. Yəni, kvant, nisbilik və təkamül nəzəriyyəsi kimi hər hansı nəzəriyyənin tamamilə səhv olmasının isbat edildiyini və ya mühüm dəyişikliklərə məruz qaldığını fərz etdiyimiz zaman bu arqumentə heç bir təsir etmir. Çünki bu dəlildə elmi nəzəriyyədən hərəkət etmədən fəlsəfi arqument irəli sürülür. Hər hansı nəzəriyyənin doğru və ya səhv olması ulduzların, dünyamızın, çayın və Motsartın əsərlərinin bu kainatın potensialında mövcud olması həqiqətini dəyişdirmir. Məsələn, nisbilik nəzəriyyəsinin formullarının doğru olmasından, yaxud bir gün bu formulların səhv olmasının isbat edilməsinin göstərilməsindən

asılı olmayaraq, bu fərqli vəziyyətlərin hamısında çayı və ya Motsartın əsərlərini mümkün edən potensial kainatda mövcud olmasaydı, bunların mövcud olmayacağını asanlıqla deyə bilərdik.

Bu kainatda kainatın potensialının mümkün etdiklərindən başqa heç nəyin olmaması məntiqin zərurətidir. Duyğu orqanlarımızla qavradığımız hər şey bizə kainatın potensialını göstərir. Hətta insan duyğu orqanlarıyla bu qavradıqlarımızın bir xəyal olduğu kimi mənfi şübhəni ortaya atsaydı, yenə də zehnimizdə bu qədər fərqli xəyalın necə mövcud olduğu, zehnimizin bütün bu sayılanlara bənzər xəyallara necə sahib olduğu, yəni, zehnimizdə bu qədər fərqli xəyalın qavranılmasına imkan verən potensialın haradan gəlməsi üçün izahata ehtiyac olardı. Nəticədə burada qeyd edəcəyim dəlili xüsusi edən cəhətlərdən biri budur. Elmi nəzəriyyələrlə bağlı köklü dəyişikliklərdə, hətta bu kainatın müəyyən xəyal olması kimi şübhəli hallarda da bu arqumentin müdafiəsi mümkündür. İndi "kainatın potensialı dəlili" adlandırdığım bu dəlili təqdim etməyə keçirəm:

1. Kainatımız cansız və canlı varlıqları, texnoloji və bədii (yaradanın sənətkarlığı sarıdan) yenilikləri üzə çıxaran potensiala malikdir.

2. Kainatın potensialı ilə bağlı bu faktın izahını ya teizm, ya da materialist-ateizm verə bilər.

3. Teizm kainatın potensialını materialist-ateizmdən daha yaxşı izah edir:

   3.1. Çünki kainatın bu qədər yüksək nisbətdə fərqliliyi öz potensialında cəmləşdirməsi teizm baxımından gözlənilən faktdır.

   3.2. Çünki kainatın "gözəl" kimi xarakterizə etdiyi-

miz quruluşları və bədii (yaradanın sənətkarlığı baxımından) imkanları öz potensialında cəmləşdirməsi teizm baxımından gözlənilən faktdır.

3.3. Çünki kainatın ağla uyğun maddəni və mövcud həcmilə insan ağlını öz potensialında cəmləşdirməsi teizm baxımından gözlənilən faktdır.

3.4. Çünki kainatın iradə və şüuru öz potensialında cəmləşdirməsi teizm baxımından gözlənilən faktdır.

4. Nəticədə, materialist-ateizm yox, teizm seçilməlidir.

Bu arqumentin birinci maddəsi hamımızın gözlədiyi fakta işarə edir. Hamımız kainatda bir çox əşya kimi cansız varlıq növünü, heyvanlar kimi canlı varlıq növünü, elektron cihazlar kimi texnoloji istehsal növünü və musiqi kimi incəsənətə aid əsərləri müşahidə edirik. Əgər kainatımız bunları əmələ gətirəcək potensiala malik olmasaydı, məntiq bunların əmələ gəlməməli olduğunu zəruri edir. Bu mövzuda materialist-ateistlər və teistlər arasında hansısa fərq olmasından söhbət gedə bilməz.

Kainatın bu qədər fərqli növləri öz potensialında cəmləşdirməsi qeyri-adi haldır. Ətrafımızda uçan quşlardan əlimizdəki şüşə stəkana, cibimizdəki telefondan fonda səslənən Motsart melodiyasına qədər sınadığmız bütün bu faktlar kainatın potensialının bunları mümkün etməsi sayəsində mövcud olmuşdur. Əvvəlki arqumentlərdə toxunulanları olduğu kimi, bu qədər əsas məsələni də yalnız bütün kainat haqqında izahedici iddiasındakı ontoloji yanaşmalar izah edir. Əvvəlkilərdə olduğu kimi, bu mövzuda da iki rəqib yanaşma ilə qarşılaşırıq. Bunlar teizm və materialist-ateizmdir.

İrəli sürülən bu dəlildə materialist-ateistlərin qəbul et-

məyəcəkləri maddə üçüncü maddədir. Çünki bu maddə doğru olduqda, teizmin materialist-ateizmdən üstün tutulması ilə bağlı nəticə çıxacaq. Aydın olduğu kimi, burada təqdim edilən dəlildə diqqət yetirilməsi zəruri olan üçüncü maddə mübahisəlidir və bu maddənin əsas maddələri kimi ifadə edilən dörd cəhət (3.1., 3.2., 3.3. və 3.4.-də qeyd edilən) aşağıda toplanaraq buradakı iddia qaldırılacaqdır.

Bu arqumentdə istifadə edilən metodologiya, yəni hansı fikir doğru olduqda mövcud gözlədiyimiz vəziyyət də gözlənilsə, doğru olması ən konkret fikrin o olması ilə bağlı bunu dəlil qəbul etmək gündəlik həyatda çox istifadə etdiyimiz mühakimə formasıdır. Məsələn, Əmrə ilə Çingizin özləri üçün çox mühüm yarışa girdiyini təsəvvür edin. Yarış sona çatdıqdan sonra yarış meydanına gəlin. Əgər Əmrəni sevinən, Çingizi məyus görsəniz, yarışda kimin qalib gəldiyini görmədən və eşitmədən Əmrənin yarışda qalib gəlməsi qənaətinə gələcəksiniz. Çünki Əmrə yarışda qalib gəlibsə, sevinməsinin, Çingiz məğlub olubsa, məyus olmasının gözlənildiyini, əks halda, Əmrənin məyus, Çingizin isə sevinməsinin gözlənildiyini bilirsiniz. Bu biliyinizlə Əmrənin şən, Çingizin isə məyus olduğunu gördüyünüz zaman yarışda Əmrənin qalib gəlməsi qənaətinə gələcəksiniz. Burada istifadə edilən mühakimə üsulu da tamamilə tez-tez istifadə etdiyimiz mühakimə formasıdır. Mövcud vəziyyəti hansı görüşün doğru olması halında gözləyiriksə, bu vəziyyətin gözlənilməsi həmin fikir üçün dəlildir.

**3.1-in qiymətləndirilməsi:** Kainatımızın bir çox qalaktikasındakı ulduzlar və planetlərlə yanaşı, dünyamızda bizə yaxın olan bir neçə milyon canlı növü vardır. Bu can-

lıların bədən quruluşlarında, həmçinin, qidalanma və qorunma kimi davranışlarında möhtəşəm xüsusiyyətlər mövcuddur. İnsanların ən sadə ev cihazlarından ən mürəkkəb vasitələrə qədər olan texnoloji ixtiraları da müxtəlifdir. Bunlarla yanaşı, kinodan musiqiyə qədər müxtəlif sənət sahələrində olan yeniliklərin də şahidi oluruq.

Bir anlıq bu qədər müxtəlifliyin kainatımızda yarandığını bilmədiyimizi fərz edək və aşağıdakı sualı verək: hər hansı materialist-ateist baxımından, yoxsa teist baxımından belə bir müxtəlifliyin əmələ gəlməsinə potensialı imkan verən kainatda yaşamağımız gözlənilən vəziyyətdir? Bu fikirlərin hansına kainat təsəvvürü baxımından kainatın potensialının belə bir müxtəlifliyin ortaya çıxmasına imkan verməsi, daha doğrusu, həmin fikrin digərindən üstün hesab edilməsinin zəruri olması nəticəsinə gəlirik. Teizmə əsasən, Allah kainata sahib olduğu potensialı vermişdir. Yəni, bu kainat məqsədəuyğun şəkildə yaradıldığına görə bu kainatın belə bir müxtəlifliyin yaranmasına imkan verəcək potensiala malik olmasında təəccüblü vəziyyət yoxdur. Kainatın bu potensiala malik olması sayəsində kainatda Allahın qüdrət və sənətinin dəlilləri görünür, bundan başqa, insanlara nemətlərin verilməsinin, həmçinin imtahanlarının bir hissəsi olan texnoloji və bədii yeniliklər ortaya çıxır.

Digər tərəfdən, materialist-ateizmin kainatla bağlı fikrinə əsasən, maddə məqsədsiz və passiv varlıqdır. Belə bir varlığın müxtəlifliyə səbəb olmasına ehtimal verəcək heç nə yoxdur. Bu arqumentin qəbul edilməsi üçün teizmin kainat fikrində belə bir müxtəlifliyin ortaya çıxmasının ehtimal edilməsinə qarşı materialist-ateizmin kainat fikri baxımından belə bir müxtəlifliyin ortaya çıxmamasının

ehtimal edilməsinə də ehtiyac yoxdur. Materialist-ateizm baxımından belə bir müxtəlifliyin ortaya çıxmasının ehtimal edilməməsi kifayətdir. Materialist-ateizm baxımından kainatın potensialının bu müxtəlifliyin yaranması ehtimalına imkan verməsi qeyri-mümkün olduğuna görə kainatda gözlədiyimiz müxtəliflik teizmin lehinə dəlil yaradır.

**3.2-nin qiymətləndirilməsi:** Kainatın potensialında "gözəl" olaraq xarakterizə etdiyimiz bir çox quruluşun mövcud olması xüsusi diqqəti zəruri edəcək qədər maraqlı fenomendir. "Gözəl" kimi xarakterizə etdiyimiz varlıqlar rənglərdən, heyvanlar dünyasından insanların mədəni fəaliyyətlərinə qədər geniş sahədə qarşımıza çıxır. Burada insanların mədəni fəaliyyətlərinin bu arqument baxımından təbiətdəki gözəlliklərdən heç bir fərqi olmadığına diqqət edək: Əgər kainatın potensialı imkan verməsəydi, kəpənəyin qanadı ortaya çıxmayacağı kimi, kainatın potensialında notlar mövcud olmadıqda da İtrinin musiqiləri yaranmayacaqdı. Bir şeyi "gözəl" olaraq xarakterizə etdiyimiz zaman nəyi nəzərdə tutduğumuza diqqət yetirərək "gözəl" dediklərimizin xüsusiyyətlərini başa düşürük: "Gözəl" kimi xarakterizə etdiyimiz, özünə cəlb edən, qiymətli hesab etdiyimiz və istehsalçısını tərifləməyimizə səbəb olan varlıqdır. "Gözəl" dediyimizin tam olaraq nə olması fəlsəfi baxımdan burada toxunmağımızın mümkün olmayacağı çətin mübahisədir. Lakin aydın olması bu qədər çətin məfhum olsa da, həm həyat yoldaşı, həm yemək, həm də geyim və mebel seçərkən "gözəl" məfhumundan istifadə edirik. (Bu çətin məfhumu bu qədər asan istifadə etməyimiz insan fitrətinin bu məfhumu istifadə edəcək formada yaradılmasının göstəricisidir).

Burada sualımızı belə verək: “gözəl” kimi xarakterizə etdiyimiz bir çox varlığın ortaya çıxması teizmin kainat anlayışında gözlənilən vəziyyətdir, yoxsa materialist-ateist düşüncənin kainat anlayışında? İncəsənətin ən təsirli sahələrindən olan musiqiyə nəzər yetirək. Mustafa İtrinin və ya Baxın musiqilərinin təsadüfən, hər hansı sənət adamının məqsədyönlü və mədəni fəaliyyətindən kənar yaranmasının mümkün olub-olmaması ilə bağlı suala intuisiya vasitəsilə hər insan xor şəklində “xeyr, mümkün deyildir” cavabını verəcəkdir. Bəs kainatın potensialında musiqinin varlığına imkan verəcək notların mövcud olmasını, bundan başqa, həmin notların potensialında həm İtrinin, həm Baxın, həm də yüzminlərlə sənət adamının fərqli musiqilərinin yaranmasına imkan verəcək potensialın mövcud olmasını teizmin tövsiyə etdiyi formada kainata bu potensialın şüurlu şəkildə verilməsi kimi, yoxsa materialist-ateizmin tövsiyə etdiyi xoş təsadüf kimi qiymətləndirmək daha yaxşı izahatdır? İtrinin yalnız bir musiqisinin yaranmasını təsadüflə izah etməyən intuisiyalarımız kainatın potensialının musiqi kimi möhtəşəm meyvənin yaranmasına imkan verməsini heç cür təsadüflə izah etməməlidir.

Teizm baxımından insanların “gözəl” kimi xarakterizə etdiklərindən zövq almaları üçün Allahın kainata belə bir potensialı qoyduğunu düşünmək mümkündür. Ən əsası isə insanın kainatda yaradılan varlıqları araşdırarakən dəyərli hesab etməsi, həmçinin Yaradanını qiymətləndirməsi üçün Allahın kainatda “gözəl” olaraq xarakterizə edəcək varlıqların ortaya çıxmasına səbəb olan potensialı (bundan başqa, insan fitrətində “gözəl” qavrayışını) yaratması gözlənilən vəziyyətdir. “Gözəl” olanın qiymətli olduğunu

və yaradanının qiymətləndirilməsinə səbəb olduğunu xatırlayın. Lakin materialist-ateizm düşüncəsində kainatda "gözəl" kimi xarakterizə etdiyimiz bu qədər fərqli varlığın ortaya çıxmasını gözlənilən edən heç bir amil mövcud deyildir.

**3.3-ün qiymətləndirilməsi:** Kainatda ağlın dərk etməsinə uyğun quruluş və möhtəşəm yeniliklər ortaya qoyan insan ağlı vardır. Bir qədər əvvəl aydın olduğu kimi, ağlın dərk etməsinə uyğun quruluş təbiət qanunlarının mövcudluğu sayəsində əmələ gəlmişdir. Qanunların mövcud olması da kainatın potensialının nəticəsidir. Bu cəhətə "qanunların varlığı dəlili" ilə bağlı hissənin 3.1. maddəsində diqqət yönəldildiyi və nə üçün bu vəziyyətin teizmi dəstəklədiyi göstərildiyinə görə bu cəhəti burada təkrar etməyəcəyəm. Lakin bu vəziyyəti "kainatın potensialı" baxımından toxunulmasının mümkün olduğunu göstərmək üçün vurğuladım.

Bundan başqa, insan ağlının mövcud olması və bu qədər çox nəzəriyyə ilə texnoloji istehsal həyata keçirəcək imkanının olması da kainatın bunu mümkün edən potensialı özündə cəmləşdirməsi sayəsində baş vermişdir. Riyaziyyatdakı sadə ədədlərlə bağlı teoremlərdən kvant nəzəriyyəsinə, yüksək həcmli kompüterlərdən kosmosa göndərilən peyklərə, inşaat texnologiyalarından tibbi texnologiyalara qədər bütün bəşəriyyətin yenilikləri kainatın potensialının insan üçün ağılla bağlı bu qədər əhatəlilik imkanı verməsi sayəsində ortaya çıxmışdır. Başlanğıcda kainatın potensialında olmayan heç nə sonradan ortaya çıxmır. Neytron ulduzları və kəpənəklər buna daxil olduğu kimi, ağlımızın məhsulu olan sadə ədədlər teoremi də

buna daxildir. İnsanların ağıllarıyla etdikləri kəşflərə və icadlara (buradakı yanaşmaya əsasən, hər "ixtira" dediyimiz potensialda mövcud olanın kəşfidir) o qədər diqqət yetiririk ki, bunların yaradılmalarından əvvəl kainatın potensialında bizə hədiyyə olunmaları sayəsində mümkün olduqları kimi mühüm cəhəti gözdən qaçırırıq.

"Necə olur ki, kainatda ağlın yüksək əhatəliliyi ilə ortaya çıxmasına səbəb olduğu bir potensial mövcuddur?" sualına veriləcək cavab çox vacibdir. İnsanın bütün acizliyinin əksinə, ağlıyla reallaşdırdıqlarını düşündüyümüz zaman qeyri-adi mənzərə ilə qarşılaşırıq. Teizmə əsasən, Allah əzəli və ağıl sahibi bir varlıq olduğuna görə ağıl əzəli ünsürdür. Allah ağılla bağlı miqyasın ortaya çıxacağı potensialı da kainata vermişdir. İnsanın da kainatdakı xammaldan bu xüsusiyyətdə yaradılmasında gözlənilməyəcək bir vəziyyət yoxdur. Bundan başqa, insanın ağıl gücü Allahın varlığını, qüdrət ilə sənətini bilməsini, həmçinin, imtahana çəkilməsini mümkün etdiyinə görə belə bir potensialla kainatın yaradılması hər hansı teist baxımından gözlənilən vəziyyətdir. (Kitabın fitrətlə bağlı hissəsindəki 10-cu dəlil olan "ağıl dəlili" bu mövzu ilə əlaqəli olduğuna görə bu cəhətlə bağlı həmin yer də oxunmalıdır.) Lakin materialist-ateizm baxımından ağılsız, passiv, məqsədsiz varlıq olan kainatın xammalında ağılla bağlı belə bir potensialın necə mövcud olduğunu izah etmək çox çətindir. Nəticədə kainatın sahib olduğu potensialın həm kainatın ağla uyğunluğunu, həm də mövcud miqyası ilə ağlın ortaya çıxmasına necə imkan verdiyini izah etmədə teizm materialist-ateizmdən daha uğurludur.

**3.4-ün qiymətləndirilməsi:** İradə və şüur insanı insan edən ən əsas xüsusiyyətlərdir. Kainatın potensialının bunların ortaya çıxmasına necə imkan verdiyini başa düşməkdə materialist-ateist baxımından böyük çətinliklər mövcuddur. Lakin iradə və şüuru Allahın əzəli xüsusiyyətləri hesab edən teistlər burada da hər hansı çətinliklə qarşılaşmırlar. Bu cəhətə kitabın 11 və 12-ci dəlillərində toxunulacağına görə burada təkrara yol verməmək üçün bunları qeyd etmirəm. Lakin bu cəhətin kainatın sahib olduğu potensialla da bağlı olduğuna diqqətlərinizi yönəltmək istəyirəm.

Bu dəlili mühüm edən xüsusiyyətlərdən biri təbiətdə olanlarla yanaşı, insanların elmi, texnoloji və mədəni fəaliyyətlərini də Allahın varlığıyla bağlı hər hansı dəlilin obyekti etməsidir. Çünki kainatın bu potensialla yaradılması sayəsində insanlar bunları ortaya çıxara bilmişlər. Bu yanaşma elm və sənət adamlarının etdiklərini dəyərsiz hesab etmir, əksinə, qiymətləndirir. Çünki bu baxışa əsasən, elm və sənət adamları Allahın kainatda potensial kimi yaratdığı zənginliyi kəşf etməyimizdə (bunu bilərək və ya bilməyərək) mühüm rol oynayırlar. Allah bütün planların əzəli sahibidir, Allah yaradan şəkilləndirici, elm və sənət adamları isə kəşf edən şəkilləndiricidirlər.

Bir sözlə, kainatda şahidi olduğumuz hər şey kainatın bunlara imkan verən potensiala malik olması sayəsində mövcud olmuşdur. Kainatdakı nəhəng müxtəliflik, "gözəl" adlandırdığımız mənzərələrdən mədəni fəaliyyətlərə qədər bütün varlıqlar, ağla uyğun varlıq və mövcud miqyası, həcmi ilə insan ağlı, bundan başqa,

iradə və şüur kimi xüsusiyyətlər daim kainatın bunlara imkan verən müəyyən potensialı göstərməsi sayəsində mövcud olmuşdur. Belə bir potensial teizm baxımından gözlənilən vəziyyətdir. Materialist-ateist düşüncənin içində isə belə bir potensialı gözlənilən edəcək heç bir amil yoxdur. Bu isə bizi teizmi materialist-ateizmdən üstün tutmağımızın zəruri olması ilə bağlı arqumentdəki nəticəyə gətirib çıxarır.

## 5. QANUNLARIN VƏ SABİTLƏRİN HƏSSAS NİZAMI DƏLİLİ

Şəkilləndirmə (planlama, dizayn) dəlili (teleoloji, məqsəd, nizam, gözəllik və ya ixtira dəlili kimi adlanır) ilə varlıqlardakı nizam və məqsəd kimi ünsürlərdən yola çıxılaraq onları şəkilləndirənin varlığını və bu Şəkilləndiricinin qüdrəti, biliyi, hakimiyyəti kimi xüsusiyyətlərini görmək mümkündür. Allahın bir çox xüsusiyyəti şəkilləndiricilik dəlilinə əsaslandırılır. Yaşadığımız möhtəşəm kainat qalaktikalarından planetlərinə, atmosferindən küləklərinə, çiçəklərindən balıqlarına, quşlarından həşəratlarına qədər bir çox varlıq növünü və müxtəlif fenomeni özündə cəmləşdirir. Kainatdakı bütün varlıqları və fenomənləri əsas götürmək bunları yaradan şüurlu Yaradana dəlil göstərmək üçün uzun əsrlərdən bəri istifadə edilən üsuldur. Belə bir yanaşmanın minillərlə tarixi olsa da, bunun qədim dövrlərdə Epikür və Lukretsi kimi, yaxın dövrlərdə isə Yum və Kant kimi tənqidçiləri olmuşdur. Digər tərəfdən, Platondan İbn Rüşdə, Tomas Akinasdan Leybnits və Nyutona qədər bir çox məşhur mütəfəkkirlər bu dəlili müxtəlif formalarda iddia etmişlər. Allahın yaratdıqları haqda düşünərkən yüzlərlə Quran ayəsini xatırladığımız zaman kainatdakı müxtəlif varlıqları və yaradılanları əsas götürərək Allahın varlığını və xüsusiyyətlərini əsaslandıran şəkilləndirmə

dəlilinin, İbn Rüşdün xarakterizə etdiyi kimi, "Quran dəlili" olduğunu da deyə bilərik.

Materialist-ateizmin, həmçinin, pozitivizm və postmodern kimi axınların yüksəlməsilə dizayn dəlilinin (dəlillərinin) qəbul edilmədiyi, kainatın təsadüflər nəticəsində əmələ gəlməsi fikri olduqca çox tərəfdar toplamış, bu dəlil əvvəlki məşhurluğunu itirmişdir. Əsasən XX əsrdə fizika sahəsində əldə olunan elmi nailiyyətlər bu dəlilin yenidən canlanmasına səbəb olmuşdur. Müasir elmin bildirdiklərilə dünyadakı canlı aləmin əmələ gəlməsinə görə kainatdakı çox həssas nizamlara (fine tuning) borclu olduğumuzu öyrəndik. Bu yeni məlumatlara əsaslanan dizayn dəlilləri, sırf analogiyalara (bənzətmələrə) əsaslanmır, ehtimallar kimi riyazi yanaşmalarla ifadə edilmələri də mümkün olur.[40] Kitabın bu bölməsində bu həssas nizamlardan təbi**ət qa**nunları və sabitlərlə bağlı olanlara diqqət yönəldilərək "qanunların və sabitlərin həssas nizamı dəlili" iddia ediləcəkdir. Burada toxunulan həssas nizamlar kainata məxsus, kainatın hər bölgəsində eyni xüsusiyyətlər olduğuna görə, əslində, belə xüsusiyyətlərin dizayn edilməsi kainatı təşkil edən maddənin quruluşunun şəkilləndirilməsi, yəni, yaradıldığı mənasına da gəlir. Bu arqument aşağıdakı kimi təqdim edilir:

1. Kainatda canlı aləmin əmələ gəlməsi təbiət qanunlarındakı və sabitlərdəki çox həssas nizamlardan asılıdır.

2. Təbiət qanunlarındakı və sabitlərdəki bu həssas nizamların varlığının izahatını ya teizm, ya da materialist-ateizm verə bilər.

---

40 Caner Taslaman, "Kainatdan Allaha". Etkileşim nəşriyyatı, İstanbul, 2013, s. 11-20, 44-51.

3. Teizm təbiət qanunlarındakı və sabitlərdəki həssas nizamları materialist-ateizmdən daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən üstündür.

İlk olaraq arqumentin birinci maddəsində ifadə edildiyi kimi, təbiət qanunlarında və sabitlərdə çox həssas nizamların olması ilə bağlı təklifə nəzər yetirək. XX əsrdəki elmi hadisələr sayəsində bəhs edilən həssas nizamların varlığı öyrənildi. Təbiət qanunlarındakı və sabitlərdəki həssas nizamlara aşağıdakı beş maddədə qeyd edilənlər nümunədir:

1. Yerin cazibə qüvvəsi qanun kimi mövcud olmasaydı, canlı aləm yaranmazdı. Bununla yanaşı, yerin cazibə qüvvəsi ("G" hərfilə ifadə edilən cazibə qüvvəsi sabiti) daha ağır olsaydı, bütün ulduzlar bu qüvvənin gücünə müqavimət göstərə bilməyərək qara dəliklərə çevrilərdi. Əgər daha zəif olsaydı, kimyəvi cədvəldəki elementlərin əksəriyyətini əmələ gətirəcək ulduzlar yaranmayacaq, hər iki halda canlı aləm mövcud olmayacaqdı.

2. Güclü atom qüvvəsi nüvədə olan proton və neytronları bir arada saxlayırdı. Bu qüvvə olmasaydı, canlı aləm olmayacağı kimi, qüvvə bir az zəif olsaydı, hidrogen xaricində heç bir atom, eləcə də canlı aləm əmələ gəlməz, bu qüvvənin şiddətinin fərqli olması bütün prosesi pozardı.

3. Elektromaqnetik qüvvə daha şiddətli olsaydı, kimyəvi əlaqələrin yaranmasında çatışmazlıq yaranardı. Əgər daha zəif də olsaydı, yenə kimyəvi əlaqələrin yaranması zamanı çatışmazlıq olar, canlı aləm üçün çox vacib olan atomlar əmələ gəlməzdi.

4. Zəif atom qüvvəsi bir qədər güclü olsaydı, canlı aləm üçün lazımi proseslərə mənfi təsir edərdi. Əgər bu qüvvə bir qədər zəif olsaydı, ulduzlardakı ağır elementlərin yaranmasına mənfi təsir edər, canlı aləm əmələ gəlməzdi.

5. Həyat üçün lazım olan ən mühüm iki atom karbon və oksigendir. Bu atomlardan karbonun oksigen atomunun rezonansına nisbəti daha yüksək və ya daha aşağı olsaydı, bu atomların ulduzların içindəki əmələ gəlmə proseslərində çıxacaq problemlərə görə canlı aləm üçün lazım olan oksigen və karbon atomları yaranmazdı.[41]

Təbiət qanunları və sabitlər kainatın hər tərəfində eyni formada qəbul edilən xüsusiyyətlərdir. Yəni, bunlar kainatın hər bölgəsinə məxsus xüsusiyyətlərdir. Kainata məxsus olan bu xüsusiyyətlərin necə mövcud olmasının izahatını yalnız bütün kainatın necə mövcud olduğu ilə bağlı izahat təqdim edən ontoloji yanaşmalar verə bilər. Əvvəl də gördüyümüz və bu arqumentin ikinci maddəsində ifadə olunduğu bu cəhətdə iki rəqib fikir teizm və materialist-ateizmdir.

Bu arqumentdə materialist-ateistlərin etirazlarını yönəldəcəkləri maddə üçüncü maddədir. Bu maddənin doğruluğu göstərilsə, dördüncü maddə olan nəticədə ifadə edildiyi kimi "teizmin materialist-ateizmdən üstün tutulması" məntiqi zərurət kimi ortaya çıxar. Aşağıda bu səbəbdən üçüncü maddə araşdırılacaqdır. Teizm doğru olduğu təqdirdə, üçüncü maddənin doğruluğunu göstərmək üçün kainatdakı həssas nizamların ehtimal edildiyini, materialist-ateizm doğru olduqda isə belə həssas nizamlara ehtimal verəcək amilin mövcud olmadığını başa düşmək kifayətdir. Materialist-ateizm doğru olduqda, hətta həssas nizamların olmamasının ehtimal edildiyini göstərməyə də ehtiyac yoxdur.

41 Belə həssas nizamlara nümunələr üçün baxın: Con Barrou və Frank Tipler, **The Anthropic Cosmological Principle,** Oxsford University Press, Oksford, 1996; Paul Devis, **The Accidental Universe,** Cambridge University Press, Kembric, 1982; Con Lesli, **Universes**, Routledge, Nyu York, 1989.

Hər şeydən əvvəl həssas nizamların nə qədər həssas olduğunu dərk etmək bu mövzudakı məlumatların cəlbedici olduğunu başa düşmək üçün vacibdir. Məsələn, belə həssas nizamlardan yalnız biri olan zəif atom qüvvəsindəki $10^{100}$-də 1-lik dəyişiklik də canlı aləmin ortaya çıxması üçün lazım olan molekulların əmələ gəlməsini qeyri-mümkün edir. Bu arada $10^{100}$ sayının nəyin qarşılığı olduğunu yaxşı dərk etməsək, bunun nə qədər həssas nizam olduğunu başa düşə bilmərik. 1 kvadratsantimetrlik kiçik sahədə milyardlarla atom, bu atomların içində isə proton, neytron və elektronlar vardır. Bunu nəzərdə saxlayaraq bir anlığa həmin hissəciklərdən dünyamızda nə qədər çox olduğunu təsəvvür edin. Bununla yanaşı, orta hesabla bir ulduz planetimizdən dəfələrlə böyükdür. Qalaktikamızda yüz milyardlarla ulduz və bunların ətrafında trilyonlarla planet mövcuddur. Qalaktikamızda yüz milyardlarla ulduz olduğunu və kainatda yüz milyarddan çox qalaktika olduğunu təsəvvür edib, bunların hərəsində nə qədər atom, bu atomları təşkil edən proton, neytron, elektron kimi hissəciklərin olduğunu xəyalınıza gətirin. Həssas nizamlardan yalnız birini ifadə etmək üçün istifadə etdiyimiz $10^{100}$-də bir nisbətinin bütün kainatdakı proton, neytron, elektron, hətta bunların sayından da çox olan fotonların (işıq hissəciklərinin) cəmindən daha böyük topluluğun içindən müəyyən edilmiş yalnız bir hissəciyin təsadüfi çəkilmə zamanı yaranacaq nisbəti ifadə etdiyini xatırlasaq, nə qədər qeyri-adi həssas nizamlama ilə qarşı-qarşıya olduğumuzu başa düşərik. Bu ehtimalın nə demək olduğunu belə bir nümunə ilə qeyd etməyə çalışacağam: dünyanın bütün çöllərində, çimərliklərində və okeanlarında mövcud olan qum dənəciklərinin içində bir ədəd qum dənəciyini gizlət-

dikdən sonra bütün bu qumlardan təsadüfi bir qum dənəciyi çəkən şəxsin gizlədilən həmin qum dənəciyini tapma ehtimalının nə qədər az olduğunu hamımız başa düşürük.

Bununla yanaşı, fəzada olan bütün proton, neytron, elektron və foton hissəciklərinin içindən müəyyən bir hissəciyi bir çəkilişdə tapmağın canlı aləmin ortaya çıxmasının asılı olduğunu xəyalımıza gətirək. Belə ki, bunun ehtimalı da yalnız zəif atom qüvvəsinin canlı aləm üçün lazım olan qiyməti almasındakı həssas nizamı ifadə edən $10^{100}$-də 1-dən daha çoxdur.

Bundan başqa, $10^{100}$-də bir ehtimal bir çox mövcud həssas nizamlardan yalnız birini göstərir. Kainatda mövcud olan bu həssas nizamların hamısının birdən reallaşması ilə yalnız canlı aləmin mümkün olduğuna diqqət yetirilməlidir. Hətta bunlardan birinin azaldılması da canlı aləmin əmələ gəlməsini qeyri-mümkün etmək üçün kifayətdir. Belə vəziyyətlərdə ehtimal baxımından bütün ehtimalların qat-qat bir-birinə vurulmasının məqsədin həyata keçmə ehtimalını verdiyini unutmamalıyıq.

Bu arqumentdə göstərilən qiymətlərin fiziki zərurətlə yaranmasının mümkün olub-olmaması ilə bağlı sual verilə bilər. Bəhs edilən həssas nizamlardan araşdırdığımız zəif atom qüvvəsinə nəzər yetirək. Zəif atom qüvvəsi adlandırılan qüvvənin mövcud olduğu vəziyyətdə də bəhs edilən qüvvədəki həssas nizamın qiymətinin fərqli olacağını düşünə bilərik. Bu vəziyyətdə canlı aləm üçün lazım olan mühit yarana bilməzdi. Belə ki, fizika alimləri tamamilə eyni qanunlara tabe olan, lakin fərqli qiymətlərdəki nizamlara sahib kainatlar olacağını xəyal edirlər. Yəni, kainatdakı sabitlərin bu qiymətdə olması fiziki zərurət kimi görünmür. Lakin bu halın fiziki zərurət olduğu deyilsəydi

də, bu vəziyyət, burada irəli sürülən arqumenti rədd etməyin müəyyən səbəbi olmazdı. Məntiqi cəhətdən mümkün olan çox geniş vahidlər (sabitlərin qiyməti) yığınından canlı aləmin varlığını mümkün edəcək şəkildə çox həssas vahidlərə malik kainatın, fiziki zərurətlə bu qiymətlərə sahib olmasının ən yaxşı izahatı bu fiziki zərurətin şüurlu şəkildə planlaşdırılması olardı.

Bəzən bu dünyada canlı aləm əmələ gəlməsə də, başqa dünyada canlı aləmin əmələ gəlməsinin mümkün olacağı, hətta bizim bilmədiyimiz başqa canlı formasının fəzanın başqa yerində olan planetdə əmələ gələcəyi deyilərək müxtəlif şəkilləndirmə dəlillərinə qarşı cavab verilməyə çalışılmışdır. Halbuki bu dəlillə göstərilənlərə qarşı belə bir cavabın qəbul edilmədiyinə diqqət edilməlidir. Məsələn, yerin cazibə qüvvəsinin həssas nizamını pozduğunuz zaman nə ulduzların, nə də planetlərin əmələ gəlməsi mümkündür. Bu zaman ulduzlar da yaranmadığına görə və kimyəvi elementlər cədvəlindəki hidrogen və helium xaricindəki atomların hamısı yalnız ulduzların içindəki proseslərlə əmələ gəldiyinə görə kimya da yaranmazdı. Xəyal ediləcək hər hansı sadə canlı formasının da enerjidən istifadə edib ətrafına müəyyən şəkildə təzyiq göstərməsi kimi xüsusiyyətləri olmalıdır. Canlı aləmin yaranmasına imkan verən ən sadə fəaliyyətlər üçün də molekullar zəruridir. Halbuki kimyanın yarana bilməməsi ən sadə molekulun əsası olacaq atomların yarana bilməməsi mənasına gəldiyinə görə belə bir kainatın heç yerində hər hansı canlı formasının əmələ gələcəyini xəyal etmək mümkün deyildir.

Təsadüfi olaraq canlı aləmin yaranmasına imkan verən belə həssas nizamların (növbəti 6-cı bölmədə və bu bölmədə diqqət cəlb edilən) mövcud olmasından isə bu həs-

sas nizamların şüurlu şəkildə nizamlandığı fikri daha yaxşı izahdır. Teist insan üçün bu həssas nizamların varlığında təəccüblü heç nə yoxdur. Çünki şüurlu şəkildə nizamlamalar aparan üstün yaradan yer üzündəki həssas nizamları, kainatın canlıları əmələ gətirməsi üçün kainatın müəyyən xüsusiyyəti etmişdir. Halbuki materialist-ateist üçün canlı aləmin bu qədər həssas nizamlara bağlı olması çox təəccüblü, ehtimal edilməyən cəhətdir. Kainatın özü canlı aləmi əmələ gətirmək kimi məqsədə malik olmadığına görə bu kainatda ortaya çıxan canlı aləm kimi mühüm xüsusiyyətin qeyri-mümkün deyiləcək qədər az ehtimala bağlı olması heç də gözlənilən vəziyyət deyildir. Əslində, hamımız "zəif ehtimalların mənalı məqsədi reallaşdıracaq formada" seçilməsinin arxasında şüur olduğunu gündəlik təcrübələrimizdən bilirik. Məsələn, kassanın təsadüfi rəqəmlər yığmaqla açılma ehtimalı çox az olan şifrəsi olduğunu təsəvvür edin. Bir insan hiyləsiz şəkildə bu kassanı açsa, həmin şəxsin bu şifrəni şüurlu şəkildə tapdığını, yəni şifrəni tapma prosesinin təsadüfi olmadığını dərhal anlayarıq. Bu şifrənin təsadüfən doğru yığılmasını gözləmirik. Lakin şübhəli olsa da, həmin şifrəni bilən şüurlu şəxsin kassanı açmasına təəccüblənmərik. Əslində, gündəlik bir çox təcrübəmizdən zəif ehtimalların müəyyən məqsədi reallaşdıracaq şəkildə mövcud olmasının arxasında şüur olduğunu hamımız bilirik. Nəticədə bu arqumentdə istifadə etdiyimiz məntiqi yanaşma gündəlik həyatda da istifadə etdiyimiz məntiqi yanaşmalardan fərqli deyildir.

Canlı aləmin mövcud olmasına imkan verən bu həssas nizamların varlığı XX əsrdə elm adamlarının diqqətini cəlb etdi və bu vəziyyət "Antrop prinsipi" (Anthropic Principle -insanın mövcudluğu ilə bağlı prinsip) adlandı-

rıldı. "Antrop prinsipi" termini ilk dəfə Brendon Karter tərəfindən 1974-cü ildə istifadə edildi və həmin gündən elm, fəlsəfə və teologiya sahəsində bir çox mübahisələrin mövzusu oldu.[42]

Materialist-ateist anlayışını müdafiə edənlər müasir elmin bildirdiklərilə şəkilləndirmə lehinə çıxan nəticədən çəkinmək üçün antrop prinsipini şəkilvermə dəlilindən fərqli şərh etməyə çalışmışlar. Antrop prinsipin bu tərzdə şərhi "zəif prinsip"ə (Weak Anthropic Principle) əsaslandırılaraq müdafiə edilmişdir. "Zəif antrop prinsipi" belə ifadə edilir: kainatdakı yerimizin məxsusi olaraq fərqli -üstün olduğunu müşahidəçilər kimi varlığımıza uyğun olacaq tərzdə qəbul etmək məcburiyyətindəyik. Dizayn dəlilinə qarşı bu qayda şərh edildikdə, mövcud olmağımıza səbəb olan şərtlər xaricində heç nəyi müşahidə etməyəcəyimiz, bu səbəbdən bizi yaradan bu şərtlərə təəccüb etməyimiz və şəkilləndirmə kimi mənalar verməyimizin zəruri olduğu bildirilir. "Antrop prinsip"i belə şərh edənlər üçün Con Leslinin istifadə etdiyi xoş nümunəni qeyd edək:[43] təsəvvür edin ki, güllələnməyiniz haqqında qərar verilir və sərrast atəş açan yüz insan çox yaxın məsafədən bir neçə dəfə sizə atəş açır. Lakin ölmürsünüz. Nəticədə "Mən həyatda olduğuma görə təəccüblü heç nə yoxdur. Əgər hayatda olmasaydım, hazırda bu vəziyyəti müşahidə edə bilməzdim" deyərsiniz, yoxsa "Yüz sərrast atıcı bu qədər atəş açıb məni çox yaxın məsafədən vura bilmədik-

---

42 Brendon Karter, "Large Number Coincidences and The Anthropic Principle in Cosmology", Red: Con Lesli, **Physical Cosmology and Philosophy**, Macmillan Publishing, Nyu York, 1990.

43 Nümunəni bir qədər dəyişdirərək qeyd edirik: Con Lesli, "Anthropic Principle, World Ensemble, Design", **American Philosophical Quarterly**, No: 19, 1982, s. 141-151.

lərinə görə silahlarına şüurlu şəkildə əsl güllə yerləşdirməmişlər” söyləyirsiniz?. Şübhəsiz ki, bizim varlığımız üçün lazım olan həssas nizamların təsadüfən əmələ gəlməsinin ehtimalı yüz sərrast atıcının çox yaxın məsafədən hədəfə vura bilməmələrindən çox azdır. Həyatda olmağımıza əsaslanaraq yüz sərrast atıcının çox yaxın məsafədən hədəfi vura bilməməsinin səbəbinin “təsadüfi olaraq vura bilməmək” olduğunu iddia etmənin səhv olduğunu başa düşürsünüzsə, “Antrop prinsip”i bəhs edilən şəkildə şərh etməyə çalışaraq varlığımıza səbəb olmuş qeyri-adi həssas vahidləri “təsadüf”lə əlaqələndirməyin daha mənasız olduğunu asanlıqla başa düşə bilərsiniz.

Bundan başqa, əvvəldən diqqət yönəldilən amil də bu yanaşmaya cavabdır. Biz yalnız bizi yaradan şərtləri müşahidə edirik. Lakin bu, bizi və bütün canlı aləmi əmələ gətirəcək şərtlərin çox zəif ehtimaldan (həssas nizamdan) asılı olmasını müşahidə etməyimiz mənasına gəlmir. Əvvəldən diqqət yetirildiyi kimi, teist baxımından bu həssas nizamların mövcudluğunda təəccüb ediləcək hər hansı amil olmadığı halda, materialist-ateist baxımından bu fakta ehtimal verəcək heç bir amil yoxdur və bu vəziyyət çox təəccüblüdür.

Bundan başqa, bu kainat bizim varlığımıza imkan verəcək hər hansı kainatdan daha çox nizama malikdir. Daha kiçik, daha az canlı növünün ortaya çıxacağı, daha yüksək ehtimallardan asılı olaraq canlı aləmin yaranacağı kainatda mövcud olsaydıq, bu dəlil belə qüvvətli şəkildə iddia edilməzdi. Bizi mövcud edən şərtləri gözləməyimizə işarə edərək varlığımızı mümkün edəcək daha çox nizamı gözləməyimizlə bağlı faktı da izah edə bilmərik.

İnsanın müşahidəçi təsirilə kainatdakı həssas nizamla-

rın izah edildiyini güman edənlərin məntiqdə “ardıcıllığı təsdiq etmək kimi məntiq səhvi” olaraq tanınan səhvə yol verdiklərinə də diqqət edilməlidir. Bu məntiq səhvində nə üçün və nəticə, yaxud izahatla izah edilən yerini dəyişdirir. Bu məntiq səhvinə yol verilənlərə belə bir nümunə verilir: əvvəl “əgər yağış yağıbsa, küçələr islaqdır” mülahizəsi irəli sürülür, sonra isə “küçələr islaqdır” mülahizəsindən “yağış yağıb” nəticəsi çıxarılır. Yuxardakı nümunədə qeyd edilən ilk iki mülahizə doğru olsa da, bu, nəticənin doğruluğunu göstərmir. Küçələr bələdiyyə tərəfindən yuyulduğuna görə və ya boru partladığına görə də islaq ola bilər. Beləliklə, bu ardıcıllığı təsdiq etmək məntiq səhvidir. Yağışın yağması küçələrin islaq olmasının səbəbidir. Bu məntiq səhvinə yol verən şəxs küçələrin islaq olmasını da sanki yağışın səbəbi kimi düşünərək bu məntiq səhvini edir. İnsanın müşahidəçi təsirinin həssas nizamları izahat etmədə kifayət elədiyini güman edənlər də eyni məntiq səhvinə yol verirlər. Kainatın həyat üçün əlverişli olması, həyatın mövcud olmasının səbəbidir. Lakin kainatda həyatın mövcud olmasını, kainatın həyata uyğun olmasının zəruri olduğunun, həmçinin bu vəziyyətin başqa izahatı lüzumsuz etdiyini güman edənlər səbəblə nəticəni, izahatla izah ediləni qarışdırır, buna görə də ardıcılı təsdiq etmək kimi məntiq səhvinə yol verirlər.

Bir sözlə, XX əsr elminin göstərdiyi canlı aləmin varlığı üçün çox mühüm şərtlərdən olan təbiətdəki qanunlar və sabitlərdəki həssas nizamlar Allahın varlığı üçün tarix boyu ən çox istifadə edilmiş dəlil olan şəkilvermə dəlilinin riyazi formatda və müasir elmin bildirdiklərilə dəstəklənərək müdafiə edilməsinə imkan vermişdir. Canlı aləmin mövcudluğunun bu qədər həssas nizamlardan asılı

olmasının xoş təsadüflə izah edilməsi də belə bir vəziyyəti bizim müşahidəçi təsirimizlə ötüşdürmək (növbəti bölmədə göstəriləcəyi kimi), həmçinin, paralel kainatlara aid edilərək bu həssas nizamları əhəmiyyətsiz qəbul etmək mümkün deyildir. Teizm baxımından Allah canlıların ortaya çıxması məqsədilə kainatı yaratdığına görə belə həssas nizamların mövcud olmasında təəccüblü amil yoxdur. Materialist-ateizm baxımından isə canlı aləm kimi bu kainatın mühüm faktının bu qədər həssas nizamlardan asılı olmasına ehtimal verəcək heç bir amil olmadığı kimi, canlı aləm faktının bu qədər həssas nizamlardan asılı olması və canlı aləm üçün lazım olandan çox nizamı gözləməyimiz təəccüblü vəziyyətdir. Bu isə bəhs edilən həssas nizamların araşdırılmasının, teizmi materialist-ateizmdən üstün tutmağımızın zəruri olduğunu göstərir.

## 6. FİZİKİ FAKTLARIN HƏSSAS NİZAMI DƏLİLİ

Bundan əvvəlki dəlildə kainatdakı qanunlarda və sabitlərdəki canlı aləmin yaranmasına imkan verən həssas nizamlar araşdırıldı. Bunların xüsusiyyəti kainatın əvvəlindən kainatın hər yerində eyni şəkildə qəbul edilmələri və kainata məxsus olmalarıdır. Bunun xaricində kainatın quruluşuna aid olmadan canlı aləmin yaranmasına imkan verən həssas nizamlar vardır. Kainatın başlanğıcından canlı aləmin ortaya çıxmasına qədər olan prosesdə bu həssas nizamlar böyük rol oynamış və canlı aləmin ortaya çıxmasına səbəb olmuşdur. Bunlara fiziki faktların həssas nizamı deyə bilərik. Məsələn, tamamilə eyni qanunlar və sabitlərlə işləyən kainatda kainatın başlanğıc entropiyası çox yüksək ola bilərdi. Bu vəziyyət canlı aləmin yaranmasını qeyri-mümkün edərdi. Başlanğıcdan sonrakı proseslərdə qalaktikanın həyat olan sahələrinin (Galactical Habitable Zone) əmələ gəlməməsi də canlı aləmin ortaya çıxmasını qeyri-mümkün edərdi. Canlı aləmin mövcud olmasına imkan verən belə şərtlər maddəyə aid xüsusiyyətlər olmadıqlarına görə ayrı kateqoriyada qiymətləndirilməlidir. Lakin bunları əsas götürərək təqdim olunacaq həssas nizam dəlili və bu dəlil haqqında deyiləcək fikirlər bir çox cəhətdən əvvəlki bölmədə ifadə edilənlərlə eynidir.

Materialist-ateist cəbhənin Riçard Daukins və Jak Mo-

nod kimi məşhur nümayəndələri canlılarla birgə bütün varlığın təbiət qanunlarından irəli gələn "zərurət" və bu qanunların qəbul edildiyi maddi dünyadakı hadisələrdəki "şans" (təsadüf) amilinin birləşməsilə izah edilə biləcəyini iddia edirlər. Əvvəlki bölmədə "qanunların və sabitlərin həssas nizamı dəlili" ilə onların "zərurət" hesab etdikləri kainata aid olanların şüurlu dizaynla ən yaxşı şəkildə yaradıldığının izah edilə biləcəyi göstərildi. Bu bölmədə isə Monod və Daukinsin "şans" hesab etdiklərinin də ən yaxşı şəkildə şüurlu dizaynla yaradıldığının izah edilə biləcəyi göstəriləcək. Bunun üçün təqdim edəcəyim "fiziki faktların həssas nizamı dəlili" belədir:

1. Kainatda canlı aləmin ortaya çıxması bəzi fiziki faktlardakı çox həssas nizamlardan asılıdır.
2. Bu fiziki faktlardakı həssas nizamların mövcud olmasının izahatını ya teizm, ya da materialist-ateizm verə bilər.
3. Teizm fiziki birləşmələrdəki həssas nizamları materialist-ateizmdən daha yaxşı izah edir.
4. Nəticədə, teizm materialist-ateizmdən daha üstündür.

Kainatda canlı aləmin əmələ gəlməsinə imkan verən fiziki faktlardakı həssas nizamlara isə aşağıdakı beş nümunə verilir:

1. Kainatın əvvəlindəki kritik maddə sıxlığı bir qədər az olsaydı, kainatdakı bütün maddə parçalanardı. Əgər kritik maddə sıxlığı daha çox olsaydı, bütün maddə dərhal bağlanacaqdı. Hər iki vəziyyətdə nə qalaktikalar, nə ulduzlar, nə dünyamız, nə də canlılar əmələ gələrdi.
2. Kainatın əvvəlindəki homogen quruluş da qalaktikaların əmələ gəlməsinin müəyyən şərtidir. Başlan-

ğıc homogenlikdəki çox kiçik azalma qalaktikaların əmələ gəlməsinə imkan verməyəcək, bütün maddənin qara dəliklərə çevrilməsilə nəticələnəcək, o zaman da biz mövcud olmayacaqdıq.

3. Kainatda entropiya daim artır. Bu isə kainatda başlanğıcda çox zəif entropiyalı başlanğıcın olmasının zəruriliyi mənasına gəlir. Bu həssas nizam olmasaydı, kainatdakı nizamsızlıq həyatın yaranmasına imkan verməzdi.
4. "Big Bang"dən sonra üzə çıxan protonlarla antiprotonlar, neytronlarla isə antineytronlar bir-birini yox edir. Canlı aləmin əmələ gəlməsi üçün proton sayı antiprotonlardan, neytron sayı isə antineytronlardan çox olmalı idi. Belə də olmuşdur.
5. Canlı aləmin mövcudluğu qalaktikanın içində müəyyən şərtlərə imkan verən, qalaktikanın həyat olan sahələrinin ortaya çıxmasından asılıdır və bu sahələr əmələ gəlmişdir.[44]

Bu beş maddədəki fiziki faktların hamısı canlı aləmin əmələ gəlməsi üçün çox mühüm şərtlərdəndir. Bunlardan hətta birini dəyişdirməyimiz canlı aləmin mövcudluğunu qeyri-mümkün edəcəkdir. Əslində, bunun kimi canlı aləmin əmələ gəlməsi üçün lazım olan bir çox başqa mühüm şərt nəzərə alınmalıdır. Verilən beş nümunənin böyük bir tamın kiçicik hissəsi olduğu unudulmamalıdır. Əvvəlki bölmədə toxunulan və toxunulmayan təbiət qanunları ilə sabitlərdəki həssas nizamların əmələgəlmə ehtimalının hər biri digərlərilə, eləcə də fiziki faktların həssas nizam-

44 Bunlara nümunələr üçün baxın: Maykl J. Denton, Natures Destiny, The Free Press, Nyu York, 1998; Con Barrou-Frank Tipler, The Anthropic Cosmological Principle; Con Lesli, Universes; Paul Davies, The Accidental Universe, Paul Davies, God and The New Physics, Simon and Schuster, Nyu York, 1984.

larının hər birilə toqquşmalıdır ki, canlı aləmin ortaya çıxmasının qeyri-mümkün adlandırılacaq qədər zəif ehtimaldan asılı olduğu daha yaxşı aydın olsun. Fiziki faktlardakı canlıların mövcudluğuna imkan verən bir həssas nizamı götürərək kainatda nə dərəcə qeyri-adi həssas nizamların həyata keçirildiyini göstərmək istəyirəm. Kainatın başlanğıc entropiyasındakı qeyri-adi həssas nizama nümunə kimi toxunaq. Entropiya qanununa əsasən, kainatdakı nizamsızlıq mənasına gələn entropiya, zaman keçdikcə biristiqamətli, geriyə qaytarılmayacaq şəkildə artır. Bu, zamanın başlanğıcına doğru getdiyimiz zaman daim entropiyanın düşməsinin zəruriliyi mənasına gəlir. Kainatın zəif entropiyalı başlanğıcı, həm qalaktikaların və günəş sistemimizin, həm də canlı aləmin əmələ gəlməsinin çox mühüm şərtidir. Entropiya qanununun qanun kimi varlığı da canlıların mövcudluğu üçün çox mühüm şərtlərdəndir. Lakin bu qanunun varlığı başlanğıc entropiyasının zəif olmasının zəruriliyindən fərqlidir. Bu qanunun olması kainatın başlanğıcının zəif entropiyasını labüd etmir. Ən əvvəl bu qanunun planı, ikincisi isə kainatdakı fiziki faktın planıdır və bunların hər ikisi canlı aləmin çox mühüm şərtləridir.[45]

Dünyanın ən məşhur riyaziyyatçılarından və astrofizika alimlərindən biri, Oksford Universitetindən Rocer Penrouz özünün hesabladığı, kainatın başlanğıc entropiyasının həssas nizamını göstərən riyazi təsvirə fizika elmində bildiyi heç bir məlumatın yaxın gəlmədiyini bildirir. Kainatın başlanğıcındakı entropiyanın həssas nizamı kainatın bağlanma ssenarisində ehtimal edilən sonunun entropiya-

45 Caner Taslaman, "Din Felsefesi Açısından Entropi Yasası" **Mərmərə Universiteti İlahiyyat Fakültəsi jurnalı**, sayı: 30, İstanbul, 2006.

sını əsas götürərək hesablanır. Əslində, kainatın başlanğıcı eyni həcmdə ehtimal edilən sonun entropiyasına malik ola bilərdi. Bu vəziyyətdə nə qalaktikamız, nə dünyamız, nə də bu yazını yazan və oxuyanlar mövcud ola bilərdi. Kainatın başlanğıc entropiyasındakı həssas nizamı hesablayan Penrouz nəticəni belə qiymətləndirir: "Yaradanın öz məqsədini nə qədər doğru müəyyən etdiyi müşahidə olunur. Yəni, həqiqət nisbəti belədir: $10^{10123}$-də bir"[46] Ortaya çıxan bu sayın iki dəfə qüvvətə yüksəldilməsinin səbəbi bu sayı qüvvətə yüksəltmədən yazmağa (1-in arxasına sıfırlar qoyaraq), kainatda olan bütün xammalların da kifayət etməməsidir. Bu sayı qüvvətə yüksəltmədən yazmaq üçün kainatdakı proton, neytron, elektron və foton kimi bütün hissəciklərin (bu hissəciklərin sayı $10^{90}$ qədərdir) hər birinin üstünə katrilyon ($10^{15}$) dənə sıfır yazsaydıq, yalnız $10^{105}$ dənə sıfır yaza bilərdik. Halbuki $10^{123}$ ədəd sıfır yaza bilmək üçün bu kainatımız kimi milyon dəfə trilyon daha çox kainata sahib olmalı, həmin kainatların proton, neytron və fotonlarını katrilyonlarla sıfır yazılan dəftərlər kimi istifadə etməliydik ki, yalnız kainatın başlanğıc entropiyasının həssas nizamını ifadə edən, bəhs edilən sayı qüvvətə yüksəltmədən yaza bilək. Başlanğıc entropiyasındakı həssas nizamı ifadə edən sayın 1-in arxasına sıfırlar qoyularaq yazılmasının da mümkün olmadığını nəzərə alsaq, başlanğıc entropiyasının "xoş təsadüfün nəticəsi kimi" əmələ gəldiyini iddia etməyin nə qədər qəbuledilməz izahat olduğunu daha yaxşı dərk edə bilərik. Başlanğıc entropiyası ilə bağlı bu qeyri-adi nizamlama tək halda kainatda

46 Rocer Penrouz, "**Kralın Yeni Usu 3: Us Nerede",** Tərc: Tekin Dərəli, TÜBİTAK Popüler Bilim Kitapları, Ankara 2003, s. 50-51; Rocer Penrouz, **The Road to Reality**, Conatan Koup, London, 2004, s. 728.

canlıların mövcudluğuna imkan verəcək formada çox həssas nizamların olduğunu göstərməyə kifayət edəcək məlumatdır. Kainatı şüurlu və qüdrətli şəkilləndirənin əsəri olmayan varlıq kimi qəbul edənlərin ümidləri müəyyən nizamın olmadığı qarışıq kainat olmalıdır. Halbuki mövcud olan faktlar adi nizama da deyil, riyazi olaraq qəti göstərə bildiyimiz qeyri-adi nizamlamalara işarə edir.

Ehtimalı çox az olan (yəni kompleks), həm də "işarəli" ("sərbəst" mövcud olan bir modellə bərabərləşən) hadisələr planlamanı, dizaynı göstərir. Bu meyara "işarəli kompleksliлik" (specified complexity) deyilir.[47] Burada təqdim edilən arqumentdə ehtimalı çox az olan əsas nizamlar canlıların əmələ gəlməsi kimi "işarəli" hadisəyə səbəb olur, belə bir meyar çox gözəl qarşılanır. Həmin meyarın istifadəsilə dizaynın mövcudluğunu başa düşməyə, həssas nizamların planı göstərməsi xaricində belə bir nümunə verə bilərəm: əlinizdə bu anda oxuduğunuz kitabın şüurla yazıldığını (plan məhsulu olduğunu), yəni, təsadüfi sözlərin bir-birinin ardınca gəlməsi və ya mürəkkəbin tökülməsilə əmələ gəlmədiyini başa düşməyiniz bu sözlərin bir yerə təsadüfən gəlməsinin ehtimal baxımından çox az olmasıyla yanaşı, bu mətndən ayrı mövcud olan, dilimizdəki sözlərin və qrammatikanın bu kitabdakı sözlər və cümlələrlə birləşməsilə izah edilir. Mürəkkəbin təsadüfi tökülməsi və ya hər hansı mətbəənin təsadüfən hərfləri bir-birinin ardınca yazması ilə bu qədər sözün qrammatikaya uyğun şəkildə bir kitabda birləşməsi ehtimalı mümkün deyildir. Bu kitabdan kənarda sözlərimiz və dilimizin qrammatikası var. Yəni, "ayrı olaraq müəyyən" məqsəd

47 Uilliam A. Dembski, **No Free Lunch**, Rouman and Littlefield Publishers, Lanham, 2002.

vardır və bu kitabdakı sözlərin təsadüfi şəkildə birləşmə ehtimalı çox azdır. Buradakı sözlər və cümlələr həmin məqsədlə birləşdiyinə görə bu kitabın təsadüfi proseslərlə əmələ gəlmədiyini asanlıqla deyə bilərik. Bu isə çox mühüm məfhum olan "işarəli" olmaqla ehtimal baxımından həyata keçməsi çox az ehtimal olunan ("kompleks") faktın birləşməsinin nə üçün şüurlu şəkildə reallaşdırılan planı göstərməsinin bu anda əlinizdə oxuduğunuz nümunəsidir.

Ateist anlayışı mənimsəyənlər müşahidəçinin özünü yaradan şərtləri ehtimal etməsinin seçici təsirilə dizayn dəlilindən uzaqlaşmağın mümkün olmadığını (5-ci bölmədə göstərildiyi kimi) başa düşdükdə, bu yanaşmalarını "sonsuz kainatlar və ya çox-kainat (multiverse) ssenariləri" ilə birləşdirmişlər. Buradakı məqsəd ehtimallarla bağlı ortaya çıxan müşkülü az ehtimalları sonsuz və ya daha böyük çoxluqla müqayisə etməklə əhəmiyyətsiz göstərərək arxada qoymaqdır: çox-kainatlar varsa, bu kainatlardan biri olan həmin kainatdakı həssas nizamlara təəccüb etməməyimizdir. Çünki çox-kainatlardan birində bu ehtimalın reallaşmasının mümkün olduğu deyilmişdir. Riçard Svinbörn bu vəziyyətdə belə deyir: "Kainatımızın nizamlılığını izah etmək üçün bir Allah əvəzinə başqa sonsuz kainatın olduğunu qəbul etmək məntiqsizliyin ən yüksək səviyyəsidir".[48] Bu yanaşma ateizmin müttəfiqi naturalist anlayışdan uzaqlaşması və ya naturalizmin özünü inkar bahasına şəkilvermə dəlilinin götürəcəyi nəticələrdən uzaqlaşması mənalarına gəlir. Çünki naturalist fəlsəfənin və metodun məqsədi təbiəti (təbiət dedikdə yaşadığımız kainat nəzərdə tutulur) yalnız təbiət daxilində qalaraq izah etmək, metafizik varlıqlara və müddəalara müraciət

48 Riçard Svinbörn, **"Tanrı Varmı?",** s. 60.

etməməkdir. Halbuki bu kainat xaricində sonsuz və ya katrilyonlarla kainat olması fikri nə müşahidəyə, nə də sınağa əsaslanır. Əslində, belə demək istəyirlər: "Bu kainatı yaradan, şəkil verən bir Allahın varlığını qəbul etmək istəmirsinizsə, çox-kainatların varlığını qəbul etmək məcburiyyətindəsiniz. Çünki bu kainatdakı həssas nizamlar yalnız çox-kainatlarla müqayisə edildikdə əhəmiyyətsiz olur, dizayn dəlilinin səbəb olduğu nəticələrdən uzaqlaşılır".

Özlüyündə isə ateizmin düşdüyü bu vəziyyət çox ironikdir. Allahın mərkəzində olduğu bir ontologiyadan imtina etmək lazım olduğu halda "çox-kainatlar ssenarilərinə əsaslanan metafizik ontologiyalara sığınmaq" yeganə alternativ kimi qarşılarına çıxmışdır. Əvvəldən sırf bu dünyanın içindəki ehtimallarla canlı aləmin əmələ gəlməsini izah etməyə çalışarkən, sonra bütün kainatın ehtimallarıyla canlı aləmi izah etməyə cəhd etmək, bu da mümkün olmadıqda, katrilyonlarla kainatların varlığını iddia edən ehtimallara sığınmaq, əslində, materialist-ateizmin hansı fikirlərə malik olduğunu göstərir.

Çox-kainatlarla bağlı ssenarilərdə bir "kainat istehsalçısı"nın mövcud olma ehtimalı irəli sürülərək həssas nizamların dizaynı göstərməsilə bağlı nəticədən uzaqlaşmağa çalışılmışdır. Bunu edənlər sabitlərdəki həssas nizamlarla bağlı çətinlikdən uzaqlaşmaq üçün bu kainat yaradıcısı olan mexanizmin fərqli sabitlərdə kainatlar yaradacağı ehtimalını ortaya atırlar. Bəhs edilən sabitləri isbat etmək üçün çox sayda kainat yaradılmalıdır. Bununla yanaşı, həmin kainatları yaradacaq enerjinin haradan gəldiyini izah etmək lazımdır. Heç kim bunu izah etməmişdir. Bundan başqa, lazım olan sabitləri isbat etmək üçün onları daim dəyişdirən müəyyən mexanizmə ehtiyac vardır. Bu mexa-

nizmin necə olacağını da heç kim göstərə bilməmişdir. Lakin belə bir mexanizm olsaydı, onun da həssas nizamlı olmasının zəruri olduğunu asanlıqla deyə bilərik. Xəyali çox-kainatlar ssenarisinə toxunaraq həssas nizamların göstərdiyi nəticədən qaçmaq mümkün deyildir.[49]

Həssas nizam arqumentindən uzaqlaşmaq üçün sonsuz kainatlar ssenarisini ortaya atanların etdiklərinin nəyə bənzədiyini bir nümunə ilə izah etmək istəyirəm: minlərlə rulet masası olan minlərlə qumarxana olduğunu təsəvvür edin. Sizə burada olan bütün rulet oyunlarının hiyləli olduğunu (nəticənin əvvəldən dizaynlaşdırıldığını) deyirəm. Dəlil kimi yüzminlərlə rulet oyununun nəticəsini əvvəldən bildirirəm. Verdiyim nəticələr doğru olduqda, rulet oyunlarının nəticəsinin əvvəlcədən bilindiyini (dizaynlaşdırıldığını) fikirləşir və birisinə bu hadisəni danışırsınız. Danışdığınız şəxs isə bunun təsadüfən ola biləcəyini, əgər qumarxanalara gedən bir çox insan da bu ehtimalı verdikdə, bir insanın doğru demə ehtimalı olduğunu bildirir. Bunun ehtimalının qeyri-mümkün olduğunu göstərdiyiniz zaman isə əslində, sonsuz planetlər olacağını, bu sonsuz planetlərdəki sonsuz sayda qumarxanalarda belə ehtimallar edən sonsuz sayda şəxslərin olacağını, bunlardan birinin təsadüfi ehtimalla belə bir nəticəni doğru deməsi ehtimal edildiyinə görə sizə qumarxanaların rulet oyunlarının əvvəldən dizaynlaşdırıldığını (hiyləli olduğunu) deyən mənim yalançı olduğumu, mənim bunu təsadüfi bacardığımı desə, cavabınız necə olar? Fərz edək ki, sonsuz sayda qumarxanaların varlığına inandınız. O zaman yenə

49 Belə xəyali kainat yaratmaq mexanizmilə nə üçün həssas nizamlarla bağlı arqumentin nəticəsindən uzaqlaşmağın mümkün olmaması üçün bax: Robin Kollins, “Tanrı, dizayn və incə nizam”, **“Allah, felsefe və bilim”**, Red: Caner Taslaman və Enis Doko, İstanbul nəşriyyatı, İstanbul, 2014, s. 44-53.

də minlərlə rulet masasındakı yüz minlərlə rulet oyununun nəticəsini bilməyimi təsadüflə izah edərdiniz?[50]

Bundan başqa, Allahın varlığına inanan bir şəxs üçün çox-kainatların varlığını qəbul etməkdə hər hansı ziddiyyət olmadığını da bildirmək lazımdır. Şübhəsiz ki, bu kainatı Allahın yaratdığını qəbul edənlər üçün Allahın başqa kainatlar yaratması da ehtimal edilir. Lakin digər kainatlar müddəası, bu kainatda bu qədər cəlbedici görünən şəkilvermə faktından qaçmaq üçün hər hansı sığınacaq olmur.

Bir sözlə, müasir elmin bildirdiklərilə ortaya çıxan fiziki faktlardakı həssas nizamlar kainatın başlanğıcından canlıların əmələ gəlməsinə qədər olan proseslərin şüur və ali qüvvə ilə dizayn edildiyini göstərir. Bəhs edilən belə həssas nizamlara qarşı da təsadüfə, müşahidəçi kimi bizi yaradan şərtləri müşahidə etməyimizə, bunlar da olmadıqda, çox-kainatlara işarə edilərək cavab verilmişdir. Bu və bundan əvvəlki bölmədə qeyd edildiyi kimi, həssas nizamların dizaynı göstərməsindən uzaqlaşmaq üçün atılan bütün addımlar uğursuzdur. Teizmin paradiqması baxımından həyata keçməsində heç bir təəccüblü amil olmayan fiziki faktların belə həssas nizama malik olması materialist-ateizmin paradiqması baxımından olduqca təəccüblü və gözlənilməz vəziyyətdir. Bu isə teizmi materialist-ateizmdən üstün tutmağımız üçün əvvəlki dəlillərə əlavə dəlil qatır.

---

50 Caner Taslaman, “**Kainatdan Allaha**”, s. 136-137.

## 7. CANLILARIN ŞƏKİLLƏNDİRİLMƏSİ DƏLİLİ

Akademik həyatındakı magistratura, doktorluq, dosentlik və profesorluq araşdırmalarının çoxu elm-fəlsəfə-din əlaqəli olan və doktorluq araşdırması təkamül nəzəriyyəsilə bağlı bir şəxs kimi dünya miqyasında elm-din əlaqəsi deyildikdə, insanın ağlına ilk gələn və ən çox müzakirə edilən mövzunun təkamül nəzəriyyəsi olduğunu asanlıqla deyə bilərəm. Canlıların hər hansı dizaynın nəticəsi olub-olmadığı mövzusu ilə yanaşı, dərhal təkamül nəzəriyyəsi aktual mövzuya çevrilir, təkamül nəzəriyyəsinin canlıların dizaynlandırılmadığını, hətta Allahın mövcud olmadığını göstərməsi kimi iddialar irəli sürülür. "Təkamül nəzəriyyəsi ateizmi dəstəkləyən nəzəriyyədir?" sualına qısa cavabım "Qəti olaraq xeyr" olacaqdır. Təkamül nəzəriyyəsinin dəlillərinin bu nəzəriyyənin doğru olduğunu nə dərəcədə göstərib-göstərmədiyi başqa araşdırmaların mövzusudur. Lakin bir anlıq bu nəzəriyyənin doğru olduğunu qəbul edək. Bu halda, həmin nəzəriyyənin Allah inancıyla ziddiyyətli olub-olmadığını düşünək.

Təkamül nəzəriyyəsilə dünyamızdakı bütün canlıların başlanğıcdakı birhüceyrəli canlının nəslindəki dəyişikliklərin sonrakı nəsillərə ötürüldüyü proseslə əmələ gəldikləri bildirilir. Bu prosesdə təbii seçmə, mutasiya və cinsi

seçmə kimi mexanizmlərə işarə edilir.[51] Lakin bu prosesin Allahın planlamasıylamı, yoxsa təsadüfən əmələ gəldiyi biologiyanın mövzusu deyildir. Biologiyanın məqsədi, gözlənildiyi kimi, canlıları və onların əmələgəlmə prosesini izah etməkdir. Bu prosesin "şüurlu planın nəticəsi olub-olmadığı" kimi cəhəti mübahisəyə başlamısınızsa, deməli, biologiya sahəsindən uzaqlaşıb fəlsəfə sahəsinə keçmisiniz. Bunu edən şəxsin bioloq, paleontoloq və ya antropoloq olması heç nəyi dəyişdirmir, hansı sahədə olduğunuz müzakirə edən şəxsin peşəsindən deyil, toxunulan mövzunun məzmunundan asılıdır.

Təkamül nəzəriyyəsinin materialist-ateizmi dəstəkləməsi bioloji deyil, fəlsəfi şərhdir, ən əsası da səhv fəlsəfi şərhdir. Belə ki, Darvinin nəzəriyyəsinin Amerikada tanınmasına imkan verən Harvard Universitetinin botaniki Asa Qrey, bu gün müdafiə edilən şəkli ilə təkamül nəzəriyyəsinin (neodarvinizm: yeni darvinçilik kimi tanınır) atası adlandıra biləcəyimiz Theodosi Dobjanski, bəlkə də dövrümüzün ən mühüm bioloji-genetik layihəsi olan "İnsan Genom Layihəsi"nin uzun illər rəhbəri olan Frensis Kollins, dövrümüzün ən mühüm paleontoloqlarından Simon Konvey Morris kimi təkamül nəzəriyyəsi baxımından çox məşhur elm adamları öz Allah inanclarıyla təkamül nəzəriyyəsi arasında hər hansı ziddiyyət olmadığını bildirmişlər. Hətta məşhur ateist, elm və biologiya filosofu Maykl Ruz da həm Allaha, həm təkamül nəzəriyyəsinə birgə inanılmasında hər hansı maneə olmadığını bildirmişdir. Təkamül nəzəriyyəsi haqqında az bildikləri kimi

51 Təkamül nəzəriyyəsilə bağlı ən çox ön plana çıxan və tarixi əhəmiyyəti olan kitab kimi baxa bilərsiniz: Çarlz Darvin, **"The Origin of Species",** Penguin Classics, London, 1985.

bir iddiada heç kimin olmayacağı belə şəxslərin bu yanaşmaları təkamül nəzəriyyəsilə ateizm arasındakı əlaqənin nəzəriyyənin məzmunundan irəli gəldiyini göstərir. Digər tərəfdən, Riçard Daukins kimi dövrümüzün ən öndə olan ateisti təkamül bioloqudur. O, təkamül nəzəriyyəsini ateist fikirləri üçün müəyyən vasitə etməyə çalışmışdır.[52]

Bütün bu adlar təkamül nəzəriyyəsinin geologiya, paleontologiya, genetika və biologiyanın bir çox sahəsi baxımından nə mənaya gəlməsilə bağlı eyni fikirlərə malikdirlər. Aralarındakı fərq elmi fikirlərindən deyil, elmi məlumatı fəlsəfi şərh etmələrindəki fərqlərindən irəli gəlir.

Təkamül nəzəriyyəsinə inamın ateizmi zəruri etməsi fikrini yaradan ən səhv, din fəlsəfəsi baxımından toxunulması mühüm cəhət olduğunu düşündüyüm və səhv spekulyasiyaların ən mühüm mənbələrindən olan “Boşluqların Tanrısı” (“God of The gaps”) yanaşmalarından irəli gəlir. “Boşluqların Tanrısı” yanaşmalarını irəli sürənlər teistlərin, Allahın varlığı ilə bağlı yeganə əsaslarının kainat və canlılar mövzusunda bilinməyənlər olduğunu, bu bilinməyən boşluqları Allahla doldurduqlarını, bu səbəbdən boşluq qalmadıqda Allaha lüzum olmayacağını düşünürlər. Həqiqətən bəzi teistlər “Gözün necə gördüyünü bilmirik. Deməli, gözü Allah yaradıb” və ya “Qurbağaların necə əmələ gəldiyini bilmirik. Deməli, qurbağaları Allah yaradıb” fikirlərini bildiriblər.

Lakin Allahın varlığıyla bağlı arqumentlər irəli sürən dövrümüzün teist filosoflarının və teoloqların əksəriyyəti “boşluqların Tanrısı” yanaşmalarını mənimsəmir, bu-

52 Bu mövzuda baxa bilərsiniz: Riçard Daukins, **“Kor Saatçı”**, Tərc: Feryal Halatçı, TÜBİTAK, Ankara, 2002; Riçard Daukins, **Climbing Mount Improbable,** W. W. Norton, Nyu York, 1997.

nun əvəzinə, göz və ya qurbağalar haqqında əldə ediləcək məlumatla (bu mövzulardakı biliksizliklə deyil) Allahın sənətinə şahidlik olunacağını bildirirlər.

Dövrümüzdə irəli sürülən kosmoloji dəlillərin və ya dizayn dəlillərinin demək olar ki, hamısı (bir hissəsi kitabın buraya qədər olan bölmələrində dəyərləndirildi) kainat mövzusundakı cahilliyimizə deyil, müasir elmin təqdim etdiyi məlumatlara əsaslandırılır.

Bu səbəbdən təkamül nəzəriyyəsinin qeyd etdiklərilə bir boşluğun da tamamlandığını, beləliklə Allahın varlığının gərəksiz olduğunu və ya Allaha ehtiyacın azaldığını deyənlər tez-tez təkrarlanan məntiq səhvlərindən biri olan və məntiq ədəbiyyatında “məntiq səhvi” (straw man fallacy) kimi xatırlanan səhvə yol verirlər. Bu məntiq səhvini edənlər əks fikrin həqiqi olmasına diqqət etmir, onun əvəzinə əks fikrin pis və ya şişirdilmiş nümunəsini (həqiqi mövqe kimi) tənqid edirlər. “Boşluqların tanrısı” yanaşmalarını teizmin həqiqi mövqeyi kimi göstərib “məntiq səhvi”nə yol verənlərin arasında Daukins kimi məşhur təkamül sahəsinin bioloqları da vardır. Burada diqqət ediləcək mühüm cəhət budur: fizika alimləri və ya bioloqların hər ifadələri biologiya ilə bağlı deyildir. Fizika alimləri və ya bioloqlar bəzən kainat və ya canlılar haqqında danışarkən fəlsəfə və ya teologiya kimi sahələrə keçir, lakin insanları dediklərindən daha çox akademik şəxsiyyətlərilə qiymətləndirənlər çox vaxt bu keçidi başa düşmür, bu deyilənləri elmin sınaq və müşahidələrə əsaslanan məlumatlarla qarışdırırlar.

Monoteist dinlərin mətnlərində Allah yalnız qeyri-adi (möcüzəvi) yaradılışı həyata keçirən qüvvə kimi təqdim olunmur. Kainatın başlanğıcı və ya peyğəmbərlərin

göstərdiyi bəzi qeyri-adi vəziyyətlər (ədəbiyyatda bunlar "möcüzə" başlığı ilə araşdırılır) kimi ümumi prosesdən fərqli faktlar Allahın yaradılışlarındakı nadir hallardır.[53] Əksəriyyəti təşkil edən yaradılışlar daim müəyyən proses içərisində və səbəbiyyət qanunları ara vermədən qarşımıza çıxır. Məsələn, bu mətnlərə əsasən, Allah yağışı yağdırır, toxumu bitirir, insanlara ruzi verir və hər bir insanı yaradır. Belə olduğu halda, yağışın suyun buxarlanması və buludların yayılması prosesilə əmələ gəldiyi, həmçinin, insanın anası və atasının birləşməsi və anasının bətnində inkişaf etdiyi proseslə əmələ gəldiyi qəbul edilir. Buradan aydın olur ki, monoteist dinlərin mənsubları "Allahın proseslə yaratması" fikrini, yəni "müəyyən vasitəli səbəblərdən istifadə edərək yaratması" fikrini mənimsəmişlər. Bütün prosesi yaradanın bu proseslə yaratdığı məhsullardan çox vaxt prosesə işarə etmədən bəhs etməsi təbiidir. Rəssam "bu rəsmi mən yaratdım" deyərkən çox vaxt rəsmi zehnində planladığını, rəngləri nizamladığını, rəsmin əvvəl filan küncünü çəkdiyini bildirməsə də, özünün çəkməsi ilə bağlı ifadəsində hər hansı ziddiyyət görmürük.

Bundan başqa, rəssam nə boyaların, nə rəsmin çəkildiyi kağızın, nə də öz zehninin yaradanıdır. Allahın prosesin bütün mərhələlərinin yaradanı kimi prosesdəki bir çox mərhələyə işarə etmədən prosesin nəticələrini deməsi təbiidir. Belə ki, kainatımızda olan hər varlığın əmələ gəlməsi "Big Bang" prosesində ən əvvəl atomun əsasını təşkil edən hissəciklərdən, sonra isə atomların ortaya çıxmasından asılıdır. Əgər bir mövzu izah edilərkən bütün

53 Din fəlsəfəsindəki mühüm mövzulardan biri "möcüzələr"dir. Bu mövzu ilə bağlı baxın: Caner Taslaman, **"Kvant Nəzəriyyəsi", "Fəlsəfə və Tanrı"**, İstanbul nəşriyyatı, İstanbul, 2015, s. 121-168.

prosesə işarə edilməsi zəruri olsaydı, həm "Bu kitab necə çap edildi?" sualına, həm də "O masa necə hazırlandı?" sualına "Big Bang" prosesi əvvəldən danışılaraq cavab verilməliydi. Aydın olduğu kimi, həm Allahın yaratmasıyla bağlı, həm də bəşəri fəaliyyətlərdəki proseslərdə bir şeyin yaradıldığı (hazırlandığı) deyilərkən, həmin şeyin ortaya çıxmasıyla bağlı bütün prosesin təsvir edilməməsini təbii qarşılayırıq. Əslində, hər hansı varlıq və ya faktdan bəhs edərkən onun ortaya çıxması ilə bağlı bütün prosesi qeyd etmək təcrübədə mümkün deyildir. Yediyi ruzilərə görə hər dəfə şükür edən və özünü Allahın yaratdığı varlıq kimi qəbul edən hər insan "proseslə yaratma" fikrini mənimsəyir. Bəs o zaman bütün canlıların necə əmələ gəlməsilə bağlı prosesi təsvir edən təkamül nəzəriyyəsi Allah inancına necə zidd ola bilər? Allahın insanı yaratması fikri heç bir şəkildə bu yaratmada hər hansı prosesin olmaması demək deyildir. Canlıların ortaya çıxması ilə bağlı prosesi təsvir edən təkamül nəzəriyyəsinin fizikada kainatın əmələ gəlmə prosesini təsvir edən "Big Bang" nəzəriyyəsi kimi, Allahın canlıları yaratması fikrilə heç bir ziddiyyətinin olmadığı çox aydındır.[54]

54 Burada əlavə etiraz kimi Allahın varlığı ilə bu nəzəriyyənin ziddiyyət təşkil etmədiyi, lakin müqəddəs mətnlərdəki ifadələrə zidd olduğu bildirilir. Qurana əsasən bunun səhv olduğunu aşağıdakı kitabımda qeyd etdim: Caner Taslaman, **"Evrim Teorisi, Felsefe ve Tanrı",** İstanbul nəşriyyatı, İstanbul, 2014, 4. Bölmə, s. 276-388. Bu kitabda kainatın milyard illərlə ömrü olmasının Quranın heç bir ifadəsilə ziddiyyət təşkil etmədiyini, palçıqdan yaradılışın xammala işarə etdiyini və hər canlının bu mənada palçıqdan yaradıldığını, Quranda "bir anda yaradılma" ifadəsinin olmadığını, Allah və din düşmənlərilə qohumluqda hər hansı qəbahət görməyənlərin insanların heyvanlarla kök bağında qəbahət görməsinin Qurana zidd olduğunu, Adəmin dünyadakı bağda (cənnətdə) yaradıldığını, "nəfsi vahidə"dən yaradılmanın bir növdən yaradılma mənasına gəldiyini və buna bənzər cəhətləri təfsilatlı şəkildə izah etdim.

Bu kitabın mövzusuna əsasən, burada daha bir mühüm sual vardır: təkamül nəzəriyyəsi Allahın varlığı lehində irəli sürülən arqumentlər baxımından hər hansı təhlükə yaradır?

Əslində, bu kitabın buraya qədər olan bölmələrində bunun cavabı verildi. Bundan əvvəl qeyd edilən dəlillərin çoxu canlıların ortaya çıxmasının ilkin şərtlərindən asılıdır. Məsələn, birinci dəlildə qarşımızda dayanan kainatın başlanğıcının olduğu, beşinci və altıncı dəlillərdə kainata məxsus və proseslərdə ortaya çıxan həssas nizamları ən gözəl şəkildə Allahın varlığını açıqladığı göstərildi. Canlıların necə əmələ gəldiyini nə cür qəbul etməyinizdən asılı olmayaraq (istər təkamül, istər sərbəst yaradılışla), bu dəlillər qəbul edilir. Bundan sonra kitabın ikinci hissəsində iddia olunacaq beş fitrət dəlili də təkamül nəzəriyyəsinin doğru və ya səhv olması kimi ilkin fikirləri zəruri etmədiyinə görə bu dəlillər üçün də təkamül nəzəriyyəsi təhlükə yaratmır. Deməli, bütün kitab boyu qeyd edildiyi kimi, təkamül nəzəriyyəsinin, Allahın varlığı ilə bağlı dəlillər üçün hər hansı təhlükə yaratdığını demək səhv iddiadır.

Burada bir sual da verilə bilər: bu sual Allahın varlığı haqqındakı digər dəlillər üçün təhlükə olmasa da, təkamül nəzəriyyəsinin canlıların varlığını əsas götürərək gətiriləcək arqumentlər baxımından hər hansı maneə yaradıb-yaratmamasıdır. Bu sualın cavabı belədir: əgər canlıların varlığı əsas götürülərək irəli sürüləcək arqumentlər hər bir canlının bir-birindən ayrı əmələ gəlməsi kimi lazımsız öncədənqəbul üzərində qurularsa, maneçilik törədəcək. Lakin belə bir iddia olmadan da canlılarda müşahidə edilən faktları əsas götürərək arqument qurmaq mümkündür. Burada yeddinci dəlil kimi belə bir arqumenti iddia

edəcəyəm. Bunu aşağıdakı kimi təqdim edirəm:

1. Dünyamızdakı canlıların həm mikro və makrosu ilə bədən dizaynlarında, həm də davranışlarında çox böyük müxtəliflik və çox maraqlı xüsusiyyətlər müşahidə edirik.

2. Bu müxtəlifliyin və xüsusiyyətlərin varlığının izahatını ya teizm, ya da materialist-ateizm verə bilər.

3. Teizm bu müxtəlifliyi və xüsusiyyətləri materialist-ateizmdən daha yaxşı izah edir:

3.1. Çünki bunların ortaya çıxmasını mümkün edən potensialın varlığını daha yaxşı izah edir.

3.2. Çünki mikro dünyadakı kompleksliyi daha yaxşı izah edir.

3.3. Çünki makro dizaynda çox kompleks xüsusiyyətlərin yenidən ortaya çıxmasını ifadə edən bir nöqtəyə yönəltmə (convergence) faktını daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən daha qəbuledilləndir.

Bu arqumentin birinci maddəsini müasir elmlərdəki hadisələri təqib edən hər insan asanlıqla qəbul edəcəkdir. Bu maddəni qəbul etmək məsələsində teistlərlə materialist-ateistlər arasında hər hansı anlaşmazlığın olmayacağını asanlıqla demək olar. Taksonomiyanın (canlıların klassifikasiyası– siniflәndirilməsi nəzəriyyəsi) atası hesab edilən məşhur bioloq Karl von Linnaeus 1753-cü ildə 6000-ə yaxın bitki növü bilir, bunların sayının isə 10 000-ə qədər olduğu qəbul edilirdi. 1758-ci ildə 4000-ə qədər heyvanın siyahısı hazırlansa da, onların sayının təxminən 10 000 olduğu ehtimal edilirdi.[55]

Həşəratların dünyası ilə bağlı kəşflər, eləcə də mikros-

55 Ernst Mayr, **The Growth of Biological Thought**, The Belknab Press of Harvard University Press, Cambridge, 1982, s. 172.

kopik canlılarla bağlı məlumatlar artdıqca, canlılarların sinifləndirilməsini aparmaq da çətinləşdi. Dövrümüzdə isə növlərin sayının bir neçə milyon olduğu bilinir. Bu milyonlarla növün mikro quruluşlarından makro bədən quruluşlarına qədər böyük müxtəliflik və kompleksin olması müşahidə edildi. Müxtəlif sahələrdə işləyən zooloq və botaniklər canlıların qidalanması, ovlanması, qorunması, iş bölgüsü və cütləşməsi kimi bir çox davranışlarında maraqlı xüsusiyyətlər aşkar etdilər. Bütün bunlarda müasir elmin hədiyyələri olan ən müasir mikroskoplardan mikro kameralara qədər bir çox texnoloji vasitələrdən istifadə olundu.

Bitkilərdən heyvanlara qədər bu dünyadakı canlılarla bağlı faktların necə əmələ gəldiyini izah etmək daim maraqla qarşılanmışdır. Bu dünyadakı canlıların yaranma prosesi biologiya tarixi içərisində özündən törəmə və ya təkamül nəzəriyyəsi kimi prosesi tərif edən yanaşmalarla izah edilmişdir.[56]

Bütün bu yanaşmalarla bahəm, haqqında bəhs edilən proseslərin, teizmin tövsiyə etdiyi kimi şüurlu və hər şeyi planlaşdıran Allahın iradəsilə reallaşması fikri və materialist-ateizmin tövsiyə etdiyi kimi, təbiət qanunları çərçivəsindəki təsadüflərin birləşməsilə əmələ gəlməsi fikri düşüncə tarixindəki əsas alternativ fikirlər kimi yerini qorumuşdur.

Bir sözlə, arqumentin ikinci maddəsində ifadə edildiyi kimi, canlıları təşkil edən proseslərin necə əmələ gəldiyini izah etmədə teizm və materialist-ateizm iki rəqib yanaşma kimi qarşımıza çıxır.

Burada bir materialist-ateist üçüncü maddəyə etiraz

56 “Özündən törəmə” (spontaneous generation) ilə bağlı baxa bilərsiniz: Caner Taslaman, **“Təkamül Nəzəriyyəsi, Fəlsəfə və Tanrı”,** s. 76-79.

edəcəkdir ki, bu arqumentdə mübahisəli maddə də budur. Bu səbəbdən, aşağıda bu maddə müdafiə ediləcək və həmin mübahisəli maddəni təşkil edən üç cəhətə (3.1., 3.2. və 3.3.-də bildirilən) bir-bir toxunulacaqdır. Canlılarla bağlı faktların müxtəlifliyinə qarşı buradakı qiymətləndirmələrin çox qısaca olduğu unudulmamalıdır. Üçüncü maddənin doğruluğu göstərilirsə, arqumentin nəticəsi olan "teizm materialist-ateizmdən üstün tutulmalıdır" tövsiyəsi məntiqə əsasən doğru olur.

**3.1-in qiymətləndirilməsi:** Əvvəldən təqdim edilən və dördüncü dəlil olan "kainatın potensialı dəlili" ilə bu maddə əsasda eynidir. Lakin canlılar aləmində ortaya çıxan müxtəliflik və gözlənən maraqlı xüsusiyyətlər o qədər böyükdür ki, sırf bütün xüsusiyyətlərilə canlılar aləmini mümkün edən kainatdakı mövcud potensialı əsas götürərək müstəqil arqument qurulur. Əvvəldən diqqət yönəltdiyimiz kimi, X bir varlığın dəyişməsilə ortaya nə çıxsa da bu, X varlığın sahib olduğu potensialı göstərir. Belə ki, bu X varlıq potensial kimi bunları özündə cəmləşdirməsəydi, onlar mövcud olmazdı. Bir varlıqdan öz potensialında olmayanın çıxmaması məntiqə uyğundur. Elmi nəzəriyyələrimizdə hansı dəyişikliklər olursa-olsun, kainatımız bu potensiala malik olmasaydı, mövcud canlıların bütün xüsusiyyətlərilə əmələ gələ bilməyəcəyini deyə bilərik. Təkamül nəzəriyyəsinin doğru və ya səhv olması, yaxud Lamark və ya Darvinin təkamül nəzəriyyələrindən birinin doğru qəbul edilməsi, eləcə də təbii seleksiya və ya mutasiya kimi mexanizmlərə prosesdə veriləcək rolun dəyişməsi delfinlərin, qarışqaların və kakao bitkisinin dünya səhnəsində görünmə və forma dəyişdirmə prosesləri̇lə bağlı fərqli anlayışlara səbəb ola

bilər. Lakin bunların hansının doğru qəbul edilməsindən asılı olmayaraq kainatımız bu potensiala sahib olmasaydı, delfinlərin, qarışqaların və şokoladın olmaması həqiqəti dəyişdirmir.

Bu maddəni (3.1.) irəli sürmək üçün müasir elmin məlumatlarına sahib olmaq lazım deyil. Bunu min il əvvəlki, on min il əvvəlki biliyimizlə də irəli sürə bilərdik. Lakin müasir elmin məlumatları ilə canlı növlərindəki müxtəliflik və canlılarda olan maraqlı xüsusiyyətlər tarixin heç bir dövründə olmadığı qədər yaxşı aydın oldu. Yəni, kainatın bu cəhətə sahib olduğu və canlılar aləmində ortaya çıxan potensialla bağlı biliyimiz qat-qat artdı. Bu səbəbdən, bu arqumentin dəyərinin aydın olması üçün tarixin heç bir dövründə olmadığı qədər məlumatımız vardır. Həm canlı aləm, həm kamuflyaj xüsusiyyəti, həm işıqyaratma, həm də radar sistemi yalnız kainatın potensialında mümkün olmaları sayəsində mövcud olmuşdur. Bunlar mövcud olduqda təbii seleksiya və ya cinsi seleksiyanın rolundan asılı olmayaraq, başlanğıcda bunlar kainatın potensialında hədiyyə edilməsəydilər, heç bir formada ortaya çıxmazdılar. Canlılar aləmindəki kamuflyaj, işıq yaratma, müxtəlif köç üsulları kimi qeyd edilməsi çətin olan müxtəliflikdə məharətləri bir anlıq düşünək və belə bir sual verək: Bu qədər müxtəlif varlığın bir çox fərqli hünərlə ortaya çıxmasına imkan verən potensialın mövcud olması hər hansı teist baxımından gözlənilən haldır, yoxsa materialist-ateist baxımından? Milyonlarla növün qeyri-adi xüsusiyyətlərinin ortaya çıxmasına imkan verəcək potensialın mövcud olmasını teizmin tövsiyə etdiyi kimi, kainata bu potensialın şüurlu şəkildə verilməsi, yoxsa materialist-ateizmin tövsiyə etdiyi xoş təsadüf kimi qiymətləndirmək daha yaxşı izahatdır?

Teizm baxımından Allah çox güclü, çox bilikli, yaratdıqca gücündən heç bir şey əksilməyən varlıqdır. Allahın bu qədər müxtəlifliyin və canlılar aləmindəki çox fərqli və maraqlı halların müşahidə edilməsi (insan və ya başqa şüurlu varlıqlar tərəfindən) məqsədilə kainatı bunların ortaya çıxacağı zəngin potensialla yaratması təəccüb yaratmayacaq vəziyyətdir. Materialist-ateizmin kainat fikrinə əsasən, maddə şüursuz, iradəsiz, hər hansı məqsədi (məqsəd yalnız şüurlu varlıqlarda mövcud olur) olmayan varlıqdır. Bu səbəbdən, canlılar aləmində ortaya çıxan hər şey maddədəki qanunlar çərçivəsində ortaya çıxmış təsadüfi yaradılışlar və kainatın bu potensiala malik olmasına, eləcə də canlıların bütün bu xüsusiyyətlərilə ortaya çıxmasına imkan verəcək amil yoxdur. Bu qədər müxtəlifliyin və canlıların varlıqlarını davam etdirmələri üçün bu qədər fərqli halların müşahidə edilməsi materialist-ateizmin kainat düşüncəsi içərisində çox təəccüblü haldır. Teizmin paradiqmasında bu vəziyyət gözlənildiyinə görə teizmin burada materialist-ateizmdən üstün tutulması üçün obyektiv dəlilimiz vardır. Bəhs edilən vəziyyəti “xoş təsadüf”lə izah etmək heç də qaneedici deyil.

Teizmin paradiqmasında bu fakt daha yaxşı izah edildiyinə görə teizm materialist-ateizmdən üstün tutulmalıdır.

**3.2-nin qiymətləndirilməsi: İnsan**lar əsrlərdən bəri cansız varlıqlarla canlı varlıqlar arasındakı uçurumdan xəbərdar deyildilər. Bunun ən mühüm göstəricisi minillik prosesdə insanların, canlıların “özündən törəmə” (spontaneous generation) ilə yaranmalarına inanmalarıdır. Bu anlayışa əsasən, canlılar başqa canlıların törəməsi və ya bölünməsi kimi proseslər olmadan cansız maddənin qa-

rışması nəticəsində əmələ gəlir. Bir çox şəxs arıların, milçəklərin, siçanların cansız maddələrdən necə əmələ gəlmələri ilə bağlı qaydalar yazacaq qədər inkişaf etmişdilər. Tullantıdan törəməyə inanıldığı kimi, ölmüş heyvanların cəsədlərinin xarab olması nəticəsində bunlardan törəməyə də inanırdılar.[57]

Məsələn, Aristotel ağcaqanadların və bitkilərin çürüyən maddələrdən əmələ gəldiklərinə inanırdı.[58]

XVII əsrdə mikroskopdan biologiya sahəsində istifadə olunmağa başlamasıyla "özündən törəmə" ilə bağlı mübahisələr yenidən canlandı. Artıq heç kim arılar və ya milçəklər kimi həşəratların "özündən törədiyini" iddia etmirdi. Beləliklə, cansızla canlı arasındakı fərqin güman ediləndən böyük olduğu üzə çıxdı. Lakin bu dəfə mikroskop sayəsində kəşf edilən təkhüceyrəlilərin "özlərindən törəmə" ilə əmələ gəlməsi fikri ortaya atıldı. XIX əsrdə mikroskopun inkişaf etdirilməsi və təfsilatlı araşdırmalar nəticəsində "özündən törəmə" yoluyla təkhüceyrəli canlıların da əmələ gələcəyini qəbul edən heç bir elm adamı qalmadı.[59] Bu isə cansızla canlı arasındakı fərqin artması mənasına gəlir.

XX əsr gəldikdə cansızla canlı arasındakı fərqlə bağlı biliklərin artmasının qarşılığında hələ də hüceyrənin sadə kimyəvi birləşmələrdən ibarət quruluş olduğu qəbul edilir. Hüceyrə "homogen plazmadan ibarət damcı" (homogenous globule of plasm) kimi xarakterizə edilirdi. Cansız-

---

57 Elizabet Qaskinq, **Investigations into Generations**, Hutchinson and Co Publishers, London, 1967, s. 18.

58 Erik Nordenskiöld, **The History of Biology**, Tərc: L. Baknel Eyr, Tudor Publishing, Nyu York, 1920, s. 430.

59 Ketrin Uilson, The Invisible World Early Modern r Philosophy and The Invention of The MicrosCope, Princeton University Press, Princeton, 1995.

la canlı arasındakı fərq daha yaxşı aydın olsa da, mikro dünyada kompleks quruluşların olmasıyla bağlı ehtimal hələ də mövcud deyildi. Mikroskopların daha da inkişaf etdirilməsilə 1950-ci illərdə inqilabi kəşflər həyata keçirildi, hüceyrələrin proteinlər kimi kompleks quruluşlardan əmələ gəldiyi, ən əsası isə DNT adlanan və hüceyrəni istiqamətləndirən, artmağa səbəb olan molekullara sahib olduğu aşkar edildi. Qarşımıza çıxan hüceyrə quruluşuna görə hər hüceyrə sanki fabrik kimidir. Mərkəzdə böyük kompüter kimi prosesi idarə edən DNT vardır. RNT-lər fəal işçilər kimi istehsal və daşıma kimi vazifələri həyata keçirir, mitoxondrilər enerji verir, proteinlər cihaz kimi üzərlərinə düşən işləri görürlər. Hüceyrə təbəqəsi təhlükəsizlik işçisi kimi yalnız lazım olanları içəri qəbul edir…

Müasir elmin qarşımıza qoyduğu bu mənzərə canlı ilə cansız maddə arasında böyük uçurumun kəşfi mənasına gəlir. Belə hüceyrələrdən canlıların 1 kvadratsantimetr bədənlərində minlərlə ədəd olduğunu düşündüyümüz zaman qarşımıza möhtəşəm mənzərə çıxır. Sizcə, qarşımıza çıxan bu mənzərə teist ehtimallara, yoxsa materialist-ateist ehtimallara uyğundur?

Bu elmi kəşflər ortaya çıxmazdan əvvəl materialist-ateistin tarixin uzun dövründə güman edildiyi kimi, cansızla canlı maddə arasında yaxınlıq olduğunu düşünməsi və elm inkişaf etdikcə, bu yaxınlığın daha çox təsdiq edilməsini gözləməsi paradiqmasının zərurətidir. Bu qədər böyük uçurumun ortaya çıxması isə gözlənilməz vəziyyətdir. Hər hansı teist baxımından isə cansızla canlı maddənin bir-birinə yaxın olduğunu düşünməkdə heç bir ziddiyyət olmadığı kimi, cansızla canlı arasında belə bir uçurum olmasında da hər hansı ziddiyyət yoxdur. Allah mikro və

makro dünyaların yaradanıdır, böyük qüvvə sahibidir və mikro dünyada əmələ gətirəcəyi kompleks quruluşlarla sənətini göstərməsi mümkündür. Bu kompleks quruluşlar (hələ necə əmələ gəldiyi göstərilməsə də) kimyəvi təkamül prosesilə ortaya çıxsa da, bu vəziyyət bu qədər kiçik nöqtədəki inanılmaz kompleksliyin möhtəşəmliyinə kölgə salmır, ortaya çıxan bu mənzərənin teist baxımından gözlənilən vəziyyət olduğu halda, materialist-ateist baxımından gözlənilməz vəziyyət olması həqiqətini dəyişdirmir.

Hüceyrələrdəki bu quruluşların kompleksliyini proteinə nəzər salıb başa düşməyə çalışaq. Ən sadə hüceyrə də yüzlərlə proteindən ibarətdir. Proteinlərin hüceyrə daxilindəki funksiyalarını yerinə yetirmələri üçün amin turşularının müəyyən düzülüşdə olmaları mühüm şərtdir. "Müəyyən funksiyası olan proteinin amin turşusu düzülüşündəki" bir və ya bir neçə dəyişiklik də funksiyasını yerinə yetirməsini qeyri-mümkün edir. Özü təkamülçü bioloji və biokimya kimi sahələrdə işləyən Stiven Rous orta böyüklükdə olan proteinə amin turşusunun düzülüşləri baxımından nəzər yetirir və bu proteinin amin turşusu uzunluğunda $10^{300}$ mümkün forma olacağını, bu formalar həqiqətən mövcud olduqları təqdirdə çəkilərinin $10^{280}$ qram olacağını, halbuki kainatdakı bütün maddənin çəkisinin təxminən $10^{55}$ qram olduğunu bildirir.[60]

($10^{56}$ $10^{55}$-dən 10 dəfə böyük olduğuna, $10^{280}$-nin isə $10^{55}$-dən 1-in ardınca 225 ədəd sıfır yazılacaq qədər böyük say olduğuna diqqət edin.)

Burada aydın olduğu kimi, yaşadığımız kainatdakı bütün maddəni amin turşularına çevirib xammal kimi istifadə etsəydik, bunlardan təsadüfi şəkildə birləşmələr əmələ

60 Stiven Rous, **Lifelines**, Oksford University Press, Oksford, 1998, s. 255.

gətirən sistem yarada bilsəydik, hətta "müəyyən edilmiş bir protein" əmələ gəldikdə onu seçib ayıracaq sistem də yaratsaydıq, sırf bu proteini əldə etməyimiz ehtimal kimi yox deyiləcək qədər az olardı.

Proteinlərin ortaya çıxması ilk sadə hüceyrənin əmələ gəlməsi üçün də çox zəruridir. Xəyali ən sadə mikroskopik canlının varlığı üçün də yüzlərlə protein, həmçinin, bunların müəyyən nizamda düzülüşü çox mühümdür. Ən sadə hüceyrənin minimum neçə proteindən yarandığı mübahisəli mövzudur. Bir elmi məqaləyə əsasən, ən sadə hüceyrə minimum 387 proteindən ibarət olmalıdır (bu say mübahisəli olsa da, ehtimal edilən ən az say da 200-dən çoxdur, proteinlərin birindəki kompleks quruluş düşünüldüyü zaman bu da xeyli yüksək saydır).[61]

Bu proteinlərin əmələgəlmə mərhələsində təbii seleksiya da hər hansı izahat vermir. Təbii seleksiya canlıların həyat mübarizəsi nəticəsində yaranır və bir-birilə rəqabət aparan canlılar arasındakı prosesin nəticəsi olub yalnız artan canlılara aiddir. Canlı aləm əmələ gəlməzdən əvvəl belə bir mexanizmin varlığını iddia etmək təbii seleksiya mexanizminin təsvirinə ziddir.

İlk hüceyrəni ortaya çıxaran prosesi izah etmək üçün RNT-lərlə başlanğıcı tövsiyə edənlər (RNT World) olmuşdur.[62] RNT-lər də olduqca kompleks molekullar və ilk hüceyrənin ortaya çıxmasıyla bağlı proses elm tərəfindən işıqlandırılmamışdır. Lakin bir gün bu prosesin izah olunacağını və prosesin müəyyən səbəb təşkil edən izahatını əldə edəcəyimizi düşünsək də, hüceyrənin mikro

61 Con I. Qləss və digərləri, "Essential Genes of a Minimal Bacterium", **Proceedings of The National Academy of Sciences,** 103/2, 2006, s. 425–430.

62 Lesli Orgel, "Evolution of The Genetic Apparatus", **J Mol. Biol,** 38/3, 1968, s. 381–393.

dünyasında kompleks quruluşların mövcud olduğu və çox möhtəşəm proseslərin reallaşdığı elmi olaraq açıq şəkildə qarşımıza çıxmışdır. Təbiəti şüursuz halda proseslərin həyata keçdiyi, heç bir zehnin məqsədinin reallaşmadığı sahə kimi qəbul edən materialist-ateizm baxımından, bütün kainatdakı xammalın ehtimal edilən birləşmələrinin bir ədəd proteinini də çıxartmağa kifayət etmədiyi qədər kompleks molekulların ortaya çıxıb funksiyalarını yerinə yetirmələri gözlənilməz vəziyyətdir (bu yaranma təbiətə məxsus proses vasitəsilə reallaşsa da). Bu vəziyyətin teizm baxımından təəccüblənəcək bir yanının olmaması, canlıların mikro dünyasında elmin qarşımıza qoyduğu bu mənzərənin teizmi materialist-ateizmdən üstün tutmağımız üçün bir səbəb də təqdim etdiyini göstərir.

**3.3-ün qiymətləndirilməsi:** Canlılar aləmindəki maraqlı xüsusiyyətlərdən biri eyni kökdən miras alınmamaqla yanaşı, bənzər xüsusiyyətlərin fərqli canlı növlərində bir-birilərindən ayrı olaraq “təkmilləşmiş” olmasıdır. Bu xüsusiyyətlər biologiyada “bir nöqtəyə yönəltmə” (convergent) kimi tanınır. Bunun ən bariz nümunələrindən biri uçmaq kimi canlılar aləmindəki mühüm xüsusiyyətin quşlarda, həşəratlarda, məməlilərdə (yarasa kimi) və pterosaursda (yox olan sürünənlər) bir-birilərindən ayrı əmələ gəlməsinin qəbul olunmasıdır. Bu “bir nöqtəyə yönəltmə” xüsusiyyəti həm heyvanlarda, həm bitkilərdə, bundan başqa, həm davranış xüsusiyyətlərində, həm də molekulyar səviyyədə özünü göstərir. Canlılarda olduqca kompleks xüsusiyyətlərin əksər hissəsinin bir-birilərindən ayrı, ortaq atadan eyni xüsusiyyət miras götürülmədən təkmilləşdiyi, yəni, “bir nöqtəyə yönəltmə” xüsusiyyətinin geniş

yayılan fakt kimi mövcud olması müasir biologiyada yüzlərlə nümunə göstərilərək qəbul olunur.[63]

Yarasalarda və delfinlərdə mövcud olan radar (echolocation) sistemləri, həmçinin, atəş böcəklərinin qaranlıq dənizlərdə istehsal etdiklər işıqlarla yolu tapan balıqların işıq istehsalı, bəzi həşəratların və quşların Günəşə baxaraq istiqamət tapmaları uzun "bir nöqtəyə yönəltmə" siyahısının yalnız bir hissəsidir.

Əvvəl də toxunduğumuz kimi, canlıların mikro səviyyəsində möhtəşəm kompleks quruluş vardır. Burada qeyd etdiyimiz hər xüsusiyyət isə canlıların mikro səviyyədə bir çox molekula malik olmaları və bu molekulların bəhs edilən xüsusiyyəti reallaşdırmaq üçün uyğun şəkildə fəaliyyətlərilə həyata keçir. Buradakı mühüm sual bu qədər kompleks cəmləşdirmə xüsusiyyətlərinin yenidən necə əmələ gəlməsidir. Əgər canlılardakı dəyişikliyin mühərriki genlərdəki mutasiyalardırsa, o zaman mutasiyaları müəyyən məqsədə görə reallaşdıran maddəyə məxsus bilinən təbiət qanunu yoxdur. Deməli, əmələgəlmə ehtimalı bu qədər az olan quruluşların yenidən dünya səhnəsində bir-birilərindən ayrı şəkildə görünməməsini, yəni, cəmləşdirmə xüsusiyyətlərinin görünməməsini gözləmək lazım idi.

Stefan Cey Quld dünyanın əvvəlinə gedib başdan zamanı başlatdığımız təqdirdə hər şeyin çox fərqli olacağını bildirir.[64] Bunun əksinə, Simon Konvey Morris mövcud

---

63 Simon Konvey Morris, **Lifes Solution: Inevitable Humans in A Lonely Universe,** Cambridge University Press, Kembric, 2005; Simon Konvey Morris, **The Deeb Structure of Biology**, Templeton Foundation Press, Pennsylvania, 2008.

64 Stefan Cey Quld, **Wonderful Life,** W. W. Norton and Company, Nyu York, 2007.

cəmləşdirmə faktının bir çox nümunəsinə işarə edərək cavab verir, eyni mühitdə bugünkünə çox bənzəyən xüsusiyyətlərin ortaya çıxacağını deyir. Çünki bu dünyada bir çox xüsusiyyət bir-birindən ayrı inkişaf etsə, dünya eyni şərtlərilə əvvəldən yaradılsa, bənzər xüsusiyyətli canlıların yenidən ortaya çıxması gözlənilməlidir. Canlılardakı dəyişikliyin mühərriki kimi təsadüfi mutasiyaları və bu mutasiyalarla ortaya çıxan varlıqlar üzərində seçim edən təbii seleksiya mexanizmini görsək, Quldun ümidləri doğru düşüncəyə uyğun olar, yəni, zamanı yenidən başlatsaq, indi ətrafımızdakı canlılardan çox fərqli canlıların olduğu mənzərə ilə qarşılaşmağı gözləməliydik. Lakin mövcud uyğunluq xüsusiyyətlərinə nəzər yetirsək (Quld da bunlardan xəbərdar idi), bu dünyada bənzər xüsusiyyətlər bir-birilərindən ayrı şəkildə dəfələrlə ortaya çıxdığına görə eyni şərtlərdə yenidən eyni növ canlıların ortaya çıxmasını gözləmək, Morrisin ehtimallarında olduğu kimi, daha məntiqlidir.

Burada mühüm olan yalnız təsadüfi mutasiyalar və təbii seleksiya çərçivəsində qaldığımız zaman bu qədər cəmləşdirmə xüsusiyyətini izah edə bilməyəcəyimizi görə bilməkdir. Bir dəfə də ortayaçıxma ehtimalı çox az olan xüsusiyyətlərin təsadüfən yenidən üzə çıxmasının izahı nədir? Burada bir-birindən ayrı nöqtəyə yönəltmə təkamül prosesi olduğuna görə ortaq atadan miras götürülmə izahat deyildir. Bundan başqa, bəzilərinin fizikadakı həssas nizamlardan qaçmaq üçün irəli sürdükləri "Bunlar olmasaydı, onları müşahidə etmək üçün burada olmazdıq. Bu səbəbdən bizim mövcudluğumuza imkan verən həssas nizamlardakı çox aşağı ehtimallara təəccüb etməməliyik" fikrinə bənzər izah vermək də mümkün deyildir. Çünki

bunların çoxu mövcud olmadan da mövcud ola bilərdik. Məsələn, bizim buradakı mövcudluğumuz nə yarasanın, nə də delfinin radar sistemindən asılıdır. Bu iki növ heç mövcud olmasa da, bu vəziyyət bizim mövcud olmağımıza mane olmazdı. Bu qədər kompleks xüsusiyyətlərin yenidən ortaya çıxması isə ehtimal baxımından mümkün görünmür (sırf "müəyyən bir proteini" ortaya çıxartmağa kainatın xammalının kifayət etmədiyini xatırlayın).

Lakin bütün bu anlaşılmazlıqlar materialist-ateizmdəki kimi təsadüfi təkamül prosesi tövsiyə edildikdə ortaya çıxır. Təbiətdəki proseslərin şüurlu şəkildə əmələ gətirildiyi qəbul edildikdə isə burada hər hansı anlaşılmazlıq qalmır. Allahın yüksək qüdrəti və elmilə canlılara verdiyi xüsusiyyətləri bütün proses qüdrəti altında olan qüvvə kimi təkrarlayaraq (cəmləşdirmə xüsusiyyətilə) yaratmasında gözlənilməyəcək vəziyyət yoxdur. Allah bunu edərkən mutasiyaları göstərmək kimi mexanizmdən istifadə etdiyi kimi, hələ kəşf etmədiyimiz və təbiətə məxsus olub canlıları belə xüsusiyyətlər əmələ gətirməyə doğru sövq edən bəzi qanunları yaratmaqla da bu prosesləri reallaşdıra bilər. İstənilən halda canlılar aləminin ən maraqlı faktlarından biri olan cəmləşdirmə xüsusiyyətini teizm materialist ateizmdən daha yaxşı izah edir.

Bir sözlə, təkamül nəzəriyyəsi teizm üçün təhdid deyil və canlılar aləmi teizmin lehinə ortaya qoyulacaq arqumentlər üçün çox zəngin məlumatlar təqdim edir. Bu cəhətdə toxunulacaq bir çox mühüm fakt mövcud olmaqla yanaşı, burada yalnız qısaca bəzi cəhətlərə toxunuldu. Canlılar aləmindəki qeyri-adi müxtəlifliyin əmələ gəlməsinə imkan verən kainatdakı potensialın mövcudluğunu (3.1.), bioloji tarixindəki hadisələrlə aydın olan cansız və

canlı arasındakı uçurumu və buna səbəb olan canlıların mikro dünyasındakı kompleks quruluşları (3.2.), eləcə də müasir biologiyada isbat edilən, bir çox nümunəsi olan bir-birilərindən ayrı baş verən cəmləşdirmə xüsusiyyətlərini teizm materialist-ateizmdən daha yaxşı izah edir. Bunlar teist paradiqma içərisində materialist-ateist paradiqmada olduğundan daha çox ehtimal ediləcək xüsusiyyətlərdir. Bu səbəbdən, teizmi materialist-ateizmdən üstün tutmaq üçün canlılar aləmi əvvəlki arqumentlərdə diqqət yönəldilən cəhətlərə dəstək verir.

İKİNCİ HİSSƏ

# FİTRƏT DƏLİLLƏRİ

# 8. TƏBİİ İSTƏKLƏR DƏLİLİ

Bəzi teist mütəfəkkirlər insanların daxilində Allaha qarşı birbaşa istək olduğunu iddia etmişlər. Onlardan çox azı bunu Allahın mövcudluğu üçün bir dəlil kimi qiymətləndirmiş, əksəriyyət isə bunu dəlilin bir hissəsi kimi təqdim etməmişdir. Məsələn, Paskalın yazılarında Allaha qarşı olan istəyin bütün insanlarda mövcud olması ilə bağlı iddianın şahidi oluruq:

> Bütün insanlar xoşbəxtlik axtarırlar. Bunda heç bir istisna yoxdur...
> Bütün insanlar şikayət edir: şahzadələr, xidmətçilər, əsilzadələr, yaşlı, gənc, güclü, zəif, savadlı, savadsız, sağlam, xəstə -hər ölkədə, hər dövrdə, hər cür şəraitdə… Boş yerə ətrafındakı hər şeylə boşluğu doldurmağa çalışır, lakin həmin şeylərdən heç biri ona kömək etmir. Çünki bu sonsuz boşluq yalnız sonsuz və dəyişməz obyektlə, yəni, Allahla doldurula bilər.[65]

İnsanların təbiətində fitri olaraq belə bir boşluq (istək) olsa da, Allaha üz tutan inanclı insanlar "Allaha yönəldim, daxilimdəki boşluqdan xilas oldum, istəklərim həyata keçdi, sən demə, daxilimdəki qaneolmayan istəklərin obyekti

---

65 Blez Paskal, **Pensees,** Tərc: A. J. Kreylşaymer, Penguin Classics, London, 1966, s. 74-75.

Allah olub" desələr də, inananların bu şəxsi təcrübələrini inancsızlara qarşı gətiriləcək obyektiv arqumentə çevirmək mümkün görünmür. Belə ki, bir çox ateist və aqnostiklər özlərində belə bir istəyin olduğunu inkar edirlər. Məsələn, Con Beversluiz bəhs edilən yanaşmanı tənqid edərkən belə bir istəyin mövcudluğunun iddia edilməsinin mümkün olmadığını bildirmişdir.[66]

Ədəbiyyatda "istək dəlili" (the argument from desire) deyildikdə, belə yanaşmalar nəzərdə tutulur.

Burada çox fərqli, ateistlərin də mövcudluğunu qəbul etdikləri təbii istəkləri əsas götürərək xüsusi dəlil irəli sürüləcəkdir. Təbii istəklərimiz bizi ən çox biz edən, daxilə yönəlməklə varlıqlarına şahidlik etdiyimiz xüsusiyyətlərimizdir. Yeyib-içmədən yaşamaq və xoşbəxtlik istəklərinə qədər təbii istəklərimiz bizdə dünyaya gəldiyimizdən bəri vardır. Bizə məxsus bu istəklərin necə mövcud olmasının müəyyən izahı zəruri etməsi bir çox insanın gözündən qaçan çox mühüm cəhətdir. Balıq sudan xəbərsiz olduğu kimi, çox vaxt bu qeyri-adi fenomenləri lazımınca bilmirik. Adətən bunların olmalarını zəruri qəbul edir, "başqa necə ola bilərdi?" deyir, onları görmürük. Ən cahil insandan ən bilikliyə qədər hər insanda eyni tərzdə həyat eşqi, qorxulardan xilas olmağa çalışma, məqsəd və xoşbəxtlik kimi istəklərin şahidi olmaq çox vaxt belə istəklərin olmasının nə qədər maraqlı olduğunun dəyərləndirilməsinin qarşısını alır. Halbuki hər insanda bu möhtəşəm fenomənlərə şahidlik etmək bunların dəyərini azaltmır, əksinə, artırır. Qeyri-adini əldə etməyiniz üçün qüvvətli daxilə baxışla birgə, kainat haqqında ciddi fəlsəfi dəyərləndirməni bir-

66 Con Beversluiz, **C. S. Levis and The Search for Rational Religion**, Prometheus Books, Nyu York, 2007, s. 56-57.

ləşdirməliyik. Bizimlə eyni atomlara malik olan ağacda, torpaqda və suda olmayan belə istəklər nə üçün bizdə mövcuddur? Burada təbii istəkləri əsas götürərək teizmin lehinə müəyyən arqument göstəriləcəkdir. Bu dəlil aşağıdakı kimi təqdim edilir:

1. Bunlar təbii və əsas istəklərimizdır.
    1.1. Həyat
    1.2. Qorxuların aradan qaldırılması
    1.3. Məqsəd
    1.4. Xoşbəxtlik
    1.5. Şübhədən uzaq məlumat əldə etmək
    1.6. Başqaları tərəfindən yaxşı davranış görmək.
2. Bir-biriləri ilə əlaqəli olsa da, bir-birindən dəyərli hesab edilən bu təbii və əsas istəklərin hər birinin ödənilməsi yalnız Allahın mövcudluğu ilə mümkündür.
3. Bu təbii və əsas istəklərimizin necə əmələ gəldiyini izah edəcək iki əsas alternativ fikir var:
    3.1. Bu istəklər materialist-ateistlərin tövsiyə etdiyi kimi, təsadüf və zərurətlə yaranmışdır.
    3.2. Bu istəkləri teizmin tövsiyə etdiyi kimi, Allah yaratmışdır.
4. Bəhs edilən fərqli təbii və əsas istəklərin hamısının (1-ci maddədəki) eyni ontologiyanı tələb etməsi (2-ci maddə); Allahın mövcudluğunun və bu istəkləri yaratmasının (3.2.-nin), bu inancın yeganə alternativi mövqeyində olan materialist-ateizmdən (3.1.-dən) daha rasional olduğunu göstərir.
5. Nəticədə, teizm materialist-ateizmdən üstün tutulmalıdır.

Hər şeydən əvvəl, bəhs edilən forması ilə istək dəlilinə qarşı qeyd edilən tənqidə cavab verməyi çox faydalı hesab

edirəm. Çünki eyni tənqidi buradakı arqumentə yönəldənlər də ola bilər. Bu tənqidi edənlər "Ferrari" avtomobilinin olmasını istədiklərini, lakin bunun olmadığını, nağıllardakı dünyalara getməyi arzu etdiklərini, lakin gedə bilmədiklərini deyirlər.[67] Bununla da insanların istəklərinin mövcudluğundan həmin istəklərin obyektinin mövcud olmasına keçidin mümkün olmadığını qeyd edirlər.

Piter Krift bu tənqidə istəkləri "təbii" və "süni" olaraq iki yerə ayırmaqla cavab verir. Təbii istəklərin "daxildən" gəldiyini, bunun əksinə, süni istəklərin "kənardan, cəmiyyətdən, reklamlardan və ya mücərrədlikdən" gəldiyini deyir, istək dünyasına gedə bilməməklə heç yatmamaq arasındakı fərqə diqqəti cəlb edir. Təbii istəklərin hamımızda ortaq olması, süni istəklərin isə insanlar arasında müxtəlif olması əsas fərqdir.[68]

Arqumentimin birinci maddəsində haqqında bəhs edilən istəkləri "təbii" və "əsas" xüsusiyyətlərilə vurğulamağımın səbəblərindən biri belə etirazlara bütün qapıları bağlayır.

Ateist və aqnostiklərin bir çoxu birinci maddədə qeyd edilən altı istəyimizin bütün normal insanlarda mövcud olduğunu asanlıqla qəbul edəcəklər. Tarixin ən məşhur ateistləri arqumentin ikinci maddəsində ifadə edildiyi kimi, belə istəklərimizin ödənilməsinin Allahın mövcudluğunu zəruri etdiyini bildirmiş, lakin bu istəklərin Allahın mövcudluğunu zəruri etməsini əsas götürərək Allahın mövcudluğunun insan zehninin uydurması olduğunu bildirmişlər. Buradakı arqumenti mühüm edən amillərdən biri budur:

67 Con Beversluis, **C. S. Levis and The Search for Rational Religion**, s. 47.
68 Piter J. Krift və Ronald K. Tacelli, **Pocket Handbook of Christian Apolegetics,** InterVarsity Press, Downers Grove, 2003, s. 26-27.

məşhur materialist-ateistlərin başlanğıc nöqtəsinın qəbul edilməsi, lakin bunu əsas götürərək vardıqları nəticənin tam əksinə, Allahın mövcud olması nəticəsinə gəlməyin daha rasional olduğunun göstərilməsi...

Hər şeydən əvvəl, bu istəklərin üçünü (yaşam, qorxuların aradan qaldırılması və məqsəd) götürərək həmin istəklərin Allahın mövcudluğunu necə zəruri etdiyini məşhur ateist mütəfəkkirlərə də işarə edərək göstərməyə çalışacağam.[69]

**Həyat istəyinin qiymətləndirilməsi:** "Həyat istəyi" hər bir normal və sağlam insanın daxilində olan ən mühüm təbii istəklərdən biridir. Bu o qədər mühümdür ki, onun üçün bir çox digər təbii istəkdən asanlıqla imtina edilir. Məsələn, səhrada susayıb su içən, acıb yemək yeyən və cinsi istəkləri yaranıb xanımına yönələnləri düşünək. Bu şəxslər sunaminin yaxın vaxtda yaşadıqları ərazini basacağı xəbərini alsalar və ya sunaminin gəldiyini görsələr, başqa təbii istəklərini bir kənara qoyub qaçarlar. "Həyat istəyi"ni xüsusilə vurğulayan məşhur ateist filosoflardan biri də Şopenhauerdir. Onun fikrincə, bu arzu və istək hər şeydən daha vacibdir. Şopenhauer hətta intiharın da "həyat istəyinin və iradəsinin" cavabı olmadığını, rədd edilənin yalnız acı çəkmək və həyatın şərtləri olduğunu bildirir.[70]

İnsan zehni digər bütün canlı növlərindən fərqli olaraq uzaq keçmiş və uzaq gələcəklə düşünərək əlaqə yaradır. Gələcəklə daxildəki "həyat istəyi" ilə əlaqə yaradan

69 Bu altı istəyin qiymətləndirilməsi üçün həmin dəlilin daha təfsilatlı təqdim edildiyi aşağıdakı kitabıma baxın: Caner Taslaman, "**Arzulardan Allaha Ulaşmak"**, Etkileşim nəşriyyatı, İstanbul, 2014.

70 Artur Şopenhauer, **The World as Will and Representation**, Vol: 2, Tərc: E. F. J. Payne, Harper and Row, Nyu York, 1966, s. 8.

zehnin axirət həyatını istəməsi qaçılmazdır. Bu dünyanın daxilindəki həyat istəyinin səsinə qulaq asan birisini qane edəcəyini güman etmirəm. Müasir elmi məlumatlar bütün kainatın "Böyük çöküş" (Big Crunch)" və ya "Böyük donma" (Big Chill) alternativlərindən birisi ilə (başqa sonluq ssenarisi baş verməsə) sona çatmasının qaçılmaz olduğunu göstərir.[71] O zaman bu əsas arzumuzun obyekti olan axirətin mövcudluğunun reallaşması, bu kainatdan üstün olanı, eyni zamanda, insanların istəklərindən xəbərdar olacaq qədər özünəməxsus olanı, bundan başqa, bunu reallaşdıracaq qədər bilikli və qüdrətli olanı, yəni, bildirilən xüsusiyyətlərilə Allahın mövcudluğunu zəruri edir. Müasir elmi məlumatları bir kənara qoysaq da, dağılmış bədənimizdən mövcudluğumuzun yenidən qayıtmasının yalnız qüdrəti və biliyi çox yüksək, istəklərimizdən xəbərdar olan Varlıqla mümkün olduğunu görmək çətin deyildir.

Aydın olduğu kimi, insanlar fitri olaraq (a priori) gələcəklə zehni əlaqə yaratma xüsusiyyətinə və fitri olaraq həyat istəyinə malikdirlər. Bu dünyadakı bəşər övladının həyatı ölümlə sona çatır. Nəticədə insanlığımıza məxsus bu vəziyyətlər (a priori kimi) istəklərimizin ödənilməsi üçün Allahın mövcudluğuna ehtiyac hiss etdiyimizi göstərir. Bunu bilib-bilməməyimiz də həmin vəziyyəti dəyişdirmir. Bu, $(a+b)^2$-nin heç bir sınaq və müşahidə ilə dəstəklənməyə ehtiyac olmadan $(a^2+2ab+b^2)$-yə bərabər olmasından xəbərsiz olmağımızın bu bərabərliyi dəyişdirməməsinə bənzəyir. Allaha qarşı birbaşa istəyin mövcudluğuna (Augustinus olaraq) inanan şəxsə belə bir istək hiss etmədiklərini deyərək qarşı çıxanlar ola bilər. Lakin burada hərəkət nöqtəsi belə etirazların edilməyəcəyi "həyat

71 Paul Devis, **The Last Three Minutes**, Basic Books, Nyu York, 1994, s. 67-81.

istəyi"dir. Bu istəyin yalnız Allah olduğu təqdirdə həyata keçiriləcəyini görmək isə çətin deyildir.

**Qorxuların aradan qaldırılması istəyinin qiymətləndirilməsi:** "Qorxuların aradan qaldırılması istəyi"nin Allahın mövcudluğunu zəruri etməsi ölüm qorxusu vasitəsilə aydın olsa da, bununla məhdudlaşmır. İnsan kainatın böyüklüyü ilə nəhəngliyi qarşısında acizliyini dərk edir, bu isə qorxuya səbəb olur. Belə qorxular yalnız bütün kainata hökm edən bir Allaha sığınmaqla aradan qalxır. Devid Yum qorxu hissilə dinlərin mövcudluğu arasında əlaqə yaratmışdır.[72]

Bu mövzuda ən məşhur ateistlərdən olan Freyd "istəklərin ödənilməsi" (wish-fulfillment) hesab etdiyi dinlər üçün belə deyir: "...Dini fikirlər mədəniyyətlərin digər nəticələri olan təbiətin əzici gücünə qarşı özünü müdafiəetmə zərurətindən eyni ehtiyac əsasında ortaya çıxmışdır.[73]

...Sonrakı dövrlərin, həmçinin, dövrümüzün insanı eyni davranış qaydalarına malikdir: uşaq kimidir, hətta inkişaf etdikdə də qorunmağa ehtiyac hiss edir, tanrısının köməyi olmadan heç nə edə bilməyəcəyini düşünür".[74]

Freydin "özünümüdafiə etmə zərurəti" və "qorunmağa ehtiyac" ifadələrilə diqqəti cəlb etdiyi cəhəti dinin (Allah inancının) "qorxuların aradan qaldırılması istəyi"ni həyata keçirməsi kimi də oxuya bilərsiniz. Nəticədə, ən əsas qorxulardan xilas olmanın Allahın mövcudluğunu zəruri

72 Devid Hume, **Dialogues and Natural History of Religion**, Red: J.A.C. Qaskin, Oksford Universitetinin nəşriyyatı, Oksford, 1993, s. 176.

73 Ziqmund Freyd, **The Standard Edition of The Complete Psychological Works of Ziqmund Freyd**, **Vol: XXI (1927-1931): The Future of an Illusion, Civilization and its Discontents, and Other Works, The Hogarth Press and The Institude of Psycho-analysis**, London, 1961, s. 21.

74 Ziqmund Freyd, **The Origins of Religion**, Penguin, London, 1991, s. 376.

etməsi teistlərin və ateistlərin asanlıqla razılığa gələcəkləri faktdır. Burada ən mühüm məsələ həmin istəyin teizmi, yoxsa ateizmi dəstəklədiyini müəyyən etməkdir. Mən də burada bunu reallaşdırmağa çalışıram. Hər insanın fitri sahib olduğu qorxu hissi və qorxuların aradan qaldırılması istəyi fitri sahib olduğumuz, gələcək, kainat və özümüz haqqında düşünmə qabiliyyətimizlə birləşdikdə, fitri olaraq bizi Allaha möhtac edən istəklərə sahibolma faktı qarşımıza çıxır.

**Məqsəd istəyinin qiymətləndirilməsi:** Yaxın dövrlərdə aparılan psixoloji araşdırmalarla məktəbəqədər yaşda olan uşaqların təbiətdəki faktları məqsədəuyğun dərketmə və izahetmə istiqamətində meylləri olduğu göstərilərək fitri (a priori) qabiliyyətə sahib olduğumuz aydın oldu.[75] Belə ki, uşaqlardakı məqsədəuyğun (teleoloji) izahat verməklə bağlı bu meyli dövrümüzün ən məşhur ateisti Riçard Daukins bir çox şəxsin Allah inancına sahib olmasının səbəbi kimi göstərərək ateist fikirləri istiqamətində istifadə etməyə çalışmışdır: “Hər şeyə müəyyən məqsəd aid edilməsinə teleologiya deyilir. Uşaqlar təbii teleoloqlardır və bir çox insanlar bu uşaqlıq vəziyyətindən heç zaman çıxa bilmirlər. Buradan aydın olur ki, uşaqsayağı teleologiya dinlərin yaranmasına səbəb olur. Əgər hər şeyin bir məqsədi varsa, o zaman bu kimin məqsədidir? Şübhəsiz ki, Allahın”.[76]

Ətrafındakı mövcudluğu məqsədəuyğun şəkildə şərh edən insan bütün kainata və ən mühümü isə öz mövcudlu-

75 Debora Keleman, “Are Children İntuitive Theists? Reasoning about Purpose and Design in Nature”, **Phsychological Science,** No: 15/5, 2004; Debora Keleman, “The Scope of Teleological Thinking in Preschool Children”, **Cognition**, No: 70, 1999, s. 241-272.

76 Riçard Daukins, **The God Delusion**, Blək Svən, London, 2007, s. 210.

ğuna yönəldiyi zaman kainatın və özünün məqsədini öyrənmək istəyir. Lakin kainatın, eləcə də insanın həyatının məqsəd və mənası yalnız kainatdan üstün şəkildə kainatı və insanı müəyyən məqsəd və məna ilə yaradan şüurlu Varlıq olduğu təqdirdə mümkün olur. Materialist-ateist yanaşmaya əsasən, kainat özü-özünə mövcuddur, maddi varlığı onun məqsədi ola bilməz. İnsan isə zərurətlə şansın birləşməsilə təsadüfən yaranmışdır. Allahın olmadığı bu mənzərədə kainatın və insanın müəyyən məqsədi ola bilməz. İnsanın daxilindəki "məqsəd istəyi"nin ödənilməsi mümkün deyil və bunun məntiqi nəticəsi "qaçılmaz ümidsizlik"dir. Bunu ötən əsrin məşhur ateist filosoflarından Bertran Rassellin bu ifadələrindən də başa düşə bilərik: "Elmin bizə təqdim etdiyi dünya daha məqsədsiz, daha mənasızdır... Buna əsasən, insan nə əmələ gətirəcəyindən xəbərsiz səbəblərin nəticəsidir. İnsanın kökü, inkişafı, ümidləri və qorxuları, sevgi və inancları, atomların birləşməsindən başqa bir şey deyildir... Bundan sonra yalnız bu həqiqətlərin üzərində və yalnız bu qaçılmaz ümidsizliyin əsasları üzərində ruh əminliklə qala bilər".[77]

Bu kitabda toxunulan 12 dəlilin hamısı qısaca qeyd edilsə də, digər üç istəkdən bəhs edilmədi. "Teologiya antropologiyadır" deyən Feyerbax kimi bir çox ateist insanların xoşbəxtlik istəyinin (toxunmadığımız dördüncü istək) axirəti, axirətin isə Allahın mövcudluğunu zəruri etdiyini isbat etmiş, lakin bu isbatlarını insanların, Allahın və axirətin mövcudluğunu uydurmalarının səbəbi

77 Bertrand Russell, **Mysticism and Logic and Other Essays**: **A Free Mans Worshib,** Longmans, London, 1918, s. 40.

kimi göstərmişlər.[78] Qiymətləndirilməyən "şübhədən uzaq məlumat əldəetmə istəyi"nin bu kitabdakı 10-cu dəlil olan "ağıl dəlili", "başqalarından yaxşı davranışgörmə istəyi"nin isə 9-cu dəlil olan "əxlaq dəlili" ilə yaxın əlaqəsi vardır. Bu, digər üç istəklə bağlı burada təqdim edilən arqumentdəki iddiaya əsasən, Allahın mövcudluğu olmadan fitri olaraq bizdə mövcud olan (İslam terminologiyasından istifadə etsək, fitri olaraq sahib olduğumuz) bu istəklərin qarşılığını tapması mümkün deyildir.

Buraya qədər arqumentimin ilk iki maddəsini izah etdim. İrəli sürdüyüm arqumentin üçüncü maddəsi isə, hər halda, ən az etiraz ediləcək maddədir. Bir çox ateist və teist bu maddəni asanlıqla qəbul edəcəkdir. İstər fəlsəfə tarixinə, istərsə də müasir fəlsəfəyə nəzər yetirdikdə, materialist-ateist yanaşma ilə teist yanaşmanın bir-birilərinə qarşı durmaları, bu fikirlərdən birinin səhv olmasının isbatının digərinin təsdiq edilməsi kimi qəbul olunduğunu asanlıqla qeyd etmək olar. Aqnostik yanaşmalar bunlar xaricində üçüncü izahat olmaq əvəzinə daha çox bunlardan hansının doğru olduğunun bilinməyəcəyinin irəli sürülməsidir. Bu səbəbdən, teizmin lehinə olan hər hansı dəlil materialist-ateizmə olduğu qədər aqnostisizmə də cavab xarakteri daşıyır.

Ateist və aqnostiklərin irəli sürdüyüm arqumentdə ən çox etiraz edəcəkləri maddə isə qəbul edildiyi təqdirdə nəticənin avtomatik qəbul olunduğu dördüncü maddədir. Bəhs edilən istəklərin Allahın şüurlu planı nəticəsində deyil, materialist-ateist yanaşmanın tövsiyə etdiyi kimi əmələ gəldiyini deyənlər bu istəklərin təbii seleksiya

78 Lüdviq Feyerbax, **Lectures on The Essence of Religion,** 1851, (http://www.marxists.org/ reference/archive/Feuerbach/works/lectures/lec30.htm

nəticəsində əmələ gəldiyini və ya təkamülün əlavə nəticələri olduğunu iddia edəcəklər. Ən əvvəl isbat etməliyik ki, burada toxunulan istəklər ən əsas istəklərimizdir. Bu siyahıya alternativ olaraq burada qeyd olunan nəticənin əksini tələb edəcək təbii və əsas istəklər siyahısı qeyd edilə bilməz. Bəhs edilən istəklərlə yanaşı, yemək, içmək, cinsi həyat və yuxu kimi təbii istəklərimiz də vardır. Dünyadakı mövcudluğumuzu davam etdirməyimiz məqsədilə olan bu istəklər burada iddia edilən nəticənin əksinə, müəyyən vəziyyət əmələ gətirmədikləri kimi, bu təbii istəklərimizin obyektlərinin mövcud olması (yemək istəyinə qarşı yeməyin və ya su istəyinə qarşı suyun mövcud olması) buradakı arqumenti dəstəkləyir. Çünki bunlarla dünya ilə bağlı bütün təbii istəklərimizin obyekti olduğunu görürük. Bu isə nəzərlərimizi dünyamızdan üstün olana çevirən, təbii və əsas istəklərimizin obyekti olan Allahın mövcudluğuna inanmağı dəstəkləyir.

Burada təkamül nəzəriyyəsi ilə bağlı mübahisələrə toxunacağam. Lakin bu nəzəriyyəni doğru qəbul etdiyimiz zaman buradakı nəticənin dəyişməyəcəyini bildirmək istəyirəm. (Bundan əvvəlki dəlil olan 7-ci dəlildə bu mövzu bir daha müzakirə edildi).[79] Əgər təkamül prosesində bu istəklərin əmələ gəldiyi qəbul edilsə, təkamülü Allahın yaratma yolu və təbii seleksiyası ("Allahın yaratma vasitələrindən biri") kimi qəbul edən anlayışlar dəstəklənməzmi? Bizdə fitri şəkildə mövcud olan bu təbii və əsas istəklər bu kainatdan üstün Allahın mövcudluğunu zəruri edirsə, bu, təkamül və təbii seleksiyanın nəzərlərimizi Allaha çevirməsi mənasına gəlmirmi?

79 Təkamül Nəzəriyyəsini təfsilatlı şəkildə "**Təkamül Nəzəriyyəsi, Fəlsəfə və Tanrı**" kitabımda qeyd etmişəm.

Bu vəziyyətdə isə Pyer Teylhard de Kardendən, Dobrjanskidən Muhəmməd İqbala qədər (aralarında mühüm fərqlər olsa da) təkamülü Allahın yaratma üsulu hesab edənlərin yanaşmaları dəstəklənmirmi? Bir-birilərindən ayrı bütün bu istəklərin eyni ontologiyanı tələb etməsi sırf bu dünyada yaşamağa və artmağa görə seçimlər edən təsadüfi təbii seleksiya mexanizmi ilə izah oluna bilməz. Teist paradiqma içərisində istəklərimiz təbii proseslərlə yaransa da, təbii proseslərin planlaşdırıcısı olan Allaha bizi yönəltməsi gözlənilən vəziyyət olduğu halda, materialist-ateist paradiqma içərisində belə bir vəziyyəti gözlənilən edəcək hər hansı amil mövcud deyildir. İstəklərimizi araşdırdığımız zaman bu dünyaya yaşamaq və artmaqdan daha çox bağlı olduqlarını görürük. Bunu əvvəldən araşdırılan üç təbii və əsas istək üçün qısa şəkildə göstərməyə çalışacağam:

**Həyat istəyi:** Bu dünyada yaşamağımızı və artmağımızı ən çox dəstəkləyən istəyin bu olduğu adından da görünür. Lakin digər növlərdən fərqli olaraq çox uzun keçmiş və uzun gələcəklə zehnimizin əlaqə yaratmasının və bioloji orqanizmimizin imkan verəcəyindən daha uzun prosesdə isə yaşamağı davam etdirməyi istəməyimizin bu dünyada yaşamağımız və artmağımızla heç bir əlaqəsi yoxdur.

**Qorxuların aradan qaldırılması istəyi:** Şübhəsiz ki, yırtıcı heyvanlardan və ya yüksək yerdən yıxılmaqdan qorxmaq bu dünyada yaşamağımız və artmağımızda müəyyən rola malikdir. Lakin insan zehninin kainatın genişliyini və öz acizliyini başa düşməsi nəticəsində bu vəziyyətdən qorxduqda, bütün kainatda baş verənlərə

gücü ilə təsir edən Varlığa qorxularının aradan qaldırılması istəyinin özünü istiqamətləndirməsinin bu dünyada yaşamaq və artmaqla heç bir əlaqəsi yoxdur. Belə ki, bir çox canlı növü onları öldürəcək canlılardan sanki qorxuya bənzər hiss duyur. Lakin insanda olduğu kimi, kainatın genişliyinə qarşı öz acizlikləri ilə bağlı düşünmələri nəticəsində ortaya çıxan qorxulardan xilasolma istəklərinin onları bu kainatdan üstün olana istiqamətləndirdiyini müşahidə etmirik.

**Məqsəd istəyi:** İnsanların hər şeydə məqsəd arayışı (teleoloji) düşüncəsi digər canlıları başa düşmələri kimi üstünlüklər verərək bu dünyada yaşamaqda və törəmədə müəyyən rola malik olur. Lakin insanların məqsəd və məna istəyinin özlərinin və kainatın müəyyən məqsədini axtarmağa istiqamətləndirəcək şəkildə insanda mövcud olmasının bu dünyada yaşamaq və artmaqla heç bir əlaqəsi yoxdur.

Əvvəl də aydın olduğu kimi, bəhs edilən altı istəyin bəzilərinin insanda olduğunu isbat edən ateistlər bu istəklərin həyata keçirilməsinin Allahın mövcudluğunu zəruri etdiyini görmüş, Allaha və dinə inanmağı "istəklərin həyata keçirilməsi" kimi qiymətləndirmişlər. Halbuki bu yanaşma yalnız materialist-ateizmi əvvəldən doğru fəlsəfə hesab etdiyimiz təqdirdə qəbul edilir. Bu ilkin fikir bir kənara qoyulduğu zaman "istəklərin həyata keçirilməsi"ni düşünən ateistlərin ən çox yol verilən məntiq səhvlərindən biri olan "əsas səhvi" (genetic fallacy) etdikləri aydın olacaqdır. Əsas səhvə yol verən şəxs bir şeyin əsasını göstərməklə həmin şeyin doğru və ya səhv olduğunu isbat etdiyini güman edir. "Əsas səhv"i bu-

raxan şəxsin çıxardığı nəticə doğru və ya səhv ola bilər. Lakin mühakiməaparma forması yenə də məntiqi olaraq səhvdir. Məsələn, "Əli dünyanın kürə formasında olmasını ailəsindən öyrəndi. Deməli, bu mövzuda olan biliyi səhvdir" deyən şəxslərin məntiq irəlisürmə formalarının nəticələri doğru və ya səhv qəbul edilməsindən asılı olmayaraq yenə də bu şəxslər "əsas səhv"ə yol verirlər. Çıxarılan nəticələrdə qeyd edilən əsas isbat edilə bilməz. Bununla yanaşı, Freyd kimi, "istəklərin həyata keçirilməsi"ni iddia edənlərin dediyi kimi, insanların bəzisinin və ya bir çoxunun Allaha və dinə inanmasının kökündə bəlkə də istəkləri dayanır. Lakin Allaha və ya dinə inanmanın əsasını göstərməklə Allahın və dinlərin bəşəri uydurmalar olduğu iddia edildiyi zaman "əsas səhv" edilir. Halbuki insanların daxilinə bu istəklərin salınması yolu ilə Allahın insanları özünə inanmağa istiqamətləndirdiyi deyilir.[80]

Burada təqdim edilən dəlildə də əsas səhvə yol verilib-verilməməsilə bağlı sual ola bilər. Bu dəlildə fitri şəkildə mövcud olan istəklərimizin Allaha yönəltdiyi və bu səbəbdən Allahın mövcudluğuna inanmağımız zəruri olduğu deyilsəydi, Freyd və digərləri kimi, "əsas səhv"ə bənzər başqa səhv edilərdi. Halbuki burada əvvəl bu qədər fərqli istəyin hamısının Allahın mövcudluğunu zəruri etdiyi göstərilir, sonra bu istəklərin necə mövcud olması ilə bağlı suallar verilir. Bu suallar nəticəsində istəklərin necə mövcud olmasının izahını ən yaxşı şəkildə teizmin verdiyi iddia edilir. Burada təqdim edilən arqument istəkləri təqib etdirib ("əsas səhv"ə sövq edib) məqsə-

80 Stiven Con Ceyms Lovell, **Philosophical Themes from C. S. Levis**, Department of Philosophy University of Sheffield, PhD Thesis, August 2003, p. 95, 154.

dinə çatan deyil, istəklərin necə mövcud olmasının ən yaxşı izahından məqsədə nail olan arqumentdir.

“Nə üçün fərqli istəklərimiz bizi Allahın mövcudluğuna inanmağa istiqamətləndirəcək şəkildədir?” kimi mühüm sualın cavabı olaraq “Çünki hamısını Allah yaradıb” demək fərqli istəklərin yönəltdiyi məqsəddəki bu birliyi gözəl izah etdiyi halda, materialist-ateizmin təbiət qanunları çərçivəsindəki təsadüfə əsaslanan yanaşması qaneedici izahat vermir. Teizmin paradiqması çərçivəsində hər şeyi və bu səbəbdən istəkləri yaradan Allah olduğuna görə bütün fərqli istəkləri eyni məqsədə yönəltməsi istəklərin yaradanının planının əsəridir. Bu səbəbdən, fərqli istəklərin insanları Allaha yönəltməsində təəccüblü vəziyyət yoxdur. Lakin istəklərin təsadüfən əmələ gəldiyini düşünən insan üçün maddi kainatda təsadüfən yaranan bu qədər fərqli istəyin bizi böyük qüvvəyə istiqamətləndirməsinin məntiqli izahı görünmür.

Bir sözlə, tarixin ən məşhur ateistləri insanların istəklərinin həyata keçirilməsinin Allahın mövcudluğunu zəruri etməsini Allahın mövcudluğunun uydurma səbəbi kimi göstərməyə çalışmışlar. Halbuki burada ateist filosofların boğulduğu yerdə həyat suyunun olduğunu göstərməyə çalışdım. Bir-birindən dəyərli hesab edilən, fərqli və çox mühüm istəklərimizin eyni şəkildə Allahın mövcudluğunu zəruri etməsinin ən yaxşı izahatı Allah tərəfindən bunların insanlarda yaradılmasıdır. Sırf bu dünyada yaşamaq və artmaq əsasında seçim edən, materialist-ateistlərin tövsiyə etdiyi kimi hərəkət edən təbii seleksiya mexanizmilə bu dünyadan üstün Allahın mövcudluğunu zəruri edəcək şəkildə bir çox istəyin

əmələ gəlməsi materialist-ateizm baxımından gözlənilən vəziyyət ola bilməz. “Nə üçün fərqli istəklərimiz bizi Allahın mövcudluğuna inanmağa istiqamətləndirəcək şəkildədir?” kimi qeyri-adi əhəmiyyətə malik sualın yeganə rasional cavabını teizm verir. Bəhs edilən bütün fərqli istəklərin eyni varlıq anlayışını (ontologiyanı) zəruri etməsini təsadüflə izah edən materialist-ateist fikrə qarşı bunların Allah tərəfindən şüurlu şəkildə müəyyən məqsədə uyğun olaraq belə əmələ gətirildiyini deyən teist fikrə üstünlük verilməlidir.

# 9. FİTRİ ƏXLAQ DƏLİLİ

Əxlaq mövzusu minillərlə fəlsəfə və dinlərin diqqət mərkəzində olsa da, XVIII əsrdən əvvəl əxlaq əsas göstərilməklə Allahın mövcudluğu üçün müəyyən arqument irəli sürüldüyünə şahidlik edilmir. Bunun bir səbəbi bir çox teistin Allahın mövcudluğunu fideist şəkildə (dəlilə ehtiyac hiss etməyan iman yanaşması ilə) başlanğıc nöqtəsi edərək müəyyən arqumentə ehtiyac hiss etməməsi, digər səbəbi isə arqumentlərlə əlaqələndirənləri başda planı əsas götürən dəlillər olmaqla kosmoloji dəlil və şüur dəlili kimi dəlilləri kifayət hesab etmələri olmuşdur. XVIII əsrdən əvvəl təsadüf edilməyən, XX əsrin əvvəllərindən sonra isə sanki fəlsəfənin "tərk edilmiş ərazisi"nə[81] çevrilən əxlaq dəlilləri haqqında hələ də çox şey deyiləcəyi düşünülərək burada bir arqument təqdim olunacaqdır.

Əxlaqın artan tərzdə intizamlı araşdırma sahəsi olduğu gözlənilir. Fəlsəfə və dinlər xaricində psixologiya, məntiq elmləri, nevrologiya, antropologiya, təkamül biologiyası və uşaqların inkişafı kimi bir çox başlıq altında əxlaq mövzusuna toxunulur.[82] Əxlaq əsas götürülərək yeni nə isə de-

---

81 Robert Adams, "Moral Arguments for Theistic Belief," **Rationality and Religious Belief,** Red: C. Delaney, University of Notre Dame Press, Notre Dame, 1979, s. 116.

82 Kristofer Suhler və Patrisia Çöçlənd, "The Neurobiological Basis of Morality", **The Oxsford Handbook of Neuroethics**, Red: Cyudi İlles və Barbara J. Sahakian, Oxsford University Press, Oksford, 2011, s. 33.

yiləcəksə, o zaman bu araşdırmalar da nəzərə alınmalıdır. Əxlaqın bizdəki fitri xüsusiyyətlərimizlə olan əlaqəsinə (aralarında mühüm fikir fərqləri olsa da) Qotfrid Leybnits (1646-1716),[83] Lord Şaftesböri (1671-1713),[84] Frensis Hötçeson (1694-1746),[85] Tomas Reyd (1710-1796)[86] və Adam Smit (1723-1790)[87] kimi məşhur filosoflar diqqətləri cəlb etmişdir. Nəticədə buradakı hərəkət mənbəyim olan, insanların fitri əxlaqi xüsusiyyətlərə malik olmaları bir çox filosof və teoloqla ortaq məqamımdır. Yaxın dövrdə reallaşdırılan müasir elm sahəsindəki araşdırmalarla bu tarixi iddianın dəstəklənməsinə çalışılması və fitri əxlaqi xüsusiyyətlərin Allahın mövcudluğunu əsaslandıran əxlaq dəlili üçün mühüm çıxış nöqtəsi edilməsi isə buradakı yanaşmanı fərqli edən amillərdir. Bu mövzudakı dəlili aşağıdakı kimi təqdim edə bilərəm:

1. İnsanların fitri əxlaqla bağlı xüsusiyyətləri vardır.
2. Bu vəziyyəti izah edəcək iki alternativ izahatımız vardır:
   2.1. Fitri əxlaqi xüsusiyyətlərimiz materialist-ateizmin tövsiyə etdiyi kimi, təsadüf və zərurətlə əmələ gəlmişdir.
   2.2. Fitri əxlaqi xüsusiyyətlərimiz teizmin tövsiyə etdiyi kimi, Allah tərəfindən yaradılmışdır.

83 G.V.Leybnits, **New Essays on Human Understanding,** Red: Piter Remnont və Conatan Mennet, Cambridge University Press, Kembric, 1996.

84 Lord Şaftesböri, **Characteristics of Men, Manars, Opinions, Times**, Red: Laurens Klayn, Cambridge University Press, Kembric, 2001, s. 163-230.

85 Frensis Hötçeson, **A System of Moral Philosophy**, Continuum İnternational Publishing Group, Nyu York, 2005.

86 Tomas Reyd, **İnquiry and Essays**, Red: R. E. Beanblossom və K. Lehrer, Hackett Publish-ing, İndianapolis, 1983.

87 Adam Smit, **The Theory of Moral Sentiments**, Liberty Classics, İndianapolis, 1976.

3. Fitri əxlaqi xüsusiyyətlərimizi teizm materialist-ateizmdən daha yaxşı izah edir:

   3.1. Çünki "əxlaqi dəyərləri bilmək" xüsusiyyətimizi daha yaxşı izah edir.

   3.2. Çünki fitri əxlaqi xüsusiyyətlərimizin yalnız Allah olduğu təqdirdə rasional əsasının olmasını daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən üstün tutulmalıdır.

Bu arqumentin birinci maddəsi düşüncə tarixi boyu çox müzakirə edilmiş cəhətlə bağlıdır. Zehnin fitri olaraq boş lövhə olması fikrini həm bir çox teist, həm də bir çox ateist müdafiə etmişdir. "Boş lövhə" (tabula rasa) məfhumunu məşhurlaşdıran Con Lok teistlərə nümunədir. Lok insan zehninə fitri verilən həqiqətlər (ideyalar) olması fikrinə qarşı çıxan epistemoloji yanaşmanın zərurəti olaraq əxlaqla bağlı fitri xüsusiyyətlərin olduğuna da qarşı çıxdı.[88] Əxlaqla bağlı fitri xüsusiyyətlərimizin olmadığı ateistlərin geniş şəkildə mənimsədiyi mövqedir. Bu fikri iddia edənlərin bir çoxu insanlarda müşahidə edilən əxlaqi cəhətləri sosial-mədəni hallarla izah edir, ictimai ehtiyacları mövcud olan əxlaqi fenomenlərin yeganə müəyyənedicisi kimi xarakterizə edirlər. Məşhur sosioloq Durkheym bu yanaşmanın ən önəmli nümayəndələrindən biridir. Durkheym insanların fitri xüsusiyyətlərinin mövcud olmadığını, fərdlərin xarakterini yalnız sosial amillərin formalaşdırdığını bildirmişdir.[89] XX əsr fəlsəfəsində mühüm yerə malik

88 Con Lok, **An Essay Concerning Human Understanding**, Prometheus Books, Nyu York, 1995. 1-ci və 3-cü bölmələr.

89 Donald Blek, "On The Origins of Morality," **Evolutionary Origins of Morality: Crossdisciplinary Perpectives**, Red: Leonard Kətz, İmprint Akademik, Torverton, 2000, s. 109.

olan postmodernist yanaşmaların bir çoxuna görə insanların əxlaqla bağlı fitri xüsusiyyətlərə malik olduğu bu xüsusiyyətlərin hamı üçün ortaq dünyəvi əxlaqi dəyərlər olması iddiasına əsas olacağı narahatlığı ilə rədd edilmişdir. Nəticədə bir çox ateist və teist insanların fitri əxlaqla bağlı xüsusiyyətlərə malik olmadıqlarını XX əsrdə olduğu kimi, hələ də mənimsəyirlər.[90]

Hər normal insanın özündə çox komplekslər olmasına baxmayaraq, rahat şəkildə "yaxşı və pis, səhv-doğru, ədalətli-ədalətsiz" kimi, əxlaqın əsasını təşkil edən məfhumları kiçik yaşlarından etibarən asanlıqla istifadə etməsi, bunlardan istifadəetmə qabiliyyətinin insana fitri olaraq verildiyini göstərir. Məncə, bu, elmi araşdırmalara hətta işarə edilmədən də irəli sürüləcək, lakin əxlaqla bağlı əsas məfhumlara sahib olmada qeyri-adiliyi yaxşı təhlil etməyi zəruri edən cəhətdir. Bununla yanaşı, yaxın dövrdə psixoloji və məntiqi elmlər sahəsində aparılan bir çox araşdırmanın göstərdiyi kimi, əxlaqla bağlı xüsusiyyətlərin bir çoxu körpəlik mərhələsindən etibarən özünü göstərir.

Conatan Heytin də qeyd etdiyi kimi, əxlaqi mülahizələr bir neçə dəfə mühakimə prosesindən asılı olmadan, qeyri-ixtiyari və avtomatik şəkildə baş verir, bununla bağlı izah da çox vaxt fəaliyyət həyata keçirildikdən sonrakı (post hoc) müəyyən qanuniləşmə təşəbbüsü formasında olur.[91]

---

90 Burada müdafiə etdiyim "fitri əxlaq dəlili"ndə əxlaqın fitri xüsusiyyətlərimizlə əlaqəli olduğunu ifadə edərkən kənardan gələn təsirlərin insanların əxlaqi quruluşunun formalaşmasındakı mühüm təsirini rədd etmədiyimi bildirməyi səhv anlaşılmaması üçün lazımlı hesab edirəm.

91 J. Haidth, "The Emotional Dog and Its Rational Tail: A Social Intuitionist Approach to Moral Judgment", **Psychological Review**, No: 108, 2001, s. 814-834.

Bəhs edilən araşdırmalara bir neçə nümunə vermək istəyirəm. Aparılan bir çox fərqli sınaqda yeni dünyaya gələn körpələrə digər körpələrin ağlaması dinlədildikdə, onların ağlamağa başladıqları, gərgin olduqlarını göstərən üz ifadələri göstərdikləri və əmizdirmə nisbətlərinin dəyişdiyi isbat edilmişdir. Bu reaksiyaların həqiqətən ağlamağa qarşı, yoxsa səsə qarşı olduğunun aydınlaşması üçün yeni doğulan körpələrə eyni gücdə başqa səslər, süni ağlama və öz ağlamalarının səs yazısı dinlədildikdə, digər körpələrin ağlamalarına göstərdikləri reaksiyanı göstərməyiblər.[92]

İnsanların əsəbilik, qorxu, kədər, sevinc, məyusluq, şəhvət, günahkarlıq və utanma kimi bir çox əsas hissini empatiya vasitəsilə başa düşürük. Mövcud olmadığı zaman psixopatiyaya səbəb olan empatiya kompleks və çoxqatlı xüsusiyyətdir.[93] Bu qədər mühüm və kompleks hal olan empatiya ilə bağlı xüsusiyyətlərə yeni doğulan körpə mərhələsindən etibarən təsadüf edilməsi əxlaqi sistemi mənimsəmək üçün lazım olan amillərdən biri olan empatiyaya fitri olaraq sahib olduğumuzu göstərir.

Digər nümunələri isə oxşar bir çox versiyası olan gəlincik (kukla) sınaqlarından verə bilərəm. Sınaqlardan birində bir gəlinciyin iki gəlinciklə topla oynadığı, digər gəlinciyin isə topu alıb qaçdığı ssenari körpələrə nümayiş etdirildi. Topu alan gəlincik körpələrin qarşısına gətirildikdə, körpələrin "ədaləti həyata keçirmə"yə çalışıb hə-

92 M. L. Simner, "Newborns Response to The Cry of Another Infant", **Developmental Psychology**, No: 5, 1971, s. 136-150; M. Dimion, F.Simion və G. Caltran, "Can Newborns Discriminade Between Their Own Cry and The Cry of Another Newborn Infant", **Developmental Psychology**, Vol: 35/2, 1999, s. 418-426.

93 Tania Singer, "The Neuronal Basis and Ontogeny of Empathy and Mind Reading: Review of Literature and Implications for Future Research", **Neuroscience and Biobehavioral Reviews**, No: 30, 2006, s. 857-858.

min gəlinciyi cəzalandırdıqları, məsələn, əlləri ilə başına vurduqları vəziyyət müşahidə edildi.

Bir başqa sınaqda 21 aylıq körpələr yaxşı və pis kuklaların olduğu sınaq mühitində müşahidədən keçirildilər: burada 21 aylıq körpələr üçün kuklalara mükafat olaraq nə isə verəcəkləri və ya cəza olaraq onlardan nə isə alacaqları şərait yaradıldı. Körpələrdən nə isə almaları tələb edildikdə, onların pis kukladan aldıqları, vermələri tələb edildikdə isə yaxşı olana verdikləri müşahidə edildi.

Daha bir sınaqda isə səkkizaylıq körpələr yaxşı kuklaya mükafat verənlərin tərəfini tutdular, nəinki bu kuklanı cəzalandıranların. Ən maraqlısı isə, pis gəlinciyi cəzalandıranları onu mükafatlandıranlardan üstün tutdular.[94]

Yaxşının mükafatlandırılması, pisin isə cəzalandırılması "ədalət" məfhumu baxımından çox mühümdür. Bəhs edilən sınaqların keçirildiyi və danışığı da öyrənməmiş uşaqların belə qiymətləndirməni bacarmaları fitri əxlaqla bağlı məfhumlardan istifadə etməyə və qiymətləndirmələr aparmağa hazır olan təməl xüsusiyyətlə dünyaya gəlməyimiz fikrini dəstəkləyir. Con Rouls da "ədalətli" və "ədalətsiz" şəkildə qeyri-adi dərəcədə kompleks və potensial olmaqla hədsiz fərqlər içində mühakimədə istifadə edəcəyimiz əsas məfhumların və bunlara əsaslanan əxlaqi mühakimələrimizin Noam Xomskinin dil nəzəriyyəsinə bənzər (fitri sahib olduğumuz xüsusiyyətlərlə əlaqə yaradan) yanaşma ilə aydın olacaqlarını bildirmişdir.[95]

Aydın olduğu kimi, hər hansı əxlaqi sistemə sahib olmağa imkan verən əsaslara insanların fitri sahib olduğu,

---

94 Paul Bloom, "The Moral Life of Babies," **The Nyu York Times**, 5 May 2010.

95 Con Rouls, **A Theory of Justice,** The Belknab Press of Harvard University Press, Massaçusets, 1999, s. 41.

yəni, arqumentin birinci maddəsinin doğruluğu üzə çıxır. (Burada bütövlüklə müəyyən əxlaqi sistemin deyil, əxlaqi sistemi öyrənməyə imkan verən əsasların fitri olduğunun müdafiə edildiyinə diqqət yetirilməlidir.)

Arqumentin ikinci maddəsinə gəldikdə, insanın təbiətində bu xüsusiyyətin necə mövcud olmasının izahını yalnız insanı təbiətilə birlikdə izah etmək iddiasındakı paradiqmaların verməsi mümkündür. Əvvəl də gördüyümüz və bu arqumentin ikinci maddəsində ifadə edildiyi kimi, bu cəhətdə rəqib iki fikir teizm və materialist-ateizmdir. Bir çox materialist-ateist də bunu qəbul edəcək, lakin mövcud xüsusiyyəti öz paradiqmalarının daha yaxşı açıqladığını iddia edəcəklər.

Arqumentin üçüncü maddəsində ifadə edilən səbəblərlə teizmin insanların fitri əxlaqi əsaslara sahib olmasını daha yaxşı izah etdiyi göstərilsə, bu dəlilin nəticəsi olan "teizmin materialist-ateizmdən üstün tutulmasının vacibliyi" məntiqi zərurət kimi qəbul ediləcəkdir. Göründüyü kimi, bu arqumentdə mübahisəli maddə üçüncü maddədir və aşağıda həmin maddənin iki variantı qiymətləndiriləcək.

**3.1-in qiymətləndirilməsi: Hər şey**dən əvvəl dünyəvi mexanizmlərin vasitəçi səbəblər kimi istifadə edilərək fitri əxlaqi xüsusiyyətlərimizin əmələ gətirilməsi fikrinin burada iddia edilən arqumentə uyğun olduğunu bildirmək istəyirəm. (Bundan əvvəlki təbii istəklər və canlılarla bağlı hissədə bu cəhətə daha təfsilatlı şəkildə diqqət yetirildiyinə görə orada ifadə edilənləri burada təkrar etmirəm). Ümumi monoteist inanc insanların heyvan və bitkilərdən fərqli şəkildə əxlaqi məsuliyyəti olduğunu iddia edir. İnsanların arı və qarışqa kimi bəzi canlılarda da təsadüf

edilən altruist (fədakar) davranışları nümayiş etdirərkən sahib olduqları "əxlaqi dəyərləri bilmək" (moral awareness) xüsusiyyəti digər canlılardan fərqlidir. Həyatlarını başqaları üçün fəda etmək kimi altruistliyin ən yüksək nümunələrini göstərən arılara bənzər davranışlar nümayiş etdirən insanların bu davranışları eyni olsa da, həmin davranışlara səbəb olan mexanizmlər olduqca fərqli görünür. Davranışlara əsaslanan metodologiya eyni davranışı göstərən fərdlərin bu davranışlarının arxasında fərqli mənbələrin olduğuna toxunmur. Hermenevtik və daxili müşahidə (introspektiv) yanaşmalarından istifadə edilərək insanların "əxlaqi dəyərləri bilmə"lərinə şahid olub bunun arıların "əxlaqi dəyərləri bilmək"lə əlaqəli olmayan, lakin buna bənzər davranışlara səbəb olan mexanizmlərindən nə qədər fərqli olduğu üzə çıxır. Öz növündən birinə kömək etmək kimi arı və insan arasında tamamilə eyni altruist davranışa nəzər yetirsək, bunun "əxlaqi dəyərləri bilmək"lə edilib-edilməməsi çox mühüm fərqdir. Həyatını fəda edəcək şəkildə altruist davranan arıların bu davranışları şüurlu şəkildə yaxşı və doğru, həmçinin, pis və səhvin "bilinməsi" hiss edilməklə, eləcə də "əxlaqi seçim" edilməklə deyil, genlərində mövcud olan kodun "qeyri-ixtiyari" tətbiq olunması ilə həyata keçir (entomoloqların əksəriyyəti bu cəhətdə həmfikirdirlər).

Con Hikin vurğuladığı kimi, arı "əxlaqi dəyərləri bilmək"lə əxlaqi seçim edə bilsə, "özünün həyatını fəda etməməyi" seçməsi də mümkün olar.[96] İnsanların "fitri əxlaqi xüsusiyyətləri" yalnız avtomatik olaraq məqsədə yönəlmələrindən radikal şəkildə fərqli olaraq "yaxşı və

96 Con Hik, **Arguments for The Existence of God,** Herder and Herder, Nyu York, 1971, s. 63.

pis, doğru və səhv, ədalətli və ədalətsiz" kimi əsas məfhumları "bilmək"lə əxlaqi seçim edəcək həcmi də insan üçün mümkün edir. "Əxlaqi dəyərləri bilmə"yi xüsusi vurğulayan Riçard Svaynbörn belə deyir: "İnsanlar bir hadisə haqqında mühüm qərarlar verdikləri zaman əxlaqi yaxşılıq və pislik məfhumlarına (məncə, ümumi manada yaxşılıq və pisliyə) sahib olmalıdırlar... Allah bizi seçəcəyimiz mühüm seçimlərlə qarşılaşdıracaqsa, belə bir əxlaqi dəyərləri bilməyin inkişaf etdirilməsinə imkan verəcəkdir. Əgər Allah yoxdursa, zəkaya sahib olan bədənli varlıqların bu səviyyəyə gəlmələri nə dərəcədə mümkündür? Bu varlıqlar bir çox heyvan qrupunda olduğu kimi, qeyri-ixtiyari və təbii olaraq bir-birilərinə kömək edirlər. Lakin bu fəaliyyətləri əxlaqi olaraq yaxşı çərçivəsində qiymətləndirmək altruist davranmaqdan üstün faktdır. Yəni, Allahın bəzi yaratdıqlarına onların azad fərdlər olmaları üçün lazım olan əxlaqi dəyərləri verməsi gözlənilən fakt olduğu halda, başqa hər hansı proseslərin nəticəsində əxlaqi dəyərlərin əmələ gəlməsini gözləmək üçün heç bir səbəb yoxdur. Bunu aşağıdakı fakt da göstərir. Öz növündən olan digər heyvanlara kömək etməyə təbii olaraq meylli olan bir çox heyvan üçün əxlaqi dəyər yoxdur, aslan və pələnglərin əxlaqi dəyərləri olduğunu və ya bu dəyərləri inkişaf etdirəcəklərini qəbul etmək üçün heç bir əsas yoxdur... Doğru əxlaqi seçimlər üçün əxlaqi dəyərləri bilmək zəruridir...[97]

Materialist-ateist yanaşması olanların irəli sürdüyü kimi, arxasında şüurun olmadığı, təsadüfən reallaşan proseslərin nəticəsində "əxlaqi dəyərləri bilmək" kimi çox

---

97 Riçard Svaynbörn, The **Existence of God**, 2. çap, Clarendon Press, Oksford, 2004, s. 216-217.

kompleks, ciddi fərq olan və insana xas xüsusiyyəti insanların əldə etdiklərinin iddia olunması, yəni, dünyadakı bütün canlılardan fərqli olaraq insanın davranışlarında "əxlaqi dəyərləri bilməyin" mühüm rol oynaması kimi fərqli çıxış yolunun təsadüfi proseslərlə ortaya çıxma iddiası məntiqli görünmür. Lakin təsadüfü qəbul etməyən və Allahın planı daxilində insanın "əxlaqi dəyərləri bilməsi"nə xüsusi mənalar verən teizm baxımından digər canlılardan fərqli olaraq belə bir xüsusiyyətin insana verildiyini düşünmək üçün yaxşı səbəblər vardır.

Bundan başqa, fizikanın təsvir etdiyi kimi, maddənin xüsusiyyətlərilə əlaqəsiz görünən və əxlaqı mümkün edən "yaxşı və pis" məfhumlarının necə mövcud olduğunu teizm daha yaxşı izah edir. Fizikanın təsvir etdiyi maddə ya hissəcik, ya dalğa olur, ya bir-birini itələyir, ya cəlb edir, ya birləşmələr əmələ gətirir, ya da parçalanır və proses daxilində bir formadan başqa formaya keçir.

Kitabın növbəti bölmələrində qeyd olunacağı kimi, zehnin bir çox xüsusiyyəti fizikanın bəhs etdiyi bu maddə cədvəlilə izah edilmir, bu maddə cədvəlilə izah olunmayanlar siyahısında "yaxşı və pis" kimi əxlaqın əsası olan anlayışlar da vardır. Bu anlayışlara fitri şəkildə sahib olmaq isə insanın əsas xüsusiyyətlərindən olan "əxlaqi dəyərləri bilmə"yə imkan verdiyinə görə çox mühümdür. "Əxlaqi dəyərləri bilmə"yi mümkün edən bu zehni anlayışların maddə səviyyəsinə gətirilməməsi materializm baxımından müəyyən maneə olsa da, maddəni əzəli və yeganə amil hesab etməyən teizm baxımından bu anlayışların necə ortaya çıxdığını izahetmədə hər hansı problem yoxdur.

Bundan başqa, teizm baxımından mühüm amil olan "əxlaqi məsuliyyət"in reallaşması üçün bu məfhumlara

ehtiyac vardır.

İnsanların sahib olduqları fitri əxlaqla bağlı xüsusiyyətlər və məfhumlar sayəsində mövcud olan "əxlaqi dəyərlərə sahibolma" xüsusiyyəti Allahın insanları yaratması fikri doğru olduqda, əmələ gəlməsi gözlənilən xüsusiyyət, ateizm doğru olduqda isə gözlənilməyən xüsusiyyətdir. "Nə üçün əxlaqın olmaması deyil, əxlaqi dəyərləri bilmək var" sualı teist paradiqma daxilində ateist paradiqmadan daha uğurlu cavabını tapır.

**3.2-nin qiymətləndirilməsi:** Təcrübədə əxlaqi sistemin Allah inancı olmadan mövcud olması şübhəsiz ki, mümkündür (bu səbəbdən bir çox ateist olduqca əxlaqlıdır). Lakin ən mühüm xüsusiyyətlərindən biri zərurət olan və lazım gəldikdə, insanların şəxsi mənfəətlərindən fədakarlıq etmələrini tələb edən qanunlardan ibarət əxlaqi sistemlərin Allah inancı olmadan rasional əsası olmur. Bir çox məşhur ateist filosof da bunu isbat etmişdir. Məsələn, Allah olmadığı zaman əxlaqi dəyərlərin doğruluq dəyəri qalmayacağını Nitsşe və Sartr kimi məşhur ateist filosoflar vurğulamışlar. Nitsşenin bu sözləri belə bir sübutu ortaya qoyur: "Ondan əsas anlayışı -Allaha inamı aldığınız zaman bütövlüklə məhv edərsiniz, artıq zəruri olan heç bir şey əlinizdə qalmaz.

Onun yalnız Allahın mövcudluğu doğru olduğu təqdirdə həqiqət dəyəri olur. O, Allahla mövcudluğunu davam etdirir, Allahsız çökür.[98]

Sartrın bu sözlərində də eyni yanaşmanı görürük: "Əksinə, ekzistensialist üçün Allahın mövcud olmaması

98 Walter Kaufmann, **Portable Nietzche,** The Viking Press, Nyu York, 1954, s. 515-516.

fikri olduqca narahatedicidir. Çünki Onunla birlikdə rasional mühitdə dəyərlər üçün mühit tapma ehtimalı da yox olur. Bu, onu düşünəcək sonsuz və mükəmməl şüur olmaması mənasına gəldiyinə görə başdan qəbul ediləcək yaxşılığın da olmaması deməkdir. Yalnız insanların olduğu mühitdə olduğumuza görə heç bir yerdə yaxşılığın mövcud olduğu, insanın doğru olması və ya yalan deməyəcəyi yazılmır. Dostoyevski belə yazır: "Allah olmasaydı, hər şey sərbəst olardı". Bu isə ekzistensializmin başlanğıc nöqtəsidir. Həqiqətən, Allah yoxdursa, hər şey sərbəstdir. Bunun nəticəsi kimi isə insanın müəyyən dayaq nöqtəsi yoxdur".[99]

Ateist dünyagörüşünün daxilində sahib olduğumuz fitri əxlaqi xüsusiyyətlərin illüziya kimi aydın olmasının zəruri olduğunu dövrümüzün məşhur materialist-ateistləri Maykl Ruz və Edvard Uilsonun bu sözlərindən də başa düşürük: "Əxlaq birgə hərəkət etməyimiz üçün genlərimizin bizə verdiyi illüziyadır, heç bir xarici əsası yoxdur. Əxlaq təkamül tərəfindən əmələ gətirilmişdir. Lakin onun tərəfindən əsaslanmır. Əxlaqın obyektiv əsası yoxdur. Lakin bioloji quruluşumuz bizi belə düşünməyə sövq edir".[100]

Əxlaqi mühakimənin əsasını təşkil edən və fitri sahib olduğumuz "yaxşılıq-pislik"lə bağlı intuisiyalarımız haqqında düşündüyümüz zaman "yaxşılıq və pisliy"in şəxsi mənfəətlər və ehtiraslar üzərində ontoloji statusa sahib olduğunu başa düşürük. Bu, əxlaqla bağlı ən əsas cəhətlərdən biridir. Əxlaqi qanunların "Allahın buyuruğu" olması bu halda lazım olan rasional əsası təmin edir. Çünki

99 Jan Pol Sartr, **Basic Writings**, Red: Stefan Prist, Routledge, London, 2001, s. 32

100 Maykl Ruz və Edvard O.Uilson, "The Evolution of Ethics," **Philosophy of Biology**, Red: Maykl Ruz, Prentays Holl, New Jersey, 1989, s. 314-317.

teist ontologiyaya əsasən, Allah sahib olduğumuz hər şeyimizə görə möhtac olduğumuz və hər şeyə gücüçatan yaradanımız olduğuna görə Onun buyuruqları (əxlaq qanunları) hər cür ictimai istək, şəxsi mənfəət və ehtiraslardan üstündür, nəticədə bunun əxlaqi fəaliyyət üçün lazım olan zəruriyyət xüsusiyyətini göstərir. Lakin materialist-ateist paradiqma daxilində "yaxşılıq-pislik"lə bağlı intuisiya təsadüfi proseslərlə yaranan nukleotidlər kimi biokimyəvi quruluşlardan, bunlar isə kainatı təşkil edən əsas qüvvələr, yaxud itələmə-çəkmə və dalğa-hissəcik olmaq kimi maddə xüsusiyyətlərindən ibarətdir. Əgər materialist-ateizmin tövsiyə etdiyi kimi, mövcud olanlar yalnız və yalnız maddədən ibarətdirsə, maddi quruluşda şəxsi mənfəətlər və ehtiraslar üzərində müəyyən dəyərə sahib olacaq "yaxşılıq və pislik"lə bağlı intuisiyamıza, yəni, maddi əxlaq fikrinə rasional əsas tapıla bilməz. Materialist fəlsəfənin paradiqmasında ortaya çıxan bu vəziyyəti görən Ruz və Uilson kimi ateistlər bu intuisiyalarımızı (yəni əxlaqı) "illüziya" kimi qəbul etmişlər. Materialist-ateist ontologiyada təbii proseslərin və təsadüfün birləşməsilə əmələ gəldiyi qəbul edilən insanların heyvanlardan fərqli əxlaqi xüsusiyyətləri olan varlıq olmaları rasional əsas kimi qəbul edilmir.

Məsələn, bir insanın böyük miqdarda pulunu itirdiyini, bunu bizim tapdığımızı, pulu qaytarmadığımız təqdirdə, həyatımızın qalan hissəsini çox rahat yaşayacağımızı və bu pulu götürdüyümüzü heç kimin qəti olaraq biləməyəcəyini təsəvvür edək. İctimai qadağanın qəti olaraq mümkün olmadığı bu vəziyyətdə əxlaqla bağlı həm nəyin "yaxşı və pis" olmasının, həm də nə üçün "yaxşı" olanı etməyimizin zəruri olduğunun rasional əsasları göstərilir? İstər fitri ("a priori") mühakimə aparmağa əsaslanan kantçı deontoloji

əxlaqa,[101] istərsə də induktiv mühakiməyə əsaslanan Millçi mənfəətpərəst əxlaqa[102] işarələr edərək pulu qaytarmağın "yaxşı", etməməyin "pis" olduğunu iddia edənlər ola bilər. Lakin bəhs edilən yanaşmalar deontoloji qaydaların və ya mənfəətpərəst yanaşmanın nə üçün "yaxşı" olduğunu, bundan başqa, "yaxşı" kimi xarakterizə edilən şeyin nə üçün ediləcəyini, yəni, əxlaqi sistemlərin təməlini Allaha aid etmədən rasional şəkildə qura bilmirlər.

"Yaxşı" insanların mənfəətlərindən üstün olan standartdır. Əxlaqı sərbəst hesab edən kantçı sistemdə insanların bütün insanların ağıllarını nəzərə alaraq çatdıqları əxlaqi standartı (şərtsiz buyuruğu: categorical imperative) ağılla aparacaqları mənfəət hesablarından və ya istəklərindən üstün tutmalarının rasional əsası kimi görünmür.[103] "Nə üçün hər şəxsin öz mənfəətini güdməsi və ya "ehtirasların köləsi" (slave of the passions) olması deyil, başqa ağılların da nəzərə alınması ilə keçilən şərtsiz buyuruğa tabe olmaq yaxşıdır" sualının məntiqi cavabı Kantın sistemində yoxdur. Fitri əxlaqi xüsusiyyətlərimizi təsadüfən əmələ gələn təbii proseslərin nəticəsi hesab edənlər bunları "illüziya" hesab etdikləri kimi, rasionallığımızı təsadüfi proseslərin nəticəsi hesab edənlər insanların ortaq rasionallığından çıxarılacaq dəyərlərə əməl edilməklə bağlı "zərurət, tabe

101 İmmanuel Kant, **Fundamental Principles of The Metaphysics of Morals**, Tərc: Tomas Kingsmill Abbott, Uilliam Menton, Çikaqo, 1971, s. 253-287; İmmanuel Kant, **The Critique of Practical Reason**, Tərc: Tomas Kingsmill Abbott, Uilliam Menton, Çikaqo, 1971, s. 291-361.

102 Con Stüart Mill**, Utilitarianism**, Hacketd Publishing, Indianapolis, 2001.

103 Kantın "ən yüksək yaxşı" (summum bonum) üçün "Allah, axirət və sərbəst iradə"nin mövcud olduğunu postulat kimi qəbul etməyi məcburi görməsilə əxlaqın avtonom olması iddiasının ziddiyyət təşkil etdiyi qənaətindəyəm. Kantın rədd edəcəyi bu etiraz müzakirədən keçir, burada yalnız bu cəhətə diqqəti cəlb etməklə kifayətlənirəm.

olmaq" hisslərini də "illüziya" kimi qəbul etməlidirlər.

Nə üçün ən çox öz xoşbəxtliyimizə görə deyil, ən çox insanın ən çox xoşbəxtliyinə (the greatest happiness of the greatest number) görə hərəkət etməyi yaxşı kimi xarakterizə etməliyik və nə üçün bu yaxşı standartına əsasən yaşamalıyıq?" şəklində mənfəətpərəst əxlaqın əsasları baxımından çox əsas sualların materialist-ateist paradiqma daxilində rasional cavabı yoxdur.

Qısası, insanların doğuşdan əxlaqi xüsusiyyətləri olduğunu, bir çox kompleks əsas əxlaqi qavrayışları çox kiçik yaşlardan bütün sağlam insanların istifadə etmələrindən və son dövrdə həyata keçirilən müasir psixologiya ilə məntiqi elmlər sahəsindəki araşdırmalardan anlayırıq. Fitri sahib olduğumuz xüsusiyyətlər sayəsində insanlara xas xüsusiyyət olan "əxlaqi dəyərləri bilmə"yə sahib oluruq. Heç bir canlıda görünməyən belə kompleks və növə məxsus xüsusiyyətin insanlarda əmələ gəlməsi insanı ontoloji baxımdan digər canlılardan ayırmayan, materialist-ateistlər baxımından gözlənilməyəcək vəziyyət olduğu halda, insanların şəxsi əxlaqi məsuliyyətləri olduğunu iddia edən teistlər baxımından gözlənilən vəziyyətdir.

Bundan başqa, fitri əxlaqla bağlı xüsusiyyətlərimizin yalnız Allah olduqda rasional əsası olacağını, əks halda bunların müəyyən illüziya kimi qəbul ediləcəyini və bunu bir çox ateist mütəfəkkirin də ifadə etdiyini gördük. Təsadüfi təbii proseslərin yalnız Allah olduğu təqdirdə rasional əsası olacaq xüsusiyyətləri insanlarda əmələ gətirdiyi şəklindəki materialist-ateizm düşüncəsindən bunlar Allah tərəfindən insanlarda şüurlu şəkildə yaradıldığı üçün yalnız Allahın mövcudluğuna işarə olaraq bu xüsusiyyətlərin rasional əsasının olması fikri daha yaxşı izahatdır. Təbii

proseslərlə bəhs edilən fitri xüsusiyyətlərimizin yarandığını deyənlər bu təbii proseslərin gözlərimizi Allaha yönəltdiyini deyirlər. Bu isə materialist-ateist fikirdən daha çox Allahın təbii proseslərdən vasitəli səbəblər kimi istifadə etdiyini deyən teistlərin ehtimallarına uyğundur. Burada iddia edilən fikrə əsasən, fitri əxlaqi xüsusiyyətlərimizi Yaradan insanlara bəhs edilən xüsusiyyətləri fitri şəkildə verməklə sanki öz nişanını insanların fitrətinə vurmuşdur. Nəticədə fitri əxlaqi xüsusiyyətlərimizin araşdırılması nəticəsində isə teizmin materialist-ateizmdən üstün tutulmasının zəruri olduğunu görürük.

# 10. AĞIL DƏLİLİ

Gündəlik həyatda ən sadə hadisə haqqında danışmaq, hər hansı hədəfimizlə bağlı düşünmək, laboratoriyada elmi araşdırmalar aparmaq, sofistik fəlsəfi arqumentlər qurma kimi bir çox fəaliyyətimiz "dərk edən" varlıq olmağımız sayəsində reallaşır. Həyatımızın bu qədər geniş sahəsilə əlaqəli olan və bizi biz edən fitrətimizin ən əsas xüsusiyyətlərindən olan "ağlımızın" mövcudluğunu çox vaxt hiss etmədən bu davranışları edirik.

Burada təqdim olunacaq arqument hər bir normal insanın doğuşdan sahib olduğu ağıl xüsusiyyətilə bağlıdır. Kainatın rasional quruluşu olmasa, zehin onu dərk edə bilməz (2-ci dəlil olan qanunların mövcudluğu dəlili), digər tərəfdən, ağılda müəyyən xüsusiyyətlər olmasa, hansı xüsusiyyətlərə malik olursa-olsun, kainat aydın olmazdı (ağıl dəlili).

Xarici kainat və ağıl arasındakı uyğunluq da xüsusi olaraq diqqət ediləcək çox mühüm fenomendir. "Ağıl dəlili"nin qarşımızdakı iki bölmədə müdafiə ediləcək "iradə dəlili" və "şüur və mənlik dəlili" ilə sıx əlaqəli olduğunu xatırlatmağı da mühüm hesab edirəm. Zehnin mühakimə aparmaq qabiliyyəti iradə və şüurla sıx əlaqəli olduğu üçün buradakı arqument "iradə dəlili" və "şüur və mənlik

dəlili" ilə birlikdə qiymətləndirilməlidir. "Ağıl dəlili"ni aşağıdakı şəkildə təqdim edə bilərəm:

1. Mühakimə aparma proseslərinin reallaşması üçün (başqa xüsusiyyətlərlə yanaşı) zehində aşağıdakı xüsusiyyətlər olmalıdır:
    1.1. İradə üçün lazım olan xüsusiyyətlər.
    1.2. Şüur və mənlik üçün lazım olan xüsusiyyətlər.
    1.3. Doğru və səhv anlayışından istifadə etmək.
    1.4. Məntiqi nəticə çıxarmaq qabiliyyətinə malik olmaq.
2. Ağlın bu xüsusiyyətlərinin necə ortaya çıxdığını izah etmədə əsasən iki alternativ fikir vardır:
    2.1. Əgər materialist-ateistlərin iddia etdiyi kimi, mövcud olan tək varlıq növü maddədirsə, o zaman ağılda mövcud olan bu xüsusiyyətlər təbiət qanunları çərçivəsində təsadüfi proseslərlə yaranmışdır.
    2.2. Əgər teistlərin iddia etdiyi kimi, Allah varsa, özü ağıl sahibi varlıq olan Allahın sayəsində ağlın bu xüsusiyyətləri yaranmışdır.
3. Dərketməyə imkan verən bu xüsusiyyətləri teizm materialist-ateizmdən daha yaxşı izah edir:
    3.1. Çünki iradə üçün lazım olan xüsusiyyətləri daha yaxşı izah edir (11-ci bölmədə göstəriləcək).
    3.2. Çünki şüur və mənlik üçün lazım olan xüsusiyyətləri daha yaxşı izah edir (12-ci bölmədə göstəriləcək).
    3.3. Çünki doğru və səhv məfhumlarından istifadə etməyi daha yaxşı izah edir.
    3.4 Çünki məntiqi nəticə çıxarma qabiliyyətini daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən üstün tutulmalıdır.

Arqumentin ilk maddəsində vurğulanan xüsusiyyətlərin mühakimə üçün çox mühüm kateqoriyada qeyd edildiyi hamının asanlıqla qəbul edəcəyi haldır. Əgər iradəli varlıq olduğumuzu rədd etsək, o zaman bütün düşüncələrimiz bizim istəyimizin xaricində reallaşan küləyin əsməsi kimi fiziki hadisələrdən fərqli olmayacağına görə mühakimə aparacağımızdan da bəhs edilmir. Mühakimə aparmağımız yalnız iradəmiz olduğu təqdirdə mənalı olur, bununla yanaşı, mühakimə aparmayan insanın iradəli şəkildə bir iş görməsini demək olmaz (11-ci bölmədə iradədən bəhs ediləcəkdir).

Bundan başqa, "şüur sahibi olan mən" olmadan da hər hansı mühakimə aparmağımızdan bəhs edilmir. Mühakimə aparmaq yalnız şüurlu şəkildə düşündüklərimizi bildikdə və hər mühakimə "mənliy"ə aid olduğu təqdirdə mənalıdır (12-ci bölmədə şüur və mənlikdən bəhs ediləcəkdir).

Qarşımızdakı iki bölümdə toxunulmayacaq və arqumentdə diqqət yönəldilən digər iki cəhəti, qələmin yazı yazmaq üçün müəyyən vasitə olması kimi sadə mühakiməni araşdıraraq qiymətləndirək. Qələmin yazı yazmaq üçün lazım olan vasitə olmasının "doğru", yeyiləcək nəsnə olmasının "səhv" olması kimi qiymətləndirməsəydik, bəhs edilən məlumat müəyyən məna ifadə etməzdi.

Sözlər zehnimizdə "doğru" və "səhv" anlayışları çərçivəsində qiymətləndirməyimiz sayəsində müəyyən mənaya malikdirlər (doğru və səhv məfhumları ilə bağlı xüsusiyyət). Əsas məntiq qaydalarına (eynilik və ziddiyyətsizlik) görə qələmi və yazı yazmağı qiymətləndirməsəydik və qələmin yazı yazdığını dəfələrlə görüb

induksiyalı məntiq yürütmə ilə qələmin yazı yazmaq üçün olan müəyyən vasitə olması nəticəsinə gəlməsəydik də, bəhs edilən məlumatı əldə edə bilməzdik (məntiqlə bağlı xüsusiyyət). Nəticədə teistlərlə materialist-ateistlər arasında bu xüsusiyyətlərin ağlın əsas xüsusiyyətləri arasında olması məsələsində, yəni, arqumentin birinci maddəsi haqqında heç bir ixtilafın olmadığı asanlıqla ifadə edilir. (Yaddaşın və dil qabiliyyətinin həcminin zəruriliyi kimi başqa xüsusiyyətlər də mühakimə aparmağımız üçün mühüm şərtdir. Lakin burada mühakimə aparmaq üçün lazım olan bütün şərtlər deyil, bəzi şərtlərdən bəhs edildi).

Arqumentin ikinci maddəsində ağıl fenomeninin necə ortaya çıxdığını izah etmək üçün "əsas" iki yanaşmanın olduğu ifadə edildi: Bunların birincisi, maddənin mövcudluğunun əzəli olduğunu qəbul edən və maddəyə məxsus təbiət qanunlarının təqdim etdiyi potensial çərçivəsində reallaşan təsadüflərin birləşməsilə ağlın əmələ gəldiyini iddia edən materialist-ateist yanaşma, ikincisi isə əzəli mövcud olan və ağıl, iradə, şüur, eyni zamanda qüdrət sahibi olan Allahın özündə mövcud olan dərketmə xüsusiyyətini (özündəkindən daha aşağı səviyyədə də olsa yaratdığı) varlıqlardan bəzisinə verdiyini iddia edən teizmdir.

Arqumentin ikinci maddəsində "əsas" vurğusunun səbəbi, bu iki versiya xaricində də müəyyən alternativin olmasının iddia edilməsidir. Məsələn, maddənin hər bir hissəsində zehnin şüur kimi xüsusiyyətlərinin mövcud olduğunu ifadə edən panpsixizmin (panpsyschism) müəyyən alternativ olması kimi geniş kütlələr və elm aləmində

nəzərə alınmayan alternativ gündəmə gətirilir.[104] Bu iddia şüurun hər tərəfə yayılan bir şey deyil, bir mərkəzə sahib xüsusiyyətimiz olduğu, bir "mən"ə aid olması sınağımıza ziddir. Hər birimizin ağıl, iradə və şüur sahibi mənliklər olaraq reallaşdırdığımız düşüncələrimiz və davranışlarımız vardır. Hər birimizin ağıl, iradə və şüuru özünə aiddir və ağılla istiqamətləndirdiyimiz bədənimizlə reallaşdırdığımız fəaliyyətlərin həddi vardır. Yəni, şüurun hər tərəfə paylanmasını tövsiyə edən panpsixizmdə olana bənzər vəziyyət mövcud deyildir. Habelə, panpsixizm qəbul edildiyi zaman bu şəkildəki maddədən necə ağıllı, iradəli və şüurlu davranan mənliyin üzə çıxmasının izah edilməsinin zəruriliyi aradan qalxır. Beləliklə, maddə anlayışı ilə bağlı ciddi fikir dəyişikliyi olduqda da burada iddia edilən arqumentlərin əsas quruluşu qoruna bilər. Bəzilərinin teizm və materialist-ateizmdən fərqli fikirlə bu anlayışı birləşdirib ağıl, iradə və şüuru başa düşmə səyləri göstərməsi mümkündür. Lakin maddənin bütün hissəciklərinin şüurlu olması fikrinin ciddi rəğbət görməməsi bir tərəfə, bir-birindən ayrı hər maddə zərrəciyində şüurun olduğunu deyən düşüncənin, yalnız bütün maddənin arxasında teizmin tövsiyə etdiyi şəkildə ağıllı, iradəli və şüurlu Gücün mövcud olduğu, həmçinin bu xüsusiyyəti katrilyonlarla bir-birindən ayrı maddənin hissəciklərinə verdiyi və birliyi təmin etdiyi iddiası ilə birləşdirildiyi təqdirdə müdafiə olunacağını düşünürəm.

Bu səbəbdən, bu yanaşma teizmin əks cərgəsində qiymətləndiriləcək yanaşma deyildir. Lakin materializmin

---

104 Panpsixizmi iddia edənlərə nümunə olaraq Devid Skribina verilir. Baxın: Devid Skrbina, **Panpsychism in The West**, MIT Press, Cambridge Mass., 2005.

maddə anlayışına uyğun olmayan bu maddə anlayışı teizm tərəfindən daha rahat qəbul edilsə də, əsas alternativ fikir statusunda deyildir. Bu arqumentdə qeyd edilən iki alternativ xaricində -maddənin özünün güman ediləndən ciddi şəkildə fərqlənməsinin ifadə edilməsi kimi belə müstəsna iddiaların gündəmə gətirilməsi mümkündür. Lakin istər fəlsəfə tarixindəki yanaşmalar, istərsə də dövrümüzün məşhur mütəfəkkirləri araşdırıldığı zaman bunların arqumentdə təqdim edilən iki versiyadan birinə daxil olduqlarını asanlıqla demək olar.

Burada iddia edilən arqumentdə materialist-ateistin etiraz edəcəyi versiya üçüncüdür. Arqumentdəki mühakimələr doğru olduqda, nəticənin əldə edilməsi məntiqin zərurətidir. Burada da bir çox materialist-ateistin heç bir etirazı olmayacaqdır. Onlar üçüncü maddədəki təklif doğru olduğu təqdirdə, nəticənin doğru olacağını, lakin bu tövsiyə səhv olduğuna görə nəticənin də səhv olduğunu ifadə edəcəklər. Aydın olduğu kimi, burada incə məqam, əsas müzakirəyə dəyər maddə üçüncüdür və həmin maddə aşağıda araşdırılacaqdır. Buna görə də ağılla bağlı vurğulanan xüsusiyyətlərə toxunularaq bunların izahatını materialist-ateist fəlsəfənin, yoxsa, teizmin daha yaxşı verdiyi araşdırılacaqdır.

İradə üçün lazım olan xüsusiyyətləri teizmin materialist-ateizmdən daha yaxşı izah etməsi (3.1.) növbəti bölmə olan 11-ci dəlildə, şüur və mənlik üçün lazım olan xüsusiyyətləri teizmin materialist-ateizmdən daha yaxşı izah etməsi (3.2.) isə 12-ci dəlildə müdafiə olunacaqdır. Həm iradə sahibi olmaq, həm də şüur və mənlik sahibi olmaq dərketmənin çox mühüm şərtlərindən olduğuna görə iradə və şüurla mənliyi teizmin materialist-ateizmdən daha yax-

şı açıqladığını göstərən növbəti iki bölmə buradakı dəlilin bir hissəsidir. İndi arqumentdə vurğulanan digər iki xüsusiyyəti araşdıracağam.

**3.3-ün qiymətləndirilməsi:** Mühakimə aparmaq proseslərini reallaşdırmağımız üçün çox mühüm şərtlərdən biri düşüncəmizdə “doğru” və “səhv” məfhumlarının olması və bunları istifadə etməyimizdir. Bu xüsusiyyət isə hamıda olmasının və bu qədər rahat istifadə edilməsinin təsirilə diqqəti çox az cəlb edir, bir çox şəxs həyatında hətta bir dəfə də olsa, sahib olduğu bu xüsusiyyət haqqında düşünmədən həyatını keçirir. Yaşamaq üçün suya möhtac olub sudan xəbərsiz balıqlar kimi, bizi insan edən ən əsas xüsusiyyətlərimizdən biri olan ağlımızdan istifadə etməyimiz üçün zəruri olan əsas xüsusiyyətlərdən xəbərsiz yaşayırıq.

Dərk etməni dildən istifadə edərək həyata keçiririk. Dildən istifadə etməyimiz isə sözlərin və cümlələrin mənasını bilməyimizdən asılıdır. Mənanı bilmək də söz və cümlələrin hansı şərtlərdə “doğru”, hansı şərtlərdə “səhv” olduğunu “başa düşməyimiz”dən asılıdır. Bir sözlə, “doğru” və “səhv” anlayışları olmadan “başa düşmə”, dolayısıyla da mühakimə aparmaq mümkün deyildir. “Stul” dediyimiz zaman stul sözünün mənasını bilməyimiz üzərində oturmaq üçün hazırlanan müəyyən formalı əşyaya stul deməyin “doğru”, lakin basketbol və futbol oynanan yuvarlaq cisimlərə stul deməyin “səhv” olduğunu başa düşməyimizdən asılıdır. Bu fərqi qoya bilməyən insanın stul anlayışını başa düşməsindən söhbət gedə bilməz. Biz stul məfhumu haqqında danışarkən “doğru” və “səhv” olduğunu ayırd etməyə çalışmırıq, ancaq bunlar arxa plan

məlumatı kimi daim mövcuddur və bunu bilmədən istifadə etdiyimiz məfhumlar heç bir məna ifadə etmir.

Təbiəti araşdırdığımız zaman təbiətdə olan heç nəyin "doğru" və ya "səhv" anlayışlarının qarşılığı olmadığını, bu məfhumların yalnız zehnə aid olduğunu başa düşürük. Botanika sahəsinin mütəxəssisinin bir ağacın yaşını isbat etməyə çalışdığını təsəvvür edək: bunun üçün o, ağacın gövdəsindəki halqaları araşdıraraq ağacın yaşını təyin edir. Əgər mütəxəssis ağacın yaşını doğru ehtimal etməsə, onun "səhv" etdiyini deyirik. Bir anlıq bu ağacda elə bir bakteriya növü olduğunu fərz edək ki, həmin bakteriya ağacların halqalarını pozaraq yaşının "səhv" ehtimal edilməsinə səbəb olsun. Bu vəziyyətdə həmin ağacın "səhv" olduğunu deyə bilərik? Şübhəsiz ki, xeyr! Bu ağacın quruluşunun aldadıcı olduğunu deyə bilsək də, "səhv" olan ağac deyil, mütəxəssisin isbatıdır. Təbiətdə zehnə sahib olmayan heç bir varlıq, insanların heç bir texnoloji məhsulu, hətta bir çox şəxsi aldadacaq kompüterlər üçün "doğru", "səhv" və "məna" yoxdur. Kompüterlə həyata keçirilən prosesə zehinlə nəzər yetirdikdə "doğruluğun" və ya "səhvin" mənası olsa da kompüterin özü bu məfhumları bilmir. Bunu düşüncələrimizi bir dəftərə yazma vəziyyətinə bənzədə bilərik. Dəftərdəkilərə bir zehinlə baxılmadıqda fiziki baxımdan dəftərin üzərindəki yazılar yalnız mürəkkəb tökülməsindən ibarətdir. Lakin zehinlə bu cümlələr qiymətləndirildiyi zaman "doğru" və "səhv" anlayışlarından istifadə edilməklə dəyərləndirmələr qeyd edilir.

Bu qədər təməl olan və doğuşdan sahib olduğumuz bu anlayışların isə fizika, kimya və biologiyanın anlatdığı dünyaya uyğunlaşdırılması və orada bunlara yer olması

mümkün deyildir.[105]

C.S.Levisin dediyi kimi, "Maddənin bir hissəsinin digər maddə üçün doğru olması çox qəribə görünür".[106]

Maddi kainatda qarşılığı görünməyən, zehni olan bu məfhumları izah etməkdə materialist ontologiyanın müdafiəçiləri üçün mühüm çətinliklər vardır. Materialist-ateist fəlsəfə baxımından bu çətinliyi başa düşən materialist-ateist Patrisia və Paul Çöçlənd cütlüyü beyində "doğru" və "səhv" məfhumlarının qarşılığının olmamasına hazırlığın vacib olduğunu bildirmişlər. Çöçlənd cütlüyünün bu iddialarından sitat gətirən Viktor Reppert doğruluq dəyərlərini sınamağın intellektual qarşılığının çox ağır olduğunu, bu məfhumları incələyən insanın həmin məfhumların yerini doldurmasının mümkün olmadığını vurğulamışdır.[107] Bir çox materialist-ateistlər fəlsəfələrinə uyğun olanı əsaslı şəkildə qəbul etməkdə çətinlik çəksələr də, Çöçlənd cütlüyünün öz inanclarıyla əsaslı şəkildə isbat etdiyi kimi, materialist-ateist fəlsəfədə tərif olunan maddi dünyada "doğru" və "səhv" məfhumlarına yer tapmaq mümkün deyildir. Nəticədə beyindəki biokimyəvi quruluşun doğru və ya səhv olmasından (əvvəl toxunulan ağacdakı quruluşun doğru və ya səhv olmasından bəhs edilmədiyi kimi) bəhs edilmir. Materialist-ateistlər üçün o zaman Çöçlənd cütlü-

105 Dallas Villard, "Knowledge and Naturalism", **Naturalism: A Critical Analysis**, Red: Uilliam Lane Craig və Ceyms Moreland, Routledge, London, 2000, s. 26-48.

106 C. S. Levis, **Christian Reflections**, Uilliam B.Eerdmans Publishing Company, Grand Rapids, 1995.

107 Paul M.Churhland, "On The Ontological Status of Observals", **A Neurocomputational Perspective: The Nature of Mind and The Structure of Science,** Bradford, Cambridge Mass., 1990, s. 150-151, Patricia Çöçlənd, "Epistemology in The Age of Neuroscience", **Journal of Philosophy** , No: 84, oktyabr 1987, s. 548; Bu iki mənbədən çatdıran Viktor Reppert, **C.S.Leviss Dangerous Idea**, IVB Academic, Downers Grove, 2003, s. 76-77.

yü kimi, hətta “doğru” və “səhv” məfhumlarını da inkar edəcək doğru fikrə ən zidd yola üstünlük vermək materi-ast-ateist fəlsəfələrindən uzaqlaşmamalarının qarşılığıdır.

“Doğru” və “səhv” məfhumları fizikanın təsvir etdiyi maddi dünya səviyyəsinə salınıb aydın olmayan, zehnə aid əsas məfhumlardır. “İnsanlar avtomobillə səyahət edirlər” cümləsinin “doğru”, “hər insanın bir avtomobili vardır” cümləsinin “səhv” olduğunu başa düşüb burada işlədilən “doğru” və “səhv” məfhumlarının mənalı olduğunu düşünürsünüzsə, deməli, materialist dünya düşüncəsinin izah edə bilmədiyi məfhumların əsl qarşılığı olduğunu qəbul edirsiniz. Kainatın və orada mövcud olan ağıla sahib varlıqların kökünü əzəldən ağıl sahibi olan Allahla əlaqələndirən teizm baxımından mühakimə aparmaq üçün mühüm şərt olan bu əsas xüsusiyyətin necə ortaya çıxdığını izah etmək çətin deyildir. Teist paradiqma çərçivəsində bu xüsusiyyət materialist-ateist paradiqmaya nisbətən daha uğurlu izah edilir.

**3.4-ün qiymətləndirilməsi:** Ağlımızdan lazımınca istifadə edə bilməyimizə görə çox mühüm digər şərt məntiqi nəticələr çıxarma qabiliyyətinə malik olmaqdır. Həm Higgs hissəciyinin kəşfinə, həm bütün texnoloji ixtiralara, həm də gündəlik həyatda ən adi mühakimələrimizə imkan verən zehnimizin bu xüsusiyyətidir. Əgər zehin məntiqin eynilik və ziddiyyətsizlik prinsiplərinə əsasən məntiq irəli sürməsəydi, “bu stuldur” ifadəsi heç bir məna ifadə etməzdi. Bununla yanaşı, dəfələrlə stula oturulduğunu görməyimizə əsaslanaraq induksiyalı məntiq yürütməklə stulun oturulan əşya olduğu nəticəsinə gəlməsəydik, “stul oturmaq üçündür” şəklində məntiq yürütməyi reallaşdıra bil-

məz, hər hansı stul gördüyümüz zaman bu dəfə ümumidən xüsusiyə gələrək həmin stula otura bilməzdik. Nəticədə əvvəldən vurğulananlarla yanaşı, zehnimizin bu xüsusiyyətə sahib olması sayəsində dərk edən varlıq olmağımız mümkün olur.

Bir-birilərindən ayrılan qəbilələrin eyni tərzdə məntiq yürütmələrindən, çox kiçik yaşlarından etibarən hər insanın məntiq qanunlarından asanlıqla istifadə etməsindən, bundan başqa, uşaqların danışmağa hazır zehin quruluşuyla dünyaya gəldiyi aydın olduğuna görə və məntiqlə hərəkət edərək düşünmə olmadıqda, mənalı şəkildə dildən istifadə etmək mümkün olmadığına görə məntiqyürütmə qabiliyyətinə sahib olmağın zehnimizin anadangəlmə xüsusiyyəti olduğunu başa düşürük. Tomas Negelin dediyi kimi, ağla işarə edən şəxs özündə özündən və cəmiyyətdən üstün olan dünyəvi üstünlük mənbəyi tapır. Negel müəyyən məntiqyürütmə tərzi olan "modus tollendo tollens"i tətbiq etmədə hətta bir çox savadlı insanın da çətinlik çəkdiyini, lakin həmin vəziyyətin bu qanunun mühüm dünyəvi xüsusiyyətini pozmadığını bildirir. Bu isə məntiq qanunlarının ictimai fikir və ya psixoloji vəziyyətə salınmayacağını göstərən dəlillərdən biridir.[108] "3+2=5" dediyimiz zaman riyaziyyatın və məntiqin çox çətin proseslərində də zehnimizdə mövcud olan dünyəvi üstünlüyü hiss edirik.

Məntiq qanunları fiziki olmayan, zaman və məkandan üstün qanunlar kimi qarşımıza çıxır. Bir materialist-ateistin fikrinə əsasən, beynimiz tamamilə fiziki və biokimyəvi proseslərlə fəaliyyət göstərir. Bu mənzərədə məntiq qanunlarının beynimizə necə təsir etdiyi, məntiq qanun-

108 Tomas Negel, **The Last Words**, Oksford University Press, 2001, Oksford

larının beynimizdəki fiziki və biokimyəvi proseslərlə hansı şəkildə müəyyən səbəb təşkil edib əlaqəyə girərək bunlara təsir edəcəyini izah etmək qeyri-mümkündür. Bunun nəticəsi olaraq əsaslı materialist-ateist beyindəki hərəkətlərdən ibarət nəticələrimizin məntiq qanunlarından ayrı olduğunu iddia etməlidir. Müəyyən nəticə çıxararkən məntiqi davrandığımız, bu səbəbdən nəticənin doğru olmasına inancımız, materialist-ateist dünya düşüncəsində bir illüziyadır. Lakin bu vəziyyətdə materialist-ateist materialist-ateizmin məntiq baxımından əsaslı fikir olduğunu da iddia edə bilməz. Çünki belə bir iddia məntiqi nəticə çıxarmağı zəruri edir.

Məntiqi qanunlar fiziki qanunlardan fərqlidir. Bu kainatdakı fiziki qanunların fərqli olması məntiqi cəhətdən mümkündür. Məsələn, yerin cazibə adlandırılan fiziki qanununun olmadığı və ya zəif nüvə qüvvəsinin təzyiqinin fərqli olduğu kainat məntiq baxımından mümkündür. Digər tərəfdən, məntiq qanunlarının mümkün olan bütün kainatlarda doğru olduğunu, bu qanunların doğruluğunun fiziki kainatımızı aşdığını da düşünürük. Mümkün olan hər kainatda “3+2=5” olduğunu, böyük kiçiyi əhatə etdiyi halda, bunun əksinin mümkün olmadığını düşünürük. Məntiq qanunlarının fiziki qanunların və dəyərlərin fərqli olacağı hər hansı kainatda qəbul olunmasını fikirləşirik. Lakin maddi kainatı araşdırdığımız zaman fizika, kimya və biologiyanın anlatdığı dünyadakı heç nə məntiqin dünyəvi qanunlarına bənzəmir, hətta bu qanunlardan əsaslı şəkildə fərqlənir. Beyində fizika və kimyanın təsvir etdiyi atomların birləşməsilə yaranan bioloji molekullara nəzər yetirək: beyində bu molekulların əmələ gətirdiyi hər hansı vəziyyət dünyəviliklə əlaqəli olan məntiq prinsipini qanu-

nauyğun etmir. Materialist-ateizm baxımından bütün zehin vəziyyətləri yalnız və yalnız biokimyəvi molekulların müəyyən formadan ibarət olmasından, yəni başqa növü mümkün quruluşa əsaslandığına görə buradan dünyəvi xarakterli məntiq qanunlarına keçmək qeyri-mümkündür. Burada mühüm olan yenə də dərəcə deyil, mahiyyət fərqidir. Hadisəyə materialist-ateizm baxımından yanaşdıqda, belə əsaslı fərqi izah etmək, materializmin qəbul etdiyi şəkildə maddədə olmayan belə bir xüsusiyyətin necə ortaya çıxdığını, sırf maddi varlıq olan insanın bu qanunları necə bildiyini izah etmək büyük çətinlik yaradır. Maddəylə hansı kombinasiyanı versəniz və hansı kompleks birləşməni əmələ gətirsəniz, dünyəvi cəhətdən qəbul edilən məntiq qanunlarını bununla əsaslandırmaq olmaz. Halbuki teizmə görə Allah əzəli olaraq ağıl sahibi olduğu üçün teizm ağlın kökünün və ağlın xüsusiyyətlərinin bu kainatda necə əmələ gəldiyini izah etmədə üstünlüyə malikdir.

Bundan başqa, monoteist dinlərə görə, bu dünya imtahan dünyasıdır. Burada insanlar əxlaqi cəhətdən məsuliyyət daşıyırlar (bundan əvvəlki bölmədə bu mövzuya toxunuldu). İnsanların məsul varlıq olmaları isə yalnız məntiqlə davranma xüsusiyyətləri mövcud olduğu təqdirdə mümkündür. Məntiqlə hərəkət etməyən insanın məsuliyyətli olmasından söhbət gedə bilməz. Bu isə teist paradiqma daxilində dərk etmək xüsusiyyətinin (doğru və səhv anlayışlarından istifadə edə bilmək və məntiqlə davranmaq xüsusiyyətlərilə) ortaya çıxmasının gözlənilən olduğunu göstərir.

Digər tərəfdən, əvvəldən gördüyümüz kimi, maddənin xüsusiyyətləri araşdırıldıqda, maddi substansiyanın ağlın xüsusiyyətlərinə heç bir bənzərliyi yoxdur. Bu səbəbdən

kainatı sırf substansiyadan ibarət hesab edən materialist-ateist paradiqma daxilində ağlın bu xüsusiyyətlərinin ortaya çıxmasını gözləmək olmaz. Aydın olduğu kimi, bu da dərketmə xüsusiyyətinin teist paradiqma daxilində gözlənilən, materialist-ateist paradiqma daxilində isə gözlənilməz olduğuna görə teizmə üstünlük verilməsinin zəruri olduğunu göstərir.

Bir sözlə, bu bölmədə bizi biz edən ən mühüm xüsusiyyətlərimizdən olan dərketməyə diqqət yönəldildi, bu xüsusiyyətə necə sahib olduğumuzu materialist-ateist fəlsəfənin, yoxsa teizmin daha yaxşı izah etdiyi araşdırıldı. Burada qiymətləndirilən həm "doğru" və "səhv" anlayışlarından istifadə etməyi, həm də məntiqi davranma qabiliyyətini nə maddənin quruluşu, nə də biokimyəvi molekullar izah edir. Maddi quruluşlar məntiqlə hərəkət edən varlıqlar ola bilməyimiz üçün vacib səbəblər olsa da, bu xüsusiyyətlərin mahiyyətini izah edən amillər deyil. Mücərrəd araşdırma və mühakimə aparmağımız üçün lazım olanlarla bağlı dərin düşünməklə toxunduğumuz xüsusiyyətlərin materializmin təsvir etdiyi kimi, maddi quruluşlar və proseslərdən əsaslı şəkildə fərqli olduğunu başa düşürük. Buradakı araşdırmadan aydın oldu ki, materialist-ateist fəlsəfə dərketmə üçün lazım olan xüsusiyyətlərin necə əmələ gəldiyini izah etmədə uğursuz olsa da, kainat yaranmazdan əvvəl ağıl sahibi olan yaradanın mövcud olduğunu ifadə edən teizm baxımından bunu izah etmədə hər hansı çətinlik yoxdur. Bütün sağlam insanların anadangəlmə sahib olduğu dərketmə xüsusiyyətinin araşdırılması nəticəsində də teizmin materialist-ateizmdən üstün tutulmasının zəruriliyini görürük.

## 11. İRADƏ DƏLİLİ

Doğuşdan sahib olduğumuz və bizi biz edən digər mühüm xüsusiyyətimiz iradə sahibi olmağımızdır. İradə fəlsəfənin bir çox sahəsi və dinlərlə yanaşı, nevrologiya, psixologiya, eləcə də məntiqi elmlər kimi sahələrdə mühüm dayaq nöqtəsi olmuşdur. Bu sahələrdə (sərbəst) iradə sahibi olub-olmadığımıza xüsusi diqqət yetirilmişdir. Kitabın bu bölməsində əvvəl çox müzakirə edilən bu cəhətlə bağlı iradənin mövcudluğunun rədd edilməyəcəyi irəli sürüləcəkdir. Sonra isə bu xüsusiyyətimizi təbiətdəki qanunlar çərçivəsində reallaşan təsadüfi hadisələrlə izah edən (və ya mövcudluğunu rədd edən) materialist-ateist düşüncənin, yoxsa özü əzəli iradə sahibi olan Allahın yaratmasıyla izah edən teizmin daha yaxşı izah etdiyi araşdırılacaqdır.

Səhər oyandığımız zaman köynəyimizin qırmızı, yoxsa mavi olanını geyinəcəyimizi düşünərkən, məktəbə avtomobillə, yoxsa velosipedlə gedəcəyimizə qərar verərkən seçimlərimizi daim iradəmizlə reallaşdırdığımızı fikirləşirik. Mavi köynək və velosiped seçimlərini etdiyimizi təsəvvür edək. Bu zaman qırmızı köynək və avtomobilə üstünlük verməyimizin mümkün olduğunu, lakin həmin imkanlara baxmayaraq, seçimlərimizi bildirilən istiqamət-

lərdə istifadə etdiyimizi düşünürük. Gündəlik həyatdakı adi seçimlərimiz kimi, hansı mövzunu seçəcəyimiz, kiminlə evlənəcəyimiz, harada yaşayacağımız kimi həyatımızın axarında çətin addımlarımızı da iradəmizlə etdiyimizi düşünürük. İstəsəniz bu yazını oxumamağı da seçə biləcəyinizi və bu anda öz seçiminizlə oxuduğunuzu düşünürsünüzsə, deməli, bu anda iradənizin mövcudluğuna şahidlik edirsiniz. Yəni, özümüzdə başqa bir şeyi seçmə qabiliyyəti olmasına baxmayaraq, müəyyən seçimlər etdiyimizi düşünürük ki, iradə ilə nəzərdə tutulan da elə budur.

İradənin illüziya, yoxsa fərqli alternativlər arasında seçim edən real xüsusiyyətimiz olduğu onun mövcudluğunu əsas götürərək bir arqument irəli sürməzdən əvvəl aydınlaşdırılmalıdır. Məncə, bu versiyalardan ikincisinin birincisindən üstün tutulması daha zəruridir. Kainatda determinizmin və ya indeterminizmin hakim olduğunu deyən həm fiziki və fəlsəfi nəzəriyyələr, həm də elmi araşdırmalar iradənin mövcud olmadığını göstərməkdən uzaqdırlar.[109] İradənin mövcudluğunun rədd edilməsinin mümkün olmadığını ifadə edən arqumentimi aşağıdakı şəkildə təqdim edirəm:

1. Bir müddəaya (və ya prinsipə) əsaslanma ilə əldə edilən nəticəni mühüm hesab edərək həmin müddəa (və ya prinsip) rədd edilmir.

2. Hər hansı elmi fəaliyyəti həyata keçirmək və ya fəlsəfi arqument irəli sürmək iradəmizin olması müddəasına əsaslanır.

3. Heç bir elmi fəaliyyət və fəlsəfi arqumentlə iradənin mövcudluğu rədd olunmur.

109 Bu mövzu ilə bağlı baxın: Caner Taslaman, **Kuantum Teorisi, Felsefe ve Tanrı**, İstanbul nəşriyyatı, İstanbul, 2015, s. 121-168.

Arqumentin birinci maddəsinin çox aydın olduğu deyilir. Əgər bir nəticəni müəyyən müddəaya əsaslanaraq əldə edirsinizsə, deməli, həmin nəticənin daxilində o müddəa daim əsas amil kimi qarşımızda dayanır. Bu müddəanın olmadığını qəbul etdiyiniz zaman bu nəticə arada qalmayacaqdır. Bu səbəbdən həmin nəticə heç zaman bu müddəanı qüvvədən salmaq üçün müəyyən hərəkət nöqtəsi olmur. Nəticə ilə müddəanı qəbul etmədiyinizi fərz edin. Müddəa qəbul edilmədikdə nəticənin özü də aradan qalxacaqdır. Bu zaman həmin nəticənin müddəaya qarşı istifadə edilməsi də mümkün olmayacaqdır. Əgər hər hansı nəticə müddəaya əsaslanırsa, müddəa həmin nəticədən daha əsasdır. (Bu qeyd olunanla daxili əsassızlığı göstərməyi qarışdırmamaq lazımdır. Daxili əsassızlıqda müddəaya əsaslanaraq əldə edilən nəticə doğru qəbul olunaraq müddəanın səhv olduğu iddia edilmir.) Keçmişə qayıtmağın qeyri-mümkün olduğunu göstərmək üçün irəli sürülən "baba ziddiyyəti" (grandfather paradox) buna bənzərdir. Biz bu günümüzü (nəticəsi) keçmışdəki hadisələrin müəyyən etdiyini düşünürük. Deməli, bu günün içində keçmişdəki hadisələr də mövcuddur. Biz bu günü əsas götürərək bu günü yaratmış keçmişdəki hadisələri dəyişdirə bilmərik. Məsələn, nəvə keçmişə gedib babasını öldürə bilməz. Babasını öldürəcəyini xəyali olaraq qəbul etdiyimizi təsəvvür edək. O zaman bu nəvə olmayacaq və o zaman babasını öldürməsi də qeyri-mümkün olacaqdır.

Məncə, arqumentin ikinci maddəsi də çox aydındır. Məsələn, bu mövzu ilə bağlı məşhur Libet sınaqlarını fikirləşin.[110] Libet assistentləri və iştirakçılar bu sınaqları real-

110 Benjamin Libet və digərləri, "Time of Conscious Intention to Act in Relation to Onset of Cerebral Activity (Readiness-Potential)", **Brain,** No: 106-3, 1983, s. 623–642.

laşdırmaq əvəzinə fərqli sınaq aparmağı və ya elmlə məşğul olmaq əvəzinə futbol oynamağa üstünlük verirdilər. Belə sınağı deyil, digərini, futbol oynamağı deyil, elmlə məşğul olmağı “seçmək” iradənin mövcudluğunu iddia etmək deməkdir. Eyni vəziyyət fəlsəfi arqument irəli sürülməsində də qəbul edilir. İradə haqqında fəlsəfi arqumentlər irəli sürənlər bu fəaliyyətləri əvəzinə yeməkləri sevən şəxs kimi dünya yeməklərini kəşf etməyə vaxt ayırar və ya xalqın bir hissəsi kimi gündəlik siyasətlə bağlı məsələlərdən başqa mövzu ilə maraqlanmaya bilərdilər. Yeməkləri sevən şəxs olmaq əvəzinə fəlsəfəylə məşğul olmaq və ya gündəlik siyasət yerinə iradəylə bağlı arqumentlərə vaxt ayırmaq müəyyən “seçim etmək” deməkdir ki, iradəylə nəzərdə tutulan da budur. Əgər elm adamları və filosoflar fəaliyyətlərində iradənin mövcudluğunu iddia etməsələr, qayaların yuvarlanmasıyla öz fəaliyyətləri arasında hər hansı fərq olduğunu bildirməzlər. Bundan əvvəl ağılla bağlı bölmədə göstərildiyi kimi, belə təbiətlə bağlı faktların “doğru” və ya “səhv” olmasından da bəhs edilmir. Qayanın müəyyən formada yuvarlanmasının “doğru” və ya “səhv” olduğu irəli sürülə bilməz. Mühakimə aparmaq qabiliyyəti olmayan iradə təsəvvür etmək olmaz. “Doğru” və ya “səhv” məfhumlarını istifadə etməyin mümkün olmadığını dediyiniz zaman isə nə elmi fəaliyyət, nə də fəlsəfi mühakimə aparmaq mümkün olur. Hər elmi fəaliyyət və fəlsəfi arqument iradənin mövcud olduğu müddəanı özündə əks etdirir.

Arqumentin üçüncü maddəsində ifadə edilən nəticə ilk iki maddənin doğruluğu göstərildikdən sonra məcburən bu mülahizələrdən ortaya çıxır. Əvvəldən arqumentin ilk iki maddəsinin doğruluğu göstərildiyinə görə heç bir elmi fəaliyyət və fəlsəfi arqumentlə iradənin mövcudluğunun

rədd ediləməyəcəyi nəticəsini əldə edirik.

Bu nəticə elmi fəaliyyət göstərdiklərini və fəlsəfi arqumentlər irəli sürdüklərini güman edən, əslində isə iradələrinin də mövcud olmadığı insanların yaşadığı (bütün bunların illüziya olduğu) bir dünyanın mövcud olmayacağını göstərmir. Məntiqi baxımdan belə bir dünya mümkün olsa da, həmin dünyada elmi fəaliyyətlər və fəlsəfi arqumentlərlə iradənin aradan götürüldüyünü göstərmək olmaz. Çünki belə dünyada hər şey yalnız illüziya olacağına görə nə isə "göstərmək" də qeyri-mümkündür. Çünki "göstərmək" təşəbbüsü iradənin mövcud olduğu müddəanı özündə cəmləşdirir. Aydın olduğu kimi, iradənin mövcudluğunun əksinə irəli sürülən etirazlara qarşı iradənin mövcudluğunu iddia edənlər hər zaman "ən yaxşı izah" məsələsində daha uğurludurlar. Etiraz edənlər etiraz etdikləri anda "iradənin mövcudluğunu iddia edərək iradəyə etiraz etdikləri"nə görə etirazları qəbul edilmir. Halbuki iradənin mövcudluğunu iddia edənləri qəbul etməyəcək belə bir etiraz irəli sürülə bilməz.

Bunlar iradənin mövcudluğuna qarşı hər hansı arqument irəli sürülməsinin mümkün olmadığını göstərir. Digər tərəfdən, iradənin mövcud olduğunu iddia etmək üçün sağlam düşüncə xaricində məntiqi səbəblərimiz də vardır. Bütün bəşər tarixinə və insanların bütün təhsil keçmişlərinə nəzər yetirək. İnsan iradəsini qəbul etmədiyimiz zaman bütün bəşər tarixindəki hadisələr və insanların təhsil prosesləri də mənasızlaşacaqdır. İnsanda olan iradəni aradan qaldırdığınız zaman həm Napoleonun başladığı müharibədə qəbul etdiyi qərarlar, həm də coğrafiya dərsində öyrəndiklərinizin heç bir mənası olmayacaq. Müharibəyə başlamaq yalnız insan iradəsilə bağlı olduğu kimi, hər

hansı öyrənmə prosesi də yalnız iradəylə bağlı olur. İradəni qəbul etmədiyiniz zaman bütün öyrənilənlər mənasını itirər, bütün öyrənilənlər küləklərin əsməsi kimi fiziki faktlardan ayırd edilməz. Əgər iradəylə kainatda müəyyən səbəb təşkil edən təsir əmələ gətirmiriksə, o zaman bütün təhsil prosesimiz mənasızdır. Çünki təhsil nəticəsində formalaşan zehnimiz hər hansı davranış fərqi əmələ gətirmir. Bu vəziyyətdə kainatda bizim də yaşadığımız bütün qarşılıqlı təsirlər bir daşın digər daşla toqquşması kimi mənasızdır, iradənin heç bir təsiri yoxdur! İradəmiz yoxdursa, oturduğumuz stuldan televizorlara, oxuduğunuz bu kitabdan kompüterlərə qədər hər şeyin kainatdakı təsadüflərin (arxasında iradə olmayan proseslərin) müəyyən nəticəsi olduğunu qəbul etmək lazımdır! İradənin mövcudluğunun rədd edilməsinin nəticəsi olan bu fikirlər səfehliyin ən yüksək səviyyəsidir.

Bundan başqa, əgər iradəmiz illüziyadırsa və heç bir şeyə səbəb olmursa, baş verən hadisələrlə “illüziya olan iradə hissimizin” arasındakı uyğunluğun səbəbini də görmək mümkün deyildir. Çünki baş verən hadisələrlə iradə hissimiz arasında uyğunsuzluqlar olduğu təqdirdə (məsələn, irəli addım atmaq istədikdə bəzən qolumuz qalxsaydı, stula oturmaqla bağlı iradə hissimiz olduğu halda, havaya tullansaydıq), kainatda iradəmiz heç bir şeyə səbəb olmasaydı, həyatımızda hər hansı çətinlik yaranmazdı. İllüziya fikrinə əsasən, istəmədiyimiz davranışlar edən bədəni daim gözləməməyimiz üçün hər hansı səbəb olmamasına baxmayaraq, iradə hissimizlə fəaliyyətlərimiz arasında daim uyğunluq müşahidə edirik. Nəticədə iradə hissimizlə gözlədiyimiz faktlararası uyğunluq iradəmizin, əslində, mövcudluğu olmadığını iddia etməyin sağlam düşüncəyə

olduğu qədər məntiqə də zidd iddia olduğunu göstərir.[111]

İradənin, əslində, mövcud olmadığını iddia edən materialist-ateistlərə (və ya teistlərə) buraya qədər qeyd edilənlərlə cavab verilir, bundan başqa, aşağıda epifenomenalizmin əsassızlıqlarıyla bağlı deyilənlər də iradənin rədd edilməsinə cavabdır. İndi isə iradənin mövcudluğunu əsas götürərək teizmin lehinə olan arqumentimi təqdim edirəm:

1. İnsanların iradəsi aşağıdakı xüsusiyyətləri əhatə etməklə mövcuddur.

  1.1. Ağıl üçün lazım olan xüsusiyyətlər.
  1.2. Şüur və mənlik üçün lazım olan xüsusiyyətlər.
  1.3. Məqsədə uyğun istiqamətin olması.
  1.4. Səbəbolma ilə bağlı təsir gücü.

2. İradənin bu xüsusiyyətlərinin necə ortaya çıxdığını izah etmədə iki əsas alternativ fikrin olduğunu görürük:

  2.1. Əgər materialist-ateistlərin iddia etdiyi kimi, mövcud olan tək varlıq tipi maddədirsə, o zaman iradədə mövcud olan bu xüsusiyyətlər təbiət qanunları çərçivəsində təsadüfi proseslərlə yaranmışdır.
  2.2. Əgər teistlərin iddia etdiyi kimi, Allah varsa, deməli, özü iradə sahibi varlıq olan Allahın sayəsində iradənin bu xüsusiyyətləri yaranmışdır.

3. İradəyə imkan verən bu xüsusiyyətləri teizm materialist-ateizmdən daha yaxşı izah edir:

  3.1. Çünki ağıl üçün lazım olan xüsusiyyətləri daha yaxşı izah edir (10-cu bölmədə qeyd edildi).

111 İradənin mövcudluğunun rədd edilməsinin, materialist-ateizmdən gözləniləcək yanaşma olmasının müəyyən nümunəsi kimi oxuya bilərsiniz: Sam Harris, Free Will, Free Press, Nyu York, 2012.

3.2. Çünki şüur və mənlik üçün lazım olan xüsusiyyətləri daha yaxşı izah edir (12-ci bölmədə qeyd olunacaq).
3.3. Çünki məqsədə uyğun istiqaməti daha yaxşı izah edir.
3.4. Çünki müəyyən səbəb təşkil edən təsiretməni daha yaxşı izah edir.

4. Nəticədə, teizm materialist-ateizmdən üstün tutulmalıdır.

İndi iradə dəlilini maddələr şəklində araşdırmağa başlayaq. Təqdim olunan arqumentdəki birinci maddənin doğruluğu bu bölmənin əvvəlində iradənin mövcudluğunun bütün elmi fəaliyyət və fəlsəfi arqumentlərdən daha əsas olduğu göstərilərək, həmçinin, iradəmizin mövcudluğuna inanmaq üçün digər səbəblər sıra ilə qeyd edilərək ortaya qoyuldu. İradənin mövcudluğuna imkan verdiyi vurğulanan dörd maddədəki amillərin hər biri iradənin mövcudluğu üçün lazım olan çox mühüm şərtlərdəndir: iradənin necə ortaya çıxdığını izah etməyə təşəbbüs göstərənlər bunların hamısını birgə izah etməlidirlər. "İradə" ağıllı və şüurlu mənliyin seçim etməsini və seçimilə müəyyən səbəb təşkil edəcək şəkildə təsir etməsini bildirir. Zehin fəlsəfəsindəki mübahisəli mövzulardan xəbərsiz biri üçün bu, ziddiyyətsiz təsvir kimi görünür. Halbuki bu tərif zehin fəlsəfəsindəki ən əsas mübahisə mövzularını əhatə edəcək qədər genişdir. Əvvəlki bölmədə araşdırılan ağıl (reason) və sonrakı bölmədə toxunulacaq şüur (consciousness) və mənlik (self) xüsusiyyətləri şübhəsiz ki, bu xüsusiyyətlərin mövcud olması üçün lazım olan bütün şərtlərlə yanaşı, həmin təsvirin içində mövcuddur. Bunlar iradənin mövcudluğunun mühüm şərtləridir. İradə möv-

cud olmaq üçün bunlara möhtac olsa da, yalnız bunlardan ibarət deyildir. İradə zehin fəlsəfəsi baxımından ən çətin mübahisə mövzularına səbəb olmuş ağıl, şüur və mənlik xüsusiyyətlərimizi zəruri edən, daha da çoxunu ifadə edən xüsusiyyətimizdir. Burada o iki bölmədə vurğulanmayan, iradənin mövcudluğu üçün lazım olan iki xüsusiyyət araşdırılacaqdır. Bunlardan birincisi iradənin məqsədyönlülük (1.3. və 3.3.), ikincisi isə müəyyən səbəbə əsaslanan təsiretmə (1.4. və 3.4.) xüsusiyyətləridir.

İkinci maddədə bildirilən cəhətin doğruluğuna düşüncə tarixini araşdıran hər kəs asanlıqla şahid ola bilər. Tarix boyu ön plana çıxan məşhur ateistlər və dövrümüzün əksər məşhur ateistləri materialist-ateistlərdir. Bunlar maddəyə xas qanunlarla yaranan təsadüfi (arxasında şüurlu iradənin olmadığı) proseslər nəticəsində bütün canlıların bu canlılardakı görmə, eşitmə, ağıl, iradə və şüur kimi xüsusiyyətlərinin əmələ gəldiyini irəli sürmüşlər. İradənin mövcudluğunu rədd edən materialist-ateistlər də vardır. Onlara əvvəlcə cavab verildiyi üçün burada iradənin mövcudluğunu qəbul edənlərlə bağlı arqument təqdim olunacaqdır. Bu yanaşmanın qarşısındakı əsas rəqib fikir isə teizm olmuşdur. Bu fikrə görə, kainatın, canlıların və canlılardakı bütün görmə, ağıl, iradə kimi xüsusiyyətlər, yüksək bilik və qüdrəti olan Allahın iradəsilə mövcud olmuşdur.

Bu arqumentin ən mübahisəli maddəsi üçüncü maddədir. Bu üzdən də iradənin mövcudluğunu qəbul edən ateistlərin rədd etməyə çalışacaqları maddə budur. Ağıl üçün lazım olan xüsusiyyətlərə (3.1.) bundan əvvəlki bölmədə toxunuldu. Şüur və mənliklə bağlı xüsusiyyətlərdən (3.2.) isə növbəti bölmədə bəhs ediləcəkdir. O bölmələrdə teizmin materialist-ateizmdən bu xüsusiyyətləri daha uğurlu

açıqladığının göstərilməsi də buradakı iradə dəlilinin bir hissəsidir. (O bölmələrdə izah edilənlər burada təkrar edilməyəcəkdir.) İradənin mövcud olması üçün lazım olan "Məqsədyönlü istiqamətin olması" və "səbəbə əsaslanan təsiretmə" xüsusiyyətlərinə aşağıda toxunulacaqdır.

Üçüncü maddənin doğruluğu göstərildikdə, dördüncü maddə olan nəticədə bildirildiyi kimi, teizmin materialist-ateizmdən üstün tutulmasının zəruriliyi məntiqi hal kimi ortaya çıxır. İndi bu arqumentin mübahisəli maddəsində qeyd edilən cəhətləri teizmin materialist-ateizmdən daha yaxşı izah etdiyini göstərəcəyəm.

**3.3-ün qiymətləndirilməsi:** Zehin mövcud olan şey haqqında düşündüyü kimi, mövcud olmayan şey haqqında da düşünür.[112] Gündəlik davranışlarımızın əksər hissəsi, ən sadə görünən ixtiyari davranışlarımızın çoxu zehnimizdəki "Məqsədyönlülük" xüsusiyyəti sayəsində reallaşır. Məsələn, çayın hazırlanmasına diqqət edək: çay içmək "məqsədi" ilə mövcud olmayan çay üçün su qaynadılır, çay bitkisilə su qarışdırılır, çay stəkana süzülür və içən şəxslərin qarşısına gətirilir. Bütün bunlardan əvvəl zehində çay içmək məqsədi vardır. İxtiyari proses sonradan reallaşır. Nəticə əvvəldən zehində hədəf kimi tutulub və bu məqsəd üçün lazım olan səbəblər sonradan buna əsasən reallaşdırılır.

Təbiət elmlərinin bizə başa saldığı kainat isə mexaniki qanunlar çərçivəsində fəaliyyətdədir. Materialist-ateist

112 Şüur və mənlik dəlili bölməsində "məqsədyönlülük" xüsusiyyətindən bəhs olunacaq, burada qeyd edilən cəhət o başlıqla da bağlı olmaqla yanaşı, burada diqqət yönəldilən zehnin "məqsədyönlü" istiqamətidir. "Məqsədyönlü" istiqamət olmadan da zehin bir şey "haqqında" düşünür. "Məqsədyönlülük" xüsusiyyəti məqsədə uyğun istiqaməti də əhatə edən daha geniş xüsusiyyətdir.

filosof və elm adamlarına görə, kainat və qanunları əzəldən mövcuddur. Kainatdakı mexaniki fəaliyyətin özlərinə bağlı reallaşdığı qanunların mövcud formada olmasının hər hansı məqsədi yoxdur. Bu yanaşmada kainat əzəldən bəri mövcud olan maddə və bu maddənin özünə bağlı olaraq hərəkət etdiyi mexaniki (məqsədəuyğun olmayan) qanunlardan ibarətdir. Teist filosof və elm adamlarına görə isə bu kainat və qanunları, Allahın zehnindəki (elmindəki) müəyyən "məqsədə" bağlı olaraq yaradılmışdır. Lakin onların fikrincə, bu qanunların özünün bir məqsədi yoxdur. Nəticədə qanunların özünün məqsədinin olmadığını bütün müasir elm adamlarının dərhal birgə rəy bildirdiyi cəhət olduğunu deyə bilərik. Çayın hazırlanmasıyla bağlı prosesi zehnə aid etmədən təbiət elmlərinin qanunları çərçivəsində izah etməyə çalışdığımızı düşünək: çayın hazırlanması qanunların mexaniki fəaliyyəti çərçivəsində olsa da, bu qanunların özünün çayı hazırlama məqsədləri yoxdur. Metalın istiliyi keçirməsi və istiliyin su molekullarının enerjisini artırması sayəsində su isinir, kimyəvi qanunlar çərçivəsində su və çay bitkisi qarışır, yerin cazibə və hərəkət qanunları çərçivəsində çay stəkanda dayanır və bir yerdən digər yerə aparılır. Belə bir elmi izahatda səbəblər əvvəl olur, səbəblərin özü hər hansı nəticəni məqsəd seçmədən mexaniki olaraq reallaşır və nəticə ortaya çıxır. Bu izahata zidd olmasa da, çayiçmə iradəsinin əmələ gətirdiyi məqsədlə çayın hazırlanması, həmin məqsədə uyğun olan izahat mexaniki və fiziki izahatdan çox fərqlənir.

XVII əsrdəki elmi inqilabın ən mühüm adları Dekart, Qaliley, Kepler və Nyuton kimi adlarla (bu adların hamısı qanunları ilə birlikdə kainatı Allahın müəyyən məqsədlə yaratdığını iddia edirdilər) reallaşan elmi inqilabdan sonra

bir daha fizikada məqsədəuyğun (teleoloji) şəkildə səbəblər qeyd edilməmiş, mexaniki səbəblər çərçivəsində kainatın izah edilməsinə çalışılmışdır.[113] Lakin fizikanın anlatdığı bu mexaniki fəaliyyət göstərən kainat mənzərəsinə qarşı hamımız mexaniki fəaliyyətdən əsaslı şəkildə fərqli olaraq daim məqsədəuyğun davrandığımızın şahidləriyik. Çayı içmək məqsədilə hazırladığımıza görə və ya bu kitabı məlumat əldə etmək məqsədilə oxuduğunuza görə şübhə etmirsinizsə, deməli, məqsədəuyğun davranmağın iradəmizdəki əhəmiyyətinə siz də şahidlik edirsiniz.

Materialist-ateist anlayışın mexaniki fəaliyyət göstərən maddə anlayışını araşdırdığımız zaman nə maddənin özündən asılı şəkildə hərəkət etdiyi fizika qanunlarında, nə maddəni təşkil edən kuarkla (fundamental hissəciklər) elektron kimi əsas hissəciklərdə mexaniki prosesi aşıb məqsədyönlülüyə keçəcək amilə rast gəlirik. Maddi cisim fizika qanunları çərçivəsində reallaşan hərəkətlər nəticəsində digər maddi cismin yanına yaxınlaşır və ya ondan uzaqlaşır, lakin digər maddi cismin yanından uzaqlaşma seçimi mümkün olduğu halda, onun yanında olma “məqsədi” ilə yanına yaxınlaşmır. Halbuki iradə sahibi olmaq, fizikanın təsvir etdiyi vəziyyətilə maddi dünyada olmayan, əsaslı şəkildə fərqli xüsusiyyət olan məqsədəuyğun istiqamətə yönəlmək deməkdir. Bir insanın yanında olmaq “məqsədi” ilə yanına getdiyimiz zaman maddi təbiətdəki hərəkətlərdən mahiyyət etibarilə fərqli ixtiyari davranışı həyata keçiririk.

İradənin məqsədəuyğun şəkildə istiqamətlənmə xüsu-

113 Bu dəyişiklikdə Nyutonun “Principia” adlı kitabının çox mühüm rolu vardır: İsaak Nyuton, **The Principia: Mathematical Principles of Natural Philosophy,** Tərc: Bernard Koen və digərləri, The University of California Press, Berkeley, 1999.

siyyətini materialist-ateistlərin maddə anlayışı çərçivəsində başa düşmək mümkün deyildir. Maddədəki mexaniki fəaliyyətdən əsaslı şəkildə fərqli olan məqsədəuyğun şəkildə istiqamətlənmə xüsusiyyəti ölçü kimi deyil, mahiyyət kimi maddənin sahib olduğu xüsusiyyətlərdən fərqlidir. Zehinlə bağlı əvvəlki bölmədə vurğulanan və sonrakı bölmədə xüsusi qeyd ediləcək materialist-ateist fəlsəfə baxımından mövcud problemlər kimi bu sualı da bir çox materialist-ateist bilməmiş, yaxud diqqət yetirməmişlər. Belə problemləri bilən materialist-ateist elm adamları və filosofların əksər hissəsi isə iradənin mövcudluğunu rədd etmişlər. Bu isə hər hansı materialist-ateistin iradə mövzusunda əsaslı olmağa çalışdıqda ödədiyi qarşılığın böyüklüyünü göstərir.

Teizmə əsasən, kainat və canlıların yaradılması, müəyyən mexaniki prosesin nəticəsində reallaşsa da, bu proseslə Allahın “məqsədləri” həyata keçmişdir. Prosesin mexaniki fəaliyyət göstərməsi bu prosesin “məqsədyönlü” olmasına ziddir. Teizmə görə Allahın iradəsində “məqsədəuyğun yönəlmək” sonradan törəmiş xüsusiyyət deyil, əzəldən bəri mövcud olan xüsusiyyətdir. Bu səbəbdən, teist paradiqma daxilində ixtiyari fəaliyyətlər üçün lazım olan bu xüsusiyyətin ortaya çıxmasını izah etməklə bağlı hər hansı çətinlik yaranmır. Materialist-ateizm isə mexaniki fəaliyyətdən məqsədəuyğun şəkildə istiqamətlənməyə keçidin necə baş verdiyini izah etməkdə çətin problemlərin içərisindədir.

**3.4-ün qiymətləndirilməsi:** Bir yerə getmək iradəmizlə velosipedlə yola çıxdığımız zaman iradəmizlə reallaşan təsir həm velosipedin, həm də maddi bədənimizin

yer dəyişdirməsinə səbəb olur. "İxtiyari səbəbə əsaslanan təsir" kainatda müşahidə edilən dəyişikliklərə səbəb olur və gündəlik həyatda daim bu dəyişikliklərin şahidi oluruq. Əslində, antropologiya, sosiologiya, siyasi elmlər və tarix kimi elm sahələri hər zaman "müəyyən ixtiyari səbəb təşkil edən təsir"in nəticələrindən asılıdır. Materialist baxışa əsasən, səbəbilik yalnız fiziki quruluşun fiziki quruluşa təsir etməsi kimi fəaliyyət göstərir və bu fəlsəfi yanaşmanın içində "şüurlu mənliyin iradəsilə müəyyən səbəb təşkil edən təsir əmələ gətirməsi" üçün yer tapmaq qeyri-mümkündür.[114] Materialist yanaşmanı mənimsəyənlərin bir çoxu "fiziki bağlılıq" ("physical closure" və ya "completeness of The physical" kimi də adlanır) prinsipini, iradəni müəyyən səbəb təşkil edən təsiri kənarlaşdıracaq şəkildə şərh edirlər. Bunu etmələrinin səbəbi isə materialist maddə anlayışının bunu zəruri etməsidir.

Bundan başqa, səbəb təşkil edən təsirdəki fiziki vəziyyətlərin mənliyin iradəsilə reallaşdığı deyilirsə, bəzilərinin fikrincə, birdən çox səbəbin eyni anda gözlənilən nəticəyə səbəb olduğunu ifadə edən "yenidən təşkilolunma" (overdetermination) fikri iddia ediləcəkdir ki, bir çoxları yenidən təşkilolunma vəziyyətlərini qəbuledilməz hesab etdiklərinə görə iradənin həqiqi olduğunu rədd etmişlər. Bu bölmənin əvvəlində iradənin mövcudluğuna inanmağımızın nə üçün zəruri olması ilə bağlı ifadə edilən səbəblər materialist yanaşma daxilində iradəyə yer olmadığını deyənlərə cavabdır. İradənin mövcudluğunun göstərilməsi ixtiyari şəkildə müəyyən səbəb təşkil edən təsirin göstərilməsi deməkdir və bu, materialist-ateist yanaşmanın səhv olması mənasına gəlir.

114 Con Bişob, **Natural Agency**, Cambidge University Press, Kembric, 1989, s. 40.

Hər hansı materialist üçün zehnin maddəyə təsir etməsilə yanaşı, digər böyük çətinlik zehnimizdəki iradə vəziyyətinin (yəni, zehin vəziyyətinin) digər zehin vəziyyətinə səbəb olduğunu düşündüyümüz zaman üzə çıxır. Qarşımızdakı velosipedə minmək iradəmizi velosipedi götürməklə bağlı zehin vəziyyətinə səbəb olduğunu fikirləşək. Burada zehindəki birinci vəziyyət digərini müəyyən edərkən iradənin şərti olan mühakimə başlayır, mühakimə deyildikdə, əvvəlki bölmədə gördüyümüz kimi, məntiq irəli sürülür. Lakin məntiq qanunları quruluş baxımından fiziki qanunlardan əsaslı şəkildə fərqlənir və məntiqi təsdiq fiziki təsdiq kimi qəbul edilə bilməz. Məsələn, "pişiklər dördayaqlıdır" və "samur pişikdir" ifadələrindən məntiqlə hərəkət edərək samuru görmədən "samur dördayaqlıdır" nəticəsinə gəlirik. İlk iki təklif doğru olduğu təqdirdə, mümkün olan hər kainatda üçüncüsünün doğruluğu məntiqi zərurətdir. Halbuki fiziki qanunlar bu kainatda qəbul edilir, başqa kainatlarda başqa cür fiziki qanunların olması məntiqi baxımdan mümkündür. Məntiqlə fiziki qanunlar arasında böyük ontoloji fərq vardır. Nəticədə ixtiyari səbəb təşkil edən təsirin həyata keçməsi üçün zehnin vəziyyəti digərini müəyyən edərkən fikir yürüdülməlidir. Lakin zehnin vəziyyətlərini sırf bioloji quruluşların yaratdığı beyin vəziyyətlərinə gətirdiyimiz zaman məntiqi bioloji və fiziki hadisələrə çevrilmə kimi mənasız hallarla qarşılaşırıq. Hüceyrə daxilindəki bioloji quruluşlar nə qədər kompleks olsalar da, materialist baxımdan bilyard şarlarının toqquşmasından fərqli fiziki vəziyyətə uyğun gəlmirlər. Bilyard şarının digər bilyard şarı ilə toqquşmasının deduksiya kimi məntiq qanununu və ya bir cümlənin mənası kimi quruluşu verməsini təsəv-

vür etmək olmaz. Mühakimə aparmağın qəbul olunmasının onun məntiqi məzmununa və cümlələrinin mənasına görə deyil, zehindəki fiziki quruluşuna görə olduğunu demək fiziki qanunlardan əsaslı şəkildə fərqlənən məntiq və məna baxımından qeyri-mümkündür. (Ağıl dəlilində də vurğulanan bu çətinlik müəyyən ixtiyari səbəb təşkil edən təsir mühakimə aparmağı zəruri etdiyinə görə iradə mövzusunda da qarşımıza çıxır).

Aydın olduğu kimi, iradənin maddi dünyaya təsirini izah etməklə yanaşı, ixtiyari fəaliyyət üçün mühüm şərt olan zehin vəziyyətlərinin başqa zehin vəziyyətlərini məntiqi şəkildə müəyyən etməsi də materialist yanaşma baxımından ciddi çətinliklər yaradır. Bu və buna bənzər problemləri bilən bir çox materialist-ateist şüurla səbəbiyyət təsirinin mövcud olduğunu (yəni iradənin mövcudluğunu) rədd etmişlər; bunlar epifenomenalistlərdir.[115] Epifenomenalizmdə şüur beyindəki maddi proseslərin əlavə nəticəsi hesab edilərək maddi olanın şüur vəziyyətlərini ortaya çıxardığı ifadə edilir. Lakin maddə şüuru ortaya çıxaracaq şəkildə təsir əmələ gətirirsə, şüurun maddəyə təsir etməyəcəyini, yəni, bu qədər daxili şahidliyimiz mövcud olduğu halda, ixtiyari fəaliyyətin reallaşmayacağını necə iddia edə bilərik?

İradənin, əslində, mövcud olmadığını iddia edənlər, şüurun epifenomen, yəni prosesdə müəyyən səbəb təşkil edən, təsiri olmayan əlavə nəticə olduğunu ifadə etmək məcburiyyətində qalacaqlar. Bu fikri irəli sürənlər şüurun təsadüfi təkamül prosesində ortaya çıxdığını deyəcəklər. Lakin təkamül nəzəriyyəsinə görə, təbii seleksiya prose-

115 Epifenomalizmin iddiasına bir nümunə: Daniel Ueqner, The **İllusion of Conscious Will,** MIT Press, Cambridge, 2002.

sində canlının faydasına olan xüsusiyyətlər seçilərkən, fayda verməyənlər ələnir. Əgər iradə yoxdursa, şüur sahibi olan mənlik kainatda səbəbilik təşkil edən heç bir təsir əmələ gətirmir. O zaman isə şüurun təbii seleksiya ilə seçildiyini demək olmaz. Çünki bu vəziyyətdə müəyyən səbəb təşkil edən təsir əmələ gətirməyən şüurun mövcudluğunun fayda verəcəyi xüsusiyyət yoxdur. Bunun əksinə, şüurun, təbii seleksiya ilə seçilməmiş təkamülün əlavə nəticəsi olduğunu deyənlər ola bilər.

Lakin ən sadə quruluşunu da təbii seleksiya ilə əlaqələndirib izah etməyə çalışan nəzəriyyə istifadə edilərək insanın ən möhtəşəm xüsusiyyəti olan şüurunun "əlavə nəticə" kimi xarakterizə edilməsi səfehliyin yüksək səviyyəsidir.

Epifenomenalizm (iradi səbəb təşkil edən təsirin rədd edilməsi) bir çox başqa mühüm səbəbə görə də iddia edilməyəcək vəziyyətdir: bu vəziyyəti qəbul etmək Osmanlı dövlətinn rəhbərliyini, Motsartın musiqilərini, fabriklərin mobil telefon istehsalını insan iradəsinin heç bir rolu olmayan, dünyanın hərəkət etməsi kimi fiziki hadisələr olaraq qəbul etmək deməkdir. İxtiyari olaraq səbəbilik təşkil edən təsiri rədd edənlərin ödəyəcəyi böyük qarşılıq bu fikirləri müdafiə etmək məcburiyyətində qalmaqdır. Bundan başqa, iradəni rədd edənlərin bir çox qətllər törədən qatilləri də, Srebrenitsadakı kimi qətlləri də qınamaları mənasızdır. Əgər hər hansı qətliamı bilyard şarlarının toqquşmasına bənzər fiziki hadisələrdən ayıra bilməsək, nəyi qınayacağıq? Materialist-ateistlər doğru düşüncəyə zidd olan bu fikirləri istəyərək mənimsəsələr də (bir çoxu yanaşmalarının bu nəticələri zəruri etdiyini bilmir), iddia etdikləri yanaşmanın məntiqi zərurəti hər gün etdiklərinə inandıqları ən sadə seçimlərini, hətta mənliklərini rədd

edəcəkləri bu fikirlərin sahillərində özlərini tapmaqdır.

Teizmə əsasən iradə Allahın ən mühüm xüsusiyyətlərindəndir. Allah hər zaman mövcud olmuş bu xüsusiyyəti sayəsində kainatı və canlıları yaratmış, (Özündə olan bu xüsusiyyətin daha sadə bənzəri olsa da) Onun insana bu dəyərli xüsusiyyəti verməsində hər hansı gözlənilməz vəziyyət yoxdur. Materialistlər və ateistlər baxımından ehtimal maddənin müxtəlif formada birləşmələrilə ortaya çıxan varlıqların təsəvvürlərindəki maddə anlayışlarıyla buna bənzər xüsusiyyətlər nümayiş etdirməsi olmalıdır. Buna qarşı iradənin mövcudluğu bu ehtimala heç də uyğun deyildir. Lakin teist üçün belə bir problem yoxdur. Bundan başqa, teist Allahın iradəsinin kainatı yaratdığını, yəni, iradənin maddədə müəyyən səbəb təşkil edən təsirini qəbul etdiyinə görə iradənin maddəyə təsir etdiyi nümunəni qəbul etməsi daha asandır. Allah insanda bu qabiliyyəti həm ona maddə xaricində xüsusiyyəti verərək (dualizm), həm də maddəyə xas bu xüsusiyyəti əmələ gətirməklə yarada bilər. Yəni, teist dualizmi iddia etmədən də bunu asanlıqla qəbul edir. (Bu cəhətə qarşımızdakı "şüur və mənlik dəlili" bölməsində toxunulacaqdır.) Maddə müəyyən formaya gəldikdə, ona məxsus olan iradə xüsusiyyətini ortaya çıxaracaq sistemin əmələ gətirilməsi mümkündür. Maddəni Allahın istəklərinə boyun əyən subyekt hesab edən teizm belə qiymətli sürprizlər təqdim edən maddə anlayışını izah etməkdə çətinlik çəkmir.

Bir sözlə, iradə mövcudluğuna daim şahidlik etdiyimiz, insan olmağı mənalı edən ən mühüm xüsusiyyətlərimizdən biridir. Kitabın bu bölməsində əvvəl iradənin mövcudluğuna nə üçün inanacağımızdan bəhs edildi, sonra isə iradə əsası baxımından araşdırıldı və fəlsəfə tarixində

min illərdən bəri bir-birinə zidd fikirlər olan teizmin, yoxsa materialist-ateizmin onun əsasını daha yaxşı açıqladığı araşdırıldı. Buradakı araşdırmaya əsasən, iradənin mövcud olması üçün lazım olan "məqsədəuyğun istiqamət" və "səbəblə təsiretmə" xüsusiyyətlərinin ortaya çıxmasını materialist-ateist fəlsəfənin maddə anlayışından daha uğurlu şəkildə teizmin paradiqmasının izah etdiyi aydınlaşdırıldı. Burada iddia edilən arqumentin mübahisəli maddəsi olan üçüncü maddənin belə doğruluğu üzə çıxdı. Bu mübahisəli maddənin doğruluğunun aydın olması isə bizi arqumentin nəticəsinə, yəni, "teizmin materialist-ateizmdən üstün hesab edilməsinin zəruriliyi" nəticəsinə aparır.

# 12. ŞÜUR VƏ MƏNLİK DƏLİLİ

"Şüur və mənlik" ümumilikdə, hər bir insanın sahib olduğu, bizi biz edən ən əsas amillərdir. Bir çox mütəfəkkirin fikrincə, bu kainatdakı ən maraqlı fakt şüur (consciousness) və mənlik (self) sahibi olmaqdır. Qavrayış, hiss və düşüncə olaraq zehnimizdə hər nə varsa, istər həqiqi, istərsə də xəyali olsun, onların fərqində olmaq şüuru formalaşdırır. Yuxudan qalxıb yatdığımız ana qədər yaşadığımız hər hiss (görmə, eşitmə, ağrı, soyuq, xəyal etmək və s.), həmçinin, yatanda yuxu görmək şüurun vəziyyətləridir. Hər hansı mənliyə aid olmayan şüurun vəziyyətini isə düşünmək olmaz. On il əvvəlki, on gün əvvəlki, on dəqiqə əvvəlki, on saniyə əvvəlki və hazırki şüur vəziyyətlərimiz bunlara sahib "mən"ə (yəni, dəyişən zamana və dəyişən maddi bədənə baxmayaraq, mövcudluğu davam edən mənliyə) aid olduqları təqdirdə müəyyən mənaya malik olurlar. Əslində, "mənliyi" xüsusiyyət kimi xarakterizə etmək də yalnız metafora kimi aydın olmalıdır. "Mənlik" xüsusiyyətlərimizə sahib olan "mən"ə qarşılıqdır. Şüur və mənlik ayrı-ayrı araşdırılsa da, şüursuz mənlik və mənliyə aid olmayan şüur təsəvvür etmək çox çətindir. Burada şüur və mənliyə yalnız bir arqumentin hərəkət nöqtəsi kimi birgə toxunulacaqdır.

Varlığımızın əsası olan və özümüz xaricindəki bütün mövcudluğu da başa düşməyimizə imkan verən bu amillər başda fəlsəfə və dinlər olmaqla, psixologiya, nevrologiya və ritorika elmləri kimi bir çox sahənin mühüm və çətin mövzularıdır. Hər cür təcrübəmizin mövcud olması sayəsində mümkünlüyü bu qədər əsas olan həmin amillərin bu qədər mübahisəli olması həqiqətən maraqlı fenomendir. Əvvəl araşdırdığımız ağıl və iradə kimi əsas xüsusiyyətlərimiz də yalnız şüurlu olduğumuz və müəyyən mənliyimiz olduğu təqdirdə sahib olacağımız xüsusiyyətlərdir. Sırf soyuq qavrayışımızın olduğu və heç mühakimə aparmaqla ixtiyari davranmadığımız vəziyyəti təsəvvür edək. Belə vəziyyətdə ağıl və iradə xüsusiyyətlərimizdən istifadə etməsək də, bu vəziyyətdə soyuğu bilən "şüurlu mən" mövcuddur. Yəni, şüur və mənlik, ağıl və iradəsiz təsəvvür edilsə də, hər mühakimə və iradədən istifadə vəziyyəti "şüur sahibi mən"i zəruri edir. Şüurlu şəkildə başa düşülməyən və hər hansı mənliyə aid olmayan müəyyən mühakimə və iradi fəaliyyət mümkün deyildir. Bu bölmədə toxunulacaq şüur və mənlik 10-cu dəlildə toxunulan ağıl, eləcə də 11-ci dəlildə toxunulan iradə xüsusiyyətlərimizin mühüm şərtləridir. Bu səbəbdən buradakı dəlil, həmin dəlillərin bir hissəsidir. Şüur və mənlik buraya qədər qeyd edilən bütün fitri (fitrət) xüsusiyyətlərimizdən daha əsasdır. Bunlar olmadan şüur və mənliyin mövcudluğu düşünülsə də, bunun əksi mümkün deyildir.

Bu kitabın fitrət dəlilləri bölməsində qeyd edilən digər xüsusiyyətlər kimi, şüur və mənlik də bizim üçün bu qədər əsas olmalarına baxmayaraq, çoxumuz bunlar haqqında düşünməyə qısa da olsa, vaxt ayırmamışıq. Fitri olaraq bunlara sahib olmağımız və hər insanda bu xüsusiyyətlərin

olması həmin xüsusiyyətləri dəyərsiz etmir, əksinə, heç bir əmək sərf etmədən bu kainatdakı möhtəşəm amillər olan şüur və mənliyə sahib olmağımız, təfəkkürə ən çox layiq olan faktlardandır. Bunlar haqqında düşünərkən qarşımıza çıxacaq ən əsas sual bu xüsusiyyətlərə necə sahib olmağımızdır. Burada bu xüsusiyyətlərə necə sahib olduğumuzun izahını ən yaxşı teizmin verdiyini ifadə edən arqument iddia ediləcəkdir. İndi bu arqumenti təqdim edirəm:

1. İnsanların şüur və mənlik xüsusiyyətləri aşağıdakı xüsusiyyətləri əhatə etməklə mövcuddur.
    1.1. Haqqındalıq (aboutness), istiqamətlənmək
    1.2. Subyektivlik və təcrübi xüsusiyyətlər (qualia)
    1.3. Birlik
2. Şüur və mənlik xüsusiyyətlərini anladacaq iki əsas alternativi izah edə bilərik:
    2.1. Materialist-ateistlərin fikrincə, şüur və mənlik təbiət qanunları çərçivəsində təsadüfi proseslərlə yaranmışdır.
    2.2. Teistlərin fikrincə, özü şüur və mənlik sahibi varlıq olan Allahın sayəsində şüur və mənlik yaranmışdır.
3. Teizm şüur və mənliyi materialist-ateizmdən daha yaxşı izah edir:
    3.1. Çünki haqqındalıq, istiqamətlənmə xüsusiyyətini daha yaxşı izah edir.
    3.2. Çünki subyektivliyi və təcrübi xüsusiyyətləri (qualia) daha yaxşı izah edir.
    3.3. Çünki birlik xüsusiyyətini daha yaxşı izah edir.
4. Nəticədə, teizm materialist-ateizmdən üstün tutulmalıdır.

Hər şeydən əvvəl, arqumentin ilk maddəsini araşdıraq.

"Şüurlu mən" olmağımız bir çoxumuz üçün aydın olsa da, bəzi materialist-ateistlər şüur və mənliyin mövcudluğunu rədd etmişlər. Bu yanaşmanı mənimsəyənlər həmin maddəni qəbul etməyəcəklər. Bu baxışa sahib olan materialist-ateistlər maddədəki xüsusiyyətlərdən tamamilə fərqli olan zehnin xüsusiyyətlərinə (iradə, şüur, mənlik kimi) keçməyin mümkün olmaması nəticəsinə gəlmişlər. (Bir çox insan bu məsələni bilməmiş və ya buna qarşı diqqətsiz yanaşmışdır.) Bu məsələni bilən materialist-ateistlər, maddənin xüsusiyyətlərilə təsvir edə bilmədikləri zehnin bəhs edilən xüsusiyyətlərinin hamısını inkar edərək (saf-çürük edərək) qarşılarındakı məsələni həll etmişlər. Bunlar "tənqidçi materialistlər" (eliminative materialists) adlandırılırlar.[116]

Bu vəziyyət hər hansı materialist-ateistin əsaslı olmağa səy göstərdiyi zaman ödəyəcəyi qarşılığın nə qədər yüksək olduğunu göstərir. Diqqət edin, burada insan üçün ən açıq olan sübutların mövcudluğu inkar olunmaqdadır. Şüurlu olmağımız bizim üçün "2+2=4" və "insanların qəlbi vardır" kimi nümunələrdən daha açıqdır. Çünki "şüur" sahibi olmadan bu nümunələrin doğru olduğu iddia edilmir. Əgər bu anda bu kitab "haqqında" düşündüyünüzə (bu, şüurlu fəaliyyətdir) şübhə etmirsinizsə, deməli, tənqidçi materializmin səhv fəlsəfi fikir olmasına da şübhə etmirsiniz.

Materialist-ateist paradiqmadan asılı olan Patrisia və Paul Çöçlənd cütlüyü kimi filosof və elm adamlarının tənqidçi materializmi müdafiə etməyə çalışma səbəbləri

116 "Tənqidçi materializm" haqqında baxın: Ramzey, Uilliam, "Eliminative Materialism", **The Stanford Encyclopedia of Philosophy** (Summer 2013 Edition), Edvard N. Zalta (ed.), https://plato.stanford.edu/archives/sum2013/entries/materialism-eliminative/

materialist paradiqmaya bağlı olmalarını itirmədən, müəyyən ontologiya əmələ gətirmə səyləridir.[117]

Bu paradiqmaya əsasən, kainatda maddənin mexaniki fəaliyyəti çərçivəsində hissəciklərin birləşməsi və dağılması ilə yaranan varlıqlar olsa da, maddədəki xüsusiyyətlərə bənzəməyən şüur və mənliyə yer yoxdur. Halbuki zehni vəziyyətlərimizə daxili şahidliyimiz hər şeydən daha aydındır. Kitab oxuduğumuzu təsəvvür etdiyimiz zaman bir anlıq illüziya gördüyümüzü qəbul etsək də, həmin illüziya da şüurun müəyyən vəziyyətidir, mövcudluğu inkar edilə bilməz (gözardı edilə bilməz), nə etsək də, şüurun mövcudluğunun olmadığını deyə bilmərik. Şüur vəziyyətlərimiz kainatdakı hər şeydən daha əsasdır. Kainatda digər bütün şeyləri "şüurlu mən" olmağımız sayəsində dərk edirik. Şüurlu olduğunu inkar edən bunu yalnız şüurlu mənliyi olduğu təqdirdə edə bilər. (Bu vəziyyət əvvəlki bölmədə iradənin mövcudluğuyla bağlı təqdim edilən arqumentdəki kimidir. Həmin arqumentdəki "iradə" sözünün əvəzinə "şüur" və ya "mənlik" sözlərini yazaraq burada o arqumentin təkrarlandığını fərz edək.) Hər hansı iddia irəli sürdüyümüz zaman başdan "şüurlü mən" olduğumuzu və qarşımızdakıların da "şüurlu bir mənliy"ə sahib olduqlarını qəbul edirik. Yoxsa, ağzımızdan çıxan sözləri və qələmimizin yazdıqlarını şarların toqquşması kimi şüursuz mexaniki hərəkətlər olaraq qəbul etmək məcburiyyətində qalarıq. Şüursuz mexaniki hərəkətləri isə bir iddia kimi təsəvvür etmək mümkün deyildir. Bundan başqa, hər hansı iddianı irəli sürən özünün və qarşısındakının "mənliyi" olduğunu qəbul etməsə, iddianın "hər hansı

117 Nümunə üçün bu araşdırmaya baxmaq olar: Paul Çöçlənd, **Matter and Consciousness,** MIT Press, Kembric, 1999.

şəxsə" aid olub "hər hansı şəxs(lər)ə" qarşı irəli sürüldüyü təsəvvür olunmadıqda isə hər hansı iddia ilə çıxış etmək mənasızlaşır.

Şüur və mənlik olmadan iradə sahibi olmaq mümkün deyildir. Lakin iradəsi olmayan şüur sahibi mənlik haqqında düşünmək mümkündür. Məsələn, yalnız mavi rəngi xəyal edən şüurlu insanın iradi olaraq heç bir fəaliyyət göstərməməsi düşünülsə də, yoldakı tikanla budağı iradi davranışla aradan qaldıran şəxsin şüurunun və müəyyən mənliyinin olmadığını təsəvvür etmək olmaz. Hər iradənin mövcudluğu mütləq şəkildə şüurun və mənliyin mövcudluğunu göstərdiyinə görə əvvəldən (11-ci dəlildə) iradənin mövcudluğunun lehinə irəli sürülən arqumentlə yanaşı, həmin bölmədə epifenomenalizmin səhv fəlsəfi fikir olması ilə bağlı bütün ifadə edilənlər şüur və mənliyin mövcudluğunu rədd edən tənqidçi materializmin səhv olduğuna qarşı dəlillərdir. İradənin (eləcə də şüur və mənliyin) mövcudluğu inkar edildikdə, insanın kainatda şüurlu səbəb olacaq heç bir təsiri qalmayacağına görə təhsil proseslərinin də tarixdəki insan fəaliyyətlərinə əsaslanan fikirlərin, elm adamlarının irəli sürdüyü bütün nəzəriyyə və texnoloji məhsulların mənasızlaşacağını düşünək. Mövcudluğu ən qəti amillər olan şüur və mənliyi rədd etdiyinə və bu rəddetmə özü ilə yanaşı çox böyük ziddiyyətlər yığını gətirdiyinə görə tənqidçi materializmin fəlsəfə tarixində ortaya atılan ən uğursuz yanaşmalardan biri olduğunu asanlıqla deyə bilərəm. Materialist-ateizm adına tutarlı olma narahatlığının ələ aldığı bu nöqtə ibrətamiz vəziyyət kimi qeyd olunmalıdır.

Arqumentin ikinci maddəsinə gəldikdə, fəlsəfə və düşüncə tarixi araşdırıldığı zaman şüurun və mənliyin necə

ortaya çıxdığını izahetmə məsələsində iki əsas alternativ izahatımızın olduğunu başa düşürük. Lakin maddənin və canlıların mövcud olmasını izah etməsilə bağlı əhatəli fikirlər şüur və mənlik kimi amilləri izah edir. Bunların birincisi olan materialist-ateizmə əsasən, əzəli olan maddi kainatdakı təbiət qanunları çərçivəsində hərəkət edən prosesdəki təsadüfi yaranmaların canlıları yaratmasından sonra bu canlıların bir hissəsində təbiət qanunları çərçivəsində hərəkət edən təsadüfi proseslər nəticəsində şüur və mənlik əmələ gəlmişdir. Teizmə əsasən isə kainatı və canlıları yaradan Allah əzəli olaraq şüur və mənlik sahibidir.[118] Allah özündə mövcud olan bu xüsusiyyətləri insana (və digər bəzi varlıqlara) da vermişdir. Bu xüsusiyyətləri üzə çıxaran müəyyən proses olsa da, bu, təsadüfi deyil, Allah tərəfindən şüurla planlaşdırılmış prosesdir. Aqnostik yanaşma nümayiş etdirənlər əsasən bu iki variant xaricində müəyyən alternativ irəli sürmək əvəzinə bu variantlardan hansının doğru olmasının bilinmədiyini ifadə edirlər. Materialist-ateist fəlsəfənin səhv olmasının göstərilməsi bu fəlsəfə ilə yanaşı, həmin fəlsəfəylə teizm arasında seçim etməyin mümkün olmadığını qeyd edən aqnostik yanaşmaya da cavab mahiyyətindədir.

Arqumentin üçüncü maddəsi ən mübahisəli maddədir. Birinci maddəyə tənqidçi materialistlər kimi bəzi materialist-ateistlər etiraz etsələr də, materialist-ateistlərin etirazlarının daha çox yönələcəyi maddə bu olacaqdır. Bu

118 Quranda qeyd edilən Allahın xüsusiyyətlərindən "Hayy" Allahın "şüurlu" olması ifadəsinin (Bax: "Bəqərə" surəsi, 2/255), Quranda qeyd olunan "Allahın nəfsi" xüsusiyyətinin isə Allahın "mənliyi" ifadəsinin Qurandakı qarşılıqlarıdır (Bax: 6 – "Ənam" surəsi, 54). Bundan başqa, Quranda qeyd olunan "vəch" xüsusiyyətinin isə Allahın "mənliyi" olması ifadəsinin qarşılığı olduğu deyilir (Bax: "Qəsəs" surəsi, 28/88).

səbəbdən, həmin maddənin üç variantı aşağıda bir-bir qiymətləndiriləcək, bu zaman şüur və mənliyi izah etmək üçün irəli sürülən mühüm yanaşmalara da qısaca toxunulacaqdır.

**3.1.-in qiymətləndirilməsi:** "Şüur sahibi mən"ə sahib olmağın ən mühüm şərtlərindən biri bir şey "haqqında" düşünmə (aboutness), o şeyə zehni olaraq yönəlmə (intentionality) qabiliyyətinə sahib olmaqdır. Ən biliklisindən ən cahilinə qədər bütün insanlar bu qabiliyyətə malikdirlər. Bu kitabdakı cümlələr "haqqında" düşünməsəydik, zehni olaraq bu kitaba "yönəlməsəydik", kitabı oxumaq prosesini necə reallaşdıra bilərdik? Bir şey "haqqında" onlara "yönələrək" düşünə bilmək sanki şüurla reallaşdırdıqlarımızın (fikir bildirdiklərimizin, iradi fəaliyyətlərimizin, xəyallarımızın) betonu, dəmiri, kirəmiti və saxsısı kimidir. Şübhəsiz ki, bina tikmək üçün bunların mövcud olması kiyafət etmir. Lakin belə xammallar olmadan binanın mövcud olması da mümkün deyildir. Otbiçən maşından istifadə edən insan otlar haqqında düşünsə də, otbiçən maşın otlar haqqında düşünmür. Şahmat ustalarına qalib gələcək tərzdə hazırlanan kompüterin çirkləndiyi zaman tozunu təmizləyən şəxs bu kompüter haqqında düşünsə, yaxud bu kompüter proqramı (Deep Blue) Kasparova qalib gəlsə də, şahmat haqqında düşünmür. Otbiçən maşındakı sistemin otları necə biçdiyi göstərilir, eyni cür, bundan daha çox qarışıq olsa da, kompüterdəki mexaniki prosesin necə reallaşdığı (kompüterin şahmat haqqında düşünmədən Kasparova necə qalib gəldiyi) göstərilir. Zehin xaricində başqa heç bir yerdə hər hansı bir şey haqqında düşünmə xüsusiyyə-

tinə, yəni, obyektini düşünərək ona doğru yönəlmə xüsusiyyətinə rast gəlmirik.

Kompüterdən bəhs edilərkən zehin fəlsəfəsində ön plana çıxmış fikirlərdən biri olan "funksionalizm" (funksionallıq: functionalism) yada düşür. Funksionalizm zehnə onu təşkil edən quruluşun daxili xüsusiyyətlərilə deyil, funksiyaları baxımından, yəni, daxilində olduğu sistemdə oynadığı rol və müəyyən səbəb təşkil edən əlaqələri baxımından yanaşır. Funksionalist yanaşmaların bir hissəsilə zehin kompüterə bənzədilib süni zəka araşdırmalarında hazırlanan kompüterlərin şüurun xüsusiyyətlərini reallaşdıracağı iddia edilmişdir. Kompüterlərin bir çox insan davranışını təqlid etdiyi, hətta bəzi mövzularda insanlardan daha bacarıqlı olduqları hamıya aydındır. Lakin bu vəziyyət kompüterlərin şüur və mənlik sahibi olduğunu göstərmir.

Bunu göstərməkdə Con Sörlün "Çin otağı" adlı düşüncə məhsulu məşhurdur. Sörl öz nümunəsinə Çin dilində bilməyən və bir otağa salınan şəxsi təsəvvür etməklə başlayır. Bu otaqda həmin şəxsin məktubla gələn Çin dilində olan yazıları otaqdakı kitabın təlimatlarına uyğun olaraq Çin dilində yazılarla tənqid etməsi, kitabda tənqid edilən Çin dilində yazıları isə məktubla geri göndərməsi tələb edilir. Otağa gələn Çin dilində yazılar suallardan ibarətdir. Kitabda sualların cavabları vardır və bunlarla bağlı eyniləşdirmədə cavabları tapılıb geri qaytarılsa da, bunu edən şəxs Çin dilində bilmir. Kənardan izləyən və təlimatlara əsasən hərəkət edilməsindən xəbərsiz olanlar həmin şəxsin Çin dilində bilib suallara cavab verdiyini güman edəcəklər. Yəni, kənardan baxan şəxs içəridə olan şəxsin Çin dilində bilən bir şəxslə eyni "funksiyaları" həyata ke-

çirdiyini, yəni, eyni tərzdə suallara cavab verdiyini görür. Lakin eyni cavablar verilsə də, Çin dilində bilib-bilməmək mühüm fərqdir (şüurlu olub-olmamaq mühüm fərq olduğu kimi), funksionalizm bu nəhəng fərqi görmür. Kompüterlərin işləməsi də buna bənzəyir. Kompüterlər şüurunda olmadan rəmzlərdən onlara verilən proqrama əsasən istifadə edir.[119] Kompüter insanla tamamilə eyni funksiyanı həyata keçirdikdə də bu davranışa səbəb olan mexanizm arasında mahiyyət fərqi olur. Məsələn, kompüter bir şey "haqqında" düşünmür, ona "yönəlmir" və bu səbəblərə görə süni zəkanın insan şüuru və mənliyini reallaşdırması qeyri-mümkündür. Uilliam Haskerin dediyi kimi, kompüterlər onların istehsalçısı və istifadəçisinin mühakiməsinin genişlənməsindən ibarətdir. Evimizdəki televizorlar xəbərlərin və əyləncənin şüurlu mənbəyi kimi qəbul edilməyəcəksə, kompüterlər də şüurlu şəkildə düşünən mənbə kimi qəbul edilə bilməz.[120]

Zehin fəlsəfəsindəki fikirlər araşdırılarkən dövrümüzün məşhur materialist-ateistlərinin əksəriyyətinin şüur və mənliyi təsvir etmədə rəğbət bəsləmədikləri, lakin bir zamanlar kifayət qədər nüfuzu olmuş bir yanaşma – "davranışçılıq" (behaviorism – psixologiyanın araşdırma mövzusunun davranış olduğuna inanan, şüurun psixologiyanın araşdırma sahəsinə daxil olduğunu inkar edən fikir) yanaşması haqqında da bəzi şeyləri demək lazımdır.[121]

119 Con R. Sörl, **Minds, Brains and Science,** Harvard University Press, Massaçusets, 1985; Con R. Sörl. "Zehnin yenidən kəşfi". Tərc: Muhittin Macit, Litera nəşriyyatı, İstanbul, 2004.

120 Uilliam Hasker, **Metaphysics**, İnter Varsity Press, Downers Grove, 1983, s. 49.

121 "Davranışçılıq" haqqında məlumat əldə etmək üçün bu yanaşmanın mühüm adlarından olan Skinnerin aşağıdakı kitabına baxa bilərsiniz: B.F.Skinner, **About Behaviorism**, Vintage Books Edition, Nyu York, 1976.

Davranışçı subyektiv olana əhəmiyyət vermir, yalnız "şüurun kənarda görünən əkslərini" qiymətləndirir. Məsələn, gülən və kitab oxuyan insan kimi kənardan görünənlər xaricində zehnin daxilində subyektiv olaraq hiss edilən xoşbəxtlik və istək kimi hisslər, həmçinin, zehnin kitab "haqqında" düşünüb ona "yönəlməsi" kimi daxilən şahidi olduğumuz faktlar bu yanaşma tərəfindən nəzərə alınmır. Burada şüurun məhdudlaşdırılmasından bəhs edilir. Lakin buradakı məhdudlaşdırma beyindəki neyron fəaliyyətləri və ya zehnin funksiyaları ilə deyil, bədənin kənarda əks olunan davranışları ilə bağlıdır. Halbuki ağrı çəkmədən yalandan qışqırırıq və ya bir şeyi bəyənmədən bəyəndiyimizi ifadə edirik.[122]

Davranışçı metodologiya ağrı çəkənlə ağrı çəkməni təqlid edən şəxs arasındakı fərqin qoyulmasını da qeyri-mümkün edir. Hətta bu da davranışçı yanaşma ilə zehnin xüsusiyyətlərinin qiymətləndirilməsinin mümkün olmadığını başa düşmək üçün kifayət edir.

Davranışçılıq şüurun "yaxınlıq, yönəlmə" və "subyektivlik" kimi xüsusiyyətlərini nəzərə almadığına görə şüurun vəziyyətlərini verdiyimiz nümunələrdəki kimi səhv isbat etməklə yanaşı, ən qəbuledilməzi şüurlu olanla şüursuz olanın ayırd edilməməsinə səbəb olur. İnsan formasındakı robota müxtəlif səslər yüklədiyimizi, həmin robotun dabanına əllə toxunduqda qıdıqlanan insan kimi səs çıxardığını, həmçinin, əl toxunuşlarına yüksək səslə bağıran insan kimi reaksiyalar verdiyini təsəvvür edək. Davranışçı məktəbə mənsub olan şəxs belə hərəkət edən robotla şüurunda qıdıqlanma və acı "haqqında" hisslərə sahib olması nəticə-

122 İan Barbur, **Issues in Science and Religion**, Harper And Row Publishers, Nyu York, 1971, s. 353-354

sində insanın verdiyi reaksiyaları ayırd edə bilməyəcəkdir. Bu nümunə robotla insanın tamamilə uyğun davranışlar nümayiş etdirə bildiyini, lakin bu uyğun davranışların biri şüurlu, digəri isə şüursuz iki fərqli əsası olduğunu, davranışçı məktəbin bu mühüm fərqi ayırd etmədiyini göstərir. Bütün bunlar insanın dərketməsində davranışçı yanaşmanın uğursuz olduğunu göstərir.

Müasir fizikanın bizə təqdim etdiyi maddə anlayışına diqqətləri yönəldərək bir qədər düşünək. Əsas hissəciklər kimi, atomu təşkil edən kuarklar və elektronlar vardır. Kuarkların birləşməsilə protonlar və neytronlar əmələ gəlir. Protonların elektrik yüklərinə görə bir-birilərini itələmə kimi xüsusiyyətləri vardır. Bunun əksinə, güclü nüvə qüvvəsi bunları birgə saxlayır, bunların müxtəlif nisbətlərdə birləşməsilə kimyadakı elementlər cədvəli qarşımıza çıxır, bunların müəyyən şəkildə birləşməsilə dənizlər, stullar və kompüter kimi quruluşlar, üzvi maddə kimi birləşmələrilə DNT və protein kimi quruluşlar əmələ gəlir. Nəticədə əsas hissəciklər və əsas qüvvələr çərçivəsində kainatdakı müxtəlif hallar baş verir. Bütün bunlar mexaniki qanunlar çərçivəsində reallaşarkən, qeyd edilən bu mənzərə daxilində “yaxınlıq” xüsusiyyətinə bənzər ən kiçik amil olmadığı kimi, bunlar nə qədər kompleks birləşmələr yaratsa da, “yaxınlığa” bənzər xüsusiyyətin bu quruluşdakı xammaldan çıxmasını gözləmək olmaz.

Materialist-ateist anlayışın maddəsinin ağılsız, iradəsiz, şüursuz olmasının əksinə, teizmin kainatın yaradanı kimi qəbul etdiyi Allah ağıl sahibi, iradəli, şüurlu qüvvə olub öz yaratdıqları “haqqında” düşünür, məqsədlərinə əsasən istəklərini reallaşdırır. Teizmin paradiqmasında bəhs edilən xüsusiyyətlər kainatdan əvvəl mövcud oldu-

ğuna və kainatın mövcudluğu bunlarla mümkün olduğuna görə bu xüsusiyyətlərə sahib olan Allahın belə xüsusiyyətləri (özündə olandan dərəcə baxımından çox aşağı şəkildə olsa da, yaratdıqlarına verməsini başa düşməkdə çətinlik yoxdur. Nəticədə şüuru (bundan başqa, ağlı və iradəni) mümkün edən "yaxınlıq, yönəlmə" xüsusiyyətinin necə mövcud olduğunu materialist-ateizm açıqlaya bilməsə də, teizm bu xüsusiyyətin necə əmələ gəldiyinin aydın olmasına imkan verən varlıq anlayışı (ontologiya) təqdim edir.

**3.2-nin qiymətləndirilməsi:** "Subyektivlik" şüur vəziyyətlərinin digər mühüm xüsusiyyətidir. "Subyektivlik" şüurluluq vəziyyətinin "mən"ə aid olması və "mən"in şüur vəziyyətlərinə özünəməxsus yolunun olmasıdır. "Təcrübi xüsusiyyətlər" (qualia) isə mənliyin təcrübədən çıxardığı subyektiv şüur təcrübələridir. Şüurlu şəxslər (insan və ya başqa varlıqlar) xaricində kainatdakı heç bir maddi varlıqda "subyektivlik" və "təcrübi xüsusiyyətlər"i təcrübədən keçirmə xüsusiyyəti yoxdur. Kitabı oxuyan şüurlu şəxs onu "subyektiv" dünyasında qavrayır və kitabın "subyektiv" dünyada qavranılan görüntüsündən yaratdığı həyəcan hissinə qədər bu qavrayışlarla hisslər "təcrübi xüsusiyyətlər"dir. Şüuru olmayan maddi dünyadakı varlıqlardan (atomlar, ulduzlar, kompüterlər, çəkiclər, kitablar) şüurlu olanı ayıran ən mühüm fərqlərdən biri şüurda "subyektivlik" xüsusiyyətinin olması, yəni, birinci şəxs olan "mən" kimi şüur vəziyyətlərimizə daxilə baxışla (introspection) xüsusi şahidliyimizin olması, şüur vəziyyətlərimizdə "təcrübi xüsusiyyətləri" qavramağımızdır. Halbuki atomların, ulduzların, kompüterlərin və kitabların daxilində öz subyektivliklərinə şahidlik edən "mən" olduğunu düşün-

dürəcək heç bir səbəb yoxdur. Bu səbəbdən, atomu parçalayanın və ya kompüteri tullantılar arasına atanın "mən" təcrübəsi olan "mənliyi" yox etdiyini düşünmürük.

Görəsən materialist-ateistlər mövcud kəşfləri və dəyərləndirmələri bilməsəydilər, şüuru və mənliyi izah etmədə mövcud olan fəlsəfi yanaşmalardan hansının öz yanaşmalarına ən uyğun olduğunu fikirləşərdilər? Bunun reduktiv materializm olduğunu asanlıqla deyə bilərəm.[123]

Bu fikir "eynilik nəzəriyyəsi" (identity theory) kimi də tanınır. Buna əsasən, subyektiv şüur vəziyyətləri beyindəki müəyyən vəziyyətlərlə, o vəziyyətlər isə sonda atomun əsasını təşkil edən hissəciklərlə məhdudlaşdırılır. Şüur və mənlik də yalnız buna bənzəyir. Belə olduğu halda, hər hansı materialist-ateist maddəni və maddənin birləşmələrilə ortaya çıxan şüursuz varlıqların necə mövcud olduğunu izah etsəydi, (kainatla bağlı ilk 7 dəlildə irəli sürülənləri inkar etsəydi), maddədəki xüsusiyyətlərdən çox fərqli görünən ağıl, iradə, şüur və mənlik xüsusiyyətlərinin izah edilməsi onun üçün əlavə çətinlik yaratmayacaqdı. Lakin şüur və mənliklə bağlı digər xüsusiyyətlərlə yanaşı, nə "subyektivliyimiz" nə də "təcrübi xüsusiyyətlər" hər hansı beyin vəziyyətinə, sonra isə atomu təşkil edən hissəciklərə bağlanmaqla təsvir edilə bilməz.

Müasir elmə əsasən, beynin anatomiyası və fiziologiyası araşdırıldığı zaman danışdıqda sol hissənin, qərar qəbul etdikdə isə ön frontal hissənin istifadə edildiyi, neyron hüceyrələrinin nəyə bənzədiyi, bu hüceyrələrin daxili kimyəvi quruluşlarının nələr olduğu kimi bir çox mühüm

123 Bu mövzu ilə bağlı baxa bilərsiniz: Jeqvon Kim, Mind in A Physical World: An **Essay on The Mind-Body Problem and Mental Causation**, MIT Press, Cambridge MA, 1998.

məlumatı öyrənirik. Lakin bunların hamısı "subyektivlik və təcrübi xüsusiyyətlər"dən əsaslı şəkildə fərqlənir. Zövq alaraq üzdüyümüzü təsəvvür edək. Beyinin daxilindəki bir quruluşu göstərib, ifraz edilən hormonu isbat edərək məyus olarkən zövq alındığını başa düşsək də, bununla bağlı neyronlara və ya hormonlara baxmaq "birinci şəxs kimi mənim üzmədən aldığım zövqdən" tamamilə fərqlidir. Zövq almağın bu neyronlar və bu hormonlarla reallaşması da bunu dəyişdirmir.

Adını "Enisin eynəkləri" qoyduğum düşüncə sınağı ilə bu vəziyyətdən danışmağa çalışacağam. Dünyaya gələndən etibarən Enisin və ətrafında tanıdığı hər insanın çıxarılmayacaq formada planlaşdırılmış eynəklər taxdığını təsəvvür edək. Bu təcrübədə Enisin eynəkləri çıxmadan eynəklərinin şüşələri dəyişir, bundan başqa, Enis gözlərinin və beyninin mövcudluğunu da bilmir. Lakin eynəyin quruluşunu və üzərindəki dəyişiklikləri bütün incəliklərilə çox yaxşı bilir. Taxdığı eynəyin şüşə nömrəsi və şüşələrin rəngi daim dəyişdirilərkən dünyadakı obyektlərin həm formasını, həm də rəngini necə qəbul etməsi birəbir, yəni, bu dəyişikliklərə uyğun şəkildə dəyişir. Eynəyə salınan şüşənin dəyişməsilə obyektlər böyüyür, bulanıq olur, çəhrayı olur, yaşıla çalır, şüşənin bağlanması ilə obyektlər görünməz olur. Enisin görməsinin eynəkdəki dəyişikliklərə görə olduğu kimi, dəyişməsi görməyə imkan verənin bu eynək olduğunu, görmənin eynəkdəki quruluş və dəyişikliklərlə məhdudlaşdırılacağını güman etməsinə səbəb olmalıdır? Enis bu vəziyyətdəki mövcud məlumatları qiymətləndirərək, eynəyin quruluşunu araşdırıb öz "subyektiv" görmə təcrübələri olan "təcrübi xüsusiyyətlər"lə bağlı diqqətli şəkildə düşünərək, şüşə dəyişikliklərilə qav-

rayışımız arasında çox bənzərlik olsa da (eynilik nəzəriyyəsinin tələbinə bənzər), eynəyin görməsinin (görmənin eynəklə məhdudlaşdırılacağını) iddia edilməyəcəyini başa düşür. Çünki şüşənin quruluşunu və üstündəki dəyişiklikləri araşdırdıqdan sonra daxilə baxışla birinci şəxs kimi şahidlik etdiyi subyektiv görmə qavrayışını araşdırıb bunları müqayisə etsə, aradakı böyük fərqi görür. Hazırda "subyektivlik və təcrübi xüsusiyyətlər"in beyindəki kimyəvi maddələr və neyronların fəaliyyətlərilə məhdudlaşdırılıb aydın olacağını düşünənlər təqdim edilən düşüncə təcrübəsində Enisin yerində olsaydılar, görmələrinin eynəklə məhdudlaşdırılıb aydın olacağını iddia edərdilər. Beyindəki kimyəvi maddələr və neyronlar "subyektivliyimizə və təcrübi xüsusiyyətlərə" deyil, eynəyə bənzəyir: subyektivliyimizlə zehin vəziyyətlərimizi öyrənməyimizə bənzər xüsusiyyət eynəkdə olduğu kimi, beyindəki kimyəvi maddələrlə neyronlarda da müşahidə edilmir. Həm eynək, həm də beyindəki kimyəvi maddələr və neyronlar mexanik proseslərin hissələridir. Eynək kimi, beyindəki kimyəvi maddələrlə neyronlar da atomların itələmə və cəzbetmə hərəkətlərindən ibarət olub belə hərəkətləri daha qarışıq şəkildə reallaşdırırlar.

Təcrübi xüsusiyyətlərin fizikanın tərif etdiyi maddə ilə məhdudlaşdırılmayacağını göstərmək üçünsə adını "Məliha və əncir" qoyduğum düşüncə təcrübəsindən bəhs etmək istəyirəm. Təsəvvür edək ki, Məliha qidalar sahəsində, eləcə də qidaların orqanizmə ağızdan daxil olduqdan sonra reallaşan (beyindəkilər də daxil olmaqla) proseslər sahəsində dünyanın ən görkəmli mütəxəssisidir. Buna əsasən, Məliha atomun əsasını təşkil edən səviyyədən molekullarına qədər əncirin quruluşuyla bağlı bütün təfsilatları,

həmçinin, əncir yeyildikdən sonra beyində və bədəndə reallaşan bütün prosesləri çox yaxşı bilir. Bir gün Məlihanın fiziki, kimyəvi və bioloji quruluşunu çox yaxşı bildiyi ənciri həyatında ilk dəfə yediyini təsəvvür edək. Görəsən Məliha ənciri yedikdə yeni nə isə öyrənir? Məliha əncirin özü və orqanizmdə keçdiyi bütün mərhələlər haqqında hər şeyi bilsə də, ənciri yediyi zaman onun "subyektiv" təcrübəsində qoyduğu dadı, yəni, bir "təcrübi xüsusiyyəti" öyrənmiş olacaq. Əgər subyektiv təcrübəmizdə qavradıqlarımız maddi proseslərlə məhdudlaşdırılıb tamamilə aydın olsaydı, yəni maddi proseslərlə bağlı hər şey bilindiyi zaman artıq bilinəcək heç nə qalmasaydı, Məliha yeni bir şey öyrənməməliydi. Lakin Məliha burada əncirin dadını öyrənərək yeni məlumat əldə etdiyinə görə "subyektivliyimizi və təcrübi xüsusiyyətləri" izah etmədə məhdudlaşdırıcı nəzəriyyələrin uğursuz olduğu aydın olur.[124]

Fiziki proseslərlə bağlı obyektiv izahatlar şüurun subyektivliyini əhatə etmir, kənarda qoyur. Yəni, şüurun subyektivliyindəki təcrübələrin maddi proseslərlə məhdudlaşdırılması mümkün deyildir. Nəticədə məhdudlaşdırıcı materializm, məhdudlaşdırıcı fizikalizm və eynilik nəzəriyyəsi adlanan fəlsəfi fikirlər səhvdir.

Aydın olduğu kimi, maddənin quruluşundakı heç bir şey "subyektivliyə və təcrübi xüsusiyyətlərə" bənzər deyildir. Materialist-ateist ontologiya baxımından maddə mövcud olan yeganə subyekt olduğuna görə maddədə olmayan bu xüsusiyyətin necə ortaya çıxdığını izah etmədə böyük problem vardır. Lakin teizmə əsasən, Allah şüurludur və

124 Bu düşüncə təcrübəsinin zehin fəlsəfəsi ədəbiyyatındakı hər hansı bənzəri olan "Merinin otağı" haqqındakı maqalə: Frank Cekson, "Epiphenomenal Qualia", **Philosophical Quarterly**, No: 32, 1982, s. 127–136.

Onun öz subyektiv nöqteyi-nəzərindən bütün hadisələrə müəyyən baxışı vardır, heç bir mövcudluğun olmadığı vəziyyətdə də Allah öz mövcudluğunu subyektiv olaraq bilir, yəni, Allahın şüuru da "subyektivlik" xüsusiyyətinə malikdir. Subyektivliyə sahib olan Allah materialist-ateist anlayışın subyektivliyə və ona bənzər hər hansı xüsusiyyətə sahib olmayan maddəsinin verməyəcəyi subyektivlik xüsusiyyətini, şüurlu olmasını dilədiyi varlıqlara verir. Teizmdə "subyektivlik" əzəli xüsusiyyətdir və əzəldən mövcud olan bu xüsusiyyətin Sahibinin bu xüsusiyyəti yaratdıqlarından şüurlu olmasını dilədiklərinə verməsi həmin xüsusiyyətin necə ortaya çıxmasının aydınlaşmasına imkan verir.

**3.3-ün qiymətləndirilməsi:** "Şüurlu mənliyin" digər mühüm xüsusiyyətlərindən biri bütün fərqli qavrayışlarının, hisslərinin, düşüncələrinin "bütövlük" içində fərqində olmasıdır. "Bir olan mənlik" kitabın sözlərini görür, kitabın kağızının bərk olmasını hiss edir, kitab oxuyarkən fondakı müsiqini eşidir, kitabdan həyəcan hiss edir və kitab haqqında düşünür. Əvvəl kitabın bərkliyinin, sonra musiqinin, sonra həyəcan hissinin fərqində olunmur. Bunların hamısı birlikdə, bütövcəsinə fərq edilir. Orqanizmin müxtəlif bölgələrindən siqnallar gəlsə və beyinin müxtəlif bölgələri müxtəlif siqnal və hisslərlə bağlı olsa da, bunların hamısı bütöv şəkildə yalnız bir mənliyin subyektivliyində birgə şəkildə qəbul edilir. Bu birliyin müəyyən zamanda (eyni zaman: synchronic) bir olmasıyla yanaşı, zamanın axını daxilində (diaxron: diachronic) qorunacaq şəkildə birgə olması da çox mühümdür. Zehin fəlsəfəsində bu mövzu "şüurun birliyi" (the unity of consciousness) və

"bağlanma problemi" (the minding problem) kimi başlıqlarla qeyd edilir. Dekartdan, Lokdan, Leybnitsdən Kanta qədər müasir dövrün bir çox məşhur filosofu "şüurun birliyi" ilə maraqlanmışlar.[125]

Toxunma, görmə və eşitmə kimi qavrayışları necə dərk etməyimizlə bağlı proses haqqında düşünək. Kitabın üz qabığına əllə toxunduqda əllərimizdəki sinirlər vasitəsilə beyinə çatdırılan siqnallarla bərkliyi hiss edirik. Kitabın görüntüsü işıq vasitəsilə gözümüzdə yarandıqdan sonra buradan beynimizə gedən sinirlərin göndərdiyi siqnallarla kitabı görür, qulaqlarımızdan beynimizə gedən sinirlərin göndərdiyi siqnallar vasitəsilə fondakı müsiqini eşidirik. Bu proseslər hələ onların birgə baş verdiyini anlamamışdan öncə reallaşır. Bütün bu qavrayışlarımızda beyindəki neyronlar çox mühüm rola malikdir. Beynimizdə təxminən yüz milyard neyron vardır. Tək halda heç bir neyron şüurun subyektivlik və birlik kimi xüsusiyyətlərinə qarşılıq olmasa da, bəzilərinin fikrincə, neyronların ortaq hərəkətindən şüurun subyektivlik və birlik kimi xüsusiyyətləri yaranır. Beyinə nəzər yetirdikdə, bir sistemin içində funksiyalarını yerinə yetirən neyronlar olsalar da, bunların ortaq hərəkətindən "subyektivliyi birlik içində qavrayan şüurun" necə ortaya çıxdığını təsvir etmək mümkün görünmür.

Bir çox neyronun ortaq fəaliyyətindən "subyektiv və birgə şüurun" çıxmasıyla bağlı sualı başa düşmək üçün zehin fəlsəfəsindəki məşhur düşüncə sınaqlarından biri olan Çin xalqı arqumentindən istifadə edirik. Çində yaşayan hər bir şəxsin beyindəki bir neyronun vəzifəsini təqlid edəcək şəkildə telefon kabellələrilə bir-birilərinə bağlan-

125 Nümunə olaraq Kantın aşağıdakı kitabına baxa bilərsiniz: İmmanuel Kant, **The Critique of Pure Reason**, s. 48-52.

dıqlarını, sonra onlara verilən vəzifə çərçivəsində neyronları təmsil edən digər şəxsləri axtararaq bir-birilərilə əlaqə saxladıqlarını fərz edək.[126]

Məsələn, qurulan bu nizamla Çin xalqının fərdləri həyəcan hissini təqlid etsin. Bunun üçün beyində həyəcan hiss edildikdə hansı neyronlar arasında əlaqə necə olsa, həmin neyronları təqlid edən hər bir şəxs həyəcan hiss etdikdə yaranan qarşılıqlı təsirə bənzər formada bir-birilərilə kabellərlə əlaqə yaratsınlar. Eyni şəkildə, kitab oxuyarkən beyində əmələ gəldiyini düşündüyümüz bütün prosesləri də təqlid etdiklərini fərz edək. Bu vəziyyətdə Çin xalqındakı hər hansı şəxsdən ayrı olaraq "Çinin şüuru" adlı quruluşun yaranıb Çin xalqının heç bir fərdinin hiss etmədikləri həyəcan hissi və kitabla bağlı digər hissləri "Çinin şüurunun öz subyektivliyində birlik şəklində" hiss etdiyini düşünə bilərikmi? Belə bir iddia hamımıza çox mənasız görünsə də, beyindəki neyronların ortaq fəaliyyətilə "subyektiv və birgə xəbərdar olan şüurun" çıxması iddiası bu düşüncə təcrübəsində "Çinin şüuru"nun ortaya çıxdığı iddiasına bənzəyir. Birgə şəkildə subyektiv dünyada qavrama neyronların bir sistemin hissələri kimi birgə fəaliyyətlərindən əsaslı şəkildə fərqlənir.

Fizikanın bəhs etdiyi dünyada maddənin əsasını təşkil edən elektron və protonlar kimi hissəciklər atomun içində itələmə və cəlbetmə xüsusiyyətilə öz quruluşlarına uyğun olaraq hərəkətləri yerinə yetirirlər.

Kimyanın bəhs etdiyi dünyada atomların digər atomlarla birləşmələr əmələ gətirmələrinə bənzər davranışları da müəyyən hərəkət növüdür.

126 Ned Blok, "Troubles with Functionalism", **Minnesota Studies in The Philosophy of Science,** No: 9, 1978, s. 261–325.

Biologiyanın bəhs etdiyi dünyada bəzi proteinlərin ferment əmələgətirmə funksiyası daşıyıb molekulları birləşdirməsi və ya DNT-nin ikiləşməsi kimi bütün hallar da, xaotiklik dərəcələri artsa da və bu quruluşlar öz alt sistemlərinin (atomlar kimi) hərəkətlərini əhatə etsə də, özlüyündə hərəkətdən başqa bir şey deyildir.

Nevrologiyanın bəhs etdiyi neyronlarla sinir qovşaqlarının, elektrik siqnalları və kimyəvi maddələrlə əlaqəyaratma funksiyalarının hamısı özündə biologiyanın digər sahəsindəki hərəkətlər kimi hərəkət növləridir. Lakin "şüurla qavrama" əsası hərəkət olan digər davranış növlərindən mahiyyət etibarilə fərqlidir. Kvant nəzəriyyəsinin maraqlı fenomenlərindən biri olan dövretmə atom səviyyəsində gözlənilməz birliyi ortaya çıxarsa da, DNT-nin nukleotidləri içində yerləşdikləri DNT-nin bir hissəsi kimi müəyyən quruluşun üzvü olsalar da, "şüurdakı birlik xüsusiyyəti" belə birlik və birgə hərəkətetmədən əsaslı şəkildə fərqlənir. Digərlərində əsası hərəkətetmə olan, passiv, bir-birindən ayrı hissələrin birgə olması ilə yaranan birlik vardır. Şüurun özündə isə məlumatalma xüsusiyyəti, subyektiv qavrama və hissələrə ayrılmayan birlik vardır. Materialist-ateizmin maddə anlayışı şüurun və mənliyin əvvəlki xüsusiyyətləri kimi birlik xüsusiyyətinin necə ortaya çıxdığını izah etməyə imkan vermir. Lakin şüuru və mənliyi Allahın əzəli xüsusiyyətlərindən hesab edən teizm baxımından bu xüsusiyyətin necə yarandığını izah etmədə heç bir çətinlik yoxdur.

Maddənin bilinən xüsusiyyətlərilə zehnin ağıl, iradə, şüur və mənlik kimi xüsusiyyətlərinin izah edilməyəcəyi aydın olur. Hər hansı məhdudiyyətin mümkün olmadığı bu vəziyyətdə mümkün olan alternativlərdən birincisinə

əsasən, ağlın, iradənin və şüurun bəhs edilən xüsusiyyətlərinin maddədən tamamilə fərqli subyektlə əlaqəli olduğu bildirilir. Bu "subyekt dualizmi" kimi tanınan təfəkkürdür. Materialist-ateist fəlsəfə maddədən kənar subyektin mövcudluğunu əsla qəbul etmədiyinə görə bu fikir materialist-ateist fəlsəfənin səhv olduğunu göstərir.

Mümkün olan alternativlərdən ikincisinə əsasən ağlın bəhs edilən xüsusiyyətləri maddə ilə məhdudlaşdırılmasa da, maddi quruluş müəyyən formaya gəldikdə, həmin xüsusiyyətlərin "ortaya çıxdığı" (zühur etdiyi) (emergence) deyilir. "Ortaya çıxma" fikrinin də materialist-ateizmdən daha çox teizmə uyğun olduğunu deyə bilərəm.

"Zühur etmə"yə görə, tam hissələrinin cəmindən daha çoxudur. Maddənin müəyyən formaya gəlməsilə ortaya çıxan xüsusiyyətlər həmin formanı təşkil edən hissələrə baxılaraq aydın olmur.[127] Bu yanaşmada maddə xaricində hər hansı subyekt olmasa da, maddənin elə bir quruluşu vardır ki, maddə müəyyən formaya gəldikdə, onun hissəciklərinə və bu hissəciklərin qarşılıqlı təsirlərinə baxaraq əmələ gəlməsi izah edilməyən tamamilə yeni xüsusiyyətlər ortaya çıxır.[128] Cisimlərin bərkliyi kimi xüsusiyyətləri (bəzilərinin zühuretmə üçün göstərdiyi nümunədir) atomların bir-birilərilə qarşılıqlı təsirləri ilə məhdudlaşdırılaraq aydın olur. Lakin şüurun bilmə, subyektivlik və birlik kimi xüsusiyyətləri "zühur etmə" ilə izah edildikdə, bunların beyindəki neyronla kimyəvi maddələrə və bunların arasında qarşılıqlı təsirlərə əsaslandırılaraq (əvvəlki səhifələrdə

127 Yan Barbur, **Issues in Science and Religion**, s. 326.

128 Zehnin xüsusiyyətlərini "zühur etmə" ilə izah edənlərə nümunə kimi baxın: Filip Kleyton, "NeuroScience, The Person and God: An Emergentist Account", Red: Robert Con Rassell və digərləri, **Neuroscience and The Person**, Vatican Observatory Publications, Vatikan, 2002, s. 181-214.

göstərildiyi kimi) aydın olmaları mümkün deyildir. Bu formada zühur etmə dualizmlə eyni tərzdə maddi hissəciklərə və onların qarşılıqlı təsirlərinə baxaraq şüurun dərketmə, subyektivlik və birlik kimi xüsusiyyətlərinin aydın olmayacağını ifadə edən fikirdir. Bu səbəbdən, dualizmlə zühuretmədən hansına üstünlük veriləcəyini qəti olaraq ifadə etmək mümkün deyildir. Fundamental materialist-ateist baxışa görə (bu fikirdə olan bəzi mütəfəkkirlərin ifadə etdiyi kimi), "subyekt dualizmi" (maddə və bəhs edilən amillərilə zehnin (ruhun) iki ayrı subyekt olması fikri) qəbuledilməz olduğu kimi, "xassə dualizmi" (maddə və bəhs edilən amillərilə zehnin (ruhun) fərqli iki xüsusiyyət növü olması fikri) də eyni şəkildə qəbuledilməzdir. "Zühur etmə" fikri isə "xassə dualizmi"ni (property dualism) qəbul etmək mənasına gəlir.[129] "Zühur etmə"ni qəbul etmək (bəzi materialistlər xüsusən dualizmdən çəkinmək üçün bu fikri iddia etsələr də) materialist-ateist yanaşmalar baxımından ideal izahat olan eynilik nəzəriyyəsi kimi yanaşmaların uğursuzluğunu qəbul etmək və subyekt dualizmi olmasa da, xüsusiyyət dualizmini müdafiə etmək deməkdir.

Bu cəhəti vurğulamaqda fayda görürəm. Teizm baxımından ağıl, iradə, şüur və mənlik xüsusiyyətlərinin ortaya çıxmasının maddədən ayrı subyekt olan "zehin/ruh yaradılaraq əmələ gəldiyini iddia etmək məcburiyyəti yoxdur. Maddə xaricində hər hansı subyektə müraciət etmədən, yəni, yalnız maddə ilə bu xüsusiyyətləri izah eləməkdə "zühur etmə" də qəbuledilən yanaşmadır. Maddə müəyyən şəkildə bir forma aldıqda, bu xüsusiyyətlərin ortaya

129 Frank Jekson, **From Metaphysics to Ethics: A Defence of Conceptual Analysis**, Klarendon Press, Oksford, 1998.

çıxacağı şəkildə yaradıldığı və maddə lazım olan forma aldıqda maddənin "zehinləndirildiyi /ruhlandırıldığı" da iddia edilir. Dualizmə əsasən, maddənin başqa varlıq növüylə qarşılaşdırılması ilə zehnin/ruhun bu xüsusiyyətləri əmələ gətirildiyi halda, "zühur etmə"yə əsasən, maddənin daxilinə verilən xüsusiyyətlər sayəsində zehnin/ruhun bu xüsusiyyətləri yaranmışdır. Belə ki, həm yəhudi, həm xristian, həm müsəlman teoloq və filosoflar arasında hər iki "zehin/ruh" anlayışını iddia edənlər və insanların bədənlərilə axirətdə yenidən yaradılacaqlarıyla bağlı monoteist dinlərin fikirlərinə uyğun olaraq hər iki "zehin/ruh" anlayışının uyğun olduğunu ifadə edənlər olmuşdur.[130]

Materialist-ateizm baxımından subyekt dualizmi qətiyyən qəbul edilməyən fikirdir. Digər tərəfdən, "zühur etmə" də materialist-ateizm baxımından gözlənilməyən vəziyyət olmasının əksinə, Hovard fon Tillin vurğuladığı "zühur etmə" anlayışı teizmlə çox uğurlu şəkildə izah edilir.[131] Bu tərzdə əmələ gələn xüsusiyyətin ortaya çıxması teizmin tövsiyə etdiyi kimi, müəyyən məqsədlərə əsasən yaradılmış maddə anlayışı baxımından gözləniləndir. Çünki maddəyə xüsusiyyətlərini verən ağıllı, iradəli, şüurlu və qüdrətli yüksək yaradan vardır və bu yaradan maddənin daxilinə belə heyrətamiz xüsusiyyətlər yerləşdirmişdir. Lakin daim

---

130 İslam dini baxımından hər iki fikri iddia etməkdə heç bir ziddiyyət olmadığını aşağıdakı kitabımda qeyd etdim: Caner Taslaman, **Modern Bilim, Felsefe ve Tanrı**, İstanbul nəşriyyatı, İstanbul, 2008, s. 107-148. Əhdi Ətiq (Köhnə Əhd) və Əhdi Cədiddəki (Yeni Əhiddəki) ifadələrin hər iki formada aydın olmasına hər hansı maneə olmadığını izah edən məqalə üçün baxın: Coul B.Qrin, "Restoring The Human Person: New Testament Voices For A Wholistic and Social Antropology", **NeuroScience And The Person**, Red: Robert Con Rassell və digərləri, Vatican Observatory Publications, Vatikan, 2002, s. 4-5.

131 Houard von Till, "Basil and Augustine Revised: The Survival of Functional Integrity", **Origins and Design**, No: 19, Yaz 1998, s. 1-12.

vurğuladığım "materialist-ateist fəlsəfənin maddə anlayışı"na əsasən, maddə mexaniki qanunlara görə mövcud olan, ağılsız, iradəsiz, şüursuz, müəyyən planlama məhsulu olmayan, bu səbəbdən sürprizlərə bağlı subyektdir. Bu maddə anlayışında belə sürprizləri gözləmək üçün heç bir rasional səbəb yoxdur. Maddənin müəyyən şəkildə birləşmələr əmələ gətirməsilə ortaya çıxacaq varlıqların daim maddə ilə eyni xüsusiyyətlərə malik olan varlıqlar olması gözlənilməlidir. Bu səbəbdən subyekt dualizmilə yanaşı, xassə dualizminin hər növünü rədd etmək materialist-ateizm baxımından əsaslı vəziyyətdir. Buradan aydın olduğu kimi, son üç bölmədə toxunulan ağıl, iradə, şüur və mənlik xüsusiyyətlərinin ortaya çıxmasını materialist-ateist paradiqma daxilində gözləmək üçün heç bir səbəb yoxdur, hətta maddədən radikal şəkildə belə fərqli xüsusiyyətlərin ortaya çıxmamasını gözləmək lazımdır. Teizmin iddia etdiyi formada ağıllı, iradəli, şüurlu və qüdrətli qüvvə tərəfindən yaradılmış maddə anlayışında isə bu xüsusiyyətlərin ortaya çıxmasını gözlənilməz edəcək hər hansı səbəb yoxdur.

Bir sözlə, şüur və mənlik insanı insan edən ən əsas amillərdir. Bu qədər mühüm amillərə necə sahib olmağımızla bağlı suala bəziləri əhəmiyyət verməsələr də, bu, kim olduğumuz və necə mövcud olduğumuz kimi çox mühüm məsələlərin aydın olması baxımından çox mühümdür. Bu bölmədə materialist-ateizm baxımından nümayiş etdirilən tənqidi materializm, məhdudlaşdırıcı materializm (eynilik nəzəriyyəsi), funksionalizm və davranışçılıq kimi yanaşmaların uğurlu olmadığı ortaya çıxdı. Şüur və mənliyi izah etmədə digər alternativlərdən dualizmin və "zühur etmə"-nın isə teizmə daha uyğun olduğu nəticəsi əldə edildi.

Materialist-ateizmin maddə anlayışı çərçivəsində şüur

və mənliyin məlumatlı olma, yönəlmə (3.1.), subyektivlik, təcrübi xüsusiyyətlər (3.2.) və birlik (3.2.) xüsusiyyətlərini izah etmək qeyri-mümkündür.

Teizmlə materialist-ateizm arasında ən mühüm fərqlərdən biri şüurun əzəli, yoxsa sonradan törəyən amil olması mövzusunda qarşımıza çıxır. Şüurun xüsusiyyətlərinin sonradan maddədən təsadüfən törəməsinin mümkün olmadığının aydın olması şüurun əzəldən mövcud olan amil olması deməkdir. Teizmə əsasən, əzəli olan Allahın ən mühüm xüsusiyyətlərindən biri şüurlu olmasıdır. Allah da mənlik sahibidir. Yəni şüur və mənlik əzəldən vardır və Allahın bunları yaratdığı varlıqların bir hissəsinə verməsi mümkündür. Şüur və mənlik amillərinin necə əmələ gəldiyini teizm materialist-ateizmdən daha uğurlu izah etdiyinə görə teizm materialist-ateizmdən üstün tutulmalıdır.

## SON SÖZ

Allahın mövcud olub-olmaması mövzusunda verəcəyimiz son qərar özümüzə, yaxınlarımıza, dünyamıza və bütün varlığa baxışımızı alt-üst edəcək. "Haradan gəlirəm? Nə üçün buradayam? Mən kiməm? Öldükdən sonra mənə və yaxınlarıma nə olacaq?" kimi mövcudluqla bağlı bütün mühüm sualların cavabı bu məsələ ətrafındadır. Allahın mövcud olması bütün mövcudluğun və insanların şüurlu şəkildə yaradıldıqları, mövcudluğumuzun müəyyən məna və məqsədi olduğu, Allah istədiyi təqdirdə, ölümdən sonra da həyatın olacağı mənasına gəlir. Bu kitabın mövzusu Allahın din göndərib-göndərmədiyi, axirəti yaradıb-yaratmayacağı olmamaqla yanaşı, dinlər və ölümdən sonrakı həyatla bağlı mövzuların aydın olmasında Allahın mövcud olub-olmadığı sualına veriləcək cavabın böyük əhəmiyyətə malik olduğunu unutmaq olmaz.[132]

Allahın mövcudluğuna inanmayan insan üçün dinlər yalnız insanların yaratdıqları quruluşlardır, eləcə də, ölümlə yanaşı, həyatımızdan və sevdiklərimizdən mütləq şəkildə ayrılır və yox oluruq. Başqa cür mümkün deyil. Allahın

---

132 Fitrət dəlilləri bölməsində iddia etdiyim arqumentlərin başqa araşdırmalarımda yazdığım uzun versiyalarında fitrətimizin bu xüsusiyyətlərinin Allahın mövcudluğu ilə yanaşı, Allahın din (dinlər) göndərəcəyi ilə bağlı dəlillər də təqdim etdiyini bildirdim. Bundan başqa, fitrətimizin bu xüsusiyyətlərini əsas götürərək həmin dinin (dinlərin) hansı xüsusiyyətlərə malik olmasına diqqət etməyimizin vacib olduğunu da vurğuladım. Fitrət dəlillərinin uzun versiyaları üçün internet səhifəmə baxa bilərsiniz: www.canertaslaman.com

mövcudluğuna inanan insanın Allahın dinlər göndərərək haradan gəldiyimiz, nə üçün burada olduğumuz, kim olduğumuz və öldükdən sonra bizə və yaxınlarımıza nə olacağının cavabını verməsi mümkündür. Bundan başqa, Allahın mövcudluğuna inanan insan üçün Yaradanın bu kainatı, dünyamızı, bütün canlıları, o cümlədən insanları yenidən yaratması çox asandır. Burada təqdim edilən arqumentlər bunun nə üçün asan olduğunu da göstərir. Bu kainatın, canlıların və bütün incəliklərilə insanın şüurlu şəkildə yaradıldığını dərk edən insan yaradanın bir oxşarını da yarada biləcəyini asanlıqla anlayar. Allahın etdikləri edə biləcəklərinin təminatıdır. Belə ki, Quranda bu mövzu belə vurğulanır:

**"O, öz yaradılışını unudub, bizə bir misal göstərərək dedi: "Çürümüş, dağılmış sümükləri kim dirildə bilər?"**

**"De ki: "Onları ilk dəfə yaradan diriləcəkdir. O, hər cür yaratmanı biləndir".**

**Kainatı və yer üzünü yaradanın bunların bir oxşarını yaratmağa gücü çatmazmı? Əlbəttə çatar, O yaradandır, biləndir.**[133]

Bu kitabda təqdim edilən arqumentlərdən başa düşürük ki, Allah kainatı ilk dəfə yaratdığı kimi qoymamış, bütün sonrakı prosesləri nizamlamış, canlıları və insan fitrətinin istəklər, əxlaq, ağıl, iradə və şüur kimi xüsusiyyətlərini də yaratmışdır. Yəni, burada təqdim edilən arqumentlər "aktiv olmayan, kainatdan xəbərsiz tanrı anlayışını" ifadə etmək üçün işlədilən "deizm"in də səhv olmasının dəlil-

133 "Yasin" surəsi, 36/78, 79, 81.

lərididir.[134] Buradakı arqumentlərlə Allahın əzəliliyi, yaradan olması, iradəsi, bütün prosesi formalaşdırıb planlaşdırması, bütün proseslərdən xəbərdar olması, qüdrətinin böyüklüyü, elminin hər şeyi əhatə etməsi kimi bir çox xüsusiyyəti də əsaslanmış olur. Allah kainatı bütün incəlikləriə bildiyi kimi, insanın daxili dünyasından yüksələn səsləri və fitrətinin xüsusiyyətlərini də çox yaxşı bilir. Bunun mövcudluq baxımından üzə çıxartdığı nəticələrə və insanın hər şeyə baxışını zənginləşdirəcək əhəmiyyətinə diqqət edilməlidir. Bunun mənası bizi bizdən daha yaxşı bilən, özümüz də daxil olmaqla, hamı bizi səhv başa düşsə də, bizi ən kiçik səhvə yol vermədən başa düşəcək qüdrəti böyük yaradanımızın olması deməkdir. Bununla yanaşı, həmin yaradan ölüm qaranlığında itməyə doğru gedən və ya itən yaxınlarımızın və bizim bu ən böyük müşkülümüzə istədikdə çarə verəcək qüvvə və qüdrətə malikdir. Aciz insanın qəlbindən qopan fəryadlarını və duasını eşidən yaradanının mövcud olduğunu dərk etməsinin mövcudluq baxımından əhəmiyyətindən daha qiymətli nə ola bilər? Burada təqdim edilən arqumentlərin məntiqi nəticələrinin belə böyük əhəmiyyətə malik mövcudluq mövzuları ilə bağlı olduğu bu kitabın məzmunu qiymətləndirilərkən unudulmamalıdır.

Belə ki, bu kitabda mövcudluq baxımından bu qədər mühüm, kainata, həyatımıza və ölümə baxışımızda hər şeyi kökündən dəyişdirəcək sualları cavablamağa çalışıldı: Allah varmı? Allahın mövcudluğuna inanmağımız üçün ciddi və güclü dəlillər varmı? Bu inancın əsası nədir?

134 “Deizm” həm bu mənada, həm də din göndərməyən tanrı inancı mənasında istifadə edilir. Tarix daxilində bu anlayışın istifadə edildiyi mənalarla bağlı baxın: Əmrə Dorman, **Deizm ve Eleştirisi**, Mərmərə Universiteti sosial elmlər institutu, doktorluq dissertasiyası, İstanbul, 2009.

Bunun üçün 12 dəlil təqdim edildi. Bunların 7-si xarici dünyadan, 5-i anadangəlmə sahib olduğumuz xüsusiyyətlərimiz əsas götürülərək müdafiə edildi. Təqdim edilən 12 dəlildə əsas yanaşma kainatda və ya fitrətimizdə mövcud olan faktları götürüb bunları teizmin, yoxsa teizmin düşüncə tarixindəki yeganə "rəqibi" olan materialist-ateizmin daha yaxşı izah etdiyini müəyyən etmək oldu. İki əsas təfəkkürü fərqli mövzularda müqayisə edərək hər məsələni qiymətləndirmək və "ən yaxşı izahı müəyyən etmək" bu kitabın metodudur.

Kainatla bağlı təqdim edilən 7 dəlildə kainatın müəyyən başlanğıcı olmasını (1), kainatdakı qanunların mövcudluğunu (2), elmlərin yaranmasına imkan verən kainatdakı kəşf edilə bilmə xüsusiyyətini (3), kainatın sahib olduğu möhtəşəm potensialı (4), kainatdakı qanunlar və sabitlərin həssas nizamını (5), kainatdakı fiziki faktların həssas nizamını (6) və bütün müxtəlifliyi ilə canlılar aləmini (7) teizmin daha yaxşı izah etdiyi nəticəsi əldə edildi. Canlılarla bağlı 7-ci bölmədə təkamül nəzəriyyəsinin teizm baxımından müəyyən təhlükə olmadığının göstərildiyini vurğulamaq istəyirəm.

Fitrətimizlə bağlı 5 dəlildə fitri olaraq hər sağlam insanın sahib olduğu və bizi biz edən əsas xüsusiyyətlərimiz olan təbii istəklərin (8), fitri əxlaqiliyin (9), ağlın (10), iradənin (11), şüur və mənliyin (12) də teizmə üstünlük verilməsi üçün dəlillər irəli sürdüyü göstərildi.

"Rum" surəsinin 30-cu ayəsindən ilham alaraq "fitrət dəlilləri" kimi adlandırdığım bu dəlillərə xüsusi əhəmiyyət verirəm. İslam düşüncəsində "İslamın fitrət dini olduğu", "fitrətimizin doğru və səhvi ayırd etmədə mühüm olduğu" və "inancın fitri olduğu" kimi ifadələr çox işlədilsə

də, fitrətimizin İslamla bağlı əsas həqiqətləri necə dəstəklədiyini təfsilatlı şəkildə göstərən araşdırmaya rast gələ bilmədim. Bu araşdırmayla həmin mövzudakı boşluğun doldurulmasında mühüm rola malik olmaq istəklərimdən biridir. Mənim üçün burada təqdim edilən və daha geniş versiyalarını da yazdığım "fitrət dəlilləri" fitrəti vurğulayan "Rum" surəsinin 30-cu ayəsinin, bundan başqa, mənliklərimizdə (daxili dünyamızda) dəlillər olduğunu qeyd edən 41-ci "Fussilət" surəsinin 53-cü, 51-ci "Zariyat" surəsinin 21-ci ayələrinin təfsiri kimidir.

Xatırlanacağı kimi, "Rum" surəsinin bu ayəsində bütün insanlarda ortaq olan "fitrət" vurğulanmış, onda olan quruluşun dinlərin həqiqətlərini dəstəkləyən xüsusiyyətdə olduğu və bunun əksinə, insanların çoxunun "fitrət"dəki dəlillərdən xəbərsiz olduğu bildirilmişdir. Burada təqdim edilən "fitrət" xüsusiyyətləri də eynilə "Rum" surəsinin 30-cu ayəsində vurğulandığı kimi, hər insanda (yalnız inananlarda deyil) fitri baxımdan olan xüsusiyyətlərdir. Bunları əsas götürərək təqdim edilən arqumentlərdəki nəticələri insanların çoxu bilmir. Bundan başqa, buradakı arqumentlərdə göstərildiyi kimi, İslamın ən əsas inanclarından (fitrət xüsusiyyətlərinin İslamın digər əsas inanclarını necə dəstəklədiyi başqa araşdırmaların mövzusudur) biri olan Allahın mövcudluğu kimi cəhətlərdə bu fitrət xüsusiyyətləri dəlil kimi qəbul edilir. Bununla bağlı ayə belədir:

**"O halda Allahın tək olduğunu bildirən dinə, Allahın o fitrətinə yönəl ki, insanları o fitrətlə yaratmışdır. Allahın yaratmasında dəyişiklik yoxdur. Bax, həmişə etibarlı olan din budur, fəqət insanların çoxu bilmir.**[135]

135 "Rum" surəsi, 30/30.

Bəzilərimizin bu kitabda təqdim edilən bir dəlili digərlərindən üstün tutması, bəzi dəlillərin zehin və könül dünyamıza digərlərindən daha çox və ya daha az müraciət etməsi adi haldır. Burada təqdim edilən 12 dəlilin hər birinin ayrı-ayrı eyni nəticəyə gələrək bir-birilərini eyni yöndə dəstəkləməsilə əmələ gələn ümumi vəziyyət isə mütləq nəzərə alınmalıdır.

## BİBLİOQRAFİYA


Adams, Robert, "Moral Arguments for Theistic Belief," **Rationality and Religious Belief, Red:** C. Delaney, University of Notre Dame Press, Notre Dame, 1979.

Aydın, Mehmet S., **Din Fəlsəfəsi,** İzmir Ilahiyyat Fakültəsi Vakfı nəşriyyatı, İzmir, 1999.

Barbur, Ian, **When Science Meets Religion,** Harper Collins Publishers, Nyu York, 2000.

Barbur, Ian, **Issues in Science and Religion**, Harper And Row Publis-hers, Nyu York, 1971.

Barrow, Con və Tipler, Frank, The **Anthropic Cosmological Principle,** Oksford University Press, Oksford, 1996.

Beversluis, Con, **C. S. Levis and The Search for Rational Religion**, Prometheus Books, Nyu York, 2007.

Bishob, Con, **Natural Agency**, Cambidge University Press, Cambridge, 1989.

Black, Donald, "On The Origins of Morality," **Evolutionary Origins of Morality: Crossdisciplinary Perpectives**, Red: Leonard Katz, Imprint Academic, Thorverton, 2000.

Block, Ned, “Troubles with Functionalism”, **Minnesoda Studies in The Philosophy of Science,** No: 9, 1978.

Bloom, Paul, “The Moral Life of Babies,” The **Nyu York Times**, 5 Mayıs 2010.

Butds, Robert E., “Uilliam Whewell”, The **Cambridge Dictionary of Philosophy**, Red: Robert Audi, Cambridge University Press, Cambridge, 1999.

Carter, Brandon, “Large Number Coincidences and The Anthropic Principle in Cosmology”, Red: Con Lesli, **Physical Cosmology and Philosophy**, Macmillan Publishing, Nyu York, 1990.

Çöçlənd, Paul, **Matter and Consciousness,** MIT Press, Cambridge, 1999.

Clayton, Philib, “NeuroScience, The Person and God: An Emergentist Account”, Red: Robert Con Rassell və digərləri, **NeuroScience and The Person**, Vatican Observatory Publications, Vatikan, 2002.

Collins, Robin, “Tanrı, plan və İncə Ayar”, **Allah, Fəlsəfə və elm**, Red: Caner Taslaman və Enis Doko, İstanbul nəşriyyatı, İstanbul, 2014.

Craig, Uilliam Lane, ”Kelam Kosmoloji Kanıtı“, **Allah, Felsefe və elm**, Red: Caner Taslaman və Enis Doko, İstanbul nəşriyyatı, İstanbul, 2015.

Craig, Uilliam Lane, The **Kalam Cosmological Argument,** Wipf and Stock Publishers, Ejen, 2000.

Darvin, Çarlz, The **Origin of Species,** Penguin Classics, London, 1985.

Devis, Paul, **God and The New Physics**, Simon and Schuster, Nyu York, 1984.

Devis, Paul, The **Accidental Universe,** Cambridge University Press, Cambridge, 1982.

Devis, Paul, The **Last Three Minutes**, Basic Books, Nyu York, 1994.

Daukins, Riçard, **Climbing Mount Improbablə,** W. W. Norton, Nyu York, 1997.

Daukins, Riçard, K**ör Saatçi**, Tərc: Feryal Halatçı, TÜBİTAK, Ankara, 2002.

Daukins, Riçard, The **God Delusion**, Black Swan, London, 2007.

Dembski, Uilliam A., **No Free Lunch**, Rowman and Litdlefield Publis-hers, Lanham, 2002.

Denton, Maykl J., **Natures Destiny**, The Free Press, Nyu York, 1998.

Dimion, M., Simion F. və Caltran G., "Can Newborns Discriminade Bet-ween Their Own Cry and The Cry of Another Newborn Infant", **Developmental Psychology**, Vol: 35/2, 1999.

Dorman, Emre, **Deizm ve Eləştirisi**, Mərmərə Universiteti sosial elmlər İnstitutu, Doktorluq dissertasiyası, İstanbul, 2009.

Eddington, Artur, The **Nature of The Physical World**, Macmillan, Nyu York, 1929.

Feyerbax, Lüdviq, **Lectures on The Essence of Religion,** 1851, http:// www.marxists.org/reference/archive/feyerbax/works/lectures/lec30.htm

Flew, Antony, **There Is A God: How The Worlds Most Notorious At-heist Changed His Mind,** Harper Collins, Nyu York, 2007.

Freyd, Ziqmund, The **Origins of Religion**, Penguin, London, 1991. Freyd, Ziqmund, The **Standard Edition of The Complete Psychological**

**Works of Ziqmund Freyd, Vol: XXI (1927-1931): The Future of an Illusion, Civilization and its Discontents, and Other Works,**

Thə Hogarth Press and The Institude of Psycho-analysis, London, 1961.

Gasking, Elizabeth, **Investigations into Generations**, Hutchinson and Co Publishers, London, 1967.

Qəzzali, **Filosofların Əsassızlığı**, Tərc: Mahmut Kaya və Hüseyn Sarioğlu, Klasik, İstanbul, 2005.

Glass, Con I. və digərləri, “Essential Genes of a Minimal Bacterium”,

**Proceedings of The National Academy of Sciences,** 103/2, 2006.

Gould, Stefan Jay, **Wonderful Life,** W. W. Norton and Company, Nyu York, 2007.

Green, Joel B., "Restoring The Human Person: New Testament Voices For A Wholistic and Social Antropology", **NeuroScience And The Person**, Red: Robert Con Rassell və digərləri, Vatican Observatory Publications, Vatikan, 2002.

Guillen, Maykl, **Dünyanı dəyişdirən beş tənlik**, Tərc: Gürsel Tanriöver, TÜBİTAK Popüler bilim Kitapları, Ankara, 2001.

Haidth, J., "The Emotional Dog and Its Rational Tail: A Social Intuitionist Approach to Moral Judgment", **Psychological Review**, No: 108, 2001.

Harris, Sam, Free **Will**, Free Press, Nyu York, 2012.

Həker, Uilliam, **Metaphysics**, Inter Varsity Press, Downers Grove, 1983.

Hik, Con, **Arguments for The Existence of God,** Herder and Herder, Nyu York, 1971.

Hume, Devid, **Dialogues and Natural History of Religion**, Red: J.A.C. Gaskin, Oksford University Press, Oksford, 1993.

Hatçeson, Frensis, **A System of Moral Philosophy**, Continuum International Publishing Group, Nyu York, 2005.

Jekson, Frank, “Epiphenomenal Qualia”, **Philosophical Quarterly**, No: 32, 1982.

Jekson, Frank, **From Metaphysics to Ethics: A Defence of Conceptual Analysis**, Clarendon Press, Oksford, 1998.

Kant, İmmanuel, **Fundamental Principles of The Metaphysics of Morals**, Tərc: Tomas Kingsmill Abbotd, Uilliam Menton, Çikaqo, 1971.

Kant, İmmanuel, The **Critique of Practical Reason**, Tərc: Tomas Kingsmill Abbotd, Uilliam Menton, Çikaqo, 1971.

Kant, İmmanuel, The **Critique of Pure Reason**, Tərc: J. M. D. Meiklecon, Uilliam Menton, Çikaqo, 1971.

Kaufmann, Walter, **Portable Nietzche,** The Viking Press, Nyu York, 1954.

Keləmən, Deborah, “Ara Childrən Intuitivə Theists? Reasoning about Purposə and Design in Nature”, **Phsychological Science,** No: 15/5, 2004.

Kelemen, Deborah, “The Scope of Teleological Thinking in Preschool Children”, **Cognition**, No: 70, 1999.

Kim, Jaegwon, **Mind in A Physical World: An Essay on The Mind-Body Problem and Mental Causation**, MIT Press, Cambridge MA, 1998.

Kindi, “İlk fəlsəfə haqqında”, **İslam Filosoflarından Fəlsəfə mətnləri**, Red: Mahmut Kaya, Klasik, İstanbul, 2005.

Kreeft, Peter J. və Tacelli, Ronald K., **Pocket Handbook of Christian Apolegetics,** InterVarsity Press, Downers Grove, 2003.

Leybnits, G. W., **New Essays on Human Understanding,** Red: Peter Remnont və Jonathan Mənnett, Cambridge University Press, Cambridge, 1996.

Lesli, Con, "Anthropic Principle, World Ensemble, Design", **American Philosophical Quarterly**, No: 19, 1982.

Lesli, Con, **Universes**, Routledge, Nyu York, 1989.

Levis, C. S., **Christian Reflections**, Uilliam B. Eerdmans Publishing Company, Grand Rapids, 1995.

Libet, Benjamin və digərləri, "Time of Conscious Intention to Act in Relation to Onset of Cerebral Activity (Readiness-Potential)", **Brain,** No: 106-3, 1983.

Lipton, Peter, **Inference to The Best Explanation**, Routledge, London, 2001.

Lok, Con, **An Essay Concerning Human Understanding**, Prometheus Books, Nyu York, 1995.

Lovell, Stiven Jon Ceyms, **Philosophical Themes from C. S. Levis**, Department of Philosophy University of Sheffield, PhD Thesis, August 2003.

Marx, Karl və Engels, Fridrix, **Fəlsəfə araşdırmaları**, Tərc: Sevim Belli, Sol nəşriyyatı, İstanbul 1997.

Mayr, Ernst, The **Growth of Biological Thought**, The Belknab Press of Harvard University Press, Cambridge, 1982.

Mill, Con Stüart, **Utilitarianism**, Hackett Publishing, Indianapolis, 2001.

Monod, Jak, **Chance and Necessity,** Tərc: Austryn Wainhouse, Vintage Books, Nyu York, 1972.

Morris, Simon Conway, **Lifes Solution: Inevitable Humans in A Lonely Universe,** Cambridge University Press, Cambridge, 2005.

Morris, Simon Conway, **The Deeb Structure of Biology**, Templeton Foundation Press, Pennsylvania, 2008.

Nagel, Tomas, **The Last Words**, Oksford University Press, Oksford, 2001.

Nyuton, Isaak, The **Principia: Mathematical Principles of Natural Philosophy, Tərc:** Bernard Koen və diy., The University of California Press, Berkeley, 1999.

Nordenskiöld, Erik, The **History of Biology**, Tərc: L. Bucknall Eyre, Tudor Publishing, Nyu York, 1920.

Nowacki, Mark, The **Qalam Cosmological Argument for God**, Prometheus Books, Amherst NY., 2007.

Orgel, Lesli, "Evolution of The Genetic Apparatus", **J Mol. Biol,** 38/3, 1968.

Pascal, Blaise, **Pensees,** Tərc: A. J. Krailsheimer, Penguin Classics, London, 1966.

Penrose, Rocer, **Kralın Yeni Usu 3: Us harada,** Tərc: Tekin Dereli, TÜBİTAK Popüler bilim Kitapları, Ankara 2003.

Penrose, Rocer, The **Road to Reality**, Jonatan Cope, London, 2004.

Politzer, Georges, **Fəlsəfənin başlanğıc prinsipləri**, Tərc: Enver Aytekin, sosial nəşriyyatı, İstanbul, 1997.

Ramsey, Uilliam, "Eliminative Materialism", The **Stanford Encyclopedia of Philosophy** (Summer 2013 Edition), Edvard N. Zalda (ed.), URL = http://plato.stanford.edu/archives/sum2013/entries/materialism-eliminative/

Rouls, Con, **A Theory of Justice,** The Belknab Press of Harvard University Press, Massachusetts, 1999.

Reid, Tomas, **Inquiry and Essays**, Red: R. E. Beanblossom və K. Lehrer, Hackett Publishing, Indianapolis, 1983.

Reppert, Viktor, **C.S. Leviss Dangerous Idea**, IVB Academic, Downers Grove, 2003.

Rous, Stiven, **Lifelines**, Oksford University Press, Oksford, 1998.

Ruse, Maykl və Uilson, Edvard O., "The Evolution of Ethics," **Philosophy of Biology**, Red: Maykl Ruse, Prentays Holl, New Jersey, 1989.

Rassell, Bertrand, **Mysticism and Logic and Other Essays: A Free Mans Worshib,** Longmans, London, 1918.

Sartre, Jan Paul, **Basic Writings**, Red: Stefan Priest, Routledge, London, 2001.

Şopenhauer, Artur, The **World as Will and Representation**, Vol: 2, Tərc: E. F. J. Paynə, Harper and Row, Nyu York, 1966.

Sörl, Con R., **Minds, Brains and Science,** Harvard University Press, Massachusetds, 1985.

Sörl, Con R., **Zehnin yenidən kəşfi**, Tərc: Muhittin Macit, Litera nəşriyyatı, İstanbul, 2004.

Şəftesböri, Lord, **Characteristics of Men, Manars, Opinions, Times**, Red: Laurens Klein, Cambridge University Press, Kembric, 2001.

Simner, M. L., "Newborns Response to The Cry of Another Infant", **Developmental Psychology**, No: 5, 1971.

Singer, Tania, "The Neuronal Basis and Ontogeny of Empathy and Mind Reading: Review of Literature and Implications for Future Research",

**NeuroScience and Biobehavioral Reviews**, No: 30, 2006.

Skinner, B. F., **About Behaviorism**, Vintage Books Edition, Nyu York, 1976.

Skrbina, Devid, **Panpsychism in The West**, MIT Press, Cambridge Mass., 2005.

Smith, Adam, The **Theory of Moral Sentiments**, Liberty Classics, Indianapolis, 1976.

Suhler, Christopher və Çöçlənd, Patricia, "The Neuro-Biological Basis of Morality", The **Oksford Handbook of Neuroethics**, Red: Judy Illes və Barbara J. Sahakian, Oksford University Press, Oksford, 2011.

Svaynbörn, Riçard, **Tanrı Var Mı?,** Tərc: Muhsin Akbaş, Arasda nəşriyyatı, Bursa, 2001.

Svaynbörn, Riçard, The **Existence of God**, II çap, Klarendon Press, Oksford, 2004.

Taslaman, Caner və Doko, Enis, **Quran və elmi zehnin əmələ gəlməsi**, İstanbul nəşriyyatı, İstanbul, 2015.

Taslaman, Caner, "Din fəlsəfəsi baxımından entropiya qanunu," **Mərmərə Universiteti İlahiyyat fakültəsinin jurnalı**, say: 30, İstanbul, 2006.

Taslaman, Caner, "Tanrı hissəciyi: Fəlsəfi qiymətləndirmə", **Fəlsəfə dünyası**, No: 56, 2012.

Taslaman, Caner, **İstəklərdən Allaha çatmaq**, Etkileşim nəşriyyatı, İstanbul, 2014.

Taslaman, Caner, **"Big Bang" və Tanrı"**, İstanbul nəşriyyatı, İstanbul, 2014.

Taslaman, Caner, kainatda**n Allaha**, Etkileşim nəşriyyatı, İstanbul, 2013.

Taslaman, Caner, təkamül **Nəzəriyyəsi, Fəlsəfə və Tanrı,** İstanbul nəşriyyatı, İstanbul, 2014.

Taslaman, Caner, **Kvantum nəzəriyyəsi, fəlsəfə və tanrı**, İstanbul nəşriyyatı, İstanbul, 2015.

Taslaman, Caner, **Müasir elm, fəlsəfə və tanrı**, İstanbul nəşriyyatı, İstanbul, 2008.

Till, Howard von, "Basil and Augustine Revised: The Survival of Functional Integrity", **Origins and Design**, No: 19, Yaz 1998.

Ueqner, Daniel, The **Illusion of Conscious Will,** MIT Press, Kembric, 2002.

Viqner, Ejen, "The Unreasonable Effectiveness of Mathematics in The Natural Sciences", **Communications in Pure and Applied Mathematics,** Vol: 13, No: 1, Fevral 1960.

Villard, Dallas, "Knowledge and Naturalism", **Naturalism: A Critical Analysis**, Red: Uilliam Lane Creyq və Ceyms Moreland, Routlic, London, 2000.

Uilson, Kətrin, The **İnvisible World Early Müasir Philosophy and** The **Invention of The MicrosCope,** Prinston University Press, Princeton, 1995.

# QEYD ÜÇÜN